# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*o t u z  s ə k k i z i n c i  k i t a b*

***mart, 2002 - may, 2002***

**AZƏRNƏŞR**

**BAKI-2011**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2011, 480 səh.

Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin bu cildində respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişinin, xalqımızın rifahının yaxşılaşdırılması naminə sahibkarlığın inkişafıyla bağlı çıxışları, nitqləri dərc olunmuşdur.

Kitabda ulu öndərin Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabad Zirvə görüşündə dövlət və hökumət nümayəndələri ilə apardığı danışıqları, bəyanat və müsahibələri, Türkiyə, Azərbaycan, Gürcüstan dövlət başçılarının Trabzon Zirvə görüşündə Qafqaz bölgəsində sabitliyin yaradılmasına, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin mühafizəsinin, təhlükəsizliyinin təmin edilməsi məqsədilə üçtərəfli əməkdaşlığın genişləndirilməsinə həsr olunmuş fikir və tövsiyələri toplanmışdır.

Bu cilddə, həmçinin İrana rəsmi səfəri zamanı prezident Seyid Məhəmməd Xatəmi və digər yüksək vəzifəli şəxslərlə apardığı danışıqlar zamanı söylədiyi nitqlər, çıxışlar, İran ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə dair materiallar, sənədlər mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələr, ayrı-ayrı dövlət və hökumət başçılarına məktubları, teleqramları da öz əksini tapmışdır.

**VVK -32**

$$Я\ 56\frac{0801000000}{M-651(07)-2011}$$

**BBK-32**

© Azərnəşr, 2011

## KİTABIN İÇİNDƏKİLƏR


**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV 8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**
*7 mart 2002-ci il*........................................................................................ 14

**ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ**
*8 mart 2002-ci il*........................................................................................ 15

**ƏLİƏSGƏR ŞERDUST BAŞDA OLMAQLA İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİ İRAN–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*11 mart 2002-ci il*...................................................................................... 18

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**
*13 mart 2002-ci il*...................................................................................... 19

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KONSTANTİNOS STEFA NOPULOSA**
*13 mart 2002-ci il*...................................................................................... 20

**İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MERİ MAKALİSƏ**
*13 mart 2002-ci il*...................................................................................... 21

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZEYNALABİDİN BİN ƏLİYƏ**
*13 mart 2002-ci il*...................................................................................... 22

**NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEM NUYOMAYA**
*13 mart 2002-ci il*...................................................................................... 23

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏDRUDDOZA ÇOUDNURİYƏ**
*13 mart 2002-ci il*...................................................................................... 24

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA**
*14 mart 2002-ci il*...................................................................................... 25

**AVROPA «TOP-KOMANDA» KUBOKU UĞRUNDA YARIŞLARIN QALİBİ OLAN «AZƏRREYL» QADIN VOLEYBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*14 mart 2002-ci il*...................................................................................... 26

**AZƏRBAYCAN İLƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏR YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ**
*16 mart 2002-ci il*...................................................................................... 27

**NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**

*19 mart 2002-ci il* ........................................................................................................ *31*

**NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ NİTQ**
*21 mart 2002-ci il* ........................................................................................................ *32*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ «RUH» JURNALİSTLƏRİ MÜDAFİƏ KOMİTƏSİNİN TƏSİS ETDİYİ «JURNALİSTLƏRİN DOSTU» MÜKAFATININ TƏQDİM OLUNMASINA HƏSR EDİLMİŞ MƏRASİMDƏ NİTQ**
*22 mart 2002-ci il* ........................................................................................................ *34*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA**
*25 mart 2002-ci il* ........................................................................................................ *38*

**31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT**
*26 mart 2002-ci il* ........................................................................................................ *39*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR KOMİTƏSİNİN SƏDRİ CEF BİNQƏMƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*26 mart 2002-ci il* ........................................................................................................ *41*

**RUSİYA FEDERASİYASININ BAKIDAKI SƏFİRİ NİKOLAY RYABOV İLƏ GÖRÜŞ**
*27 mart 2002-ci il* ........................................................................................................ *42*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC Y.BUŞA**
*28 mart 2002-ci il* ........................................................................................................ *43*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR**
*31 mart 2002-ci il* ........................................................................................................ *44*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**
*31 mart 2002-ci il* ........................................................................................................ *45*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
*1 aprel 2002-ci il* ........................................................................................................ *46*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ**
*1 aprel 2002-ci il* ........................................................................................................ *47*

**XALQ ARTİSTİ TAMİLLA MAHMUDOVAYA**
*2 aprel 2002-ci il* ........................................................................................................ *48*

**AZƏRBAYCAN İLƏ RUSİYA FEDERASİYASI ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏR YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ**

MƏRASİMDƏ NİTQ
*4 aprel 2002-ci il*........................................................................ ........................................ *49*

ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN PREZİDENTİ MƏMMƏDBAĞIR ƏLİYEV BAŞDA OLMAQLA RUSİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*4 aprel 2002-ci il*…………………………………………….......................................... *52*

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ ANTANAS VALİONİS İLƏ GÖRÜŞ
*9 aprel 2002-ci il*........................................................................ ........................................ *53*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*8 aprel 2002-ci il* ....................................................................... ........................................ *54*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN RUSİYA TƏRƏFDƏN SƏDRİ VİKTOR XRİSTENKONUN BAŞÇILIQ ETDİYİ RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*10 aprel 2002-ci il*.................................................................... ........................................... *55*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*11 aprel 2002-ci il* ................................................................... …………………………… *57*

GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ GENERAL-LEYTENANT DAVİD TEVZADZE İLƏ GÖRÜŞ
*11 aprel 2002-ci il* ................................................................... ........................................... *60*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏSƏDƏ
*11 aprel 2002-ci il*.................................................................... …………………………… *61*

ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROBERT QABRİEL MUQABEYƏ
*11 aprel 2002-ci il*.................................................................... …………………………… *62*

VATİKAN DÖVLƏTİNİN AZƏRBAYCANDA APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ
*12 aprel 2002-ci il* ................................................................... ........................................... *63*

«STATOYL» ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*12 aprel 2002-ci il*.................................................................... ........................................... *64*

DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ
*11 aprel 2002-ci il*........................................................................ …………………………. *65*

DANİMARKA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES FOQ RASMUSSENƏ
*11 aprel 2002-ci il*........................................................................ …………………………. *66*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

*15 aprel 2002-ci il* ............................................................................ ………………………. *67*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KİM DE ÇJUNA**
*16 aprel 2002-ci il*............................................................................ ………………………. *68*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ**
*16 aprel 2002-ci il*............................................................................ ………………………. *69*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ KATİBİ HƏMİD NƏVAZ XANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*16 aprel 2002-ci il*............................................................................ ........................................ *70*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ**
*22 aprel 2002-ci il*............................................................................ ........................................ *71*

**XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKMƏNİSTANIN PAYTAXTI AŞQABAD ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB**
*23 aprel 2002-ci il*............................................................................ ……………………… *73*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKMƏNİSTANA RƏSMİ SƏFƏRİ**
*23 aprel 2002-ci il*............................................................................ ………………………. *76*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKMƏNİSTANDA**
*24 aprel 2002-ci il* ............................................................................ ………………………. *78*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ**
*24 aprel 2002-ci il*............................................................................ ………………………. *80*

**TÜRKMƏNİSTANDAN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ**
*24 aprel 2002-ci il*............................................................................ ………………………. *82*

**YERLİ SAHİBKARLARLA GÖRÜŞ**
*25 aprel 2002-ci il*............................................................................ ………………………. *83*
**YEKUN NİTQİ**
*25 aprel 2002-ci il*............................................................................ ………………………. *87*

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN UİLYAM MKAPAYA**
*26 aprel 2002-ci il*............................................................................ ………………………. *90*

**TOQO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QNASİNQBE EYADEMAYA**
*26 aprel 2002-ci il*............................................................................ ………………………. *91*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**
*26 aprel 2002-ci il*............................................................................ ............................... *92*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ**
*26 aprel 2002-ci il*............................................................................ ............................... *93*

**SYERRA LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD TECAN KABBAYA**
*26 aprel 2002-ci il*............................................................................ ............................... *94*

**NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ**
*26 aprel 2002-ci il*............................................................................ ............................... *95*

**NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB VİM KOKA**
*26 aprel 2002-ci il*............................................................................ ............................... *96*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA**
*27 aprel 2002-ci il* ............................................................................ ............................... *97*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ**
*27 aprel 2002-ci il* ............................................................................ ............................... *98*

**TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏNİN TRABZON ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ**
*29 aprel 2002-ci il*............................................................................ ............................... *99*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ**
*29 aprel 2002-ci il*............................................................................ ............................... *101*

**TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞ**
*29 aprel 2002-ci il*............................................................................ ............................... *102*

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞ**
*29 aprel 2002-ci il*............................................................................ ............................... *103*

**TRABZON ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ**
*29 aprel 2002-ci il*............................................................................ ............................... *104*

**AZƏRBAYCAN,TÜRKİYƏ VƏ GÜRCÜSTAN ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ**
*30 aprel 2002-ci il*............................................................................ ............................... *106*

**TRABZON ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*30 aprel 2002-ci il*............................................................................ ............................... *107*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ
*30 aprel 2002-ci il*........................................................................ ...................................... *111*

TRABZONDAN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ
*30 aprel 2002-ci il*........................................................................ ...................................... *112*

«AZƏRBAYCANIN MİLLİ-MƏDƏNİ VƏ TƏBİİ İRSİNİN QORUNUB SAXLANILMASI – MİLLİ PARKLAR PROQRAMI» BEYNƏLXALQ KONFRANSINA
*1 may 2002-ci il*........................................................................... ...................................... *114*

SƏRBƏST GÜLƏŞ ÜZRƏ 45-ci AVROPA ÇEMPİONATININ İŞTİRAKÇILARINA
*1 may 2002-ci il*........................................................................... ...................................... *115*

BAKI İDMAN - KONSERT KOMPLEKSİNDƏ SƏRBƏST GÜLƏŞ ÜZRƏ 45-ci AVROPA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ
*2 may 2002-ci il*........................................................................... ...................................... *116*

BAKIDA KEÇİRİLƏN «AZƏRBAYCANIN MİLLİ-MƏDƏNİ VƏ TƏBİİ İRSİNİN QORUNUB SAXLANILMASI – MİLLİ PARKLAR PROQRAMI» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ
*2 may 2002-ci il*........................................................................... ...................................... *117*

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ CƏNAB JAK ROQQA
*2 may 2002-ci il*........................................................................... ...................................... *119*

SƏRBƏST GÜLƏŞ ÜZRƏ 45-ci AVROPA ÇEMPİONATININ FƏXRİ QONAQLARI İLƏ GÖRÜŞ
*3 may 2002-ci il*........................................................................... ...................................... *120*

TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ HİKMƏT SAMİ TÜRKÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*3 may 2002-ci il*........................................................................... ...................................... *121*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA
*6 may 2002-ci il* ........................................................................... ...................................... *123*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLİSEQUN OBASANCOYA
*6 may 2002-ci il*........................................................................... ...................................... *124*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ
*7 may 2002-ci il*........................................................................... ...................................... *125*

TÜRKİYƏ RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*7 may 2002-ci il*........................................................................... ...................................... *126*

**TÜRKİYƏNİN BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*7 may 2002-ci il* ........................................ *127*

**BÖYÜK BRİTANİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ENDRYÜ TAKER İLƏ GÖRÜŞ**
*7 may 2002-ci il* ........................................ *129*

**NATO BAŞ KATİBİNİN ELM VƏ ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ, ALYANSIN ELM KOMİTƏSİNİN SƏDRİ JAN FÜRNE İLƏ GÖRÜŞ**
*7 may 2002-ci il* ........................................ *130*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ**
*8 may 2002-ci il* ........................................ *131*

**DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU XANIM CUDİ O KONNOR İLƏ GÖRÜŞ**
*8 may 2002-ci il* ........................................ *132*

**9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ**
*9 may 2002-ci il* ........................................ *134*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
*9 may 2002-ci il* ........................................ *136*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*9 may 2002-ci il* ........................................ *137*

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA**
*11 may 2002-ci il* ........................................ *138*

**NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA**
*13 may 2002-ci il* ........................................ *139*

**NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB KYEL MAQNE BONDEVİKƏ**
*13 may 2002-ci il* ........................................ *140*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLA SALEHƏ**
*13 may 2002-ci il* ........................................ *141*

**XARİCİ SAHİBKARLARLA GÖRÜŞDƏ NİTQ**
*14 may 2002-ci il* ........................................ *142*
**YEKUN NİTQİ**
*14 may 2002-ci il* ........................................ *144*

**BEYNƏLXALQ PROKURORLAR ASSOSİASİYASININ İCRAİYYƏ KOMİTƏSİNİN BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARINA MÜRACİƏT**

*15 may 2002-ci il* ........................................................................ 148

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ**
*15 may 2002-ci il* ........................................................................ 149

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ SƏFİRİ STİVEN MƏNN İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*16 may 2002-ci il* ........................................................................ 150

**İNQUŞETİYA RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MURAT ZYAZİKOVA**
*17 may 2002-ci il* ........................................................................ 152

**XALQ ARTİSTİ MİRZƏ BABAYEVƏ**
*17 may 2002-ci il* ........................................................................ 153

**BEYNƏLXALQ PROKURORLAR ASSOSİASİYASININ PREZİDENTİ NİKOLAS KOUDERİ BAŞDA OLMAQLA BU TƏŞKİLATIN İCRAİYYƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*17 may 2002-ci il* ........................................................................ 154

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARDO ALBERTO DUALDEYƏ**
*17 may 2002-ci il* ........................................................................ 156

**İORDANİYA HAŞİMİLƏR MƏMLƏKƏTİNİN MƏLİKİ ƏLAHƏZRƏT II ABDULLAYA**
*17 may 2002-ci il* ........................................................................ 157

**GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**
*17 may 2002-ci il* ........................................................................ 158

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA**
*18 may 2002-ci il* ........................................................................ 159

**ROMA PAPASI II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ**
*18 may 2002-ci il* ........................................................................ 160

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN DƏVƏTİ İLƏ İRANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ**
*18 may 2002-ci il* ........................................................................ 161

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ**
*18 may 2002-ci il* ........................................................................ 162

**İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**
*18 may 2002-ci il* ........................................................................ 163

**İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT**
*19 may 2002-ci il* ........................................................................................................ *166*

**İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ**
*19 may 2002-ci il* ........................................................................................................ *167*

**İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİNİN – İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ MEHDİ KƏRRUBİ İLƏ GÖRÜŞ**
*19 may 2002-ci il* ........................................................................................................ *168*

**AZƏRBAYCANIN TEHRANDAKI SƏFİRLİYİNDƏ GÖRÜŞ**
*19 may 2002-ci il* ........................................................................................................ *169*

**İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ İLƏ GÖRÜŞ**
*19 may 2002-ci il* ........................................................................................................ *173*

**İRANIN KOOPERASİYA NAZİRİ, İRAN İLƏ AZƏRBAYCAN ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ MÜŞTƏRƏK KOMİSSİYANIN HƏMSƏDRİ ƏLİ SUFİ İLƏ GÖRÜŞ**
*19 may 2002-ci il* ........................................................................................................ *175*

**İRAN İSLAM RESPUBLİKASININ TİKİNTİ VƏ ŞƏHƏRSALMA NAZİRİ ƏLİ ƏBDÜLƏLİZADƏ İLƏ GÖRÜŞ**
*19 may 2002-ci il* ........................................................................................................ *176*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞ**
*20 may 2002-ci il* ........................................................................................................ *177*

**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ VƏ PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI**
*20 may 2002-ci il* ........................................................................................................ *178*

**TEHRANDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ**
*20 may 2002-ci il* ........................................................................................................ *182*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DƏVƏTİ İLƏ VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ**
*22 may 2002-ci il* ........................................................................................................ *184*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏ NİTQ**
*22 may 2002-ci il* ........................................................................................................ *185*

**ROMA PAPASI II İOHANN PAVEL İLƏ TƏKTƏBƏK GÖRÜŞ**
*22 may 2002-ci il* ........................................................................................................ *186*

**ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANIN DİN, ELM VƏ**

**İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜNDƏ NİTQ**
*22 may 2002-ci il* ........................................................................................................ *187*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA TƏNTƏNƏLİ YOLASALMA MƏRASİMİ**
*23 may 2002-ci il* ........................................................................................................ *189*

**BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU MƏHƏMMƏD ƏL-BARADEYİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*23 may 2002-ci il* ........................................................................................................ *191*

**RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV BAŞDA OLMAQLA FEDERASİYA ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*24 may 2002-ci il* ........................................................................................................ *193*

***bp* ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ İSTEHSALAT ÜZRƏ BAŞ DİREKTORU DİK OLVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*24 may 2002-ci il* ........................................................................................................ *195*

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*27 may 2002-ci il* ........................................................................................................ *196*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMƏSİ**
*28 may 2002-ci il* ........................................................................................................ *198*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ PAYTAXTA GƏZİNTİYƏ ÇIXMASI**
*28 may 2002-ci il* ........................................................................................................ *202*

**BİRİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM SƏRGİSİNƏ**
*28 may 2002-ci il* ........................................................................................................ *203*

**TÜRKİYƏ BAŞ NAZİRİNİN BAŞ MÜŞAVİRİ, KEÇMİŞ DÖVLƏT NAZİRİ, XOCA ƏHMƏD YASƏVİ ADINA BEYNƏLXALQ TÜRK-QAZAX UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRI NAMİQ KAMAL ZEYBƏK İLƏ GÖRÜŞ**
*29 may 2002-ci il* ........................................................................................................ *204*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**
*30 may 2002-ci il* ........................................................................................................ *205*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBEYƏ**
*30 may 2002-ci il* ........................................................................................................ *206*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO ARZELYO ÇAMPİYƏ**
*31 may 2002-ci il* ........................................................................................................ *207*

**İSVEÇİN KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA**
***31 may 2002-ci il*** ........................................................................ ................................ ***208***

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YORAN PERSSONA**
***31 may 2002-ci il*** ........................................................................ ................................ ***209***

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJİ SAMPAYYUYA**
***31 may 2002-ci il…*** .................................................................... ................................ ***210***

***QEYDLƏR***………………………………………………………………………….. ***211***

***Şəxsi adlar göstəricisi***………………………………………………………………. ***231***

***Coğrafi adlar göstəricisi***........................................................................................... ***235***

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV**
**8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ**
**HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ*** 
**İŞTİRAK ETMİŞDİR**

*Respublika sarayı*

*7 mart 2002-ci il*

*Təntənəli mərasimin rəsmi hissəsindən sonra Azərbaycan incəsənət ustalarının, gənc ifaçıların iştirakı ilə böyük bayram konserti oldu, dövlətimizin başçısı Heydər Əliyevin qadınlarımıza göstərdiyi diqqət və qayğıdan, keçirilən tədbirlərdə iştirakından bəhs edən kinolentlər nümayiş etdirildi.*

**Mərasim başa çatdıqdan sonra səhnə arxasında**
**incəsənət ustaları ilə görüşü**

**H e y d ə r  Ə l i y e v:** Sizi qadınlar bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət və bütün işlərinizdə, yaradıcılığınızda uğurlar arzulayıram.

Bu gün çox gözəl konsert verdiniz. Azərbaycan incəsənət ustalarının nə qədər böyük səviyyədə olduqlarını bir daha nümayiş etdirdiniz. Çox sağ olun, hamınıza təşəkkür edirəm.

Gözəl qadınlarsınız. Mən dəfələrlə demişəm ki, Azərbaycan qadınları ən gözəl qadınlardırlar. Bunu bu gün bir daha gördük. Sizə təşəkkür edirəm. Sağ olun.

---

* Mərasimdə Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri, «Sevil» Qadınlar Məclisi sədrinin müavini Zəhra Quliyeva məruzə etdi.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 mart 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Rudolf Perinanı (ABŞ), Nikolay Qribkovu (Rusiya), Filip dö Sürmeni (Fransa) və Rusiya Federasiyası Xarici İşlər nazirinin birinci müavini Vyaçeslav Trubnikovu və onları müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.*

**Heydər Əliyev:** Hörmətli qonaqlar, dostlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram və sizinlə yenidən görüşməyimdən çox məmnunam. Sizinlə, yəni Minsk qrupunun həmsədrləri ilə Hyu-Yorkda görüşüb çox ətraflı söhbət etmişdik. O vaxt siz demişdiniz ki, regiona, o cümlədən Azərbaycana gələcəksiniz. Mən çox məmnunam ki, siz indi gəlmisiniz. Biz o söhbətlərimizi davam etdirə bilərik.

Dünən ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycanda, Bakida oldu. Biz onunla görüşdük, çox ətraflı söhbət etdik və Minsk qrupunun fəaliyyəti haqqında da çox geniş fikir mübadiləsi apardıq. Təkcə Minsk qrupunun fəaliyyəti yox, ümumiyyətlə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə əlaqədar ATƏT-in fəaliyyəti haqqında çox geniş söhbət apardıq. Güman edirəm, indi siz Azərbaycana və bölgəyə hansısa fikirlərlə gəlmisiniz və bunları dinləmək, fikir mübadiləsi aparmaq, təbiidir ki, çox yaxşı olardı.

Mən görürəm, burada bizim qızlar, jurnalistlər var. Bilmirəm, bayram günü onları niyə işlədirlər. Çünki bu gün Azərbaycanda qadınlar bayramıdır və heç kəs işləmir. Qadınları işlətmək olmaz. Mən bayram münasibətilə qadınları təbrik edirəm, onlara cansağlığı, səadət arzulayıram. Əgər masanın arxasında olan qadınlar da bu bayrama qatılırlarsa, onları da təbrik edirəm.

**Rudolf Perina:** Cənab Prezident, bu gün bizə görüş imkanı yaratdığınıza görə çox sağ olun. Nyu-Yorkdakı görüşdən sonra bu gün Sizinlə görüşmək çox xoşdur.

Sizin bir qədər əvvəl qeyd etdiyiniz kimi, biz buraya çox vacib bayram günündə gəlmişik. Bu gün Beynəlxalq qadınlar günüdür. Çox təəssüf edirik ki, biz gəlişimizlə qadınları işləməyə məcbur edirik. Bu bayram münasibətilə Azərbaycanın bütün qadınlarına səadət və xoşbəxtlik arzu etmək istəyirəm. Lakin bayram olmasına baxmayaraq, biz istədik, buraya mümkün qədər tez gələk. Bir halda ki, bizim iş cədvəlimiz buna imkan verir, biz buradayıq və çox vacib bir məsələ, artıq uzun müddətdir müzakirə olunan məsələ barədə söhbəti davam etdirəcəyik. Bu həm də Nyu-Yorkda apardığımız söhbətlərin davamı olacaqdır. Biz hesab edirik ki, Nyu-Yorkdakı görüş çox vacib və müsbət bir görüş idi. Burada olmağımızın səbəbi ondan ibarətdir ki, biz danışıqları daha sürətli edə bilərik, danışıqlara daha çox enerji sərf etmiş olarıq.

Biz hesab edirik ki, münaqişəni həll etməyin artıq vaxtı gəlib çatmışdır. Çünki bu münaqişə çoxdandır həllini gözləyir və burada olmağımız bizim hökumətlərin bu məsələyə nə qədər böyük əhəmiyyət verməsinin nümunəsidir.

Biz bu gün səhər ölkə daxilində daimi yaşayış yerlərindən məhrum olmuş insanlarla – məcburi köçkünlərlə görüşdük. Onların çox təsirli, kədərli və bədbin söhbətlərini eşitdik. Biz əmin olduq ki, bu münaqişə həmin insanlara nə qədər çox əziyyət veribdir. Elə bilirəm ki, bundan artıq dəlil ola bilməz. Bu məsələni tezliklə həll etmək lazımdır. Qeyd etdiyim kimi, biz bu gün çox təsirli söhbətlər eşitdik. Görüşdüklərimizin çoxu qadınlar idi, onlar bu münaqişə zamanı ərlərini, qohumlarını, yaxınlarını itirmişlər. Biz buraya möhkəm iradə ilə və möhkəm əminliklə gəlmişik ki, bu məsələ tezliklə həll olunsun. Bir daha çox sağ olun.

**Heydər Əliyev:** Təşəkkür edirəm.

**Vyaçeslav Trubnikov:** Hörmətli Heydər Əliyeviç!

Prezident Putinlə söhbətinizin davamı olaraq, Sizə möhkəm cansağlığı və uzun ömür kimi ən xoş arzuları bir daha yetirmək istəyirəm. Bu, rəhbərliyimizin fəaliyyətinin əsas qayəsidir və biz ümid edirik ki, Siz nə qədər hakimiyyətdəsiniz, ölkələrimiz arasında dialoq çox səmərəli olacaqdır.

Bizə göstərilmiş çox səmimi qonaqpərvərliyə görə son dərəcə minnətdarıq. Həmsədrlərin hamısı rus dilini bildiyi üçün, icazə verin öz çıxışımı tərcüməsiz davam etdirim.

**Heydər Əliyev:** Bəli, hamı başa düşür.

**Vyaçeslav Trubnikov:** Görürsünüz, Azərbaycanda belə hörmətə malik olan rus dilinə, demə, bütün dünyada da hörmət edilir. Heydər Əliyeviç, burada rus dilinin yaxşı, klassik, savadlı səviyyədə saxlanması işinə töhfənizə görə Sizə çox böyük minnətdarlığımı bildirirəm.

İndi isə əsas məsələ – buraya gəlməyimizin məqsədi barədə. Bizim heç bir fövqəladə təklifimiz yoxdur və mən zənn edirəm ki, həmkarlarım – həmsədrlər ancaq bunu deyə bilərlər ki, biz davam etdirilən danışıqlar prosesinə nəinki ara verilməməsini, həm də onun hər hansı şəkildə dərinləşməsini istəyirik. Biz başlıca məsələlərdən danışa bilərik və bu, həqiqətən də çox vacibdir. İkinci dərəcəli məsələlərdən də danışa bilərik, iki qonşu dövlət arasında, iki qonşu xalq arasında xoş münasibətlərin olması və qan tökülməsinin bu münasibətlərə xələl gətirməməsi üçün ikinci dərəcəli məsələlər də az əhəmiyyətli deyildir.

Mən bir şeyi vurğulamaq istəyirəm. Sizinlə yanaşı yaşayan insanların, xalqların birgə yaşamağa məhkum olmasından danışmaq indi dəbdədir.

Heydər Əliyeviç, antiterror koalisiyasının mübarizəsinə töhfənizə görə Sizə bütün Rusiya adından böyük təşəkkürümü bildirirəm. Bu, olduqca böyük cəsarət tələb edirdi və Sizin şəxsi, fərdi töhfənizi Rusiyada çox yüksək qiymətləndiririk. Bu çox böyük işdir və bir çox mürəkkəb problemlərin nizama salınması üçün gördüyünüz işlərə görə mən Sizin qarşınızda bir daha baş əyirəm. Bu problemlər hələ də mövcuddur. Lakin mən belə bir faktdan çox böyük məmnunluq duyuram ki, biz hüquq-mühafizə orqanlarının, xüsusi xidmət idarələrinin xətti ilə sıx qarşılıqlı fəaliyyət göstəririk. Bizim aramızda tam qarşılıqlı anlaşma var, hiss edirik ki, terrorizmə qarşı bu mübarizədə əl-ələ verib işləyirik. Buna görə çox sağ olun. Hesab edirəm ki, Cənubi Qafqazda Azərbaycan elə bir ölkədir ki, Rusiya özünün antiterror mübarizəsində ona güvənə bilər. Bu, böyük köməkdir, buna görə çox sağ olun.

Bilirəm ki, Siz Vladimir Vladimiroviçlə Gürcüstandakı vəziyyət barədə söhbət etmisiniz. Mən onu şərh etməyəcəyəm, lakin Sizin şəxsi töhfəniz, şəxsi səyləriniz və ən başlıcası isə çox böyük vətəndaş cəsarətiniz sayəsində bizimlə Azərbaycan arasında olan belə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti Cənubi Qafqazın digər ölkələrinə də arzulamaq istərdim.

Mən nəyi demək istərdim? Həmsədrlərin mövqeləri baxımından biz müxtəlif fikirlər söyləyə bilərik, lakin heç vaxt və heç bir halda nə Siz, nə də sizin Azərbaycandakı həmkarlarınız bizim nöqteyi-nəzərimizi təzyiq və ya hər hansı təsir metodu kimi qəbul etməməlisiniz.

Biz fikir mübadiləsi aparırıq və həmizə öz nöqteyi-nəzərimizi söyləyirik ki, bu vəziyyətdən çıxıb, dinc, çox ciddi prosesə istiqamət götürmək barədə təkliflərimizdə doğru yolla getməyimiz üçün Sizin açıq, çox sərt çavabınızı eşidək.

Yaxşı başa düşürük ki, Sizin də, Ermənistan prezidentinin də öz xalqlarınız qarşısında ciddi, dərin və ən başlıcası isə, dəyişməz öhdəlikləriniz var. Odur ki, bu prosesə kömək edərkən biz həmin öhdəlikləri nəzərə almağa çalışırıq. Azərbaycan prezidenti olaraq Sizin də, prezident Köçəryanın da ölkə daxilində qarşılaşa biləcəyiniz çətinlikləri çox yaxşı başa düşürük. Mən daxili siyasi mülahizələri nəzərdə tuturam. Lakin vacib olan budur ki, Siz bizim köməyimizi, rolumuzu qərəzsiz hesab edəsiniz. Amma bu, yalnız bir həddədək, qan tökülməsinə yenidən başlamayana, atəş açılmasına yenidən başlamayana qədər, amansız qarşıdurma yenidən başlamayana qədər mümkündür. Demək istəyirəm ki, bu günədək qan tökülməməsi, götürülmüş öhdəliklərin yerinə yetirilməsi Sizə şərəf gətirir. Başa düşürəm, səbrin də həddi var. Bunu biz də başa düşürük, çünki xalq yorulmuşdur.

Bu problemi həll etmək lazımdır və mən bütün üç həmsədrin adından Sizi əmin etmək istəyirəm ki, biz bu problemin həllində kömək göstərməyi çox istərdik. Qamanın dedikləri, ümumən ATƏT-in dedikləri bizim nöqteyi-nəzəri də əks etdirir. Biz bəzən ümidsizliyə qapılmasaq da, acizlik hissi keçiririk. Nəyə görə? Ona görə ki, Sizin güclü dəstəyiniz olmasa, haqqında söhbət açdığımız daimi ünsiyyət olmasa, Sizi də, Ermənistan prezidentini də, ən başlıcası isə, hər üç həmsədri, yəni Rusiya prezidentini də, Fransa prezidentini də, ABŞ prezidentini də eyni dərəcədə narahat edən bu çox mürəkkəb problemin həllinin hansısa formulunu icad etmək bizim üçün çox çətindir.

Biz buraya turist kimi, öz iradəmizlə gəlməmişik, bizi Minsk qrupu tapşırıq verərək göndərmişdir və bu çox məsuliyyətli vəzifədir. Heydər Əliyeviç, biz bu məsuliyyəti hiss edirik. Biz heç istəməzdik ki, regiondan əliboş qayıdaq. Sizə, son dərəcə hörmət bəslədiyim insana, parlaq siyasi liderə, heyrətamiz istedada malik xalqın məsuliyyətli rəhbərinə söyləmək istədiyim bunlardan ibarətdir.

**Heydər Əliyev:** Sağ olun, Vyaçeslav İvanoviç.

**Filip dö Sürmen:** Cənab Prezident, biz çox böyük məmnuniyyət hissi ilə bu gün Bakıdayıq. Biz buraya turist kimi gəlməmişik. Lakin Sizin bu gözəl şəhərinizdə olmaq bizə olduqca xoş təəssürat bağışlayır. Bu bahar ab-havası bizə çox yaxşı təsir bağışlayır.

Prezident Şirak ən səmimi salamlarını Sizə çatdırır. Onun Sizə nə qədər böyük etibarı olduğunu, Sizə nə qədər çox inandığını bilirsiniz. Onun şəxsində Avropa Birliyi ölkələrinin bu prosesə nə dərəcədə böyük dəstək verməsindən şadam. Cənab Qama bunu Sizə deyibdir.

Bizim Qafqaza səfərimiz başa çatdıqdan sonra Vyanaya gedəcəyik. Orada bu səfərin nəticələri barədə məlumat verəcəyik. Nyu-Yorkda Sizin bizi çox yaxşı qarşılamağınızdan məmnun qaldıq. Bu bayram günündə bizi qəbul etdiyinizə görə Sizə olduqca minnətdarıq. Mənə belə gəlir, bu gün çox adamı narahat etmişik. Lakin

bu bizim üçün bir imkandır ki, bu görüşdə iştirak edən qadınlara, xüsusilə də xanım Dilarə Seyidzadəyə öz təbriklərimizi çatdıraq.

Bu çox vacib bir missiyadır. Biz nə dərəcədə məsuliyyət daşıdığımızı dərk edirik. Biz öz fəaliyyətimizi çox intensiv şəkildə davam etdirməyə qərarlıyıq. Bilirsiniz ki, təcili və ədalətli sülh nə dərəcədə vacibdir. Biz bu səhər məcburi köçkünlərin səbirsizliyini və onların əzab-əziyyətlərini gördük. Yüz minlərlə adam evlərinə qayıtmağa ümid bəsləyir. Onu da bilirik ki, bu sülh Azərbaycan üçün nə dərəcədə vacibdir. Regional münasibətlərdə bu sülh çox zəruridir. Regionun sabitləşdirilməsi həm regionun marağındadır, həm sizin, bütün azərbaycanlıların, həm də bizim – hamımızın marağındadır. Biz buraya çox böyük inamla, ümidlə və sizə bacardıqca daha çox faydalı olmaq arzusu ilə gəlmişik.

Cənab Prezident, bizi qəbul etdiyiniz üçün Sizə bir daha təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Daha başqa danışmaq istəyən yoxdur.

Hörmətli dostlar, mən sizin üçünüzə də Azərbaycan haqqında, mənim haqqımda dediyiniz sözlərə görə təşəkkür edirəm. Birinci növbədə, ona görə ki, siz Minsk qrupunun işinin bundan sonra da fəallaşmasını istəyirsiniz və bu istiqamətdə lazımi tədbirlər görməyə hazırsınız.

Bilməlisiniz ki, təbiidir, yəqin bilirsiniz, bu il mart ayının, yəni bu ayın sonunda Minsk qrupunun on ili tamam olur. Təsəvvür edin, on il! Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ bundan da öncə, təxminən 1988–1989-cu illərdə başlayıbdır. Amma 1992-ci ildən bu işlə ATƏT məşğul olub və Birləşmiş Millətlər Təşkilatı bu məsələni ATƏT-ə həvalə edibdir. ATƏT də bunun üçün xüsusi olaraq Minsk qrupu yaradıbdır.

Ümumiyyətlə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi çox ağır nəticələr gətiribdir və xüsusən Azərbaycana böyük zərbələr vurubdur. Mən çox məmnunam ki, siz bu gün vaxt tapıb Bakıda hələ tikilib qurtarmamış binada yerləşən qaçqınlarla, köçkünlərlə görüşmüsünüz. Mən hiss edirəm ki, onların vəziyyəti, söhbətləri sizi qəlbən çox narahat edibdir. Qeyd etmək istəyirəm ki, Bakıda yaşayan, siz gördüyünüz köçkünlər çadır şəhərciklərində daha da ağır vəziyyətdə yaşayan köçkünlərə nisbətən, demək olar, yaxşı vəziyyətdədirlər. Amma bu gün gördüyünüz mənzərə sizə nə qədər böyük təsir bağışlayıbdır. Bu, davam edir, özü də bir il yox, iki il yox. Əgər ATƏT-in Minsk qrupu on ildir fəaliyyət göstərirsə, demək, on ildir qaçqın-köçkün problemi var və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi var.

Minsk qrupu yarananda, güman edirəm, çoxları belə hesab edirdilər ki, ATƏT kimi mötəbər bir təşkilatın yaratdığı Minsk qrupu – ona 12 dövlət daxildir – bu münaqişənin qısa müddətdə həll olunmasına yardım edəcəkdir. Ancaq on il keçib, nəticə yoxdur. Doğrudur, bu illər ərzində Minsk qrupu və onun həmsədrləri çox gərgin iş aparıblar, çox səylər qoyublar. Mən xüsusən Minsk qrupu həmsədrlərinin bu formatda 1997-ci ilin əvvəlindən indiyə qədər fəaliyyətini qiymətləndirmək istəyirəm. Həqiqət ondan ibarətdir ki, bu illər biz Minsk qrupu ilə birlikdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün müxtəlif variantlar müzakirə etmişik və müxtəlif mövzuda danışıqlar aparmışıq. Hər bir belə müzakirə bu münaqişənin nə qədər dərin, ağır olduğunu bir daha nümayiş etdirib, eyni zamanda, bizə göstəribdir ki, münaqişənin həlli üçün yeni-yeni hansı addımlar atmaq mümkündür.

Ona görə biz heç də belə fikirdə deyilik ki, ATƏT-in Minsk qrupu və xüsusən onun həmsədrləri bu illər ərzində az iş görüblər. Çox iş görüblər və gördüyünüz bu işlərə görə mən sizə təşəkkür edirəm. Amma, eyni zamanda, təəssüf hissi doğurur ki, biz məsələnin həll olunmasını təmin edə bilməmişik. Biz bəzi hallarda buna yaxınlaşmışıq. Ancaq hansısa qəti qərar qəbul etmək mümkün olmayıbdır.

Bunlara baxarkən, onu demək olar ki, biz bu işimizi davam etdirməliyik. Çünki ATƏT-in Minsk qrupu və bugünkü formatda olan həmsədrlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün ən mükəmməl qurumdur. Ona görə biz bu gün də sizinlə fikir mübadiləsi aparmalıyıq ki, bundan sonra nə edək, hansı yolla gedək və nə edək ki, biz, nəhayət, məsələni həll edək.

Bunları sizə deyərkən, bildirmək istəyirəm ki, mən məsələnin mütləq sülh yolu ilə həll olunmasının tərəfdarıyam. Amma eyni zamanda, bunun təkcə sülh yolu ilə həll olunmasının tərəfdarı deyiləm. Mən bu məsələnin tezliklə həll olunmasını istəyirəm. Buna görə hamımız – siz də, biz də səylərimizi artırmalıyıq və məsələnin həll edilməsinə nail olmalıyıq. Mən inanıram ki, buna nail olmaq olar. Ona görə də hesab edirəm ki, sizin bu səfərinizin böyük əhəmiyyəti var. Güman edirəm ki, bu səfəriniz zamanı irəli sürəcəyiniz təklifləri müzakirə etmək olar. Bununla söhbəti tamamlamaq olar. Etirazınız yoxdur. Sonra davam etdirərik. Sağ olun.

**ƏLİƏSGƏR ŞERDUST BAŞDA OLMAQLA
İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİ
İRAN– AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*11 mart 2002-ci il*

*Bu görüşdən məmnun qaldığını bildirən Azərbaycan prezidenti Heydər Əliyev nümayəndə heyətinin ölkəmizə səfər müddətində keçirdiyi çoxsaylı görüşlərdən xəbərdar olduğunu vurğuladı. Iran–Azərbaycan Dostluq Qrupunun rəhbəri Əliəsgər Şerdust İran prezidenti Məhəmməd Xatəminin səmimi salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı. Nümayəndə heyətinin üzvlərini prezident Heydər Əliyevə təqdim etdikdən sonra Əliəsgər Şerdust Azərbaycana indiki səfərinin təəssüratından danışdı. O, Azərbaycanda və onun ayrılmaz hissəsi olan Naxçıvanda son vaxtlar görülmüş quruculuq işlərinə heyran qaldığını ifadə etdi, Milli Məclisdəki səmərəli görüşlərdən söhbət açdı. Səfər günlərində ölkəmizdə müşahidə etdikləri sabitliyin onlarda xüsusi təəssürat doğurduğunu vurğulayan nümayəndə heyətinin başçısı Azərbaycanın bugünkü yüksəlişində prezident Heydər Əliyevin müstəsna xidmətləri olduğunu bildirdi.*

*İran prezidentinin səmimi salamlarına görə təşəkkürünü bildirən prezident Heydər Əliyev özünün ən xoş arzularını cənab Xatəmiyə çatdırmağı xahiş etdi. Prezident Heydər Əliyev vurğuladı ki, İranla dostluq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Bu münasibətlər dövlətlərarası müqavilələr və imzalanmış digər sənədlər əsasında nizamlanır. Dövlətimizin başçısı bu əlaqələrin hər iki ölkənin mənafeyi naminə genişləndirilməsinə tərəfdar olduğunu söylədi. Azərbaycan prezidenti İrana səfərinin təxirə salınmasının obyektiv səbəblərini açıqladı və bildirdi ki, bu səfərin gercəkləşməsi üçün səfirlər vasitəsilə tədbirlər davam etdirilir.*

*Əliəsgər Şerdust dedi ki, Azərbaycan prezidentinin İran İslam Respublikasına qarşıdakı səfəri onun ölkəsində böyük maraq doğurmuşdur. Bu səfər zamanı aparılacaq danışıqlar və imzalanacaq sənədlər iki qonşu dövlət arasında münasibətlərin daha da genişlənməsində müsbət rol oynayacaqdır. Qonaq İran parlamentində təmsil olunmuş azərbaycanlı deputatların fəaliyyəti barədə də məlumat verdi.*

*Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsi yolunda qarşıya çıxan problemlər və onların aradan qaldırılması yolları və digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı – Pakistan günü münasibətilə Sizi və qardaş Pakistan xalqını təbrik edirəm. Azərbaycan ilə Pakistan arasında yaranmış möhkəm dostluq və sıx əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı əlaqələrimiz xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 mart 2002-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KONSTANTİNOS STEFANOPULOSA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Yunanıstan xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 mart 2002-ci il*

**İRLANDİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MERİ MAKALİSƏ**

Hörmətli xanım Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizi və bütün İrlandiya xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlərin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 mart 2002-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ZEYNALABİDİN BİN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Tunis xalqını təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Tunis Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 mart 2002-ci il*

**NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SEM NUYOMAYA**

Hörmətli cənab Prezident!

Namibiya Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün Namibiya xalqını təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Namibiya əlaqələrinin inkişafı xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Namibiya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 mart 2002-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏDRUDDOZA ÇOUDNURİYƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Banqladeş xalqını təbrik edirəm.

Ölkələrimiz arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 mart 2002-ci il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident!

Əziz dost!

Ölkələrimiz arasında diplomatik münasibətlərin yaranması ilə bağlı mənə göndərdiyiniz təbrik məktubunu almaqdan çox məmnun oldum.

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulması ikitərəfli əlaqələrimizin tarixində ən mühüm hadisələrdən biridir. Bu münasibətlərin 10 illiyi ilə əlaqədar Sizi və bütün Fransa xalqını ürəkdən təbrik edirəm.

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikasını tanıyan ilk dövlətlərdən biri Fransa olmuşdur. Mən çox şadam ki, ötən on il ərzində ölkələrimiz arasında əlaqələr hərtərəfli inkişaf edərək dostluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu münasibətlərin daha da genişlənməsi və dərinləşməsi üçün bundan sonra da əlimdən gələni etməyə hazıram.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, ölkənizin və şəxsən Sizin göstərdiyiniz ardıcıl səyləri yüksək qiymətləndirirəm.

Əminəm ki, Azərbaycan ilə Fransa arasındakı münasibətlər ölkələrimizin və xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Cənab Prezident, səhhətimlə bağlı qayğınıza və xoş arzularınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm.

*Səmimi dostluq hissləri ilə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 mart 2002-ci il*

## AVROPA «TOP-KOMANDA» KUBOKU UĞRUNDA YARIŞLARIN QALİBİ OLAN «AZƏRREYL» QADIN VOLEYBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ* NİTQ

*Prezident sarayı*

*14 mart 2002-ci il*

Əziz idmançılar!
Əziz voleybolçular!
Mən Sizi, Azərbaycanın qadınlardan ibarət voleybol komandasını, komandanın üzvlərini Avropa kuboku uğrunda mübarizədə əldə etdiyiniz gözəl qələbə münasibətilə təbrik edirəm. Sizin hər birinizə cansağlığı və idman sahəsində yeni-yeni uğurlar arzulayıram.

Sizin son günlər Azərbaycanda Avropa kuboku uğrunda final yarışlarında çıxışlarınız bütün Azərbaycan xalqının, vətəndaşlarının, Azərbaycan ictimaiyyətinin nəzər-diqqətini cəlb etmişdir. Deмək olar ki, hamıda böyük maraq doğurmuşdu və hamını bu yarışlara həm idman sarayında, eyni zamanda televiziya vasitəsilə baxmağa məcbur etmişdir. Bu çox sevindirici haldır və sizin uğurlarınız və nəhayət, finaldakı qələbəniz, hesab edirəm ki, Azərbaycanın idman həyatında, təkcə idman həyatında yox, Azərbaycanın ümumən həyatında, tarixində çox əlamətdar bir hadisədir. Ona görə də siz qısa müddətdə Azərbaycanda böyük hörmət qazanmısınız, populyarlıq qazanmısınız. Həm televiziya ilə görən, həm də oyununuzu izləyən hər bir kəs sizi sevir, sizə çox böyük rəğbət bəsləyir.

Mən bu gün sizi dəvət etmişəm ki, bir daha öz təbrikimi çatdırım və sizə yeni-yeni uğurlar arzulayım. Siz Azərbaycan cəmiyyətinə böyük bir hədiyyə qazandırmısınız. Bu da Avropa kubokudur. Ona görə mən sizə bir də təşəkkür edirəm. Ancaq bunun əvəzində sizə hansısa hədiyyə vermək çox çətindir. Çünki sizin etdiyiniz hədiyyə o qədər qiymətlidir ki, bu qiymətdə hədiyyə vermək çətindir. Ancaq buna baxmayaraq, mən də bu münasibətlə sizə yadigar hədiyyələri vermək istəyirəm. Yəni bu gün sizin yadınızda qalsın ki, siz Azərbaycan prezidenti ilə görüşmüsünüz və Azərbaycan prezidentinin, kiçik də olsa, hədiyyəsini almısınız.

* * *

*Prezident Heydər Əliyev «Azərreyl»in Baş məşqçisi Faiq Qarayevə və komandanın üzvlərinə xatirə hədiyyələri təqdim etdi.*

*Voleybolçular idmançılara göstərdiyi diqqət və qayğıya, onları şərəfləndirdiyinə və zəhmətlərinə verdiyi böyük qiymətə görə respublikamızın rəhbərinə dərin minnətdarlıqlarını bildirdilər.*

*Sonra «Azərreyl»in kapitanı Alla Həsənova prezident Heydər Əliyevə komandanın adından xatirə olaraq voleybol topu hədiyyə etdi.*

### YEKUN NİTQİ

Hörmətli idmançılar, voleybolçular!
Əziz dostlar!
Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm. Sizə cansağlığı, yeni-yeni idman qələbələri arzulayıram. Ümidvaram ki, siz çox gözəl qələbənizlə, Avropa kuboku uğrunda mübarizədə qələbənizlə gələcəkdə qazanacağınız daha böyük uğurlarınızın əsasını qoydunuz. Biz bunları gözləyəcəyik və həmişə sizinlə bərabər olacağıq ki, siz yeni-yeni qələbələrə nail olasınız. Sizin qələbəniz, son aylarda, son illərdə keçirdiyiniz yarışlarda, voleybol oyunlarında əldə etdiyiniz nailiyyətlər bizim hamımızı sevindirir və hər bir Azərbaycan vətəndaşında böyük qürur hissi doğurur. Mən televiziya ilə sizin oyunlarınıza da baxırdım. Sizin yarımfinal və final oyunlarınıza baxırdım. Mən görürdüm ki, siz nə qədər böyük cəsarətlə, həvəslə, vətənpərvərliklə oynayırsınız və sizdə qələbə üçün nə qədər böyük iradə var. Eyni zamanda, mən görürdüm ki, idman sarayında olan insanlar da – orada həddindən çox tamaşaçı, sizin azarkeşləriniz var idi – sizinlə bərabər həm gərginlik

* Görüşdə Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev, Prezidentin Katibliyinin rəisi Dilarə Seyidzadə, Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə, Azərbaycan Voleybol Federasiyasının prezidenti Ziya Məmmədov iştirak edirdilər.

keçirirdilər, həm sevinirdilər, həm də qələbəni gözləyirdilər. Həm sizi görərkən, həm saraydakı tamaşaçıları görərkən mən düşündüm ki, son illər Azərbaycanda idman nə qədər inkişaf edibdir. Biz artıq bunu qətiyyətlə deyə bilərik. İdmançıların əməyi, zəhməti nəticəsində inkişaf edibsə, eyni zamanda idman kütləvi xarakter alıbdır. İndi Azərbaycanda məktəblərdə, universitetlərdə, müəssisələrdə və mövcud olan idman oyunları saraylarında, olimpiya komplekslərində, demək olar ki, mütəmadi olaraq yarışlar keçirilir.

Bizim idmançılarımız, idmanla məşğul olan gənclərimiz çoxalıbdır. Onlar məşq edirlər, hazırlaşırlar. Hər biri qələbə üçün hazırlaşır. Bu, idmanın kütləviliyinin birinci tərəfidir. İkinci tərəfi isə odur ki, idmana nə qədər böyük maraq var. Mən bunları ona görə deyirəm ki, 7-8 il bundan öncə Azərbaycanda idman, demək olar, tamamilə ölmüşdü.

Keçmişdə Azərbaycanda idman yüksək səviyyədə olubdur. Ancaq təbiidir ki, indi, müstəqil Azərbaycanda idman keçmiş dövrlərin hamısından yüksək səviyyədədir. Amma bu yeni mərhələyə, yeni yüksək səviyyəyə qalxmaq üçün Azərbaycan idmanı, Azərbaycan idmançıları və Azərbaycan xalqı böyük və çətin mərhələdən keçmişdir.

Xatırlayın, 1990–1992–1993-cü illərdə Azərbaycanın ən böyük idman meydançası, respublika stadionu kababçıların, alverçilərin, dükançıların ixtiyarına verilmişdi və stadion tamamilə dağılmışdı. Biz bu mənzərəni görəndə, təbiidir ki, çox dəhşətləndik. Amma eyni zamanda, Azərbaycanın böyük futbol stadionunun qaydaya salınması ilə məşğul olduq. İndi artıq o yüksək standartlara cavab verir.

Xatirimdədir, o vaxt bir dəfə buraya hansısa xarici ölkədən futbol komandası gəlmişdi. Dedilər ki, Bakıdakı o böyük stadion yaramır. Bu oyunu Sumqayıtda keçirmək lazımdır. Xatirinizdədir? Mən onda təəccüb etdim, axı nə cür ola bilər? Amma bu, həqiqət idi. Ancaq təkcə o deyildi, 1970-ci illərdə tikilmiş, indi sizin voleybol oynadığınız idman sarayını nə günə salmışdılar? Xatirlayın, bu yaxın vaxtlara qədər orada mebel satırdılar. Amma mən 1993-cü ildə buraya gələndə orada kabab da bişirirdilər, nə bilim, çayçı da var idi, dükan da var idi, hər şey var idi. Ayrı-ayrı adamların ixtiyarına vermişdilər. Onlar da hərəsi öz şəxsi məqsədləri ilə məşğul olurdular. Bunları kim etmişdi, mən bilirəm, o adamların adlarını da bilirəm. 1992–1993-cü illərdə burada hakimiyyətdə olan adamlar idi, indi onların bəzilərini qəhrəman hesab edirlər. Amma mən, sadəcə olaraq, bu gün o adları çəkmək istəmirəm. Çünki onlar layiq deyillər ki, bu mötəbər məclisdə adları çəkilsin.

Amma indi baxın, o mənfi hallar ləğv ediləndən sonra, ora qaydaya salınandan sonra – bilirəm ki, son vaxtlar orada ciddi iş aparılıbdır – həmin idman sarayında beynəlxalq yarışlar keçirilir. Təkcə voleybol yarışı yox, boks yarışı, başqa yarışlar da keçirilir. Həmin voleybol oyunları orada keçiriləndə bütün Azərbaycan televiziya ilə ona baxırdı. Hamımız sevinirdik. Həm sizin oyununuza və təbiidir, qələbənizə, həm də saraydakı yüksək əhval-ruhiyyəyə, insanların sevincinə görə. Amma bu da son deyildir.

Milli Olimpiya Komitəsi özünün gözəl bir idman kompleksini tikdi. Biz onu açdıq. İndi orada da həm müxtəlif yarışlara hazırlıqlar gedir, həm də beynəlxalq yarışlar keçirilir. Milli Olimpiya Komitəsi başqa yerlərdə də idman kompleksləri tikir. Onlardan birini də Maştağa qəsəbəsində tikdilər. Mən onun açılışında iştirak etdim. İndi o da fəaliyyət göstərir.

Nəhayət, bilirəm, mənə bu barədə İlham Əliyev məlumat veribdir ki, may ayında Azərbaycanda güləş üzrə Avropa cempionatı keçiriləcəkdir. Ona görə də bizim böyük idman sarayını indi qaydaya salırlar. İlham Əliyev bu işlə məşğul olur, şəhərin icra hakimiyyəti onun ətrafını abadlaşdırır.

O idman sarayı nəhəng bir qurğudur. Mənim xatirimdədir, 1973-cü ildə biz o sarayın təməl daşını qoyduq. O təməl daşını oraya mən qoymuşam. Mən onun tikintisi zamanı oranı ziyarət etdim, işlərlə maraqlandım. Tikildi, hazır oldu. Ancaq onun lazımi səviyyədə istifadəsi təmin olunmadı və o da digərlərinin vəziyyətinə düşmüşdü. İndi Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi onu qaydaya salırlar. Güman edirəm ki, biz may ayında orada güləş üzrə Avropa çempionatının şahidi olacağıq və yarışlara baxacağıq. Yəni bunlarla onu demək istəyirəm ki, bizim həm idmançılarımızın sayı artır, həm səviyyələri yüksəlibdir – onlar beynəlxalq yarışlarda çox yüksək qələbələr əldə edirlər – həm də Azərbaycanda idmanın kütləviliyi təmin olunubdur. Bir tərəfdən, idmana gənclərin çox böyük dəstəsi cəlb olunubdur, ikinci tərəfdən də, idmana ictimaiyyətin, vətəndaşlarımızın marağı son dərəcə artıbdır.

Məsələn, mən yaxşı bilirəm, sizin son, final oyununuzu Azərbaycanın hər yerində, hər bir evdə insanlar televiziya ilə seyr ediblər. Orada, sarayda olan insanları da siz görmüsünüz, biz də televiziya ilə görmüşük. Bunlar hamısı Azərbaycanda idmanın sürətlə inkişaf etməsini göstərir. Bu, son illərdə əldə etdiyimiz bütün başqa nailiyyətlərlə yanaşı, çox böyük əhəmiyyət kəsb edən nailiyyətdir. Çünki idman birinci növbədə, gənc nəslin fiziki və zehni cəhətdən sağlam böyüməsində, tərbiyə olunmasında, inkişaf etməsində xüsusi yer tutur, xüsusi rol oynayır. İdman millətimizin səhhətində, sağlamlığında xüsusi yer tutur. Bununla bərabər, idman mədəniyyətdir. İdman hər bir xalqın mədəniyyətinin hansı səviyyədə olduğunu göstərir. Bizim idmanımızın səviyyəsi qalxdıqca, onunla bərabər Azərbaycan xalqının, Azərbaycanın mədəniyyəti də yüksəlir.

Nəhayət, idman belə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki,

idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur. Bunu siz idmançılar edirsiniz. Bu da sizin üzərinizə həm böyük məsuliyyət qoyur, eyni zamanda, sizə böyük hörmət gətirir. Çünki siz belə böyük işlər görürsünüz.

Təbiidir ki, biz hamımız bunlarla sevinirik. Biz sevinirik ki, Milli Olimpiya Komitəsi idman sahəsində qısa müddət ərzində böyük nailiyyətlər əldə edibdir. İdmanın maddi-texniki bazasının yaradılması və genişləndirilməsində çox işlər görübdür və bu gün də görür, gələcəkdə də görəcəkdir. Gənclər, İdman və Turizm Nazirliyi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir və Milli Olimpiya Komitəsi ilə birlikdə bu işlərlə məşğul olur, idmanı inkişaf etdirir. Bunların hamısı Azərbaycanın əldə etdiyi böyük nailiyyətlərdir.

Hörmətli idmançılar, bu nailiyyətləri siz əldə edirsiniz və biz bu nailiyyətlərə görə sizə borcluyuq. Təbiidir ki, bütün bu nailiyyətlərdə biz gərək Milli Olimpiya Komitəsinin, onun sədri İlham Əliyevin də xidmətlərini qeyd edək. Gənclər, İdman və Turizm Nazirliyinin, nazir Əbülfəs Qarayevin xidmətlərini də gərək qeyd edək. Ancaq mən, adətən, bu xidmətləri, sadəcə, qeyd edirəm. Amma sizin qələbələrinizi isə, gördüyünüz kimi, çox böyük həvəslə, məhəbbətlə deyirəm.

Mən ümidvaram ki, siz, təkcə siz yox, bütün başqa növlərlə məşğul olan idmançılarımız bundan sonra da böyük nailiyyətlər əldə edəcəklər, Azərbaycana yeni-yeni kuboklar, qızıl medallar, başqa nailiyyətlərin rəmzi olan mükafatlar gətirəcəklər. Eyni zamanda ümidvaram ki, Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi bu işlərini bundan sonra da davam etdirəcəklər və idman Azərbaycanda inkişaf edəcəkdir. İdmanın kütləviliyinin təmin olunması bizim hamımızın əsas məqsədimizdir. Bu yolda hamı çalışmalıdır.

Əziz dostlar, mənim əziz, gözəl qızlarım, sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Komandanın Baş məşqçisi Faiq Qarayevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Mən hamınızı deyəndə, hamının adını çəkmək mümkün deyil, amma Faiq Qarayevin adını mən mütləq çəkməliyəm. Mən televiziya ilə baxanda müşahidə edirdim. Görürəm, bir tərəfdən, çox tələbkardır, amma ikinci tərəfdən, onun üstünlüyü ondan ibarətdir ki, çox sakit bir adamdır. Baxırsan, onda nə həyəcan hiss edirsən, nə də narahatlıq. Bunlar hamısı onun daxilindədir, onu heç vaxt büruzə vermir. Voleybol meydançasının ətrafında çox sakit, çox təmkinlə öz fəaliyyətini həyata keçirir və bizim bu qızlara lazımi göstərişlərini çox təmkinlə, həmişə çox mədəni surətdə verir.

Ona görə mən Faiq Qarayevi həm nailiyyətləri ilə təbrik edirəm, həm də mən çox sevinirəm ki, bizim belə yüksək mədəniyyətə malik olan idmançımız, məşqçimiz var. Səni təbrik edirəm, sənə xüsusi təşəkkür edirəm. Bütün məşqçiləri təbrik edirəm. Hamınızı təbrik edirəm. Hamınıza cansağlığı arzu edirəm. Sağ olun.

## AZƏRBAYCAN İLƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏR YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*Bakı,*
*ABŞ səfirliyinin iqamətgahı*

*16 mart 2002-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Bu gün Amerika Birləşmiş Ştatları və Azərbaycan üçün həqiqətən çox əlamətdar bir gündür. Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra ona beynəlxalq dəstək lazım idi. Bu beynəlxalq dəstəyi də dünyanın müxtəlif dövlətləri, xüsusən aparıcı dövlətlər göstərməli idi. Azərbaycan xalqı bunu gözləyirdi.

Biz bu gün, on il keçəndən sonra çox böyük məmnuniyyət və iftixar hissi ilə deyə bilərik ki, yeni yaranmış müstəqil Azərbaycan dövləti o vaxt belə dəstəyi aldı. Bir çox dövlətlər dərhal Azərbaycanın müstəqilliyini tanıdıqlarını elan etdilər. Onlardan biri də Amerika Birləşmiş Ştatları oldu.

O vaxtdan indiyə qədər Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında yaranmış əlaqələr davamlı surətdə inkişaf edib və bu gün yüksək səviyyədədir.

Ancaq mən də cənab səfir kimi, bir-iki dəqiqə o dövrü, o anları, o ili xatırlamaq istəyirəm. On il bundan öncə Azərbaycan müstəqilliyini yenicə əldə etmişdi. Ancaq şiddətli müharibə gedirdi, iqtisadi böhran çox dərinləşmişdi. Azərbaycanda, Bakıda hakimiyyətsizlik hökm sürürdü, silahlı dəstələr insanların rahat yaşamasına imkan vermirdilər, cinayətkarlıq artmışdı. Belə bir dövrdə, belə bir zamanda müstəqil dövlət kimi, Azərbaycan ilk addımlarını atırdı. Belə bir dövrdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında diplomatik əlaqələr qurulmuşdu. Burada qeyd edildiyi kimi, ilk dəfə Bakıda, Azərbaycanın paytaxtında Amerikanın səfirliyi öz qapılarını açmışdı.

Mən o vaxt Bakıda deyildim, Naxçıvanda yaşayırdım. Ancaq təbii ki, mən Azərbaycanın problemləri ilə, Azərbaycanın dərdləri ilə yaşayırdım. Ancaq Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda problemlər, dərdlər Bakıdan da, Azərbaycanın başqa bölgələrindən də çox idi. Biz bu problemlərin həll olunması, bu dərdlərin aradan qaldırılması ilə məşğul idik. Mən böyük minnətdarlıq hissi ilə xatırlayıram ki, o vaxt, Amerika Birləşmiş Ştatları öz səfirliyini Azərbaycanda açan kimi, Naxçıvana xüsusi diqqət yetirmişdir və burada adı çəkilən cənab Robert Fin dərhal Naxçıvana gəlmişdi. Ondan sonra Amerika Birləşmiş Ştatlarının Azərbaycanda ilk səfiri cənab Dik Mays Naxçıvana gəlmişdi. Sonra mən gəlib Bakıda, həmin «İnturist» mehmanxanasındakı səfirlikdə onlarla görüşmüşdüm. Bizim dərhal əlaqələrimiz yaranmışdır. Bu əlaqələr də, təbiidir ki, Azərbaycan–Amerika Birləşmiş Ştatları əlaqələrinin tərkib hissəsi idi, bir hissəsi idi. Biz o ağır illəri yaşadıq. Azərbaycanda yaranmış hərc-mərcliyin, ondan sonra baş vermiş vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanda tədricən ictimai-siyasi sabitliyi təmin etməyə başladıq. Ancaq bunlar asan olmadı. Biz bir çox müqavimətlərlə rastlaşdıq. O cümlədən terror aktları və 1994-cü ilin oktyabr ayında, 1995-ci ilin mart ayında Azərbaycanda silahlı dövlət çevrilişi cəhdləri ilə rastlaşdıq. Bu gün həmin mart hadisələrindən düz 7 il keçir. O vaxt Azərbaycanın müqəddəratı həll edilirdi. Müstəqilliyinin qalıb-qalmaması həll olunurdu. Çünki o qüvvələr Azərbaycan dövlətçiliyinə qarşı qalxmışdılar. Əgər azğın silahlı dəstələr o vaxt öz niyyətlərinə nail ola bilsəydilər, Azərbaycan dağılacaqdı. Mən bunu qətiyyətlə deyirəm. Biz o günləri yaşadıq, müharibəni dayandırdıq. Yeddi ildən artıqdır ki, atəşkəs rejimində yaşayırıq. Sosial, iqtisadi, siyasi böhrana son qoyduq və indi Azərbaycanda bütün sahələrdə inkişaf təmin olunubdur. O, bu gün də davam edir. Cənab səfirin dediyi kimi, Azərbaycan bu on il müddətində öz müstəqilliyini qoruyub saxlayıb, iqtisadi cəhətdən, siyasi cəhətdən və bütün başqa əlamətlərinə görə güclü bir dövlətə çevrilibdir.

On il ərzində biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi daim inkişaf etdirmişik. Bu əlaqələr genişlənir, dərinləşir və demək olar ki, bütün sahələri əhatə edir. Bu əlaqələrin inkişaf etməsinin səbəbi təkcə bizim istəyimiz, arzumuz deyil, eyni zamanda Amerika Birləşmiş Ştatları hökumətinin də Azərbaycan ilə əlaqələri genişləndirmək, inkişaf etdirmək niyyətləridir.

11 sentyabr hadisələri, Amerika Birləşmiş Ştatlarında törədilmiş dəhşətli terror aktları bütün dünyanı lərzəyə gətirdi. O cümlədən, təbiidir ki, Azərbaycanda bizi də çox hiddətləndirdi və həyəcanlandırdı. Biz beynəlxalq terrorizmə qarşı, bu cür qəddar terrorizmə qarşı dərhal etiraz səsimizi qaldırdıq. Beynəlxalq terrorizmə qarşı

mübarizədə Amerika Birləşmiş Ştatları ilə bir alyansda, bir koalisiyada olmağımızı dərhal bəyan etdik və ondan sonrakı günlərdə, aylarda bu sahədə bizim üzərimizə düşən vəzifələri tamamilə yerinə yetiririk.

11 sentyabr hadisələrindən sonra Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələr daha da yüksək səviyyəyə qalxıbdır və xüsusi əhəmiyyət kəsb edir. Əvvəlki illərdə hər iki tərəf bəyan etdi ki, bizim əlaqələrimiz strateji tərəfdaşlıq əlaqələridir. Bu, təsdiq olunub və onu daha da genişləndirmək məramı Amerika Birləşmiş Ştatları tərəfindən bildirilibdir. Biz də buna tam razılığımızı bildirmişik.

Mən dünən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Corc Buşun məktubunu aldım. O, bu gün mətbuatda dərc olunubdur. Bu məktubda prezident Buş 11 sentyabr hadisələrindən sonra Azərbaycanın Amerikaya göstərdiyi dəstəyi bir daha yüksək qiymətləndirdiyini bildirir və eyni zamanda Qafqazda, onun ətrafında sülh, əmin-amanlıq, təhlükəsizlik naminə bizimlə, Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsinin zəruri olduğunu bəyan edir. Prezident cənab Buşun məktubunda Azərbaycana göstərilən münasibətə, ölkəmizin fəaliyyətinə verilən qiymətə görə təşəkkür edirəm və bildirmək istəyirəm ki, məktubda yazılan bütün fikirlərlə tam razıyam. Beləliklə, biz əlaqələrimizin on illiyini tamamlayırıq və irəliyə çox nikbinliklə birgə addımlayırıq.

Bu on il müddətində çox şey dəyişibdir. Amerika Birləşmiş Ştatlarının səfirliyi «İnturist» mehmanxanasının kiçik otaqlarından indi böyük bir binaya köçübdür və bütün ətrafı əhatə edir. Əgər əvvəllər səfir mehmanxanada xırda bir otaqda yaşayırdısa, indi belə bir imarətdə yaşayır və bu qədər qonaqları dəvət etməyə də imkanı var. Bunlar hamısı on ildə bizim əlaqələrimizin inkişaf etməsinin təzahürüdür.

Biz bu gün diplomatik əlaqələrimizin on illiyini qeyd edərkən Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Demək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının səfirliyi bu on il müddətində ilk növbədə, Amerika Birləşmiş Ştatlarının milli maraqlarının qorunması və təmin olunması üçün çox iş görübdür. Amma bununla bərabər, Amerika–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox səylər qoyubdur, çox iş görübdür.

Mən bu gün Amerika Birləşmiş Ştatlarının Azərbaycanda ilk səfiri olan cənab Dik Maysı xatırlayıram. Eyni zamanda, ondan sonrakı səfirlərə, səfirliyin bütün işçilərinə və xüsusən, Amerika Birləşmiş Ştatlarının bu gün Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfirinə öz təşəkkürümü bildirirəm.

Biz beş ildən sonra yenə də görüşüb əlaqələrimizin on beş illiyini qeyd edəcəyik. On ildən sonra iyirmi illiyini qeyd edəcəyik və bu, davam edəcəkdir. Ona görə mən sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Respublikamızın rəhbəri Heydər Əliyev mərasimdə iştirak edən qonaqlarla, o cümlədən Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki sabiq səfirləri ilə, Bakıda fəaliyyət göstərən xarici ölkələrin səfirləri ilə, ölkəmizin dövlət və hökumət nümayəndələri ilə səmimi görüşüb söhbət etdi.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Xalqımızın əziz bayramı – qədim Novruz bayramı münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, sizə xoş əhval-ruhiyyə arzulayıram.

Azərbaycan xalqı tarix boyu əziz tutduğu bahar bayramının hər gəlişini səbirsizliklə gözləmiş, sınaq dolu ağır günlərində də onu qəlbində yaşatmışdır. Minilliklər boyu formalaşmış adət-ənənələrimizi qoruyaraq milli varlığımızın rəmzinə çevrilən yaz bayramını insanlarımız bu gün böyük sevinclə qeyd edirlər. Mədəniyyətimizin zəngin xəzinəsi olan Novruz bayramı milli dövlətçilik ənənələrimizi bərpa edib, dövlət müstəqilliyimizi yenidən qazandıqdan sonra Azərbaycan Respublikasının rəsmi bayramlarından biri kimi həmişəlik təqvimə daxil olmuşdur.

Novruz bayramı qəlblərdə ən ülvi bəşəri duyğular oyadır, qonaqpərvərlik, səmimilik, xeyirxahlıq kimi yüksək mənəvi dəyərlərlə insanları bir-birinə daha yaxın və əziz edir, dünyanı, təbiəti və insanları yeniləşdirərək, könülləri qurub-yaratmaq əzmi ilə doldurur.

Bu yaz bayramı öz gəlişi ilə gələcəyə inamla baxmaq əzmi gətirir, əcdadların ruhuna dərin ehtiramın gücü sayəsində qəlblərdə ümid çırağı yandırır. Uca amallar uğrunda canlarını qurban vermiş Vətən övladlarının xatirəsini bu əziz günlərdə yad edərək onların ailələrinə və yaxınlarına, bütün xalqımıza səbr diləyir və bir daha əmin edirəm ki, müstəqilliyimizin qorunub möhkəmlənməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, vətəndaşlarımızın firavan həyata qovuşması üçün bundan sonra da var qüvvəmizi sərf edəcəyik.

Dünyanın hər bir guşəsində yaşayan həmvətənlərimizin ürəkləri Novruz bayramı günlərində müqəddəs vətən torpağı – doğma Azərbaycan ilə bir döyünür. Dünya azərbaycanlılarını bu əziz gündə salamlayır, bayram münasibətilə onlara ən xoş duyğularımı yetirirəm.

Əziz soydaşlarımız!

Üzümüzə gələn yaz bayramında hər birinizə cansağlığı, xoşbəxtlik və ailə səadəti diləyirəm. Qoy bu bayram hər evə, hər ocağa xeyir-bərəkət, ölkəmizə əmin-amanlıq və yeni uğurlar gətirsin.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 mart 2002-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ NİTQ

*21 mart 2002-ci il*

*Martın 21-də qədim İçərişəhərin darvazaları qarşısında – Gənclər meydanında bayram münasibətilə böyük mərasim təşkil olunmuşdu. Meydanda Novruz tonqalı şölələnirdi. Ətrafdakı binaları, əsrlərin şahidi olan qədim qala divarlarını al-əlvan plakatlar bəzəyirdi.*

*Şux, oynaq musiqi sədaları ətrafı bürümüşdü. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılırdı.*

*Azərbaycan prezidenti Heydər Əliyev Novruz şənliklərində iştirak etmək üçün Gənclər meydanına gəldi. Meydana toplaşmış minlərlə adam dövlətimizin başçısını hərarətlə, gurultulu alqışlarla qarşıladılar, ona bahar ətirli gül-çiçək dəstəsi təqdim edildi. Bahar qız Azərbaycan prezidentinə müraciətlə dedi:*

*Əziz Heydər baba! Sizi xalqımızın müqəddəs Novruz bayramı münasibətilə ürəkdən təbrik edirik. Azərbaycanın xoşbəxt gələcəyi, vətən torpağının bütövlüyü naminə gördüyünüz işlərə görə Sizə minnətdarıq. Bizim şadlanmağa, sevinməyə haqqımız var, çünki müstəqilliyimizin Sizin kimi təminatçısı var. Biz inanırıq ki, Sizin gərgin əməyiniz sayəsində Azərbaycan xalqı həmişə öz bahar ömrünü yaşayacaqdır. Bu əziz Novruz bayramı münasibətilə sizi bir daha təbrik edirik.*

*Unudulmaz müğənnimiz böyük Rəşid Behbudovun ifasında Rauf Hacıyevin məşhur «Azərbaycan» mahnısının sədaları ətrafa yayıldı. Prezident Heydər Əliyev bayram şənliyinə toplaşmış paytaxt sakinləri ilə mehribancasına salamlaşdı, onları Novruz bayramı münasibətilə təbrik etdi. Dövlətimizin başçısı bayram şənliyində geniş nitq söylədi.*

* * *

**H e y d ə r Ə l i y e v:** Əziz həmvətənlər!

Sizi xalqımızın ən sevimli, ən əziz bayramı – Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram!

Novruz bayramı bizim bütün bayramlarımızdan əzizdir. Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır. Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyəti ilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır.

Biz bu il Novruz bayramını Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünü bayram edəndən sonra qeyd edirik. Novruz, dediyim kimi, qədim bayramdır. Ancaq elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir.

Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən, azadlığa, sərbəstliyə çıxandan sonra bu bayramı biz açıq ürəklə, geniş, el bayramı, xalq bayramı və nəhayət, dövlət bayramı kimi qeyd edirik. Bu indi müstəqil Azərbaycan dövlətinin ən mötəbər dövlət bayramıdır. Məhz buna görə də ölkəmizin hər yerində, hər guşəsində – hər kəndində, qəsəbəsində, şəhərində insanlar bu bayramı böyük sevinclə, məhəbbətlə keçirir, şənlənirlər. Novruz bayramının keçmiş zamanlardan qalmış adət-ənənələri bu bayram günlərində, bayram şənliklərində nümayiş etdirilir.

Beləliklə, xalqımız keçmişi bu günü ilə, bu günü keçmişi ilə sıx bağlayır və bu illərdə Novruz bayramı ilə əlaqədar olan bütün adət-ənənələrin hamısı bərpa olunubdur. İndi artıq deyə bilərik ki, Azərbaycanda Novruz bayramı bəlkə də yüz–iki yüz il bundan öncəki dövrlə müqayisədə daha da əhatəli keçirilir. Bunların hamısı bizim xalqımızın sərvətidir.

Bu günlərdə xalqımız öz yüksək, xoş əhval-ruhiyyəsini bir daha nümayiş etdirir. Bu da on il ərzində Azərbaycan xalqının müstəqil dövlət və xalq kimi yaşadığı müddətdə əldə etdiyi nailiyyətlərlə əlaqədardır. Ötən on ildə xalqımız çox ağır, mürəkkəb bir yol keçibdir. Müstəqilliyi əldə edəndən sonra onu yaşatmaq, möhkəmləndirmək, qorumaq və daimi, əbədi etmək asan olmamışdır. Biz çox maneələrlə rastlaşdıq. Ancaq xalqımız öz iradəsini, əzmini daim nümayiş etdirdi. Bütün maneələrə, müstəqilliyimizin əlimizdən alınmasına,

onun məhv edilməsinə yönəldilmiş cəhdlərin hamısına qarşı xalqımız mütəşəkkil çıxış etdi, birliyini, özünün iradəsini göstərdi. Biz dövlət müstəqilliyimizi yaşatdıq, ilbəil inkişaf etdirdik.

Bu illərdə Azərbaycan xalqı böyük sosial, siyasi-iqtisadi böhrandan çıxaraq inkişaf yoluna düşmüşdür. Həyatımızın bütün sahələrində biz böhrandan tam çıxmışıq və ölkəmiz ilbəil inkişaf edir. Bunların əsas səbəbi müstəqillik əldə etdikdən sonra Azərbaycan xalqının tutduğu düzgün və doğru yoldur. Bu yol da azadlıq, demokratiya, müstəqillik yoludur. Bu yol bütün sahələrdə – siyasi, iqtisadi, sosial islahatlar keçirərək, bazar iqtisadiyyatı yolu ilə getmək yoludur. Bu yol Azərbaycanın iqtisadiyyatını dünya iqtisadiyyatına inteqrasiya etmək və beləliklə, iqtisadiyyatımızı inkişaf etdirmək yoludur.

Bu sahədə biz böyük nailiyyətlər əldə etmişik. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulubdur. Dövlət quruculuğu sahəsində böyük işlər görülübdür. Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir. Özəl sektor yaranıbdır. Aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edir. İnsanların rifah halı yaxşılaşıbdır. Məhz bu yolla gedərək, biz Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirə bilmişik. Məhz buna görə də biz Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünü böyük qürur hissi ilə bayram etmişik, artıq müstəqilliyin on birinci ilinə qədəm qoymuşuq. Bütün bunlara görə də indi, bu Novruz bayramı günlərində ölkəmizin hər yerində, demək olar ki, hər evdə, hər ailədə bayram əhval-ruhiyyəsi hökm sürür. İnsanlar azad, sərbəst yaşayır, Novruz bayramını da böyük sevinc hissi ilə bayram edirlər.

Bu günümüz bizi sevindirir. Ancaq əldə etdiyimiz nailiyyətlər bizi sevindirdiyi kimi, yaralarımız da bizi incidir. Həll edə bilmədiyimiz problemlər bizi narahat edir. O da Azərbaycan torpaqlarının bir qisminin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır. İşğal olunmuş torpaqlardan bir milyondan çox soydaşlarımızın didərgin düşməsi, ağır vəziyyətdə çadırlarda və yaşayış üçün münasib olmayan digər yerlərdə yaşamasıdır. Bu bizim böyük dərdimiz və problemimizdir. Ancaq məlumdur ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün biz ardıcıl surətdə çalışırıq. Azərbaycanın daxili və xarici siyasətinin əsas məqsədi ölkəmizin müstəqilliyini möhkəmləndirmək, dünya miqyasında müstəqil dövlət kimi, Azərbaycanın mövqelərini möhkəmləndirmək və bu vasitə ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoymaq, işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə-obasına qaytarmaqdır.

Biz ötən illərdə bu sahədə çox işlər görmüşük, çox imkanlar aramışıq, çox imkanlardan istifadə etməyə çalışmışıq. Bunu bu gün də davam etdiririk və bundan sonra da etdirəcəyik. Bu bayram günü mən xalqımızı əmin edirəm ki, Azərbaycanın işğal edilmiş torpaqları azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz evlərinə, obalarına qayıdacaqlar. Biz buna mütləq nail olacağıq.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizi bayram münasibəti ilə bir daha təbrik edirəm.

Mən çadırlarda köçkün vəziyyətində və ağır şəraitdə yaşayan soydaşlarımızı təbrik edirəm. Sərhədlərdə, Azərbaycan torpağının keşiyində dayanan mərd əsgərlərimizi təbrik edirəm. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda əlil olmuş vətəndaşlarımızı təbrik edirəm. Torpaqlarımızın müdafiəsində şəhid olmuş insanların ailələrini təbrik edirəm. Hamını təbrik edirəm. Hamıya cansağlığı, səadət, yeni-yeni novruz bayramları arzulayıram.

Bayramınız mübarək olsun!

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ «RUH» JURNALİSTLƏRİ MÜDAFİƏ KOMİTƏSİNİN TƏSİS ETDİYİ «JURNALİSTLƏRİN DOSTU» MÜKAFATININ TƏQDİM OLUNMASINA HƏSR EDİLMİŞ MƏRASİMDƏ NİTQ

*Bakı,*
*«Hyatt-Recensi–Naxçıvan» oteli*

*22 mart 2002-ci il*

*Prezident Heydər Əliyev mərasimdə iştirak edən kütləvi informasiya vasitələrinin nümayəndələri ilə, o cümlədən qəzetlərin baş redaktorları ilə görüşdü, onlarla səmimi söhbət etdi.*

*Sonra mükafatın təqdim olunması mərasimi başlandı. Bildirildi ki, «Ruh» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi «Jurnalistlərin dostu» mükafatı beşinci ildir təqdim olunur. Qalibi təyin etmək üçün 62 respondent – kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərləri və ekspertlər arasında sorğu keçirilmişdir. Yekun protokola əsasən, nominantların ümumi sayı 63, ən aşağı bal 1, orta bal 18, ən yüksək bal isə 37 olmuşdur. Sorğuda 29 qəzet, 16 ekspert, 7 informasiya agentliyi, 6 jurnalist təşkilatı, 3 teleradio şirkəti və 1 jurnal iştirak etmişdir.*

*«Jurnalistlərin dostu» nominasiyası üzrə sorğunun nəticələrinə görə, Azərbaycan prezidenti Heydər Əlirza oğlu Əliyev qalib elan edilmişdir. Sorğunun nəticələri «Ruh» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin idarə heyəti iclasının protokolu ilə təsdiq olunmuşdur.*

*«Ruh» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin sədri Əflatun Amaşov mərasimdə çıxış etdi.*

**Əflatun Amaşov:** Hörmətli cənab Prezident!

Möhtərəm qonaqlar!

Əziz həmkarlarım!

Bu gün təqdimatına toplaşdığımız bu mükafatı Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi 5 il əvvəl təsis edibdir.

Bundan məqsəd ölkədə söz və mətbuat azadlığını dəstəkləmək, azad və müstəqil mətbuatın möhkəmlənməsinə yardımçı olmaq, medianın 4-cü hakimiyyət kimi formalaşmasında dövlət məmurlarının və siyasi xadimlərin dəstəyini qazanmaq, bir sözlə, Azərbaycanda demokratik proseslərin inkişafına təkan verməkdən ibarətdir. Qaliblər hər ilin sonunda media rəhbərləri və ekspertlər arasında keçirilən ənənəvi sorğu nəticəsində müəyyənləşdirilir, söz və mətbuat azadlığına daha çox töhfə verən şəxsə «Jurnalistlərin dostu» adı verilir və gördüyünüz bu mükafat ona təqdim edilir.

2001-ci ildə Azərbaycan jurnalistikası çox ziddiyyətli və mürəkkəb bir dövr keçmişdir. Bu müddətdə baş verən qanun pozuntuları digər illərə nisbətən heç də az olmamışdır. Jurnalistlərdən bəziləri xidməti vəzifələrini yerinə yetirərkən döyülmüş, təhqir olunmuş, cərimələnmiş, hətta həbs olunmuşlar. İl ərzində 4 mətbu orqan bağlanmışdır.

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan mətbuatının inkişafında çox mühüm hadisələr baş vermişdir. «Kütləvi İnformasiya Vasitələri haqqında» Qanuna edilən əlavələr və dəyişikliklər nəticəsində kütləvi informasiya vasitələrinin hüquqi bazası tamamilə yeniləşmiş, demokratik prinsiplərə tam cavab verən qanun qəbul olunmuşdur.

Ümidvarlıqla deyə bilərəm ki, müstəqilliyini Azərbaycanla eyni vaxtda qazanmış digər MDB ölkələrinin heç birində belə demokratik və mütərəqqi qanun yoxdur. Hazırda «Televiziya və radionun fəaliyyəti haqqında» qanun layihəsi üzrə iş gedir. İşçi qrupunun üzvü kimi, bildirirəm ki, yaxın günlərdə müasir tələblərə tam cavab verə bilən yeni bir qanuna malik olacağıq.

Kütləvi informasiya vasitələrinin iqtisadi bazasının möhkəmləndirilməsi istiqamətində də əməli addımlar atılmışdır. KİV-lərdən tutulan mənfəət vergilərinin 3 il müddətində dövlətin hesabına ödənilməsi ilə bağlı qərar qəbul edilibdir. Qəzetlərin «Azərbaycan» nəşriyyatına olan borcları dondurulmuşdur. Əminəm ki, bu borcların «donu açılmayacaqdır». Azərbaycana gətirilən qəzet kağızı üzərindən əlavə dəyər vergisi götürülmüşdür. Hazırda gündəmdə kütləvi informasiya vasitələrinə kreditlərin verilməsi ilə bağlı məsələ durur. Ümidvarlıqla bildirirəm ki, bu məsələ də özünün müsbət həllini tapacaq, media vasitələrinə güzəştli, uzunmüddətli kreditlər veriləcəkdir.

Hörmətli cənab Prezident!

Ziddiyyətlərlə dolu olan 2001-ci ilin nəticələrinə görə, Siz «Jurnalistlərin dostu» adına layiq görülmüsünüz. Biz bu münasibətlə Sizi təbrik edirik. İnanırıq ki, bu mükafat layiq görüldüyünüz digər mükafatların sırasında önəmli yer tutacaq və Siz həmişə jurnalistlərin dostu olaraq qalacaqsınız.

* * *

*«Ruh» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin sədri Əflatun Amaşov «Jurnalistlərin dostu» mükafatını və diplomunu Azərbaycan prezidenti Heydər Əliyevə təqdim etdi.*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli jurnalistlər, xanımlar və cənablar!

Bu mənim üçün qeyri-adi bir hadisədir. İlk dəfə olaraq mən jurnalistlərin, nəhayət, xoşuna gəlmişəm və onlar məni mükafatlandırıblar. Mənə 2001-ci ildə Azərbaycanda «Jurnalistlərin dostu» mükafatı verdiklərinə görə «Ruh» Jurnalistləri Müdafiə Komitəsinə, onun rəhbərliyinə təşəkkürümü bildirirəm. Əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də jurnalistlərin dostuyam və həmişə jurnalistlərin dostu olacağam.

Burada bildirildi ki, bu mükafat beş il bundan öncə təsis olunubdur. İndiyə qədər bəzi adamlar mükafatlandırılıb, indi də növbə mənə gəlib çatıbdır. Ancaq onu demək istəyirəm ki, mənim üçün, yəni Azərbaycan prezidenti üçün bu mükafatı almaq başqalarına nisbətən heç də asan deyildi, qat-qat çətin idi. Çünki müxtəlif peşə sahibləri arasında jurnalistlərlə təmasda olanlar, jurnalistlərlə əməkdaşlıq edənlər, onlara yardım edənlər təbiidir ki, çoxdur və görünür, onların içərisində ən görkəmlisini hər il seçib mükafatlandırırlar.

Jurnalistika elə bir sahədir ki, ümumiyyətlə, tənqidlə məşğuldur, bütün başqa vəzifələri ilə bərabər, əsas məqsədi tənqid etmək, nöqsanları aşkar etmək, onların aradan qaldırılması üçün çalışmaqdır. Jurnalistika cəmiyyətdə həmişə bu işləri görüb, bu gün də görür və çox uğurla görür. Belə halda iqtidarı tənqid edənlər daha çox müxalifət düşərgəsindədirlər. Ona görə müxalifət düşərgəsində bu cür mükafat almaq da, hesab edirəm ki, o qədər çətin bir şey deyildir. Amma Azərbaycan prezidentinin belə bir mükafata layiq görülməsi, yenə də deyirəm, qeyri-adi haldır, asan deyildir. Görünür ki, mənim bu barədə təkcə 2001-ci ildə yox, əvvəlki illərdə də qoyduğum səylər, nəhayət, jurnalistlər tərəfindən tanınıb, qiymətləndirilib və mənə bu mükafatı vermək haqqında qərar qəbul olunubdur.

Mən bu mükafatı çox yüksək qiymətləndirirəm. Bizim dostumuz Əflatun Amaşov burada dedi ki, layiq görüldüyünüz bütün başqa mükafatlarla yanaşı, bu mükafat da öz yerini tutacaqdır. Təbiidir, mən çox mükafatlara layiq görülmüşəm. Ancaq bu mükafatın xüsusi yeri var. Çünki aldığım mükafatların əksəriyyəti dövlətlər tərəfindən verilən mükafatlardır, dövlət mükafatlarıdır. Düzdür, başqaları da var. Amma bu, jurnalistlər tərəfindən verilən mükafatdır.

Ümumiyyətlə, jurnalistlər inciməsinlər, onlar elə məxluqdurlar ki, heç vaxt heç nədən razı deyillər. Həmişə çalışırlar yaxşı yerdə bir nöqsan tapıb, çıxarıb araya qoysunlar. Mən bunu pis mənada demirəm. Çox gözəl. Ancaq yenə də deyirəm, jurnalistlər çox tələbkardırlar. Həddindən artıq, xüsusən iqtidar nümayəndələrindən çox tələblər edirlər. Yenə də deyirəm, bizim işlərimizdə nöqsanlar da var, qüsurlar da var. Bunlara baxmayaraq, onlar, nəhayət, qeyrətə gəliblər, mənə mükafat veriblər. Çox sağ olsunlar.

Mənə məlumat verəndə ki, jurnalistlər məni 2001-ci ildə «Jurnalistlərin dostu» kimi qiymətləndiriblər, buna inanmadım. Sonra araşdırmağa başladım ki, bu dost nə deməkdir. Dedilər ki, Siz indi dostsunuz. Dedim, Allaha şükürlər olsun ki, nəhayət, dost olduq. Ancaq jurnalistlər də bilirlər ki – burada artıq deyildi – Azərbaycanda mətbuat azadlığı, mətbuat son illər nə qədər çox inkişaf edibdir.

Mən təxminən 5-6 il bundan əvvəlki dövrü xatırlayıram. Senzura var idi. Elə bizim dövrümüzdə – indi mən dost olmuşam – mənim dövrümdə. Amma senzura məndən qabaq da var idi. Senzura var idi, qəzetləri yoxlayırdılar. Hansı məqalə senzorun xoşuna gəlmirdisə, onu çıxardırdı. Qəzetlər də sonra mübarizəyə başladılar, etiraz əlaməti olaraq səhifələri ağ-ağ buraxdılar. Bunlar hamısı bizim xatirimizdədir. Ancaq biz senzuranı ləğv etdik, Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata geniş imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır.

Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq, görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır.

Burada qeyd olundu ki, keçən ildə bəzi qəzetlər bağlanıb, bəzi jurnalistlər təqib olunub, jurnalistlərə qarşı başqa qanunsuz hərəkətlər edilibdir. Ola bilər bu, belədir. Ancaq biz çalışdıq bunlara son qoyaq. Ona görə də xatirinizdədir ki, mən jurnalistləri dəvət etdim, onlarla çox mehriban söhbət etdik. Ondan sonra da qanuna dəyişikliklər etdik, mən fərman verdim və nə mümkündürsə etdik ki, azad mətbuat yaşaya bilsin, inkişaf edə bilsin və Azərbaycanda mətbuat həmişə azad olsun. Baxmayaraq ki, bu azad mətbuatın səhifələrində iqtidara qarşı böhtanlar da var, yalanlar da var, hətta bəzən biz təhqir halları ilə də rastlaşırıq – bunlar var.

Bizim iqtidar nümayəndələri bəzən çox narahat olurlar. Loru dildə desək, qızışırlar ki, məni ləkələdilər, şərəf və ləyaqətimi ləkələdilər və sair. Buna görə də belə insanlar bir vaxt imkanlardan istifadə edirdilər, məhkəməyə müraciət edirdilər, məhkəmələr qərar çıxarırdı. Təbii ki, qərarlar ədalətli idi. Bu da mətbuata çox zərər verirdi.

Biz bunların da qarşısını aldıq. İndi görürsünüz, heç kəs mətbuatı məhkəməyə vermir. Biz iqtidar nümayəndələrinə dedik ki, sən bunu məhkəməyə verəcəksən, sabah o biri yazacaqdır. Onu verəcəksən, o birisi yazacaqdır. Yaxşı olar, məhkəmə ilə məşğul olmasınlar. İndi məhkəmələr yoxdur, cərimə də yoxdur. Burada məndən xahiş edirlər ki, borclar dondurulub, amma tamamilə dondurulsun. Onun üçün gərək biz xüsusi bir kimyəvi vasitə tapaq ki, o «don əriməsin». Gərək biz düşünək, nə təhər edək. Hələ ki, dondurulubdur. Amma təbiidir ki, bu sizdən asılıdır. Siz özünüzü yaxşı aparsanız, borclar daha da çox dondurulacaqdır. Amma o yan, bu yan olsa, bir də gördünüz ki, əriməyə başlayıbdır. Mən istəməzdim ərisin. Mən də tərəfdaram ki, axıra qədər dondurulmuş kimi qalsınlar.

Biz mətbuat üçün bütün yardımları etmişik və lazım olsa, bundan sonra da edəcəyik. Mən indi buraya gələndə Gündüz Tahirli bir məktub verdi ki, qəzetlərə, mətbuata kreditlər üçün kömək etmək lazımdır. Bilmirəm, indi kreditləri hər adam ala bilər. Yəqin ki, hansısa bir güzəştli kredit almaq istəyirlər, ona görə mənə müraciət edirlər. Ona da baxacağam, indi imkan dairəsində o xahişin də yerinə yetirilməsinə çalışacağam.

Ancaq gəlin həqiqi dost olaq. Mən sizinlə, jurnalistlərlə dost olmaq istəyirəm. Amma dostluq ikitərəfli şeydir. Gərək iki tərəf də dost olmaq istəsin. İndi belə bir hadisə baş verib, iş belə gətirib ki, biz, iki tərəf də dost olmaq istəmişik. Amma gəlin danışaq ki, bu daha pozulmasın, biz dost olaq, axıra qədər dost olaq. Mən dost olmaq istəyirəm.

Xatirimdədir, mən jurnalistlərlə görüşəndə dedim ki, çağırın, kim istəyir gəlsin. Siyahıda müxalifət qəzetlərinin jurnalistləri var idi. Bəziləri gəlmişdilər, amma bəziləri gəlməmişdilər. Mən düşünürəm, niyə, nə üçün? Ola bilər, sənin məndən xoşun gəlmir. Bəlkə mənim səndən dünəndən xoşum gəlmir. Ancaq bir halda ki, danışmağa, görüşməyə, fikir mübadiləsi aparmağa, açıq söz deməyə imkan var, bu imkandan nə üçün istifadə etməyək? Məhz həmin görüşdə belə bir imkan var idi. Oraya dəvət olunmuş hər bir adam, fərqi yoxdur, hansı partiyaya mənsubdur, hansı siyasi baxışlara mənsubdur, iqtidara müxalifdir, yaxud lap kəskin müxalifətdədir, yaxud da qatı müxalifətdədir – bizdə belələri var – bunun nə əhəmiyyəti var, gəlin oturaq, danışaq, söhbət edək. Sən də öz fikrini de, mən də öz fikrimi deyim.

Biz bir xalqıq, bir xalqın övladlarıyıq. Bir millətik, bir millətin insanlarıyıq və bu cəmiyyətdə bir yerdə yaşayırıq. Heç bir yerə də getməyəcəyik, mən buradan çıxıb bir yerə getməyəcəyəm, sən də getməyəcəksən, niyə də gedək! Biz bir yerdə, bir vətəndə, bir torpaqda, bir cəmiyyətdəyik. Bir cəmiyyətdə olduğumuz halda gərək biz danışaq, fikir mübadiləsi aparaq, bir-birimizi anlamağa çalışaq.

Bəzən jurnalist haradasa hansısa faktı eşidir, oturub yazır və bir az da ona öz fikirlərini əlavə edir. Amma bu faktı araşdıranda, müəyyən adamlarla görüşəndə aydın olur ki, məsələ belə deyil, başqa cürdür. Ona görə də mən istəyirəm ki, jurnalistlərlə bizim dostluğumuz daimi olsun. Bilin, mən jurnalistləri həmişə sevmişəm.

Mən bir dəfə söylədim ki, keçmişdə, sovet hakimiyyəti dövründə, Sovet İttifaqı Kommunist Partiyasının liderləri içərisində başqalarına nisbətən mətbuatla ən yaxın olan adam mən olmuşam. Ən dost olan adam mən olmuşam. Bu mənim xarakterimdədir, xasiyyətimdədir. Mən həmişə mətbuatla maraqlanmışam, qəzet-jurnalları oxumuşam, radio-televiziyada verilən məlumatlara həmişə diqqətlə yanaşmışam. Ona görə də jurnalistika sənəti mənə çox yaxın olubdur.

Jurnalistika çətin sənətdir. Bunu etiraf etmək lazımdır, asan sənət deyildir. Başqa bir yerdə, başqa bir peşə sahibi gəlib öz işində oturub işləyir, müəyyən saat qurtarandan sonra evinə gedir. Elmlə məşğul olur, ya istehsalatda işləyir, yaxud ticarətdə işləyir, yaxud da biznesdə işləyir, fərqi yoxdur. Amma jurnalistin iş yeri yoxdur. Qəzetin redaksiyası da jurnalistin iş yeri deyildir. Çünki o, redaksiyada otursa, elə ancaq yuxarıya baxsa, bir şey yaza bilməyəcək, fəaliyyət də göstərə bilməyəcək. Demək, jurnalist gərək daim cəmiyyətlə əlaqədə olsun, insanlarla əlaqədə olsun, cəmiyyətin müxtəlif təbəqələri ilə əlaqədə olsun və müxtəlif yerlərlə təmasda olsun ki, istədiyi məlumatları ala bilsin və onların əsasında istədiyi sahədə öz məqalələrini, öz əsərlərini yaza bilsin. Bu, asan iş deyildir. Mən bunu bilirəm və öz fikrimi başqalarına da bildirmək istəyirəm. Ona görə də gərək biz jurnalistlərə kömək edək.

Belə bir vəziyyətdə olan jurnalistlər bəzən ədalətsizliklə rastlaşırlar, bəzən kobudluqla rastlaşırlar, başqa hallarla, xoşa gəlməyən hallarla rastlaşırlar. Bu, heysiyyatlarına toxunduğuna görə onları incidir və etiraz əlaməti olaraq müxtəlif məqalələr yazırlar və səhvlər də buraxırlar. Ona görə əgər jurnalistlər cəmiyyətlə daha yaxın olsalar, cəmiyyətdə də jurnalistləri sevsələr, onlara hörmət etsələr, onların işlərinin, fəaliyyətlərinin həyata keçirilməsinə yardım etsələr, bunda cəmiyyət də udacaqdır, jurnalistlər də.

Biz həmişə arzu edirik ki, jurnalistlər obyektiv olsunlar. Mən düşünmürəm ki, jurnalistlər qəsdən qeyri-obyektivliyə yol verirlər. Ancaq onların sənəti belədir, gərək elə bir şey yazsınlar ki, oxucular üçün maraqlı olsun. Kəskin, sensasiyalı yazılar olmasa, oxucular üçün maraqlı olmur, qəzetlər alınmır və sairə və sairə. Siz bunları məndən yaxşı bilirsiniz. Mən bu barədə fikrimi genişləndirmək istəmirəm. Biz bunları nəzərə almalıyıq. Amma jurnalistlər də hücum obyektləri ki var, yaxud kəskin tənqid edirlər, gərək onların vəziyyətini nəzərə alsınlar. Əgər hər iki tərəf bir-birini nəzərə ala bilsə, hesab edirəm ki, bizim cəmiyyətdə jurnalistlərlə bütün insanların dostluğu təmin olunacaqdır.

Hər halda, mən sizi bir daha əmin etmək istəyirəm ki, bugünkü mükafatı yüksək qiymətləndirirəm və çalışacağam ki, həmişə jurnalistlərin dostu olam. Bundan sonra da jurnalistlərə əlimdən gələn yardımı edəcəyəm. Jurnalistlərə də öz arzularımı, öz istəklərimi bildirdim. Mən bir daha sizə təşəkkür edirəm. Bütün Azərbaycan jurnalistlərinə cansağlığı, işlərində yeni-yeni uğurlar arzu edirəm. Sağ olun.

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULAY VADA**

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Seneqal xalqını təbrik edirəm. Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Seneqal xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 mart 2002-ci il*

## 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Tariximizin yeni dövründə 31 mart Azərbaycan xalqı, dünya azərbaycanlıları üçün kədər və hüzn ilə qeyd olunan bir gündür. 1998-ci ildən başlayaraq, hər il Azərbaycan Respublikasında 31 Mart Azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd olunur, soyqırımı qurbanlarını anma tədbirləri keçirilir, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb olunur.

Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq idi. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilmiş və onun gerçəkləşdirilməsi istiqamətində xüsusi cəhdlər göstərilmişdir. Xalqımızın çoxəsrlik tarixi kobudcasına təhrif olunmuş, ermənilərin tarixi qədimləşdirilmiş və şişirdilmişdir. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulmuş, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılmış, Azərbaycan toponimləri erməniləşdirilmişdir. Onilliklər boyu soyqırımı siyasəti total ideoloji təcavüz, türk və Azərbaycan xalqlarına, onların görkəmli nümayəndələrinə qarşı terrorla müşayiət olunmuşdur. Çar Rusiyası və SSRİ dövründə türk-müsəlman xalqlarına qarşı ayrı-seçkilik şəraitində bu siyasət daha incə və təhlükəli metodlarla davam etdirilmiş, azərbaycanlıların deportasiyası və soyqırımı kütləvi hal almışdır.

Azərbaycanlılara qarşı aparılan soyqırımı siyasətinin xronologiyasını xatırlayarkən, xalqımıza münasibətdə törədilən vəhşilik və cinayətlərin miqyası və metodologiyası heyrət və qəzəb doğurmaya bilmir. Keçmiş Rusiya imperiyası və İran arasında gedən müharibə nəticəsində Azərbaycanın bölüşdürülməsindən sonra tarixi torpaqlarımızda ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, 1905-ci və 1918-ci illərdə Çar Rusiyasının və bolşeviklərin köməyi ilə erməni daşnaklarının törətdiyi qırğınlar, 1920-ci illərdə ərazilərimizin hissə-hissə Ermənistana verilməsi, 1948–1953-cü illərdə sovet hökumətinin qərarı ilə soydaşlarımızın Ermənistandan deportasiyası vahid bir planın tərkib hissəsi kimi, xüsusi ssenari ilə aparılmışdır. Bunun ardınca, 1980-ci illərin sonunda Dağlıq Qarabağ millətçilərinin Ermənistan və SSRİ rəhbərliyinin təhriki ilə qızışdırılan separatçı çıxışları, bunların sonradan əsl irimiqyaslı müharibəyə çevrilməsi, bir milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalı – bütün bunlar «böyük Ermənistan» xülyası ilə yaşayan davakar erməni şovinistlərinin və onların himayəçilərinin Azərbaycan xalqına vurduğu yaraların tam olmayan siyahısıdır.

Azərbaycanlılara qarşı yeridilən soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün zəifləməmişdir, əksinə, təbliğat və qarayaxma kampaniyası bir az da gücləndirilmişdir. Erməni şovinist millətçiləri xaricdəki erməni icmalarının və böyük dövlətlərdəki erməni lobbisinin imkanlarından məharətlə yararlanaraq, bu gün də «əzabkeş, məzlum erməni milləti» obrazı yaratmaqda davam edir, beynəlxalq hüquq normalarına meydan oxuyur, bütün yolverilməz vasitələrdən istifadə edərək, əsl soyqırımı haqqında həqiqətləri təhrif etməyə, dünya ictimaiyyətini Azərbaycan torpaqlarının işğalı faktı ilə barışdırmağa çalışır.

Soyqırımı və deportasiya siyasəti xalqımız üçün iqtisadi, siyasi, maddi və mənəvi planda ağır nəticələr vermişdir. İki yüz ilə yaxın davam edən bu bədnam siyasət və məqsədyönlü fəaliyyət nəticəsində əzəli Azərbaycan torpaqları təcavüzkar qonşular tərəfindən qəsb edilmiş, on minlərlə soydaşımız əzab-əziyyətlə öldürülmüş, yüz minlərlə insan doğma torpaqlarından didərgin salınmış, qiymətli maddi-mədəniyyət abidələri vəhşicəsinə məhv edilmişdir. İki milyona yaxın azərbaycanlı soyqırımı siyasətinin və praktikasının ağır nəticələrini bu və ya başqa şəkildə öz taleyində hiss etmişdir.

Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasətinin uzun tarixi olsa da, bu barədə əsl həqiqət Azərbaycan rəhbərliyinin qətiyyəti sayəsində yalnız son illərdə ictimaiyyətə qismən də olsa çatdırılmışdır. Azərbaycanlılara qarşı soyqırımı siyasətini ifşa etmək, bütün həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün müəyyən işlər görülmüşdür. Lakin bu sahədə hələ qarşıda görüləsi işlərimiz çoxdur. Azərbaycan dövləti, ictimaiyyəti, xaricdəki Azərbaycan icmaları üzərinə böyük, məsuliyyətli vəzifələr düşür. Əsl soyqırımı haqqında həqiqətləri real tarixi faktlar əsasında, dəlillərlə müntəzəm surətdə dünya dövlətlərinə və ictimai fikrinə çatdırmaq, bu hadisələrin ilhamçılarını və təşkilatçılarını bəşəriyyətə tanıtdırmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir. Bu məsələdə bütün Azərbaycan xalqı, dünya azərbaycanlıları bir olmalı, eyni mövqedən çıxış etməlidirlər.

Bu dəhşətli hadisələr bəşəriyyətə qarşı cinayət kimi hüquqi-siyasi qiymətini almalıdır. Dünya dövlətləri bu prinsipial məsələdə mövqelərini yenidən dəqiqləşdirməli, erməni təbliğatı nəticəsində formalaşmış stereotiplərdən imtina etməlidirlər. Bu, bir tərəfdən, həmin hadisələrin bir daha təkrarlanmasına yol verməmək üçün vacibdir, o biri tərəfdən isə, soyqırımı qurbanlarının xatirəsi qarşısında bizim vətəndaşlıq borcumuzdur.

Biz tarixdə baş verən hadisələrin erməni millətçilərinin mütəmadi olaraq həyata keçirdiyi eybəcər formada bu günümüzə köçürülməsinin, insanlar və xalqlar arasındakı münasibətlərdə düşmənçilik yaratmaq üçün istifadə olunmasının əleyhinəyik. Müasir dünyada müharibə təbliğatı, insana nifrət ideologiyası, başqa dövlətlərə qarşı ərazi iddiaları bizim üçün yolverilməzdir. Bütöv xalqlara nifrət hissi azərbaycanlılara yaddır. Biz müstəqilliyimizin verdiyi imkanlardan istifadə etməklə ölkəmizin daim tərəqqisinə nail olmaq, vətəndaşlarımız üçün firavan həyat qurmaq istəyirik.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsi qarşısında hörmətlə baş əyir, onların yaxınlarına başsağlığı verir, xalqımıza səadət, firavanlıq, ümummilli vəzifələrimizin həlli yolunda mətanət və dəyanət arzulayıram.

**HEYDƏR**
**ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*26 mart 2002-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR KOMİTƏSİNİN SƏDRİ CEF BİNQƏMƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 mart 2002-ci il*

*Qonaqları səmimiyyətlə qarşılayan Azərbaycan prezidenti Heydər Əliyev bu nümayəndə heyətinin Azərbaycana səfərinin əhəmiyyətli olduğunu bildirərək, ölkəmizin neft strategiyasının uğurla həyata keçirildiyini və bunun gələcəkdə də davam etdiriləcəyini, Azərbaycanın Xəzər dənizinin neft və qaz ehtiyatlarını dünya üçün açdığını, respublikamızın neft hasilatı ilə bağlı çox zəngin təcrübəsi olduğunu, müstəqillik əldə etdikdən sonra bu sahədə xeyli irəliləyişə nail olunduğunu vurğuladı. Xəzərin Azərbaycan sektorunda dünyanın bir çox ölkələrinin neft şirkətləri ilə müqavilələr imzalandığını bildirən prezident Heydər Əliyev bu sahədə konkret nəticələr əldə edildiyini də söylədi. Azərbaycan prezidenti dedi ki, biz 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalayanda bu, dünyada böyük əks-səda doğurmuşdu, buna bir möcuzə kimi baxırdılar. Biz müqavilədə nəzərdə tutulmuş işləri vaxtında gördük və 1997-ci ildə ilkin neftin hasilatına başladıq. Bizim gördüyümüz işlər Xəzərin necə zəngin ehtiyata malik olduğunu göstərdi. İndi Xəzərin Qazaxıstan, Rusiya və Türkmənistan sahillərində də bu işlər görülür. Lakin sahilyanı ölkələr üçün Xəzərin imkanlarını biz açmışıq, bu işin pioneri bizik.*

*Dövlətimizin başçısı əsas ixrac neft kəməri olacaq Bakı–Tbilisi–Ceyhan kəmərinin reallaşması üçün çox işlər görüldüyünü, Gürcüstanla, Türkiyə ilə sazişlər imzalandığını, artıq əməli işlərə başlandığını, habelə Azərbaycan qazının Türkiyəyə ixrac olunması haqqında həmin ölkə ilə, habelə Gürcüstanla sazişlər bağlandığını bildirdi.*

*Amerika Birləşmiş Ştatları Senatının enerji və təbii sərvətlər komitəsinin sədri Cef Binqəmən Azərbaycanda neft və qaz hasilatı, ixrac boru kəmərinin çəkilişi ilə bağlı bir sıra məsələlər barədə müzakirələr aparmaq üçün səfərin əhəmiyyətli olacağını söylədi. Azərbaycanın neft strategiyasının uğurla həyata keçirildiyini vurğulayan qonaq Amerika Birləşmiş Ştatlarının neft şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsindən məmnunluq duyduğunu ifadə etdi. Azərbaycanda Neft Fondunun yaradılmasını yüksək qiymətləndirən qonaq onun gələcək fəaliyyəti ilə də maraqlandı.*

*Keçid dövrünü yaşayan ölkəmizin çoxlu iqtisadi problemlərlə qarşılaşdığını, eyni zamanda bir milyondan artıq qaçqın-köçkünün yaşayışını təmin etmək üçün vəsait tələb olunduğunu vurğulayan prezident Heydər Əliyev bildirdi ki, ölkəmizdə yaradılan Neft Fondu xalqımızın gələcəyi üçün nəzərdə tutulmuşdur. Ondan yalnız ən zəruri hallarda istifadə edə bilərik. Ancaq hələlik onu qoruyuruq.*

*Xəzər dənizinin statusu ilə bağlı problemin hələ də gündəlikdə durduğunu, bu məsələ ilə bağlı Rusiyanın, Qazaxıstanın, Azərbaycanın konkret razılığa gəldiklərini və sənədlər imzaladıqlarını bildirən prezident Heydər Əliyev dedi ki, biz bu barədə danışıqları davam etdiririk.*

*Biz hələ 1994-cü ildən bəyan etmişik ki, dənizin dibi yalnız sektorlar prinsipi əsasında bölünə bilər. Ona görə də lap əvvəldən öz sektorumuz çərçivəsində işləyirik. Dövlətimizin başçısının fikrincə, bu problem də həll olunacaqdır. Azərbaycanın neft strategiyasının çox böyük gələcəyi var və bununla bağlı çoxillik proqram da hazırlanmışdır.*

*Prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatları şirkətlərinin respublikamızın qeyri-neft sektorunda da səmərəli fəaliyyət göstərdiklərini xatırladaraq dedi ki, ölkəmizdə ABŞ şirkətlərinə həmişə xüsusi münasibət göstərilmişdir və gələcəkdə də belə olacaqdır. Amma Amerika şirkətləri də burada işə daha cəsarətlə girişməlidirlər.*

*Söhbət zamanı digər məsələlərə də toxunuldu.*

## RUSİYA FEDERASİYASININ BAKIDAKI SƏFİRİ NİKOLAY RYABOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 mart 2002-ci il*

*Görüşdə səfir Nikolay Ryabov Azərbaycan prezidenti Heydər Əliyevin bu ilin yanvarında Rusiya Federasiyasına etdiyi dövlət səfərinin əhəmiyyətindən danışaraq vurğuladı ki, həmin səfər müstəqil Azərbaycanın və yeni, müstəqil Rusiyanın münasibətləri tarixində silinməz iz qoymuşdur. Səfir dedi ki, səfər başa çatdıqdan sonra onun yekunları hələ xeyli müddət həm Azərbaycan, həm də Rusiya mətbuatının mövzusu olmuşdur.*

*Moskvada əldə edilmiş razılaşmaya uyğun olaraq, bu ilin iyununda Sankt-Peterburqda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi keçiriləcəkdir. Nikolay Ryabov vurğuladı ki, böyük rus şairi Aleksandr Puşkinin Azərbaycan paytaxtında abidəsinin açılışı kimi, bu hadisə də mədəniyyət sahəsində dövlətlərarası əməkdaşlığın inkişafında eyni dərəcədə əhəmiyyətlidir.*

*Səfir təhsil sahəsində normativ-hüquqi bazanı tənzimləyəcək dövlətlərarası sazişi qarşıdakı səfər zamanı imzalamağa hazırlamaq təklifini irəli sürdü. O xatırlatdı ki, Rusiya Federasiyasının Təhsil naziri Vladimir Filippov bu ilin əvvəllərində Azərbaycanda səfərdə olmuş və onun yekunlarına əsasən iki sənəd – təhsil sahəsində əməkdaşlıq haqqında və təhsilə dair sənədlərin qarşılıqlı surətdə tanınması haqqında protokollar imzalanmışdır. Səfirin fikrincə, dövlətlərarası sazişin imzalanması ilk növbədə ona görə zəruridir ki, təhsil müəssisələri təkcə Təhsil Nazirliyinin deyil, həm də başqa idarələrin tabeliyindədir.*

*Görüşdə səfir Rusiya–Azərbaycan birgə universiteti yaradılması təklifini irəli sürdü və dedi ki, əgər belə bir təhsil ocağı olarsa, müəllimlərin əmək haqqının ödənilməsini, metodiki təminatı Rusiya tərəfi, bina ayrılmasını və kommunal xidmətləri isə Azərbaycan tərəfi öz üzərinə götürər. Belə bir layihə Azərbaycan hökumətinə təqdim edilmişdir, lakin ikitərəfli münasibətlərin inkişafı üçün həmin layihənin böyük əhəmiyyəti olduğunu nəzərə alaraq, Azərbaycan dövləti başçısının mötəbər sözünə ehtiyac var.*

*Azərbaycan prezidenti Heydər Əliyev Rusiyaya dövlət səfərinin əhəmiyyətindən danışaraq dedi ki, o, Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin 2001-ci ilin yanvar ayında Azərbaycana ilk səfərinin bir növ davamı oldu. Hər iki səfər çox uğurla keçdi, tərəflər üçün çox faydalı olan danışıqlar, söhbətlər aparıldı, çox mühüm sənədlər imzalandı. Prezident Heydər Əliyev hər iki səfəri ölkələrimiz arasında diplomatik münasibətlər qurulmasının 10 illik dövrü ərzində ən mühüm hadisələr kimi qiymətləndirdi.*

*Azərbaycan prezidenti iyun ayında Sankt-Peterburqa səfəri zamanı təhsil sahəsində dövlətlərarası sazişin, habelə Xəzər dənizinin dibinin bölüşdürülməsi barədə sazişin imzalanmağa hazırlanması haqqında Rusiya səfirinin məlumatından məmnun qaldığını bildirdi.*

*Nikolay Ryabov dedi ki, iki ölkə arasında diplomatik münasibətlər qurulmasının 10 illiyi ilə əlaqədar Rusiya səfirliyi Azərbaycanın Xarici İşlər Nazirliyi ilə birgə toplu hazırlamışdır. Topluya bu müddət ərzində imzalanmış bütün dövlətlərarası sənədlər daxil edilmişdir. Səfir Azərbaycan pzezidentini bu əlamətdar hadisə ilə əlaqədar təşkil olunacaq rəsmi qəbula dəvət etmişdir. Nikolay Ryabov bildirdi ki, səfirlik humanitar xarakterli tədbirlər – bir sıra məktəblərə, uşaq bağçalarına rus və əcnəbi klassiklərin kitablarını paylamaq və s. – keçirməyi də nəzərdə tutmuşdur.*

*Səfirin sözlərinə görə, iqtisadi əməkdaşlıq sahəsində imzalanmış mühüm dövlətlərarası sazişlər hər iki ölkənin işgüzar dairələrinin qarşılıqlı əlaqələrinin genişlənməsinə yol açmışdır. Aprel ayının əvvəlində Bakıda hökumətlərarası komissiyanın 6-cı iclası keçiriləcəkdir. Bu komissiyanın fəaliyyətinin əsasını isə 2010-cu ilədək dövrdə uzunmüddətli iqtisadi əməkdaşlığa dair imzalanmış proqram təşkil edəcəkdir. Rusiyanın məşhur banklarından birinin Bakıda şöbəsinin açılması da hökumətlərarası komissiyanın planlarına daxil edilmişdir. Bu bank firmaların və birgə müəssisələrin fəaliyyətinin maliyyə təminatı və sığortası ilə məşğul olacaqdır.*

*İki ölkə arasında humanitar əməkdaşlığın inkişafının mühüm mərhələsi kimi, aprel ayında Azərbaycanda Rusiya mədəniyyəti günləri keçiriləcəkdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev imzalanmış dövlətlərarası sənədlərin Rusiya parlamenti tərəfindən ratifikasiya edilməsinin sürətləndirilməsinin zəruriliyi barədə fikrini bildirdi. Səfir Nikolay Ryabov bu iradla razılaşaraq dedi ki, məsələnin həllini sürətləndirmək üçün öz tərəfindən əlindən gələni edəcəkdir.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CORC Y.BUŞA**

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dövlətlərimiz və xalqlarımız üçün böyük əhəmiyyət kəsb edən əlamətdar hadisə–diplomatik münasibətlərin yaranmasının on illiyi ilə əlaqədar mənə göndərdiyiniz məktubunuza görə səmimi təşəkkürümü bildirir və bu münasibətlə bir daha Sizi və Amerika xalqını ürəkdən təbrik edirəm. Məktubunuzda Azərbaycana göstərdiyiniz diqqətə, onun fəaliyyətinə verdiyiniz yüksək qiymətə görə Sizə dərin minnətdarlığımı ifadə edirəm.

Bildirmək istəyirəm ki, mən Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı əlaqələrin bütün sahələrdə daha da genişlənməsinin və inkişaf etməsinin tərəfdarıyam və bu istiqamətdə mümkün olan bütün addımları atıram. Sizin qeyd etdiyiniz kimi, biz ölkələrimiz arasında regional təhlükəsizlik, enerji, demokratik və iqtisadi islahatlar sahəsində birgə işləyərək, dövlətlərarası əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldırmaq əzmindəyik.

«Azadlığa dəstək Aktı»na 907-ci düzəlişin ləğv olunması üçün göstərdiyiniz səylərə və əldə etdiyiniz müsbət nəticəyə görə məmnunam. Şübhə etmirəm ki, Siz əldə etdiyiniz səlahiyyətdən istifadə edərək, ölkələrimiz arasında indi xüsusi əhəmiyyət kəsb edən strateji tərəfdaşlıq münasibətlərini daha da möhkəmləndirərək dönməz edəcəksiniz.

Sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilən dəhşətli terror aktları ilə əlaqədar dərhal bəyan etdiyimiz qəti mövqeyimiz ilə biz bir daha sübut etdik ki, sülh, azadlıq və təhlükəsizlik məsələlərində Azərbaycan Amerika Birləşmiş Ştatlarının etibarlı müttəfiqidir. Azərbaycanın Amerika Birləşmiş Ştatlarını həmişə dəstəkləyəcəyinə və terrorizmə qarşı mübarizədə bütün imkanlardan istifadə edəcəyinə əmin ola bilərsiniz.

Çox məmnunam ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun ətrafında yaranmış vəziyyət Sizin diqqətinizdədir. Azərbaycanın ən ağır probleminin ədalətli və davamlı həllinə tezliklə nail olunması və münaqişənin tam aradan qaldırılması ilə bağlı mövqeyinizi xüsusilə yüksək qiymətləndirirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, birgə səylərimiz nəticəsində tezliklə sülhə nail olacağıq, Azərbaycanın işğal edilmiş torpaqları azad olacaq və qaçqınlarımız doğma yurdlarına qayıdacaqlar.

İnanıram ki, ölkələrimiz arasında dostluq, hərtərəfli strateji əməkdaşlıq münasibətləri xalqlarımızın qarşılıqlı mənafeyinə uyğun olaraq daha da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Amerika Birləşmiş Ştatları xalqına isə daim tərəqqi və çiçəklənmə arzulayıram.

*Səmimiyyətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 mart 2002-ci il*

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEV ŞƏHİDLƏR XİYABANINI**
**ZİYARƏT ETMİŞDİR**

*31 mart 2002-ci il*

*Martın 31-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş mərd mübarizlərin uyuduğu müqəddəs Şəhidlər xiyabanını ziyarət etdi.*

*Xiyabana dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, dini icmaların, siyasi partiyaların rəhbərləri, ictimaiyyətin nümayəndələri, şəhər sakinləri toplaşmışdılar.*

*Xiyabanda fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti Heydər Əliyev «Əbədi Məşəl» abidəsinin önünə əklil qoydu, soyqırım qurbanlarının, şəhidlərin xatirəsini dərin ehtiramla yad etdi.*

*Müdafiə Nazirliyi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.*

*Prezident Heydər Əliyev dövlət və hökumət nümayəndələri ilə, səfirlərlə səmimiyyətlə görüşdü. Səfirlər respublikamızın rəhbərinə bu kədərli gün münasibətilə başsağlığı verdilər.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Kraliça – ana Elizabetin vəfatı xəbəri məni ürəkdən kədərləndirdi.
Bu ağır itki ilə əlaqədar Sizə, ailənizə və Böyük Britaniya xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 mart 2002-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər qurulmasının 10 illiyi münasibəti ilə Sizi ürəkdən təbrik edirəm.

Ötən dövr ərzində xalqlarımız və ölkələrimiz arasında ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri hərtərəfli inkişaf etmiş, dərinləşmiş, strateji tərəfdaşlıq xarakteri almışdır.

2001-ci ilin yanvarında Rusiya prezidentinin Azərbaycana ilk rəsmi səfəri və 2002-ci ilin yanvarında Azərbaycan prezidentinin Rusiyaya səfəri Azərbaycan–Rusiya dövlətlərarası münasibətlərinin tarixində, həqiqətən çox mühüm hadisələr olmuşdur. Bu səfərlər zamanı imzalanmış sənədlər ölkələrimiz, dövlətlərimiz arasında keyfiyyətcə yeni qarşılıqlı münasibətlərin etibarlı bünövrəsini qoymuşdur.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında dostluq və əməkdaşlığın daha da möhkəmləndirilməsi regionda sülhə, sabitliyə və tərəqqiyə kömək edəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətlə həllinə yönəldilmiş səylərinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya münaqişənin tezliklə sülh yolu ilə nizama salınması üçün fəaliyyəti daha da gücləndirəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Rusiya xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 aprel 2002-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TSZYAN TSZEMİNƏ**

Hörmətli cənab Sədr!

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında dövlətlərimiz və xalqlarımız üçün böyük əhəmiyyət kəsb edən diplomatik əlaqələrin yaradılmasının 10 illiyi münasibətilə Zati-alilərinizə və dost Çin xalqına ən səmimi arzularımı çatdırmaqdan məmnunluq duyuram.

On il tarixi baxımdan uzun bir müddət olmasa da, Azərbaycan Respublikasının dövlət quruculuğunda olduqca mühüm mərhələdir. Bu illərdə Çin Xalq Respublikası ilə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri olmuşdur.

Razılıq hissi ilə qeyd edirəm ki, keçən on il ərzində yüksək səviyyəli nümayəndə heyətlərinin ölkələrimizə qarşılıqlı səfərləri olmuş, dövlətlərimiz arasında həm Birləşmiş Millətlər Təşkilatı çərçivəsində, həm də ikitərəfli səmimi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri təşəkkül tapmış, bu əlaqələrin əhatə dairəsi genişlənmiş və səviyyəsi yüksəlmişdir.

Mən xalqlarımız arasında tarixi-mədəni əlaqələrin, eləcə də Şərq–Qərb iqtisadi əməkdaşlığının möhkəmləndirilməsinə xidmət edən, Çin xalq Respublikası ilə Avropa arasında körpü rolunu oynayan «Böyük İpək Yolu»nun reallığa çevriləcəyinə və tarixi statusunu özünə qaytaracağına əminəm.

1994-cü ilin mart ayında ölkənizə etdiyim rəsmi səfəri, Zati-alilərinizlə, digər yüksək vəzifəli dövlət adamları ilə səmimi görüşlərimi məmnuniyyətlə xatırlayıram. Bu səfər zamanı aparılan danışıqlar və imzalanan sənədlər ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün möhkəm hüquqi baza yaratdı və geniş perspektivlər açdı. Əmin olduğumu bildirmək istəyirəm ki, dövlətlərimiz arasında dostluq münasibətləri və səmərəli əməkdaşlıq Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında imzalanmış müqavilələr əsasında bütün sahələrdə bundan sonra da xalqlarımızın rifahı naminə dinamik surətdə inkişaf edəcək və genişlənəcəkdir.

Sizi Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edirəm və inanıram ki, bu səfəriniz dövlətlərimiz və xalqlarımız arasında hərtərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verəcəkdir.

Hörmətli cənab Sədr, Sizə cansağlığı və səadət, xalqınıza sülh, firavan həyat, ölkənizə isə daim çiçəklənmə və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 aprel 2002-ci il*

**XALQ ARTİSTİ**
**TAMİLLA MAHMUDOVAYA**

Hörmətli Tamilla xanım!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin tanınmış nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müasir Azərbaycan musiqi sənətinin inkişafında və milli ifaçılıq məktəbimizin zənginləşməsində böyük xidmətləri olan sənətkarlardansınız. Sənətə ilk gəlişinizlə Siz musiqi ictimaiyyətinin diqqətini cəlb etmiş, axtarışlarla dolu zəngin yaradıcılıq yolu keçərək özünəməxsus ifa tərzinizlə milli ifaçılıq sənətimizi daha da inkişaf etdirmiş və unudulmaz sənətkarlarımızın gözəl ənənələrini ləyaqətlə qoruyub yaşada bilmisiniz. Görkəmli Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin ilk ifaçılarından biri kimi səsləndirdiyiniz sənət inciləri yaddaşlara həmişəlik həkk olunmuşdur.

Dünyanın nüfuzlu konsert salonlarında müasir bəstəkarlarla yanaşı, rus və Qərbi Avropa klassiklərinin əsərlərini böyük məharətlə ifa etməyiniz isə Sizi geniş dinləyici kütləsinə daha artıq tanıdıb sevdirmişdir. Ölkəmizdə və onun sərhədlərindən uzaqlarda qastrol səfərlərindəki çıxışlarınız Azərbaycan mədəniyyətinin təbliği işində böyük rol oynamış, milli musiqi sənətimizə dünyanın ayrı-ayrı güşələrindən söhbət gətirmişdir.

Sizin uzun illərdən bəri həyata keçirdiyiniz səmərəli pedaqoji və ictimai fəaliyyət də təqdirəlayiqdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 aprel 2002-ci il*

## AZƏRBAYCAN İLƏ RUSİYA FEDERASİYASI ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏR YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*Bakı,*
*Rusiya səfirliyi*

*4 aprel 2002-ci il*

*Mərasimə toplaşanlar Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi səmimiyyətlə qarşıladılar.*

*Prezident Heydər Əliyev səfirliyin foyesində təşkil edilmiş və ölkələrimiz arasında diplomatik münasibətlərin qurulduğu vaxtdan bəri baş vermiş ən əlamətdar hadisələrdən bəhs edən fotosərgi ilə tanış* oldu.

*Mərasim Rusiyanın və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsi ilə başlandı.*

*Rusiya Federasiyasının ölkəmizdəki səfiri Nikolay Ryabov və Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə nitq söylədilər.*

**Nikolay Ryabov:** Çox hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, Azərbaycan dövlətinin rəhbərləri!

Hörmətli səfir həmkarlarım!

Əziz dostlar!

Bu günlər biz Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər yaradılmasının on illiyini qeyd edirik. Bu hadisənin qaynaqlarına nəzər salarkən, hər iki ölkənin öz müstəqil dövlətlərini qurmaq yollarında xeyli çətinliklərə, ciddi məyusluqlara və hətta milli faciələrə məruz qaldığını vurğulamamaq mümkün deyildir.

Lakin gələcəyə inam, daha ədalətli, demokratik cəmiyyət qurmaq niyyəti ötən əsrin sonlarının dəhşətli illərinin çətinliklərini aradan qaldırmaqda xalqlarımıza kömək etmişdir.

Rusiya və Azərbaycan yeni minilliyə strateji tərəfdaşlar kimi daxil olmuşlar və bu gün bizim münasibətlərimizdə prinsipcə yeni səhifə açılmışdır. Rusiya prezidentinin Azərbaycana səfəri və Azərbaycan prezidentinin Rusiyaya dövlət səfəri bu müsbət prosesdə əlamətdar hadisələr olmuşdur. Heydər Əliyeviç Əliyevin bəyan etdiyi kimi, hər iki səfəri ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının on ili ərzində ən mühüm hadisələr hesab etmək olar.

Bu gün Rusiya ilə Azərbaycan arasındakı, iki suveren və müstəqil dövlət arasındakı münasibətlər hər bir ölkənin milli mənafelərini nəzərə alan praqmatik, işgüzar, qarşılıqlı surətdə faydalı əsasda səmimi, etibarlı əməkdaşlıq xarakteri kəsb edir. Bu, prezidentlərin 2002-ci il 25 yanvar tarixli birgə bəyanatinda da əksini tapmışdır. Bəyanatda deyilir: «Dövlət başçıları iki ölkə xalqlarının hərtərəfli şəkildə yaxınlaşmasının, qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlığın dərinləşməsinin, əmtəə dövriyyəsinin həcminin artırılmasının, Azərbaycan və Rusiya xalqları arasında ənənəvi dostluq və etimad tellərinin möhkəmləndirilməsi üçün mədəniyyət, elm, təhsil, informasiya, turizm və idman sahələrində əməkdaşlığın genişləndirilməsinin zəruriliyinə diqqət yetirdilər». Bununla yanaşı, bəyanatda xüsusi vurğulanır ki, demokratik proseslərin möhkəmləndirilməsi, insan hüquqlarına və əsas azadlıqlarına hörmət və riayət edilməsi hər iki ölkədə siyasi, iqtisadi, sosial və humanitar sahələrdə həyata keçirilən islahatların dönməzliyinin mühüm şərtidir.

Bizim əlaqələrimiz xalqlarımızın tarixi talelərinin ümumiliyinə, toplanmış siyasi və mənəvi, bu gün isə bunu da əlavə edə bilərik ki, bünövrəsini 1997-ci il tarixli dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə təşkil edən və 70-dən artıq sazişdən ibarət olan möhkəm müqavilə-hüquq bazasına əsaslanır.

Məsələn, Azərbaycan prezidentinin bu ilin yanvarında Moskvaya səfəri zamanı imzalanmış 2010-cu ilədək olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilənin və proqramın xüsusi əhəmiyyəti var. Bu sənədlər paketində energetika, nəqliyyat, maşınqayırma, kənd təsərrüfatı sahələrində və başqa sahələrdə birgə fəaliyyət haqqında konkret xarakterli tədbirlər var. Rusiya və Azərbaycan şirkətləri energetika sahəsində, neft-qaz kompleksində uğurla əməkdaşlıq edirlər. Nəqliyyat və rabitə sahəsində əməkdaşlıqdan danışarkən və onun müsbət dinamikasını qeyd edərkən, tərəflərin quru və su yollarından istifadə etməklə iki böyük nəqliyyat dəhlizinin – TRASEKA və Şimal–Cənub dəhlizlərinin inkişafı üçün göstərdikləri səyləri vurğulamamaq olmaz. Hazırda Rusiya və Azərbaycan bir-birinə qarşılıqlı kömək şəraitində hər iki beynəlxalq nəqliyyat kommunikasiyasına qoşulurlar.

Bu gün biz Xəzər dənizi problemi sahəsində hər iki tərəfin mənafelərinin uyğunlaşdırılmasını məmnuniyyətlə nailiyyətlərimiz sırasına aid edə bilərik. Xəzərin hüquqi statusu məsələsində ölkələrimizin mövqelərinin yaxınlığı xüsusilə önəmlidir. Indi dənizin dibinin bölgüsü haqqında protokolun imzalanmağa

hazırlanması üzərində konkret iş gedir və biz bu məsələdə də başqalarına nümunə göstərərək, mehriban qonşular kimi hərəkət edirik.

Dağlıq Qarabağ münaqişəsi Azərbaycan xalqı üçün çox mürəkkəb və olduqca ağrılı problemdir. Biz azərbaycanlıların və onların problemini sülh yolu ilə həll etməyə çalışan liderinin – prezident Heydər Əliyevin göstərdikləri müdrikliyini, dəyanətini, səbrini yüksək qiymətləndiririk. Rusiya bu münaqişənin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq və ilk növbədə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və onun beynəlxalq aləmdə tanınmış sərhədlərinin pozulmazlığına riayət edilməsi və BMT Təhlükəsizlik Şurasının həmin münaqişə barədə müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsi əsasında siyasi yolla nizama salınmasına kömək etmək əzmini bir daha təsdiqləyir.

Bu gün humanitar sahədə münasibətlərimiz, insanlarda, şübhəsiz, xüsusi maraq doğuran layihələr də olduğca böyük müsbət potensial ilə səciyyələnir. Mən Rusiyadakı azərbaycanlıların statusu haqqında sazişin hazırlanmasını nəzərdə tuturam. Moskvada prezidentlərimiz bu barədə danışmışlar. Mən təhsil barədə sənədlərin qarşılıqlı surətdə tanınması haqqında hökumətlərarası sazişi və Bakıda Rusiya–Azərbaycan birgə dövlət universiteti açılması haqqında hökumətlərarası sazişi nəzərdə tuturam. Bu sazişlərin həyata keçirilməsi xalqlarımızın dostluq tellərini və mənəvi yaxınlığını daha da möhkəmləndirəcək, ölkələrimizdə milyonlarla insanın müdafiəsi və onların gələcəyə inamı üçün şərait yaradacaqdır.

Çox hörmətli Heydər Əliyeviç!

Rusiya Azərbaycan xalqının lideri kimi, Azərbaycan Respublikasının müdrik və uzaqgörən rəhbəri kimi, Rusiyanın böyük dostu kimi, Sizi yüksək qiymətləndirir. Siz bunu Moskvada səfərdə olarkən bir daha yəqin etdiniz. Rusiya–Azərbaycan münasibətlərinin ümumi potensialına misilsiz töhfə verdiyinizə görə, ikitərəfli əməkdaşlığın bütün cəhətlərinə şəxsən diqqət yetirdiyinizə görə, məsələlərin dərindən araşdırılmasına və vaxtında həll edilməsinə görə Sizə böyük ehtiramımızı bildiririk. Bizim Rusiyada deyildiyi kimi, Allah Sizə cansağlığı versin. Çox sag olun.

* * *

*Səfir Nikolay Ryabov diplomatik münasibətlər yaradılmasının 10 illiyi ilə əlaqədar Rusiya prezidenti Vladimir Putinin təbrikini, Rusiya səfirliyinin Azərbaycan Xarici İşlər Nazirliyi ilə birgə buraxdığı dövlətlərarası sənədlər toplusunu, səfirlikdə təşkil olunmuş fotosərgi barədə bukleti, xatirə nişanını və vımpeli Azərbaycan dövlətinin başçısına təqdim etdi.*

**Heydər Əliyev:** Hörmətli cənab səfir!

Xanımlar və cənablar!

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılmasının 10-cu ildönümü ilə əlaqədar sizi ürəkdən təbrik edirəm.

Azərbaycanın keçmişdə Rusiyanın, sonra isə Sovetlər İttifaqının tərkibində olduğunu nəzərə alsaq, Azərbaycanın dövlət müstəqilliyinin Rusiya tərəfindən tanınması çox mühüm tarixi hadisə idi. Biz təxminən 200 il bir dövlətin tərkibində olmuşuq. Sovetlər İttifaqı süquta uğrayanda və Azərbaycan öz dövlət müstəqilliyini bəyan edəndə Rusiya bu dövlət müstəqilliyini tanıdı. Bu, Azərbaycanın dövlət müstəqilliyinin butün dünyada tanınmasını müəyyənləşdirdi. Dövlət müstəqilliyi şəraitində əməkdaşlığımızın 10 ili cox səmərəli olmuşdur, baxmayaraq ki, biz çətin yol keçmişik. Çətinliklər, maneələr olmuşdur. Əməkdaşlığımızın uğurlu olmasından ötrü biz tez-tez müxtəlif maneələri aradan qaldırmalı olmuşuq. Lakin biz öz niyyətlərimizdə və məqsədlərimizə catmaqda ardıcıl olmuşuq. Məqsədimiz isə eynidir. Azərbaycanın da, Rusiyanın da məqsədi diplomatik münasibətlər yaratmaqdan, ölkələrimiz arasında bütün sahələrdə sıx əməkdaşlığı təmin etməkdən ibarət olmuşdur.

Bu gün, diplomatik münasibətlərimizin yaradılmasının 10-cu ildönümünü qeyd edərkən iftixarla deyə bilərik ki, biz bu yolu uğurla keçmişik. Biz yaxşı əməkdaşlığa nail olmuşuq. Nikolay Timofeyeviçin mənə təqdim etdiyi və sizə göstərdiyi bu sənədlər toplusu buna sübutdur.

Bu deyilənlər, əlbəttə, hamısı deyildir. Biz kağızsız, sənədsiz, sazişlərsiz və müqavilələrsiz də xeyli iş görmüşük və görürük. Lakin bu cilddə bizim aramızda, iki müstəqil dövlət – Rusiya ilə Azərbaycan arasında münasibətlərin hüquqi əsasını təşkil edən başlıca sənədlər toplanmışdır.

Nikolay Timofeyeviç burada bu müddət ərzində nəyə nail olduğumuz və indi nə üzərində işlədiyimiz barədə ətraflı məlumat verdi. Ona görə də mən yalnız bunu deyə bilərəm ki, Nikolay Timofeyeviçin dediklərinin hamısı ilə razıyam və bu da təbiidir ki, məni uzun nitq söyləməkdən azad edir. Çünki bütün sahələrdə münasibətlərimizin inkişafı baxımından həqiqətən haqqında danışmaq lazım gələn hər şey barədə danışsam, onda, Nikolay Timofeyeviç, istər-istəməz sizin dediklərinizin çoxunu təkrarlamalıyam. Mən isə bu fikirdəyəm ki, bu lazım deyildir, səfirin dedikləri tamamilə kifayətdir və mən onunla razıyam.

Başlıca məsələ isə ondan ibarətdir ki, bu gün Rusiya ilə Azərbaycan arasında, rus xalqı ilə Azərbaycan xalqı arasında mehriban dostluq əlaqələri və sıx əməkdaşlıq mövcuddur. Xalqlarımız arasında böyük tarixə malik olan dostluq ənənələri bu gün də, gələcəkdə də fəaliyyətimiz üçün yaxşı əsasdır.

Bu gün biz böyük minnətdarlıq hissi ilə deyirik ki, Rusiya xalqımızın maariflənməsində, mədəniyyətin inkişafında, ali təhsil sisteminin, elmi müəssisələrin və sairənin yaradılmasında böyük rol oynamışdır. Ona görə də, bu gün Azərbaycan bir müstəqil dövlət kimi, bütün dünya qarşısında, əvvəllər ölkəmizlə kifayət qədər tanış olmayan digər ölkələr qarşısında durarkən biz böyük iftixar hissi keçiririk ki, xalqımız hələ əsrin əvvəlində maarifə və ümumbəşəri dəyərlərə, Avropa mədəniyyətinə qovuşmuşdur. Biz fəxr edirik ki, belə yüksək mədəniyyətə, incəsənətə malikik, xalqımız tamamilə savadlıdır, ölkəmizdə kifayət qədər ali təhsil müəssisələri, universitetlər vardır. Özü də onların çoxu böyük tarixə malikdir. Xalqımız böyük ənənələrə malikdir və bütün bunlarda, əlbəttə, Rusiya və rus xalqı ilə münasibətlərimiz böyük rol oynamışdır.

Buna görə də bir daha təkrar edirəm ki, əməkdaşlığımız, dostluğumuz üçün, bütün sahələrdə münasibətlərimizin inkişafı üçün yaxşı əsas vardır. Biz münasibətlərimizi bu əsasda inkişaf etdirmək və dərinləşdirmək əzmindəyik. Bizim bu arzularımız və inamımız 2001-ci ilin yanvarında Rusiya prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri və 2002-ci ilin yanvarında Azərbaycan prezidentinin Moskvaya dövlət səfəri zamanı imzalanmış sənədlərdə öz əksini tapmışdır. Bu sənədlərdə hər şey əks olunmuşdur. Həmin sənədlər və bizim görüşlərimiz Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafının yeni mərhələsinin əsasını təşkil edir. Bu gün deyə bilərəm ki, ölkələrimiz arasında heç bir problem yoxdur, bir-birimizə qarşı heç bir iddiamız yoxdur, aramızda dostluq, mehriban əməkdaşlıq mövcuddur və biz bu əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək əzmindəyik.

Bu gün onu da qeyd etmək xoşdur ki, Rusiya hökuməti, Rusiya rəhbərliyi tərəfindən də bu arzunu, bu niyyəti müşahidə edirik.

Mən Sizi ümumi bayramımız münasibətilə bir daha təbrik edirəm. Siz yaxşı yerdə, Bakı şəhərinin ən yaxşı guşələrindən birində məskən salmısınız, bura əvvəllər də yaxşı yer sayılırdı, indi də yaxşı yerdir. Əvvəllər burada park var idi, indi isə siz burada özünüzə yaxşı bina tikmisiniz, yaxşı yaşayış kompleksi yaratmısınız. İndi görürəm ki, siz bununla kifayətlənmirsiniz, burada örtülü tennis kortu tikirsiniz. Burada, Azərbaycanda, siz, bax, belə yaşayırsınız! Rusiya səfirliyi üçün gör necə şərait yaradılmışdır və bunun özü də çox şeydən xəbər verir.

Sizə – mən Rusiyanın Azərbaycandakı səfirliyini nəzərdə tuturam – Rusiya ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın daha da möhkəmlənməsi və inkişafı naminə bu gözəl ərazidəki binada uzun illər yorulmaz fəaliyyət arzulayıram.

* * *

*Sonra dövlətimizin başçısı mərasimdə iştirak edən bir sıra xarici ölkələrin səfirləri ilə, ziyalılarla görüşərək səmimi söhbət etdi.*

*Mərasimdə iştirak edən Azərbaycanın Xalq artisti, Rusiyanın əməkdar artisti Tamilla Mahmudova prezident Heydər Əliyevə yaxınlaşaraq, yubileyi ilə əlaqədar yüksək dövlət mükafatı ilə təltif olunduğuna, təbrik məktubuna və mədəniyyət xadimlərinə göstərdiyi qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, prezidentə özünün yubiley bukletini təqdim etdi.*

*Azərbaycandakı kazakların atamanı Vladimir Merejkin dövlətimizin başçısından fotoşəkil üzərində avtoqraf yazmağı xahiş etdi. O, Azərbaycan prezidentinə müraciətlə dedi ki, bu fotoşəkil kazakların muzeyinin ən dəyərli eksponatı olacaqdır.*

**ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN PREZİDENTİ MƏMMƏDBAĞIR ƏLİYEV BAŞDA OLMAQLA RUSİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*4 aprel 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq dedi ki, bilirəm, işləriniz çoxdur, amma gəlib-gedin, Vətəni yaddan çıxarmayın. Dövlətimizin başçısı vurğuladı ki, Moskvada Ümumrusiya Azərbaycan Konqresinin yaradılmasından və Bakıda Dünya azərbaycanlılarının birinci qurultayı keçiriləndən sonra Azərbaycan diasporu hər yerdə, o cümlədən Rusiyada da canlanmış, fəaliyyəti genişlənmişdir. Lakin bu sahədə görülən işlərə diqqət daha da artırılmalı, Azərbaycan diasporunun mütəşəkkil bir qüvvəyə çevrilməsi üçün müntəzəm və məqsədyönlü fəaliyyət göstərilməlidir.*

*Prezident Heydər Əliyev xüsusi nəzərə çatdırdı ki, Vətəndən uzaqlarda yaşayan azərbaycanlıların xalqımızın milli adət və ənənələrini, ilk növbədə gözəl, doğma ana dilini unutmamasına böyük diqqət yetirilməlidir. Müasir dövrdə dünyanın ən geniş yayılmış dillərini bilmək yaxşıdır, amma hamı ilk növbədə öz doğma dilini dərindən öyrənməli, bilməlidir.*

*Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, Rusiya Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor Məmmədbağır Əliyev vaxt ayırıb nümayəndə heyətini qəbul etdiyinə görə prezident Heydər Əliyevə minnətdarlığını bildirdi, ona möhkəm cansağlığı arzuladı.*

*Məmmədbağır Əliyev Ümumrusiya Azərbaycan Konqresinin fəaliyyəti haqqında qısa məlumat verərək dedi ki, təşkilindən cəmi yarım ilə yaxın vaxt keçməsinə baxmayaraq, Konqres qeyri-peşəkar qurumdan peşəkar struktura çevrilmişdir. Hazırda onun konkret vəzifələri yerinə yetirən 9 komitəsi, ştatlı icra aparatı var. Rusiya Federasiyasının rəhbərliyi ilə yaxından əlaqələr yaradılmışdır. Konqres respublikamızın Moskvadakı səfirliyi ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir.*

*Daha sonra Ümumrusiya Azərbaycan Konqresinin işi, Rusiyadakı Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ ANTANAS VALİONİS İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*9 aprel 2002-ci il*

*Dövlətimizin başçısı Heydər Əliyev qonağı salamlayaraq bildirdi ki, Avropa Şurasının rəhbərlərindən birinin bu beynəlxalq təşkilatın gənc üzvlərindən biri olan Azərbaycana səfəri ölkəmiz haqqında daha səhih məlumat alınması işində öz rolunu oynayacaqdır. Azərbaycanda həmişə çalışmışlar ki, Avropada respublikamızı daha yaxşı tanısınlar. Prezident Heydər Əliyev vurğuladı ki, müasir Azərbaycanın problemləri və prosesləri digər Avropa ölkəsinin vətəndaşına nisbətən cənab Valionisə daha anlaşıqlı və yaxın olacaqdır, çünki vaxtilə Azərbaycan kimi, Litva da Sovet İttifaqının tərkibinə daxil idi.*

*Səmimi qəbula görə Azərbaycan prezidentinə təşəkkür edən Antanas Valionis Litvanın Baş naziri Algirdas Brazauskasın salamını dövlətimizin başçısına yetirdi. O, Litva ilə Azərbaycan arasındakı münasibətlərdən söhbət açaraq və Nazirlər Kabinetində, Milli Məclisdə keçirdiyi görüşlərə yekun vuraraq, bu əlaqələri inkişaf etdirməyin zəruriliyini söylədi və dedi ki, Litva beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləməyə hazırdır.*

*Avropa Şurası Nazirlər Komitəsinin sədri Antanas Valionis səfərindən başlıca məqsədin Azərbaycanla tanışlıq olduğunu söylədi, Bakıda keçirilmiş görüşlərdən məmnun qaldığını və onların konstruktiv olduğunu bildirdi. Cənab Valionisin dediyinə görə, Avropa Şurası ekspertlərin məsləhətləşmələrinin keçirilməsində, bu tədbirlərin maliyyələşdirilməsində Azərbaycana öz imkanları və səlahiyyəti daxilində yardım göstərməyə hazırdır. Səfər zamanı indiyədək əldə edilmiş uğurlara dair danışıqlar aparılmış, mövcud problemlərin həlli yolları müəyyənləşdirilmişdir.*

*Antanas Valionis Azərbaycan Avropa Şurasının tamhüquqlu üzv olduğu dövrdə onun bu təşkilatla əməkdaşlığının səmərəli olduğunu vurğulayaraq dedi ki, Azərbaycan AŞ-nın bir sıra konvensiyalarına qoşulmuşdur, bu sahədə qanunvericilik bazasını genişləndirmək nəzərdə tutulur.*

*Prezident Heydər Əliyev bildirdi ki, o, SSRİ-nin dağılması dövründə Litva KP MK-nın birinci katibi vəzifəsində çalışmış Algirdas Brazauskasın Litvanın müstəqilliyə nail olmaq məsələsində prinsipial mövqeyini, cəsarətini, dəyanətini və eyni zamanda ziyalılığını həmişə qeyd etmişdir. Bu, müttəfiq respublika rəhbərinin Sov.İKP MK-nın xəttinə qarşı çıxdığı ilk hal idi. Dövlətimizin başçısı onun salamını və ən xoş arzularını, habelə Azərbaycana gəlmək dəvətini Algirdas Brazauskasa yetirməyi xahiş etdi.*

*Azərbaycan prezidenti vurğuladı ki, ikitərəfli əlaqələrin, xüsusən iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı zəmin, imkanlar var və ölkəmiz Litva ilə münasibətlərin inkişaf etdirilməsinə çalışacaqdır.*

*Prezident Heydər Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığını yüksək qiymətləndirdiyinə görə Avropa Şurası Nazirlər Komitəsinin sədrinə təşəkkür etdi. Avropa Şurasının gənc üzvü olan Azərbaycan orada ilk addımlarını atır. Uğurlarla yanaşı, çətinliklər, problemlər də var. Azərbaycan öz siyasətini bu Avropa qurumunun standartlarına müvafiq surətdə qurmaq niyyətindədir, lakin problemlərin həllinə yanaşmada hər bir ölkənin xüsusiyyətini nəzərə almaq lazımdır. Prezident Heydər Əliyev dedi ki, məsələn, Litva Avropaya, Avropa dəyərlərinə həmişə daha yaxın olmuşdur. O, 1960-cı illərdə Litvaya səfəri barədə xatirələrindən söhbət açaraq dedi ki, hələ həmin illərdə Baltikyanı ölkələr Avropa həyat tərzinə, Avropa standartlarına yaxınlığı ilə fərqlənirdilər.*

*Antanas Valionis Litva prezidenti Valdas Adamkusun ölkəyə səfər etmək barədə dəvətini Azərbaycan prezidenti Heydər Əliyevə çatdırdı. Cənab Valionisin fikrincə, iki ölkə baş nazirlərinin nəzərdə tutulan görüşü də iqtisadi münasibətlərin inkişafına təkan verəcəkdir.*

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**

Hörmətli həmvətənlər!

Hər il bütün mütərəqqi bəşəriyyət tərəfindən yəhudi xalqının müsibəti və qəhrəmanlıq günü qeyd olunur, faşizmin yəhudilərə qarşı həyata keçirdiyi soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsi ürək ağrısı ilə yad edilir.

İkinci dünya müharibəsi zamanı altı milyon mülki əhali yəhudi xalqına mənsub olduğu üçün dəhşətli ayrı-seçkilik siyasətinə məruz qalmış, qəddarlıqla kütləvi surətdə məhv edilmişdir.

1943-cü ilin aprelində Varşava gettosu məhbuslarının faşizmə, milli-dini ayrı-seçkiliyə qarşı ölüm-dirim mübarizəsinə qalxması yəhudilərin öz milli və insani ləyaqəti uğrunda tarixi etiraz aksiyası idi.

Faşizmin bu qanlı cinayətinə zamanında hüquqi-siyasi qiymət verilsə də, faciənin dəhşətləri hələ də tarixin yaddaşında qara ləkə kimi yaşamaqdadır. Təəssüf ki, bütövlükdə bəşər sivilizasiyasını hədəf götürmüş belə anti-insani aksiyalar bu gün də təkrar olunur. Son on dörd ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən deportasiya və soyqırımı siyasəti, misli görünməmiş Xocalı müsibəti XX əsrdə dünyanın ən böyük milli fəlakətlərindəndir.

Bütün bunlar yalnız bir xalqın milli faciəsi hesab edilə bilməz. Bu, bütövlükdə insanlığa qarşı cinayət kimi qiymətləndirilməli, bəşəriyyət faşizmin, nasizmin hər cür təzahüründən birdəfəlik xilas edilməlidir. Azərbaycan Respublikası dünyamızın əmin-amanlığı uğrunda bütün mütərəqqi qüvvələrlə əməkdaşlığa hazırdır və bu yolda əlindən gələni əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Azərbaycanda dilindən, dinindən asılı olmayaraq bütün xalqlar tarixən mehriban ailə kimi yaşamış, bir-birinin dərdinə, sevincinə ortaq olmuşlar. Yəhudi xalqının müsibəti günündə Azərbaycan xalqı adından kədərinizə şərik olduğumu bildirir, irticanın günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 aprel 2002-ci il*

**RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN RUSİYA TƏRƏFDƏN SƏDRİ VİKTOR XRİSTENKONUN BAŞÇILIQ ETDİYİ RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*10 aprel 2002-ci il*

*Viktor Xristenko Iqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Bakıda keçirilmiş altıncı iclasının nəticələri barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, son il yarım Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə ən fəal dövrdür. İndiki iclas Azərbaycan prezidenti Heydər Əliyevin 2002-ci ilin yanvarında Rusiya Federasiyasına dövlət səfəri zamanı əldə olunmuş razılaşmaların müəyyən dərəcədə davamıdır.*

*Viktor Xristenko bu ilin ilk aylarında əmtəə dövriyyəsinin ötən ildəkinə nisbətən 1,5 dəfə artmasını iqtisadi əməkdaşlığın yaxşılaşmasının müsbət amili adlandıraraq bildirdi ki, hökumətlərarası komissiyanın vəzifəsi bu nəticələri uzunmuddətli etməkdir.*

*Rusiya nümayəndə heyətinin səfəri zamanı Xəzər dənizinin dibinin bölünməsi haqqında sazişin Azərbaycan prezidenti Heydər Əliyevin iyunda Sankt-Peterburqa səfərinin gedişində imzalanmağa hazırlanması üçün zəmin yaradılmış, humanitar sahə ilə bağlı sənədlər müzakirə edilmişdir.*

*Rusiya hökuməti sədrinin müavininin fikrincə, bu, ikitərəfli əlaqələrin inkişafı işinə yaxşı töhfə olacaqdır.*

*Viktor Xristenko Azərbaycan–Rusiya münasibətlərinə və Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlərin yaradılmasının 10-cu ildönümünə yetirdiyi diqqətə görə prezident Heydər Əliyevə təşəkkürünü bildirdi.*

*Prezident Heydər Əliyev Azərbaycan–Rusiya münasibətlərinin səviyyəsindən danışarkən dedi ki, Rusiya prezidenti Vladimir Putinin ölkəmizə rəsmi səfərindən sonra bu əlaqələrin yaxşılaşması və genişlənməsi prosesi başlanmışdır. Odur ki, Azərbaycan prezidentinin 2002-ci ilin yanvarında Rusiyaya dövlət səfəri bunun davamı olmuşdur və dövlətimizin başçısının vurğuladığı kimi, bu səfər çox uğurla keçmişdir. Azərbaycan rəhbəri həmin səfər zamanı göstərilmiş qonaqpərvərliyə, habelə məsələlərin dostcasına, birgə müzakirəsinə görə bir daha təşəkkürünü bildirdi.*

*Prezident Heydər Əliyev komissiyanın Bakı iclası zamanı imzalanmış sənədləri, o cümlədən 2010-cu ilədək dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilənin həyata keçirilməsinə dair tədbirlər proqramını, habelə Xəzər dənizinin təkinin bölünməsi haqqında saziş hazırlanarkən əsas götürüləcək protokolu yüksək qiymətləndirdi.*

*Respublika Baş nazirinin birinci müavini, hökumətlərarasi komissiyanin Azərbaycan tərəfdən sədri Abbas Abbasov qəbulda çıxış edərək dedi ki, komissiyanın iclasında Azərbaycan fermerlərinin kənd təsərrüfati məhsullarının Rusiya bazarlarına göndərilməsi məsələləri müzakirə olundu. Azərbaycan tərəfi Rusiya Federasiyasının subyektləri ilə birbaşa əlaqələr yaratmağa imkan tapdı və respublikamızın nümayəndə heyəti Saratov vilayətinin rəhbərliyi ilə danışıqlar aparmaq üçün aprelin 11-də oraya yola düşür. Dağıstan Baş nazirinin də iştirak etdiyi iclasda iqtisadi strukturların işi, sərhədyanı ticarətin inkişafı üçün sərhəddə əlverişli şərait yaradılması arzusu ifadə olundu. Azərbaycan tərəfi Rusiya tərəfinə belə bir xahişlə müraciət etdi ki, onlar ölkəmizdən kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına daşınması üçün yeni şərtlər haqqında sənədlər paketinin azərbaycanlı həmkarları ilə birgə üc ay müddətində hazırlanması barədə özlərinin müvafiq idarələrinə tapşırıq versinlər. Abbas Abbasovun dediyinə görə, Rusiya nümayəndə heyəti bu təklifi müsbət qarşılamışdır.*

*Prezident Heydər Əliyev vurğuladı ki, Azərbaycanda torpaq kəndlilərin mülkiyyətinə veriləndən sonra kənd təsərrüfatı məhsullarının istehsalı axır illərdə xeyli artmışdır. Daxili bazarın tələbatı tam ödənilir və bəzi kənd təsərrüfatı məhsulları artıq qalır ki, onları da Rusiya bazarlarında satmaq olar. Əvvəllər, SSRİ dövründə Azərbaycan Rusiya Federasiyası şəhərlərinin faraş kənd təsərrüfatı məhsulları ilə əsas təchizatçısı idi.*

*Viktor Xristenko dedi ki, komissiyanın iclasında meyvə və tərəvəz aparan avtomaşınların Azərbaycan–Rusiya sərhədində ləngiməsi ilə bağlı məsələlərin həllinə dair tədbirlər müzakirə edilmişdir. Azərbaycandan kənd təsərrüfatı məhsulları aparan avtomaşınların sərhəddən buraxılmasını asanlaşdırmaq üçün cari ilin dördüncü rübündə yeni buraxılış məntəqəsi açmaq nəzərdə tutulur və o, gündə 500 yük maşınına xidmət etməyə imkan*

*verəcəkdir. 2003-cü və 2004-cü illərdə isə daha iki buraxılış məntəqəsi açılacaqdır. Müvafiq rüsumların rəsmiləşdirilməsi, ödənilməsi prosedurunu sadələşdirmək üçün də tədbirlər görüləcəkdir.*

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*11 aprel 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab nazir, ağayi Xərrazi!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. Hörmətli ağayi Xərrazi, mən sizin Azərbaycana gəlmək haqqında qəbul etdiyiniz qərardan çox məmnunam. Güman edirəm ki, sizin bu qısamüddətli səfəriniz İran–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox faydalı olacaqdır.

Mən bir neçə vaxtdır ki, İrana gəlməyə hazırlaşıram. Amma bizdən asılı olmayan bəzi hadisələr bu səfərin müəyyən qədər ləngiməsinə gətirib çıxarır. Ancaq belə bir şəraitdə sizin Azərbaycana, Bakıya gəlməyiniz, hesab edirəm ki, çox faydalıdır.

Bu gün qısa müddətdə Baş nazirlə, Xarici İşlər naziri ilə görüşləriniz olub və güman edirəm, bu görüşlər yaxşı keçibdir. İndi də biz sizinlə görüşüb söhbət etmək imkanı əldə etmişik. Buyurun.

**K a m a l X ə r r a z i:** Cənab Prezident, çox sağ olun. Mən çox şadam ki, ikinci dəfədir Sizinlə görüşürəm. Keçmiş görüşdən yaxşı və yaddaqalan xatirələrim vardır. Sizinlə keçirdiyim görüşdən mən çox faydalanmışam. Belə ki, Siz dünya miqyasında böyük bir siyasətçi kimi tanınırsınız.

Xoşbəxtlikdən, İran–Azərbaycan münasibətləri gündən-günə inkişaf etməkdədir. Sözsüz ki, xarici işlər nazirlərinin gediş-gəlişləri, səfərləri münasibətlərimizin inkişafına daha çox müsbət təsir göstərə bilər. Azərbaycanın Xarici İşlər naziri cənab Vilayət Quliyevlə biz belə qərara gəlmişik ki, görüşlərimizi mütəmadi şəkildə, 6 aydan bir həyata keçirək. Sözsüz ki, iki dövlətin başçılarının möhkəm siyasi iradələri nəticəsində bizə bu görüşləri keçirmək və həll olunmayan məsələləri daha da tez bir müddətdə həll etmək müyəssər ola bilər.

Cənab Prezident, ölkəmizin prezidenti cənab Xatəmi Sizə çox səmimi və hərarətli salamlarını çatdırmağı mənə tapşırmışdır. Deməliyəm ki, Sizin şəxsiyyətinizə onun çox böyük hörməti vardır. O, İranla Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi diqqət yetirir və bunu təkidlə izləyir. Belə hesab edirəm ki, zati-aliləri, Sizin və cənab Xatəminin siyasi iradəsi nəticəsində iki ölkə arasında, Azərbaycan və İran arasında münasibətlər gündən-günə daha da genişlənəcək və vüsət tapacaqdır. Təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm.

Əvvəla, çox məmnunam ki, mənim dostum prezident cənab Xatəmi öz salamlarını sizin vasitənizlə mənə çatdırıbdır. Təşəkkür edirəm. Xahiş edirəm mənim salamlarımı və ən xoş arzularımı cənab Xatəmiyə çatdırasınız.

Mən sizinlə tamamilə razıyam ki, İran–Azərbaycan əlaqələri inkişaf etməkdədir. Çox sevindirici haldır ki, hər iki tərəf – həm Azərbaycan, həm də İran bu əlaqələri daha da inkişaf etdirmək istəyir. Mən bəyan edirəm ki, biz İranı qonşumuz, dostumuz və qardaş ölkəmiz hesab edirik. İran ilə olan əlaqələrimizə biz xüsusi əhəmiyyət veririk. Bu əlaqələri həm möhkəmləndirmək istəyirik, həm də daim genişləndirmək, inkişaf etdirmək istəyirik. Doğrudur, bu əlaqələrin inkişaf etməsinə maneçilik törədənlər də var və ümumiyyətlə, ayrı-ayrı əngəllər də çıxır. Ancaq bunların heç birisi bizim İran–Azərbaycan əlaqələri haqqında siyasətimizə heç bir təsir göstərə bilməz .

Bu yaxınlarda sizin parlamentin deputatlarının bir qrupu cənab Şerdustun rəhbərliyi ilə Azərbaycana gəlmişdi. Burada çoxsaylı görüşlər keçirdilər. Mən də onlarla görüşdüm, çox faydalı söhbətimiz oldu. Belə görüşlər bizim işlərimizə kömək edir. Mən tam razıyam ki, siz, İranın və Azərbaycanın xarici işlər nazirləri belə qərar qəbul etmisiniz ki, altı aydan bir ya İranda, ya da Azərbaycanda görüşəsiniz. Mən bu fikri dəstəkləyirəm. Ümidvaram ki, bu çox səmərəli olacaqdır.

Bilirsiniz ki, mənim İrana gəlməyimlə əlaqədar artıq biz lazım olan sənədlərin hamısını işləyib hazırlamışdıq. İndi sənədlər masanın üstündədir. Həm dostluq, əməkdaşlıq haqqında müqavilə, həm də siyasi bəyanat. Doğrudur, bunları o səviyyəyə gətirmək üçün bir müddət hər iki tərəfdən çalışdıq. Ancaq eyni zamanda, bu da təbiidir, heç şey bir dəfədən alınmır. Ona görə mən hesab edirəm ki, artıq bizim sənədlərimiz hazırdır. Bilirsiniz ki, mənim Amerika Birləşmiş Ştatlarına getməyimlə əlaqədar və orada müəyyən qədər müalicə almağımla əlaqədar o vaxt səfər edə bilmədim. Biz danışacağıq, yaxın vaxtlarda bizim ikimizin də qərarını həyata keçirəcəyik.

Bilirsiniz, 11 sentyabr hadisələrindən sonra bizim regionda çox mürəkkəb vəziyyət var. Hamımız beynəlxalq terrorizmlə mübarizəyə daha da fəal qoşulmalıyıq. Biz bu barədə öz siyasətimizi bəyan etmişik. Bildiyimə görə, İran da bəyan edibdir ki, beynəlxalq terrorizmlə mübarizədə bütün başqa ölkələr kimi, o da öz fəaliyyətini göstərəcəkdir. Biz bu mübarizəni aparmalıyıq. Ona görə ki, bizim bölgəmizdə sülhü, əmin-amanlığı, təhlükəsizliyi daha da etibarlı qoruya bilək. Biz bu sahədə də İranla əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Həll olunmamış başqa məsələlər ki var, məsələn, bizim iqtisadi əlaqələrimiz sahəsində, güman edirəm onları yavaş-yavaş həll edə bilərik.

**K a m a l X ə r r a z i:** Çox sağ olun, təşəkkür edirəm.

Hörmətli cənab Prezident, sözsüz ki, Sizin səfəriniz münasibətlərimizin daha da sürətlə inkişaf etməsinə öz müsbət təsirini göstərəcəkdir. Ümidvarıq ki, Sizə münasib olan yaxın bir vaxtda bu səfər həyata keçiriləcək, Siz cənab Xatəmi ilə danışıqlarınızı davam edirəcəksiniz və bunun münasibətlərimizin inkişafına öz müsbət təsiri olacaqdır.

Parlamentlərarası gediş-gəlişlər, yəni səfərlər də çox əhəmiyyətli olur. Cənab Şerdustun Azərbaycana səfəri İranda çox müsbət qarşılanmış və geniş əks-səda doğurmuşdur. İstər parlamentdə, istərsə də mətbuatda onun səfərinin nəticəsi geniş işıqlanmışdır.

Sözsüz ki, bu regiondakı dəyişikliklər çox sürətlə baş verir. Zati-aliləri, Siz dediyiniz kimi, 11 sentyabrdan sonra terrorizmə qarşı mübarizəyə çoxları qoşulub və bu regionda sülhün, əmin-amanlığın təmin olunması üçün daha böyük işlər görülməlidir. Bildiyiniz kimi, 11 sentyabrdan sonra biz bu hərəkəti, yəni terrorizmi tənqid etdik. Biz belə hesab edirik ki, gərək terrorizmə qarşı birgə mübarizə aparılsın, onun kökü beynəlxalq səviyyədə bu yolla kəsilə bilər.

Biz Əfqanıstanın qonşu ölkəsi olduğumuza görə, mütəşəkkil cinayətkarlıqdan və digər xoşagəlməz hadisələrdən çox böyük ziyan görmüşdük. Biz bu gün çox şadıq ki, Əfqanıstanda müvəqqəti hökumət təşkil olunub və beynəlxalq təşkilatlar onlara kömək edirlər. Ümidvarıq ki, narkotik vasitələrə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə lazımi işlər həyata keçiriləcəkdir.

Regiondakı ən böyük problemlərdən biri Qarabağ problemidir. Ümidvarıq ki, region dövlətlərinin himayəsi nəticəsində, o cümlədən İran İslam Respublikasının himayəsi nəticəsində Qarabağ problemi ədalətli həll yolunu tapacaqdır. Biz bu sahədə Azərbaycana kömək etməyə hazırıq. Xoşbəxtlikdən, biz həm Azərbaycanla, həm də Ermənistanla yaxşı münasibətlər qura bilmişik. Belə bir nəticə cənab Xatəminin gərginliyi azaltmaq siyasəti nəticəsində əldə olunubdur.

Biz Qarabağ məsələsinin həll olunmasını regionda iqtisadi əlaqələrin inkişafı üçün lazımi bir şərt kimi qəbul edirik. Belə hesab edirik ki, Azərbaycanın müdafiə qüdrətinin möhkəmlənməsi, təmin olunması və siyasi fəaliyyəti davam etdirmək nəticəsində bu münaqişəni həll etmək olar.

Biz Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirmək və daha da genişləndirmək üçün əzmlə çalışırıq. İndiyə qədər bəzi işlər görülüb, amma belə hesab edirik ki, bunlar hələ lazımi qədər deyildir. Biz düşünürük ki, müxtəlif sahələrdə, o cümlədən tikinti, ticarət, birgə sərmayələr qoymaq sahəsində, enerji daşıyıcıları ilə bağlı məsələlərdə bir çox işlər görə bilərik. Əlbəttə, adını çəkdiyim sahələrdə ekspertlər səviyyəsində danışıqlar davam edir. Lakin istərdim ki, Sizin tapşırığınız olsun. Sizin göstərişiniz nəticəsində danışıqlar daha surətlə davam etdirilə bilər və lazımi nəticəyə gəlib çatarıq.

Mən bir daha təkrar edirəm ki, Azərbaycanın istiqlaliyyəti, səadəti bizim əsas məqsədimizdir və bu sahədə yenə də çalışacağıq, işlərimizi davam etdirəcəyik.

**H e y d ə r Ə l i y e v:** Cənab Xərrazi, təşəkkür edirəm.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması sahəsində sizin bundan sonra da səylər qoymaq məqsədinizi mən alqışlayıram və təşəkkür edirəm. Bu münaqişə artıq çox illərdir davam edir. Münaqişənin həll edilməsində dost, qardaş, qonşu ölkə olan İranın həm dəstəyinə, həm də yardımına həmişə ehtiyacımız olubdur. Bu gün də belədir. Ancaq Ermənistanla əlaqələrinizin yaxşı olması sizin siyasətinizin nəticəsidir. Amma mən istəməzdim ki, siz Azərbaycanla Ermənistana olan münasibətinizi bir tərəzidə eyni çəkidə saxlayasınız.

Siz buyurdunuz ki, xoşbəxtlikdən Azərbaycan ilə yaxşı əlaqə qurmusunuz, Ermənistanla da yaxşı əlaqə qurmusunuz, bu da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında faydalı ola bilər. Bu doğrudur. Ancaq İran–Azərbaycan əlaqələrini İran–Ermənistan əlaqələri ilə bərabərləşdirmək olmaz. Çünki bizim ölkələrimizi, xalqlarımızı bir-birinə bağlayan böyük tarixdir, bizim tarixi köklərimizdir, bizim müştərək mədəniyyətimizdir, adət-ənənələrimizdir, bizim bir dinə mənsub olmağımızdır. Amma Ermənistanla sizin yəqin ki, ancaq iqtisadi əlaqələriniz var. Ona görə rica edərdim ki, bu əlaqələrə eyni gözlə baxmayasınız.

İqtisadi məsələlər, hansıları ki, siz dediniz, həqiqətən bizim əlaqələrimizdə belə problemlər var. Biz bunları tədricən həll edirik. Xatirinizdədir, bizim müştərək iqtisadi komissiyamız bir neçə vaxt bundan öncə İranda toplaşdı və orada çox yaxşı müzakirələr keçdi. Ancaq hələ işlərin çoxu həll olunmayıbdır. Mən öz tərəfimdən əlavə göstərişlər verəcəyəm ki, bu əlaqələrin inkişaf etdirilməsi üçün həm bizim müştərək komissiya çərçivəsində, həm də bütün başqa sahələrdə lazımi tədbirlər görülsün.

**K a m a l X ə r r a z i:** Zati-aliləri, çox sağ olun.

İran ilə Azərbaycan arasında bizi bağlayan əlaqələr, o cümlədən tarixi, mədəni, dini əlaqələr, sözsüz ki, hər iki xalq üçün böyük sərvətdir. Biz bunların əsasında mövcud olan imkanlardan gələcək üçün geniş istifadə etməliyik. Amma bəlkə də bunları – İranın Azərbaycanla və İranın Ermənistanla əlaqəsini müqayisə etmək olmaz. İstər dərinliyi baxımından, istərsə də vüsəti baxımından İranla Azərbaycanın münasibətlərinin həddi-hüdudu ola bilməz. Ona görə Sizin işarə etdiyiniz o birgə müştərək əlaqələr buna əyani sübutdur.

Biz yoxlamalı və baxmalıyıq ki, hansı sahələrdən daha geniş istifadə edək ki, əlaqələrimiz ən yüksək nöqtəsinə gəlib çatsın. Biz buna tamamilə hazırıq. Belə hesab edirik ki, iki tərəf arasında iqtisadi, siyasi, mədəni əlaqələrdən və eyni zamanda regional beynəlxalq məsələlər çərçivəsində mövcud olan imkanlardan daha da geniş istifadə edə bilərik və əlaqələrimizin miqyası bundan da artıq ola bilər.

Mən çox şadam ki, ikitərəfli münasibətlərimizdə belə bir ruh mövcuddur. Zati-aliləri, ümidvaram ki, Sizin rəhbərliyiniz və cənab Xatəminin rəhbərliyi altında məsələlər tezliklə öz həllini tapacaq və ikitərəfli münasibətlərimizdə daha böyük işlər görə biləcəyik.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

**GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ**
**GENERAL-LEYTENANT DAVİD TEVZADZE**
**İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*11 aprel 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonağı salamlayaraq bildirdi ki, Azərbaycana dost olan dövlətin Müdafiə nazirinin səfəri ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə təkan verəcəkdir. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr qardaşlıq əlaqələridir və müstəqillik illərində daha da inkişaf etmişdir. Azərbaycan prezidenti vurğuladı ki, ölkələrimiz arasında münasibətlərin regionda xüsusi xarakteri var. Hər iki ölkə böyük hərbi imkanlara malik olmasa da, hərbi əməkdaşlığı da inkişaf etdirmək lazımdır. Hər iki ölkə öz ərazisində ağır münaqişələrlə – Azərbaycan Dağlıq Qarabağ, Gürcüstan isə abxaz münaqişələri ilə qarşılaşmışdır və bütün bunlar hərbi quruculuq prosesinə çox mane olur.*

*Gürcüstanın Müdafiə naziri səmimi qəbula görə prezident Heydər Əliyevə təşəkkür edərək, Gürcüstan prezidenti Eduard Şevardnadzenin salamını ona yetirdi. David Tevzadze Azərbaycana rəsmi səfərinin nəticələrini səmərəli hesab etdiyini bildirdi. O dedi ki, regional təhlükəsizlik məsələlərinə dair danışıqlar aparıldı, regionda sabitlik yaradılmasında hər iki tərəfin imkanları, Azərbaycan və Gürcüstan ərazilərindən keçəcək boru kəmərlərinin təhlükəsizliyi məsələsi müzakirə edildi. Bu boru kəmərlərinin mühafizəsi ölkələrimizin müdafiə nazirliklərinə həvalə edilmişdir və həmin vəzifələrin yerinə yetirilməsi hərbi əməkdaşlığın inkişafı üçün əsas olacaqdır. Bu əməkdaşlığa hava məkanına nəzarət, kadr hazırlığı sahəsində toplanmış təcrübə mübadiləsi də daxildir. Azərbaycanın bir sıra hərbi təhsil müəssisələrində olmuş Müdafiə naziri burada təlimin keyfiyyətini yüksək qiymətləndirdi. David Tevzadze bildirdi ki, Gürcüstan zabitlərinin təhsil almaq üçün Bakıya göndərilməsi imkanını azərbaycanlı həmkarı ilə müzakirə etmişdir.*

*Prezident Heydər Əliyev onun salamını və xoş arzularını prezident Eduard Şevardnadzeyə yetirməyi Gürcüstanın Müdafiə nazirindən xahiş etdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycan ilə Gürcüstan arasında münasibətlər daha çox hər iki ölkənin prezidentləri arasındakı şəxsi münasibətlərlə müəyyən olunur. Bu münasibətlər böyük tarixə malikdir və vaxtilə ölkələrimiz arasında dostluğun möhkəmlənməsi və inkişafı işində mühüm rol oynamışdır və indi də oynayır. Prezident Heydər Əliyev vurğuladı ki, bu dostluq gürcü və Azərbaycan xalqları arasında dostluğun təcəssümüdür.*

*Dövlətimizin başçısı bildirdi ki, Gürcüstan, kadrlar hazırlanması sahəsi də daxil olmaqla, Azərbaycanın imkanlarından istifadə edə bilər.*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BƏŞŞAR ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının milli bayramı münasibətilə Sizi və bütün Suriya xalqını təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Suriya əlaqələri xalqlarımızın iradəsinə uyğun olarq daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 aprel 2002-ci il*

**ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROBERT QABRİEL MUQABEYƏ**

Hörmətli cənab Prezident!

Zimbabve Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün Zimbabve xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlərin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Zimbabve xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 aprel 2002-ci il*

**VATİKAN DÖVLƏTİNİN AZƏRBAYCANDA APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ**

*Prezident sarayı*

*12 aprel 2002-ci il*

*Öz etimadnaməsini Heydər Əliyevə təqdim etməkdən şərəf duyduğunu bildirən Klaudio Qucerotti dedi ki, Müqəddəs Ata Azərbaycana qarşıdakı səfərini həyata keçirməyi ürəkdən arzulayır və bu səfərə çox həvəslə hazırlaşır, Sizin gözəl xalqınızın və ölkənizin tarixini öyrənir. Vatikan dövlətinin başçısı II İohann Pavelin Azərbaycan xalqına sülh və əmin-amanlıq arzuladığını söyləyən cənab Klaudio Qucerotti bu səfərin baş tutması üçün göstərdiyi köməyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Apostol nunsi hələ tələbəlik illərində, institutun şərq elmləri fakültəsində oxuyarkən Azərbaycanın dahi şairi Nizami Gəncəvinin əsərlərini tərcümə etdiyini bildirərək dedi ki, güman etməzdim ki, mən nə vaxtsa Azərbaycanı görəcəyəm. Cənab Klaudio Qucerotti prezident Heydər Əliyevi əmin etdi ki, Vatikan dövləti ilə Azərbaycan arasında münasibətlərin və qarşılıqlı anlaşmanın inkişaf etdirilməsi üçün çalışacaqdır.*

*Prezident Heydər Əliyev cənab Qucerottini Vatikan dövlətinin Azərbaycanda səfiri təyin olunması münasibətilə təbrik etdi və gələcək işlərində ona uğurlar arzuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, səfirin Azərbaycanda fəaliyyəti müqəddəs taxt-tac ilə ölkəmiz arasında əlaqələrin inkişafını təmin edəcəkdir.*

*Müqəddəs Atanın Azərbaycana səfərinin ölkəmizdə səbirsizliklə gözlənildiyini vurğulayan dövlətimizin başçısı Heydər Əliyev bildirdi ki, bu, xalqımız və dövlətimiz üçün tarixi bir hadisə olacaqdır. Müqəddəs Atanın Azərbaycana qarşıdakı səfərə hazırlaşmasından, ölkəmiz haqqında əlavə məlumat toplamasından məmnun qaldığını bildirən prezident Heydər Əliyev dedi ki, bu səfər Vatikan dövlətinin başçısına respublikamızla tanış olmaq imkanı verəcəkdir. Bu da ölkələrimiz arasında əlaqələrin inkişafına kömək edəcəkdir.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev apostol nunsi Klaudio Qucerotti ilə xatirə şəkli çəkdirdi.*

*Sonra dövlətimizin başçısı ilə apostol nunsi arasında səmimi söhbət oldu.*

*Apostol nunsi bildirdi ki, o, ilk dəfə 1976-cı ildə Azərbaycanda qısamüddətli səfərdə olmuşdur.*

*Prezident Heydər Əliyev dedi ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi. Azərbaycanın artıq on ildir müstəqil dövlət olduğunu, 1994-cü ildə Vatikanla diplomatik əlaqələr qurduğunu və bunu inkişaf etdirdiyini bildirən dövlətimizin başçısı 1998-ci ildə İtaliyaya rəsmi səfəri zamanı müqəddəs taxt-tacı ziyarət etdiyini, Müqəddəs Ata ilə görüşdüyünü, səmimi söhbət etdiyini və onu Azərbaycana dəvət etdiyini xatırlatdı. Azərbaycan prezidenti bu dəvətin qəbul edilməsindən məmnun olduğunu vurğuladı.*

*Azərbaycan prezidentinin Vatikana səfərini Müqəddəs Atanın yaxşı xatırladığını bildirən apostol nunsi dedi ki, o, Azərbaycana səfər etmək və Sizinlə yenidən görüşmək arzusundadır.*

*Cənab Klaudio Qucerotti vurğuladı ki, Vatikan dövlətinin başçısı bəzi ölkələrdə xristianlar və müsəlmanlar arasında baş verən münaqişələrdə və müharibələrdə heç bir dini əsas görmür. Roma Papası müxtəlif dinlərə mənsub olan insanların sülh şəraitində yaşamasını arzulayır.*

*Azərbaycanın həm Şərqə, həm də Qərbə açılan qapı olduğunu söyləyən cənab Qucerotti dedi ki, bu ölkə müxtəlif dinlərə mənsub insanların birlikdə sakit yaşamasının rəmzidir.*

**«STATOYL» ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*12 aprel 2002-ci il*

*Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev «Statoyl» şirkətinin Azərbaycanla əməkdaşlığını yüksək qiymətləndirərək dedi ki, «Statoyl» ilk neft müqaviləsindən başlayaraq bu işlərdə çox fəal iştirak edibdir və böyük «Şahdəniz» layihəsində də iştirak edir.*

*Norveçin bir çox şirkətlərinin ölkəmizdə uğurla iş gördüklərini, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində fəal iştirak etdiklərini vurğulayan prezident Heydər Əliyev bu ölkəyə səfərini və «Statoyl»un rəhbərliyi ilə keçirdiyi görüşlərini xatırlatdı.*

*Səmimi qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən Norveçin Bakıdakı səfiri Steinar Gil bu il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının və «Statoyl»un Azərbaycanda fəaliyyətinin on illiyinin qeyd ediləcəyini söylədi. Məşhur səyyah Tur Heyerdalın ciddi xəstə olduğunu bildirən səfir dedi ki, cənab Prezident, ölkəmizin Neft Sənayesi və Energetika naziri bütün Azərbaycanın dostu cənab Heyerdalın son kitabını Sizə hədiyyə göndərib və kitabın ön səhifəsində ən xoş arzularını yazmışdır.*

*Səfir Tur Heyerdalın kitabını prezident Heydər Əliyevə təqdim etdi.*

*Respublikamızın rəhbəri ilə görüşməsindən böyük məmnunluq duyduğunu bildirən «Statoyl»un icraçı vitse-prezidenti Hubbard Riçard təmsil etdiyi şirkətin fəaliyyəti, planları haqqında məlumat verdi. O, Azərbaycanın şirkətin beynəlxalq fəaliyyətində dönüş yaratdığını, «Statoyl»un ən böyük sərmayələri inkişafda olan Azərbaycan iqtisadiyyatına qoyduğunu, digər layihələrdə də iştirak etməyə hazır olduqlarını bildirdi. Cənab Riçard şirkətin prezidenti adından məlumat verdi ki, Norveçin Qaçqınlar Şurası vasitəsilə Azərbaycanla uzun-müddətli əlaqə yaradılmış, Şuranın fəaliyyətinin daha da genişləndirilməsi üçün 50 min ABŞ dolları ayrılmışdır. Bu vəsaitlə Beyləqan rayonu ərazisində qaçqın ailələri üçün 30-dək bina təmir olunacaqdır. O, prezident Heydər Əliyevi həmin binaların istifadəyə verilməsi mərasimində görmək arzusunu da gizlətmədi.*

*Qaz hasilatı sahəsində dünyada aparıcı şirkətlərdən biri olan «Statoyl»un beynəlxalq fəaliyyətindən, yeni layihələrdə iştirakından danışan Hubbard Riçard dedi ki, şirkət 33 milyard kubmetr qaz satır, 2005-ci ildə bu rəqəm 55 milyarda çatacaqdır. Şirkət indi ildə 5 milyard dollar gəlir əldə edir və bu, üç ildən sonra 8 milyard dollar olacaqdır.*

*Ətraflı məlumata görə qonaqlara təşəkkür edən, Tur Heyerdalın xəstələnməsindən çox kədərləndiyini bildirən prezident Heydər Əliyev dostunun səhhətinin yaxşılaşmasını arzuladı və onun kitabını qəbul etməsindən məmnunluğunu söylədi. Dövlətimizin başçısı dedi ki, Norveç ilə Azərbaycan arasındakı əlaqələr, indiyə qədər olduğu kimi, bundan sonra da yüksək səviyyədə olacaqdır. Bu bizim siyasətimizdir, arzumuzdur. Bilirəm ki, Norveç hökuməti də məhz belə siyasət aparır.*

*Azərbaycanda böyük hörmət qazanmış və ilk müqavilənin əsas fəal iştirakçılarından biri olan «Statoyl» şirkəti ilə 10 il əməkdaşlıq etdiyimizi vurğulayan prezident Heydər Əliyev dedi ki, «Statoyl» Azərbaycana böyük sərmayə qoyub, eyni zamanda bundan gəlir də götürübdür və ümid edirəm ki, bu gəlir ilbəil artacaqdır. İndiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanda iş görmək, buraya sərmayə qoymaq «Statoyl» şirkəti üçün uğurlu olacaqdır.*

*Prezident Heydər Əliyev «Statoyl» şirkətinin qaçqınlarla əlaqədar gördüyü işləri də yüksək qiymətləndirdi, bu işlərin daha da genişlənməsini arzuladı. Dövlətimizin başçısı dedi ki, bizim yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız çoxdur. Onların yaşayışını yaxşılaşdırmaq üçün yardım edən hər bir şəxs, şirkət, təşkilat, hesab edirəm ki, böyük xeyriyyəçilik işi görür.*

*«Statoyl» haqqında verilən məlumatların maraqlı olduğunu və onun böyük gəlir əldə etməsindən sevindiyini bildirən prezident Heydər Əliyev vurğuladı ki, bu, 4 milyon əhalisi olan Norveçdə əhalinin həyat səviyyəsinin nə qədər yüksək olduğunu göstərir. Norveç şirkətlərinin Azərbaycanda iş görməsi üçün biz indiyə qədər lazım olan şəraiti yaratmışıq. Əmin ola bilərsiniz ki, bundan sonra da siz belə münasibət görəcəksiniz.*

**DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT**
**II MARQRETEYƏ**

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və bütün Danimarka xalqlarını təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Danimarka Krallığı arasında təşəkkül tapmaqda olan əlaqələr xalqımızın rifahı naminə daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 aprel 2002-ci il*

**DANİMARKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDRES FOQ RASMUSSENƏ**

Hörmətli cənab Baş nazir!

Danimarka Krallığının milli bayramı – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və bütün Danimarka xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələr genişlənərək, xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 aprel 2002-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TSZYAN TSZEMİNƏ**

Hörmətli cənab sədr!

Koreyanın cənubunda Çin hava yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə və həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 aprel 2002-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KİM DE ÇJUNA**

Hörmətli cənab Prezident!

Pusan şəhəri yaxınlığında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailə üzvlərinə və bütün Koreya Respublikası xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 aprel 2002-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev diplomatı salamlayaraq hal-əhval tutdu.*

*Səmimi qəbul üçün təşəkkürünü bildirən səfir Ross Uilson dedi ki, keçən həftə Ermənistana çox maraqlı səfərim oldu. Aprelin 5-də Sizinlə təkbətək görüşərkən mən demişdim ki, bu bizim planlaşdırdığımız görüşlərin birincisidir.*

*Səfərin çox xeyirli olduğunu vurğulayan diplomatın fikrincə, belə görüşlər vasitəsilə Azərbaycan və Ermənistan arasında bir növ əlaqələr yarana və bu, Dağlıq Qarabağ məsələsinin həllini müəyyən mənada yaxınlaşdıra bilər.*

*Cənab Uilson dedi ki, Ermənistanın prezidenti Köçəryanla çox maraqlı, ətraflı söhbəti olmuş, eyni zamanda Xarici Işlər naziri ilə, digər rəsmilərlə, habelə qeyri-rəsmi şəxslərlə də görüşmüş, beləliklə, Ermənistanın keçid dövrünü necə yaşadığını, ölkədə baş verən dəyişiklikləri görə bilmişdir. Səfir vurğuladı ki, Ermənistandakı vəziyyəti öyrənmək biz amerikalılar üçün də çox vacibdir, çünki münaqişənin həll olunmasında, bu iki ölkənin irəli getməsində həm Sizə, həm də prezident Köçəryana kömək etməyə çalışırıq.*

*Prezident Heydər Əliyev səfirə təşəkkür edərək dedi ki, hiss edirəm, siz çox maraqlı səfər etmisiniz və geniş təəssüratlarınız var. Təbiidir, mən bunları dinləmək istəyirəm. Yerevana getməzdən əvvəl biz Sizinlə görüşərkən bildirdiniz ki, Ermənistana gedirsiniz, qayıdan kimi mənə xəbər verəcəksiniz və biz görüşəcəyik. Ona görə də mən bu gün sizi dəvət etdim.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ KATİBİ HƏMİD NƏVAZ XANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*16 aprel 2002-ci il*

*Qonaqları səmimiyyətlə salamlayan, bu səfəri, Bakıda aparılan danışıqları Pakistan–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox əhəmiyyətli hesab edən Azərbaycan prezidenti Heydər Əlivev dedi ki, Pakistan ilə Azərbaycan arasında səmimi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətləri var. Biz bu əlaqələri yüksək qiymətləndiririk və inkişaf etdirməyə çalışırıq. Ölkələrimiz, xalqlarımız arasındakı dostluq xüsusi xarakter daşıyır.*

*Prezident Heydər Əliyev Pakistana rəsmi səfərini, dost ölkənin keçmiş prezidentinin Azərbaycanı ziyarətini, keçirilmiş səmimi görüşləri xatirladı, belə görüşləri davam etdirməyin zəruriliyini vurğuladı.*

*Ölkəmizdə onlara göstərilən qonaqpərvərliyə görə dərin təşəkkürünü bildirən cənab Həmid Nəvaz Xan Pakistan prezidenti Pərviz Müşərrəfin Azərbaycanın rəhbərinə və xalqına salamlarını çatdıraraq dedi ki, Pakistan rəhbəri prezident Heydər Əliyevi rəsmi səfərə dəvət edir.*

*Nümayəndə heyətinin başçısı Pakistandakı vəziyyətdən, Əfqanıstanla sərhəd boyunca baş verən hadisələrdən, antiterror koalisiyasında ölkəsinin iştirakından danışdı.*

*Pakistanın ölkədə yaşayan 3 milyon Əfqanıstan qaçqınının qayğısına qaldığını, BMT-nin Əfqanıstandakı quruculuq proqramlarını Pakistan vasitəsilə həyata keçirdiyini vurğulayan, habelə Hindistanla münasibətlərə toxunan cənab Həmid Nəvaz Xan onu da açıqladı ki, aprelin 30-da ölkəsində prezident seçkiləri, oktyabrda isə ümumi seçki keçiriləcəkdir. O, Azərbaycanın və Pakistanın eyni problemlərlə üzləşdiyini xatırladaraq dedi ki, biz Dağlıq Qarabağ məsələsində Azərbaycanla həmrəyik, indiyədək sizi dəstəkləmişik və bundan sonra da azərbaycanlı qardaşlarımızla birlikdə olacağıq.*

*Kəşmir məsələsində Azərbaycanın Pakistanı dəstəkləməsindən məmnun qaldığını vurğulayan qonaq bildirdi ki, biz səylərimizi daha da gücləndirməli və dünya ictimaiyyətinə daha çox təsir edərək, problemlərimizin sülh yolu ilə həll olunmasına çalışmalıyıq.*

*Müdafiə və iqtisadi sahələrdə əməkdaşlığın vacibliyini və bunun üçün geniş imkanlar olduğunu, Azərbaycanla müdafiə sahəsində rəsmi surətdə əlaqələr qurmaq və tərəfdaş olmaq istəyini bildirən cənab Həmid Nəvaz Xan dedi ki, biz zati-alinizin razılığı ilə işə başlayacağıq.*

*Səmimi salamlarını, hörmət və ehtiramını, ən xoş arzularını prezident Pərviz Müşərrəfə çatdırmağı xahiş edən, Pakistan rəhbəri ilə ilk dəfə Tehranda görüşdüyünü və söhbət etdiyini xatırladan dövlətimizin başçısı Heydər Əliyev bölgədəki vəziyyət haqqında verdiyi geniş məlumata görə qonağa təşəkkür etdi, 11 sentyabr hadisələrindən dərhal sonra Pakistanın beynəlxalq terrorizmə qarşı mübarizəyə qoşulmasını və bu işdə fəal iştirakını yüksək qiymətləndirdi.*

*Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olan Pakistanın Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsində beynəlxalq təşkilatlarda həmişə respublikamızı müdafiə etdiyini, Kəşmir problemi ilə bağlı Azərbaycanın Pakistanı daim dəstəklədiyini, eyni zamanda bu məsələnin sülh yolu ilə həllini arzuladığını bildirən prezident Heydər Əliyev ölkələrimiz arasındakı iqtisadi, mədəni, humanitar əlaqələrdən də danışdı, bunun genişlənməsinin və inkişaf etməsinin vacibliyini söylədi.*

*Prezident Heydər Əliyev Pakistana səfərə dəvətə görə təşəkkür etdi, prezident Pərviz Müşərrəfi də Azərbaycanda görmək arzusunu bildirdi və qarşıdakı seçkilərdə ona uğurlar arzuladı.*

*Ölkəmizin rəhbəri müdafiə sahəsində və hərbi sahədə əməkdaşlıq məsələlərinə toxunaraq dedi ki, bunlar Azərbaycanın Müdafiə naziri Pakistanda olarkən və sizin indiki səfəriniz zamanı ətraflı müzakirə olunubdur. İstəyirəm ki, səmərəli əməkdaşlıq olsun. Ölkələrimizin, tarixi köklərimizin, insanlarımızın bir-birinə çox bənzər olması, müştərək ənənələrimiz əməkdaşlığımız üçün böyük imkanlar açır və biz bunlardan istifadə etməliyik.*

*Cənab Həmid Nəvaz Xan hər iki ölkənin hava yolları şirkətlərinin qarşılıqlı fəaliyyət göstərəcəyi, ölkəsinin milli bankının Bakıda şöbə açacağı barədə məlumat verərək dedi ki, cənab Prezident, Sizin himayəniz altında əlaqələrimiz daha da inkişaf edəcəkdir. Həmid Nəvaz Xan Azərbaycan prezidenti Heydər Əliyevə görüşdən xatirə olaraq hədiyyələr təqdim etdi.*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ**

*Respublika sarayı*

*22 aprel 2002-ci il*

*Azərbaycan Respublikasında Rusiya Federasiyası mədəniyyəti günlərinin təntənəli açılış mərasimində iştirak edən Azərbaycan prezidenti Heydər Əliyev fasilə zamanı səhnə arxasına gələrək, Rusiyanın Mədəniyyət naziri M.Şvidkoy, dirijor V.Fedoseyev və nümayəndə heyətinin digər üzvləri ilə görüşdü.*

*V.Fedoseyev dövlətimizin başçısı Heydər Əliyevə görkəmli bəstəkar G.Sviridovun əsərləri yazılmış kompakt diskləri hədiyyə etdi.*

**H e y d ə r Ə l i y e v:** Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günlərinin başlanğıcı gözəl oldu. Həm də ona görə gözəl oldu ki, bu günləri Vladimir Fedoseyev kimi görkəmli dirijorun rəhbərlik etdiyi belə görkəmli orkestr açır. Otuz il bundan əvvəl, 1972-ci ilin sentyabrında da Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günləri keçirilmişdi, o vaxt biz Sovetlər İttifaqının tərkibində idik. Gözəl kollektivlər idi, təxminən 250–300 nəfər gəlmişdi. Musiqiçilər də, teatr xadimləri, müğənnilər, şairlər də var idi.

Görkəmli yazıçıların, şairlərin çoxu xatirimdədir. İndi onlar həyatdan köçmüşlər, onların hamısı burada olmuşdular. Mən həmişə onlarla birlikdə idim, biz burada çox yaxşı günlər keçirdik. Hətta o vaxt bu, günlər deyil, dekada adlanırdı. Sonra isə onun adını dəyişib günlər qoydular. Əvvəlcə Bakıda çıxışlar oldu, sonra isə bölgələrə getdilər, bağlanış üçün yenidən Bakıya qayıtdılar.

O vaxt bizim belə sarayımız yox idi. Sumqayıtda, Gəncədə, Neft Daşlarında çıxış edirdilər. Xatirimdədir, çoxlu adam tutan bərə ilə Neft Daşlarına getdik. Orada, bərənin göyərtəsində konsertlər verildi, kayutlarda çal-çağır vardı. Biz – mən və tanınmış incəsənət xadimləri, günlərin iştirakçıları kapitanın kayutuna toplaşdıq, pəncərədən dəniz görünürdü, hamı yeyib-içirdi. Mən birdən çox görkəmli bir şairi xatırlayaraq soruşdum: «Bəs o hanı?» Dedilər, yoxdur. Aradan yarım saat keçdi. O yenə də yoxdur. Göstəriş verdim ki, axtarıb tapsınlar. Onu axtarmağa getdilər və sonra gəlib qulağıma pıçıldadılar ki, o, bir kayuta girib qapını bağlamışdır və hansısa bir xanımla içir. O xanım da tanınmış aktrisa idi.

Bax, o vaxt sizin orkestr burada çıxış etmişdir, mən də konsertdə olmuşdum. Yeri gəlmişkən, sonralar mən Moskvada yaşayarkən də konsertlərinizi dinləyirdim. Deməliyəm ki, Fedoseyev dəyişməyibdir. Düşünürdüm ki, Fedoseyevi zahirən dəyişmiş ağsaçlı qoca kimi görəcəyəm, o isə elə əvvəlki kimidir. Həqiqətən, mən Moskvada sizi təxminən 15 il əvvəl görmüşdüm və ondan sonra görməmişdim. Bütün insanlar dəyişirlər, mən də dəyişmişəm, o isə heç dəyişməyibdir.

Bilirsiniz, Çaykovskinin yaradıcılığı çox xoşuma gəlir. Onun müsiqisi, simfoniyaları öz xüsusiyyəti ilə bir çox simfonik əsərlərdən fərqlənir. Mən Çaykovski haqqında filmi xatırlayıram. Yaxşı, gözəl film idi və Çaykovskinin musiqisi ilə müşayiət olunur.

Buraya gəldiyinizə görə sizə təşəkkür edirəm. Bilirəm ki, orkestrinizin çox zəngin proqramı var, siz bütün dünyanı gəzib-dolaşırsınız, konsertlər verirsiniz. Buna baxmayaraq, Azərbaycana gəlməyə və tamaşaçılarımız qarşısında çıxış etməyə vaxt tapdınız. Bu, böyük işdir və mən sizə təşəkkür edirəm.

Mən salona diqqət yetirdim. Bilirsiniz, mən tamaşa salonunda tez-tez oluram, indi isə lojada idim və oradan salonu müşahidə etmək imkanım var idi. Hamı böyük diqqətlə dinləyirdi. Açığını deyək, simfonik musiqi rəqs təranələri deyildir. Deməli, insanlar bu musiqini başa düşürlər. Bax, bizim dinləyicilər belədir. Bir baxın, salona 2 mindən çox adam toplaşıb və onların musiqiyə münasibəti necədir.

Mən şadam ki, əvvəla, bizim insanlar Rusiya incəsənətini sevirlər. İncəsənətin müxtəlif növləri var. Məsələn, Xazanov adamları güldürür. Bu da incəsənətin bir növüdür. Simfonik musiqi isə incəsənətin çox mürəkkəb, çətin növüdür. İkincisi isə, adamlarımız bu musiqini çox diqqətlə, nəfəs çəkmədən dinləyirdilər. Musiqi qurtaran kimi, sürəkli alqışlar oldu. Gözəl musiqidir!

Orkestrin solistinin royalda ifası çox gözəl idi. Çaykovskinin musiqisində royal həmişə mühüm rol oynayır. Bəlkə də mən bilmirəm, o qədər də başa düşmürəm, lakin subyektiv fikrimi bildirirəm. Çaykovskinin əsərlərində royal xüsusi yer tutur, çox melodik, gözəl səslənir, ruhu oxşayır. Biz bu gün qonağımızın bu konsertini həyəcanla dinlədik. Çox sağ olun.

Mən burada Sovet Azərbaycanının rəhbəri olanda, filarmoniyaya gedirdim, simfonik musiqini çox sevirəm. Orada konsertlər olurdu, Niyazi və digər dirijorlar çıxış edirdilər. Görürdüm ki, rəhbər işçilərimiz bu konsertdə yoxdur. Əlbəttə, konsertlərdə həmişə adam çox olurdu, Bakıda simfonik musiqiyə xüsusi münasibət var. O

zaman mən elan etdim ki, hər cümə axşamı günü axşam saat 7-də filarmoniyada simfonik musiqidən ibarət konsertə gəlmək lazımdır. Birinci dəfə gəlib gördüm ki, canlarını dişlərinə tutub oturublar. Düşündüm ki, ürəklərində məni söyürlər. Sonra fikirləşdim ki, onlar bu musiqini başa düşmürlər. Biz Niyazi və Janna Dozortseva ilə razılaşdıq ki, Dozortseva hər dəfə konsertə gəlib simfonik musiqidən danışacaq, sonra konsert başlanacaqdır. Bundan sonra onlar musiqini daha yaxşı qavramağa başladılar. Xatirimdədir, bir dəfə mən beletajda oturmuşdum, birdən rəhmətlik həyat yoldaşım mənə dedi: «Gör simfonik müsiqiyə necə qulaq asırlar». Mən gördüm ki, bir cərgə o yanda Nazirlər Soveti sədrinin müavinlərindən biri möhkəm yatıb və xoruldayır. Həyat yoldaşım dedi ki, yazıqdır, niyə məcbur edirsən. Dedim ki, məcbur edirəm və edəcəyəm. Yeri gəlmişkən, sonra onlar öyrəşdilər, hətta həvəsləndilər də. Sonralar çox da məcbur etmək lazım gəlmədi. 1982-ci ilin axırınadək, mən burada işlədiyim müddətdə belə etdim, sonra hər şey pozuldu.

Əlbəttə, indi, demokratiya şəraitində insanları məcbur edə bilmərəm. O vaxt kommunist sistemi idi və kommunist intizamı vardı. Birinci katib dedi, qurtardı, indi isə məcbur edə bilmərəm. Amma görürəm ki, məcbur etmək lazım da deyildir. Doğrudur, adətən, rəhbər işçilər əyləşən sırada boş yerlər də görürdüm.

## XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKMƏNİSTANIN PAYTAXTI AŞQABAD ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*23 aprel 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Mənim Aşqabada səfərim haqqında məlumatınız var. İzahat verməyə ehtiyac yoxdur. Nə məqsəd üçün gedirik, o da məlumdur. Çünki uzun müddətdir Xəzər dənizinin statusunun müəyyən olunması ilə əlaqədar müxtəlif səpkilərdə danışıqlar gedibdir. Xüsusən bizim xarici işlər nazirlərinin rəhbərlik etdikləri ekspert qrupları çox işləyiblər. Eyni zamanda ikitərəfli görüşlər də çox olubdur. Xarici işlər nazirləri, baş nazirlər, prezidentlər görüşüblər. İndi birinci dəfədir ki, biz dövlət başçıları səviyyəsində Aşqabadda toplaşırıq. Gedək, görək nə olur.

**S u a l: Cənab Prezident, İran belə bir rəsmi məlumat yayıb ki, bu sammitdə İİR-ə 14,5 faiz təklif olunacaq. Bildirilir ki, İran bu təkliflə razılaşır. Həmin təklifin gündəliyə çıxarılacağını gözləmək olarmı?**

**C a v a b:** Bilmirəm. Nə olacaqsa, orada görəcəyik. Bu barədə məlumatım yoxdur.

**S u a l: Cənab Prezident, Azərbaycanın Xəzərlə bağlı mövqeyində hər hansı bir yenilik varmı?**

**C a v a b:** Yoxdur.

**S u a l: Xəzər dənizi enerji daşıyıcıları ilə zəngin olan bir mənbədir. Bu mənbənin istifadə olunması və dünyanın inkişaf etmiş dövlətlərinin diqqətinin buraya cəlb edilməsi Sizin böyük xidmətinizdir. Bizim ictimaiyyət Aşqabad sammitində Xəzərin sektorlara bölünməsində dövlətlərin ümumi razılığa gələcəyinə əmindir. Sizcə, ictimaiyyətimiz öz əminliyində yanılmır ki?**

**C a v a b:** Mən də əminəm, camaat da əmindir. Amma lazımdır ki, razılığa gələk.

**S u a l: Cənab Prezident, Rusiya nümayəndə heyəti burada olanda Siz dediniz ki, koordinatların dəqiqləşdirilməsinə Rusiya ilə Qazaxıstan başlayıblar. Bu koordinatlar Azərbaycanla da razılaşdırılacaqdır. Bunu sürətləndirmək lazımdır. Putinlə görüşünüzdə Siz bu məsələyə toxunacaqsınızmı?**

**C a v a b:** Biz artıq bunu danışmışıq. Burada problem yoxdur. Bizim ekspertlər işləyirlər. Nəzərdə tutulur ki, hazır olsa – iyun ayının əvvəlində mən Sankt-Peterburqa gedəcəyəm, orada prezident Putinlə görüşəcəyəm – ola bilər, orada imzalayaq.

**S u a l: Cənab Prezident, İranın prezidenti Xatəmi ilə görüşəcəksinizmi?**

**Cavab:** Bəli, görüşəcəyəm.

**S u a l: Cənab Prezident, Türkmənistanın prezidenti Saparmurad Türkmənbaşı ilə görüşəcəksinizmi?**

**C a v a b:** Türkmənbaşı ev sahibidir. Yəqin ki, görüş olacaqdır.

**S u a l: Cənab Prezident, Azərbaycanın Türkmənistana borcu vardır. Türkmənistan tərəfi artıq rəqəmlər deyib, problemin həllini yubadırdı. Bu məsələ barədə danışıq aparacaqsınızmı? Bir də ki, Türkmənistana gediş-gəlişlə bağlı bəzi problemlər barədə söhbətiniz olacaqmı?**

**C a v a b:** Bilirsinizmi, indi mən borc məsələsindən heç danışmaq istəmirəm. Buna hazır da deyiləm. Çünki bu səfərimin məqsədi o deyil. Türkmənistana gediş-gəlişi nə mənada deyirsiniz, onlar hamıya viza qoyublar.

**S u a l: Onlar deyirlər ki, azərbaycanlılar gələndə problem yaranır.**

**C a v a b:** Bir halda ki, viza qoyub, bu öz vətəndaşlarının hamısına aiddir. O azərbaycanlılar da Türkmənistanın vətəndaşlarıdır. Burada heç kəsə istisna etmək olmaz.

**S u a l: Cənab Prezident, Türkmənistanla və İranla mübahisəli yataqlar barədə məsələ qaldırılacaqmı?**

**C a v a b:** Bilirsinizmi, bizim mübahisəli yataqlarımız yoxdur.

**S u a l: Cənab Prezident, Sizin Aşqabada səfəriniz o deməkdirmi ki, İranla Türkmənistanın mövqelərində yaxınlıq var?**

**C a v a b:** Mənim mövqeyim bunu bildirmir – bu iki dövlətin mövqelərində yaxınlıq var, ya yox. Biz birinci dəfə toplaşırıq. Bunu başqa məsələlərlə şərtləndirmək olmaz.

**S u a l: Cənab Prezident, səhhətiniz necədir? Qəzetlərdə məlumat yayılmışdı ki, Siz hətta xəstəxanaların birinə baş çəkmisiniz.**

**C a v a b:** Sən mənə lap yaxında durmusan... Sən necə düşünürsən? Sən məni görürsən. Necəyəm? O yalan yazılara sən cavab ver – özü də bəzən cavabın tutarlı olur – onlara cavab ver ki, mən prezidentdən 50 santimetr məsafədə durmuşdum, onun səhhətini hiss etdim. Nə hiss etmisən, öz işindir.

**S u a l: Cənab Prezident, 2003-cü ildəki prezident seçkilərinə şəxsən Sizin özünüzün qatılacağınız gözlənilirmi?**

**C a v a b:** Mən bunu çoxdan bəyan etmişəm. Bəyan etmişəm ki, 2003-cü ilin seçkilərində mən yenidən iştirak edəcəyəm.

**S u a l: Tək namizəd göstəriləcəksiniz, yoxsa başqa namizəd də olacaq? Yeni Azərbaycan Partiyasından İlham Əliyevin namizədliyindən söhbət gedir.**

**C a v a b:** Bir partiyadan iki namizəd ola bilməz.

**S u a l: Cənab Prezident, güc nazirliklərində, habelə Gömrük Komitəsində, Vergilər Nazirliyində rəhbərlərin dəyişdiriləcəyi barədə söz-söhbət gedir. Bu nə dərəcədə doğrudur?**

**C a v a b:** Bunu haradan gözləyirsiniz? O qədər belə yalan məlumatlar yayırlar ki, mən bunlara cavab verməyəcəym.

**S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının Azərbaycanla hərbi təhlükəsizlik sahəsində əməkdaşlıqla bağlı bəyanatları Azərbaycan–İran münasibətlərinə hansı yeniliklər gətirə bilər?**

**C a v a b:** Bilirsiniz, gəlin burada belə şeyləri müzakirə etməyək. Bizim şərhçilərimiz televiziyada, xüsusən özəl kanallarda bunları şərh edirlər. Düzdür, bəzən səhvlərə yol verirlər, özlərinin subyektiv fikirlərini deyirlər. Bura o söhbətin yeri deyildir.

**S u a l: Cənab Prezident, ABŞ prezidenti Corc Buş Azərbaycana, Ermənistana və Tacikistana hərbi yardımla bağlı sənəd imzalamışdır. Konkret olaraq Azərbaycana nə cür yardım göstəriləcək?**

**C a v a b**: Görək də. O bu sənədi beşinci gün imzalamışdır. Gərək onlar bizə desinlər ki, yardım necə olacaq.

**S u a l: Cənab Prezident, şənbə gününə müxalifətin icazə verilmiş mitinqi nəzərdə tutulmuşdur. Buna münasibətiniz necədir?**

**C a v a b:** Bu, artıq adi haldır. Mitinq keçirirlər... Birinci mitinq deyil ki. Bir-iki gün bundan əvvəl qadınlar da mitinq keçirdilər. İndi kişilər keçirəcəklər. Sonra yəqin qocalar keçirəcəklər.

**S u a l: Cənab Prezident, bu gün Azərbaycan futbolunda çox böhranlı vəziyyət yaranmışdır. UEFA, FİFA Azərbaycanı hətta bu federasiyalardan uzaqlaşdırmaqla hədələyir. Buna Sizin münasibətinizi bilmək olarmı?**

**C a v a b:** Bilirsiniz, mən futbol məsələsi ilə heç məşğul olmuram və xəbərim də yoxdur. Çünki indi bir adam hər şeylə məşğul ola bilməz. Mən maraqlanmıram. Bu, idmançıların, futbol komandalarının işidir.

**S u a l: Sammitdə hansısa sənəd imzalanacaqmı?**

**C a v a b:** Nəzərdə tutulur ki, bəyannamə imzalansın. Bizim ekspertlər onun üzərində işləyib mətnini razılaşdıra bilsələr, imzalayacağıq.

**S u a l: Cənab Prezident, Siz səfərdən qayıdan kimi sahibkarlarla görüşəcəksiniz. Onların bəzi problemləri var. Məsələn, Nəqliyyat nazirinin təsdiq olunması, Prezidentin Yanında Sahibkarlar Şurasının yaradılması. Qarşıdakı görüşdən bu nəticələri gözləmək olarmı?**

**C a v a b:** Bilirsənmi, sən yaxşı jurnalistsən, amma hərdənbir bəsit suallar verirsən. Bu görüşdən çox şey gözləmək olar. İndi belə bir böyük görüş keçirəcəyik və bütün Azərbaycana bəyan etmişik ki, sahibkarlardan kim istəyirsə, gəlib fikirlərini deyə bilər. Məqsədimiz nədir? Məqsədimiz odur ki, sahibkarlar öz işləri haqqında, onlara mane olan səbəblər haqqında açıq danışsınlar. Azərbaycanda biznesi inkişaf etdirmək lazımdır. Özü də, yerli sahibkarlar biznesi inkişaf etdirməlidirlər. Biz müşahidə edirik ki, yerli biznesin inkişaf etməsində də problemlər var, sahibkarlara maneçiliklər var. Onların bəziləri öz işlərini istədikləri kimi apara bilmirlər.

Təəssüflər olsun ki, əvvəllər olduğu kimi, yenə də ayrı-ayrı hüquq mühafizə orqanları tərəfindən qanunsuz yoxlamalar aparılır, biznesmenlərin işinə müdaxilə edilir. Hətta mən hiss edirəm ki, bizim vergi orqanlarının da işində bir az səhvlər meydana çıxmağa başlayıbdır. Bunların hamısı biznesin inkişafına mane olur. Azərbaycan prezidenti kimi, mənim də məqsədim ondan ibarətdir ki, bunları biznesmenlərin özlərindən eşidim. Onlara nə mane olur və nə etmək lazımdır ki, onlar öz işlərini daha da uğurla apara bilsinlər və Azərbaycanda yerli biznes inkişaf etsin. Bu çox mühüm məsələdir. Çünki biz islahatlar keçirmişik, dövlətin inhisarında bir şey yoxdur. Bütün iqtisadiyyatımız indi sahibkarların, iş adamlarının əlindədir. Azərbaycanın sosial-iqtisadi inkişafı sahibkarların, iş adamlarının fəaliyyətindən asılıdır. Ona görə də biz buna böyük qayğı göstərməliyik. Necə ki, keçmişdə bunların hamısı dövlətin inhisarında olanda, dövlət onlara qayğı göstərirdi, indi bunlar sahibkarlardadır və biz onlara qayğı göstərməliyik, kömək etməliyik. Biz onların dərdlərini özlərinin dilindən eşitməliyik.

Əlbəttə, mən onlara da arzu edirəm ki, vəziyyəti obyektiv qiymətləndirsinlər. Həqiqətən onlara mane olan məsələləri qaldırsınlar, ayrı-ayrı icra orqanlarının onlara qarşı ədalətsizliklərini bildirsinlər. Hesab edirəm ki, bu, yox deyildir. Qorxmasınlar, çəkinməsinlər, açıq söhbət getsin. Bu çox böyük bir şeydir. Təbiidir ki, biz görüşdə aldığımız məlumatları təhlil edəcək, sonra lazımi tədbirlər görəcəyik. Güman edirəm ki, bundan sonra Azərbaycan prezidentinin fərmani olacaqdır. Ona görə də biz sadə görüş keçirmək istəmirik. Bu, iqtisadi islahatlar sahəsində bizim apardığımız işin bir hissəsidir.

**S u a l: Cənab Prezident, son zamanlar Rusiyada skinxedlərin fəaliyyəti güclənib. Onların qafqazlılara, o cümlədən azərbaycanlılara münasıbəti çox radikaldır. Siz Rusiya prezidenti ilə görüşərkən bu məsələyə, bir də Krasnodardan ermənilərin Dağlıq Qarabağa köçürülməsi məsələsinə toxunacaqsınızmı?**

**C a v a b:** Birinci məsələ Rusiya dövlətinin öz işidir, biz buna qarışmırıq və qarışmayacağıq. Hesab edirəm ki, Rusiya dövləti bu problemlərin nə qədər təhlükəli olduğunu özü bilir və lazımi tədbirlər görür.

İkincisi, bizim öz dərdimiz var. Bizə nə lazımdır ki, Krasnodardan ermənilərin haraya köçürülməsi ilə məşğul olaq. İnanmıram ki, onlar Dağlıq Qarabağa gəlsinlər. Dağlıq Qarabağa gəlsəydilər, niyə oraya gedirdilər? Krasnodar çox gözəl yerdir. Ona görə oranı seçiblər. Gəlib Dağlıq Qarabağın daşları üzərində onlar nə edəcəklər?

**S u a l: Cənab Prezident, bu günlərdə parlamentin sədri Murtuz Ələsgərov nazirləri Nizami Qocayevlə bağlı qanunsuzluqlara və cinayətə yol verməkdə ittiham etmişdi. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Siz bu mövzunu o qədər çeynəmisiniz, yazıq Murtuz Ələsgərovu televiziyada o qədər göstərmisiniz ki... Mənə belə gəlir ki, hər şey məlumdur.

**S u a l: Cənab Prezident, Siz xarici iş adamları ilə də görüşəcəksiniz? Bu görüşdən məqsəd nədir?**

**C a v a b:** Görüşəcəyəm. Məqsəd yenə eynidir.

Sağ olun.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKMƏNİSTANA RƏSMİ SƏFƏRİ**

*23 aprel 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Türkmənistanın paytaxtı Aşqabada gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Türkmənbaşı beynəlxalq hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Heydər Əliyevi Türkmənistanın Mədəniyyət naziri Orazgəldi Aydoğdıyev səmimiyyətlə qarşıladı. Azərbaycan rəhbərinə duz-çörək, gül dəstəsi təqdim edildi.*

*Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dövlətimizin başçısı maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış «Nebitçi» iqamətgahına gəldi.*

**Azərbaycan prezidenti Heydər Əliyevin Qazaxıstan prezidenti Nursultan Nazarbayev ilə görüşü**

*Aprelin 23-də Aşqabadda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev ilə görüşü olmuşdur.*

*Xəzəryanı ölkələrin dövlət başçılarının ilk zirvə görüşünün keçirilməsini yüksək dəyərləndirən prezidentlər dövlətlərimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın ildən-ilə daha da inkişaf etməsi və möhkəmlənməsindən razılıqla söhbət açdılar, Xəzərin problemlərinin həllində birgə iştirak etməyin vacib olduğunu vurğuladılar.*

*Xəzər dənizindən istifadə ilə bağlı bütün məsələlərin birbaşa dialoq yolu ilə, beynəlxalq hüquq prinsipləri nəzərə alınmaqla mehriban qonşuluq və qarşılıqlı anlaşma şəraitində həll edilməsinin zəruriliyini nəzərə çatdıran prezident Heydər Əliyev və prezident Nursultan Nazarbayev Xəzərin hüquqi statusu məsələsində Azərbaycanın və Qazaxıstanın eyni mövqedə olduqlarını bir daha təsdiq etdilər.*

*Dövlət başçıları Azərbaycanın və Qazaxıstanın ənənəvi dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin bundan sonra da davam edəcəyinə əmin olduqlarını bildirdilər.*

*Görüşdə Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabad zirvə görüşündə müzakirə ediləcək məsələlər, regionda vəziyyət, Azərbaycan–Qazaxıstan əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

**Azərbaycan prezidenti Heydər Əliyevin İran prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü**

*Aprelin 23-də Aşqabadda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü olmuşdur.*

*Prezident Heydər Əliyev və prezident Seyid Məhəmməd Xatəmi bir-birini mehribanlıqla salamladılar, bu görüşdən çox məmnun olduqlarını bildirdilər.*

*Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən ilk zirvə görüşünün Xəzərin problemlərinin həll olunmasında, sahilyanı ölkələrin qarşılıqlı surətdə faydalı əlaqələrinin genişləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu vurğulayan prezident Heydər Əliyev, eyni zamanda Azərbaycan–İran münasibətlərinə toxundu və ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə daha da inkişaf etdirilməsinin zəruriliyini nəzərə çatdırdı.*

*Prezident Xatəmi ölkələrimizin qarşılıqlı münasibətlərindən söhbət açaraq bildirdi ki, İran Azərbaycanla səmərəli əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəkdir. İran prezidenti Seyid Məhəmməd Xatəmi Azərbaycan prezidenti Heydər Əliyevə siyasətdə xüsusi rolu, zəngin təcrübəsi olan bir dövlət xadimi kimi böyük hörmət bəslədiyini bildirdi. Cənab Xatəmi istər ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi, istərsə də beynəlxalq, regional məsələlərin həlli üçün prezident Heydər Əliyevin böyük təcrübəsindən həmişə istifadə edilməsinin vacib olduğunu xüsusi vurğuladı.*

*Cənab Xatəmi Azərbaycan prezidenti Heydər Əliyevin rəsmi səfərini Tehranda səbirsizliklə gözlədiklərini bildirdi.*

*Xoş sözlərə görə İran dövlətinin başçısına təşəkkür edən prezident Heydər Əliyev İran İslam Respublikasına yaxın vaxtlarda səfər edəcəyini nəzərə çatdırdı.*

*Görüşdə Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabad zirvə görüşü, Azərbaycan–İran əməkdaşlığının perspektivləri, regionda vəziyyət və hər iki ölkəni maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Aprelin 23-də günortadan sonra Türkmənistan paytaxtının «Ruhiyyət» sarayında Xəzəryanı ölkələrin dövlət başçılarının ilk zirvə görüşü öz işinə başladı. Zirvə görüşünü Türkmənistan prezidenti Saparmurad Niyazov açdı. Sonra Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev, İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev çıxış etdilər. Prezidentlər Xəzərin hüquqi statusu ilə bağlı öz ölkələrinin mövqelərini açıqladılar.*

*Azərbaycan prezidenti Heydər Əliyev zirvə görüşünün sahilyanı ölkələrin Xəzər dənizində daha sıx əməkdaşlığının başlanğıcı olacağını vurğulayaraq bildirdi ki, yeni şəraitdə Xəzərin hüquqi statusunu müəyyənləşdirmək zərurəti yaranmışdır. Hələ ötən əsrin 40-cı illərindən başlayaraq, Xəzər dənizində bütün neft və qaz yataqlarının kəşfiyyatı və istismarının Azərbaycan neftçiləri tərəfindən həyata keçirildiyini xatırladan prezident Heydər Əliyev dedi ki, müstəqillik qazandıqdan sonra ölkəmiz dənizin Azərbaycan sektorunda mineral ehtiyatların işlənilməsi ilə fəal məşğul olur. Xəzər dənizinin hələ 1970-ci ildə SSRİ-nin sahilyanı respublikaları arasında orta xətt üzrə sektorlara bölünməsi beynəlxalq hüquqa uyğun gəlir.*

*Dövlətimizin başçısı xüsusi vurğuladı ki, hüquqi statusun olmaması sahilyanı dövlətlərin Xəzərdə öz suveren hüquqlarının həyata keçirilməsini davam etdirməsinə mane olmamalıdır və artıq təşəkkül tapmış müvafiq sektorlarda təbii ehtiyatlardan istifadə edilməsinə dair işlərin dayandırılması üçün əsas ola bilməz. Xəzərin hüquqi statusu məsələsi sahilyanı dövlətlərin suveren hüquqlarına hörmət edilməsi, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq ruhunda, dinc vasitələrlə, danışıqlar yolu ilə həll olunmalıdır. Dövlət başçılarının çıxışlarından sonra zirvə görüşü öz işini qapalı davam etdirdi.*

* * *

*Həmin axşam Türkmənistan prezidenti adından zirvə görüşündə iştirak edən dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Qəbulda Azərbaycan prezidenti Heydər Əliyev də iştirak edirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKMƏNİSTANDA

*Aşqabad*

*24 aprel 2002-ci il*

*Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşü öz işini davam etdirdi. Türkmənistan prezidenti Saparmurad Niyazov, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev çıxış edərək, Aşqabad zirvə görüşünün Xəzərin mehriban qonşuluq, əməkdaşlıq, dostluq, sülh və təhlükəsizlik dənizi olması üçün böyük əhəmiyyət daşıdığını nəzərə çatdırdılar.*

*Aşqabad zirvə görüşü başa çatdı. Xəzəryanı ölkələrin dövlət başçıları zirvə görüşündən xatirə olaraq birgə fotoşəkil çəkdirdilər.*

### Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə nitq

Hörmətli Saparmurad Atayeviç!
Hörmətli dövlət başçıları,
Xanımlar və cənablar!

Türkmənistan prezidenti Saparmurad Atayeviç Niyazovu, İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmini, Qazaxıstan Respublikasının prezidenti Nursultan Abişeviç Nazarbayevi, Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putini ürəkdən salamlayıram.

Xəzəryanı dövlətlərin başçılarının görüşünün təşkilinə görə, mehriban qonaqpərvərliyə, səmimi qəbula görə hörmətli Saparmurad Atayeviçə minnətdarlığımı bildirmək istəyirəm.

Bu yaxın vaxtlaradək Xəzər dənizi SSRİ-nin fəaliyyət meydanı olmuşdur. Sovet İttifaqının dağılmasından sonra müstəqil Xəzəryanı dövlətlər Xəzər dənizində təşəkkül tapmış praktikanı davam etdirərək, lazımi ekoloji, iqtisadi, elmi-texniki tədbirlər həyata keçirirlər. Lakin Xəzər dənizinin nadir xarakterinin qorunub saxlanması zərurəti, onun özünəməxsus xüsusiyyətlərinin və təbii ehtiyatlarının mühafizəsi bütün Xəzəryanı dövlətlər arasında daha səmərəli əməkdaşlıq vəzifəsini irəli sürür.

Bununla əlaqədar Xəzəryanı dövlətlərin Aşqabad zirvə görüşü böyük əhəmiyyətə malikdir. Türkmənistan prezidenti Saparmurad Niyazovun təşəbbüsü tam dəstəklənməyə və bəyənilməyə layiqdir. Zənnimcə, bu zirvə görüşü Xəzəryanı ölkələrin Xəzər dənizində daha sıx əməkdaşlığının başlanğıcı olacaqdır.

Yeni şəraitdə Xəzər dənizinin hüquqi statusunu müəyyənləşdirmək zərurəti yaranmışdır. Bizim ölkələrimiz bu istiqamətdə xeyli iş görmüşlər. Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri formatında ekspert qrupları böyük iş aparmışlar. Xarici işlər nazirləri, hökumət və dövlət başçıları səviyyəsində ikitərəfli əsasda bir çox görüşlər keçirilmişdir. Hesab edirəm ki, Xəzər dənizinin hüquqi statusu kimi mühüm məsələnin müzakirəsi və bu barədə qərar qəbul olunması üçün yaxşı təcrübə toplanmış və lazımi zəmin yaradılmışdır.

Xatırlatmaq istəyirəm ki, SSRİ Xəzər hövzəsində inhisara malik olaraq, bir çox onilliklər ərzində Xəzər dənizinin mineral ehtiyatlarının öyrənilməsi ilə, dənizdə neft və qaz yataqlarının kəşfiyyatı və işlənilməsi ilə fəal məşğul olmuşdur. Bu işi SSRİ Neft və Qaz Sənayesi Nazirliyi Azərbaycanın neft sənayesi təşkilatlarının, elmi-tədqiqat idarələrinin bazasında həyata keçirirdi.

Qeyd etmək lazımdır ki, Xəzər dənizindəki bütün neft və qaz yataqlarının kəşfiyyatı və istismarı Azərbaycan neftçiləri tərəfindən yerinə yetirilirdi. Onlar bu işlə ötən əsrin 40-cı illərindən başlayaraq məşğul olmuşlar. Azərbaycan neftçiləri, alimləri, geoloqları Xəzər dənizinin bütün akvatoriyasının geoloji quruluşunun öyrənilməsinə, neft və qaz yataqlarının axtarışına və kəşfiyyatına böyük töhfə vermişlər.

1949-cu ildə bizim neftçilərimiz Xəzər dənizində, Azərbaycan sahillərindən 100 kilometr məsafədə yerləşən Neft Daşları yatağında neft və qaz hasilatına başladılar. Xəzər dənizinin karbohidrogen xammalından sənaye üsulu ilə istifadə edilməsi məhz həmin vaxtdan başlanmışdır.

1949-cu ildən başlayaraq Azərbaycan neftçiləri Xəzər dənizindən 480 milyon ton neft və 337 milyard kubmetr qaz çıxarmışlar.

Dövlət müstəqilliyi illərində Azərbaycan Xəzər dənizinin mineral ehtiyatlarının işlənilməsi ilə fəal məşğul olaraq, xarici sərmayələri bu işə cəlb etmişdir. Bütün bunlar Xəzər dənizinin Azərbaycan sektoru daxilində həyata keçirilir. Sovet İttifaqının Xəzəryanı respublikaları üçün sektorlar 1970-ci ildə SSRİ Neft Sənayesi

Nazirliyi tərəfindən müəyyən edilmişdi. Yeri gəlmişkən, Xəzər dənizinin Sovet İttifaqının Xəzəryanı respublikaları arasında sektorlara bölünməsi orta xətt prinsipinə, beynəlxalq hüquqa uyğundur.

Eyni zamanda biz Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi barədə bütün Xəzəryanı dövlətlərlə intensiv iş aparırıq. Bunun nəticəsində Rusiya Federasiyası və Qazaxıstan ilə Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında, Xəzər dənizi dibinin bölünməsinə dair razılaşmalar imzalanmışdır. Bu razılaşmaların əsasını belə sututarların eyni uzaqlıqdan keçən orta xətt metodunun tətbiqi vasitəsilə həmhüdud və qarşı tərəfdəki dövlətlər arasında sektorlara bölünməsinin dünya praktikasında hamılıqla qəbul olunmuş prinsipi təşkil edir.

Ümidvarıq ki, bu gün biz bütün Xəzəryanı dövlətlər arasında razılığa nail olmaq imkanlarını müəyyən edə bilərik.

Hüquqi statusun olmaması sahilyanı dövlətlərin Xəzər barəsində öz suveren hüquqlarının həyata keçirilməsini davam etdirməsinə mane olmamalıdır və artıq təşəkkül tapmış müvafiq sektorlarda Xəzər dənizinin təbii ehtiyatlarının işlənilməsi və istifadəsi sahəsində işləri dayandırmaq üçün əsas ola bilməz.

Xəzər dənizinin hüquqi statusu məsələsinin sahilyanı dövlətlər arasında həlli onların suveren hüquqlarına hörmət, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq ruhunda, dinc vasitələrlə, danışıqlar yolu ilə həyata keçirilməlidir. Sahilyanı dövlətlər arasında münasibətlərdə güc işlətməklə təzyiq göstərməyin və hədə-qorxunun hər hansı forma və metodlarından istifadə edilməsi yolverilməzdir.

Xəzər dənizi Xəzəryanı ölkələrin mehriban qonşuluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq dənizi, dostluq, sülh və təhlükəsizlik dənizi olmalıdır.

Diqqətinizə görə təşəkkür edirəm.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Aşqabad, «Ruhiyyət» sarayı*

*24 aprel 2002-ci il*

*Azərbaycan prezidentini hərarətlə salamlayan cənab Vladimir Putin yaranmış hər bir imkandan istifadə edib prezident Heydər Əliyevlə görüşməyindən çox şad olduğunu nəzərə çatdırdı.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Rusiya prezidenti Vladimir Putin Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün böyük əhəmiyyət daşıdığını vurğuladı:*

**Vladimir Putin:** Başlıca nəticə ondan ibarətdir ki, müxtəlif səviyyələrdə on il ərzində aparılmış danışıqlardan, söhbətlərdən, görüşlərdən, müzakirələrdən sonra biz, nəhayət, bir yerə toplaşa bildik. İkinci mühüm cəhət ondan ibarətdir ki, biz Xəzərin problemi ilə əlaqədar belə yüksək səviyyədə müntəzəm olaraq görüşmək barədə razılığa gəldik. Nəhayət, hamı belə bir yekdil rəydədir ki, məsələləri, o cümlədən də mübahisəli xarakterli məsələləri ancaq həm ikitərəfli, həm də çoxtərəfli danışıqlar prosesində həll etmək olar. Zənnimcə, bunu bu görüşün müvəffəqiyyəti adlandırmaq olar.

*Son vaxtlar təhlükəsizlik məsələlərinə, o cümlədən də ən kəskin məsələlərə dair intensiv dialoqlar aparılır. Diqqətəlayiq haldır ki, bizim görüşüb bu və ya digər məsələləri müzakirə etməyə imkanımız vardır.*

**Heydər Əliyev:** Mən də bu fikirdəyəm, bizim belə imkanımız var, ümumiyyətlə, daha tez-tez görüşməyə ehtiyac duyulur. Şəxsən mən hesab edirəm ki, biz bu imkanlardan istifadə etməliyik. Bu, yaxşı imkandır. Biz burada Xəzər problemi ilə əlaqədar gərgin işləyirik. 2001-ci ilin yanvarında Sizin Azərbaycana rəsmi səfərinizdən sonra başlanmış dialoqumuz davam edir. Bu dialoq mənim Moskvaya səfərimdən sonra daha böyük vüsət alıbdır. Rusiya ilə Azərbaycan arasında münasibətlər ölkələrimizin mənafeləri naminə yaxşı istiqamətdə inkişaf edir. Biz Azərbaycanda buna şahidik. Hesab edirəm ki, Bakıda və Moskvada imzaladığımız bütün sənədlərdə nəzərdə tutulanları yerinə yetirməyə imkanımız vardır.

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsindən də söhbət açıldı. Prezident Vladimir Putin bildirdi ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya bu münaqişənin tezliklə həll olunması üçün öz səylərini artırmağa hazırdır.*

*Cənab Vladimir Putin Azərbaycan prezidenti Heydər Əliyevi bu ilin iyun ayında Sankt-Peterburqda görmək arzusunda olduğunu bir daha nəzərə çatdırdı.*

*Prezidentlər regionda vəziyyət, Azərbaycan–Rusiya əməkdaşlığının daha da möhkəmləndirilməsi və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi apardılar.*

## Səfər başa çatdı

*Aprelin 24-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Bakıya yola düşdü. Aşqabadın Türkmənbaşı beynəxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin önündən keçdi. Milli geyimli qızlar dövlətimizin başçısına gül dəstələri təqdim etdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyevi Türkmənistanın Mədəniyyət naziri Orazgəldi Aydoğdıyev və digər rəsmi şəxslər yola saldılar.*

## TÜRKMƏNİSTANDAN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*24 aprel 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Xoş gördük. Dünən görüşmüşük, bu gün də görüşürük. Görürsünüz, Azərbaycan prezidenti jurnalistlərlə necə tez-tez görüşür.

Təbii, siz maraqlanırsınız, bilirəm ki, bəzi məlumatlarınız da var. Ona görə mən geniş məlumat vermək məqsədində deyiləm. Mən hesab edirəm ki, Xəzəryanı ölkələrin dövlət başçılarının birinci görüşü, Aşqabad sammiti çox əhəmiyyətli bir hadisə oldu və bizə böyük imkanlar verdi ki, son illər Xəzərin statusu ilə əlaqədar olan müzakirələr, məsələlər haqqında öz mövqelərimizi, öz fikirlərimizi bildirək və bunları müzakirə edək. Bu da alındı. Ona görə hesab edirəm ki, sammit baş tutubdur. Yenə deyirəm, mən bunu mühüm hadisə hesab edirəm.

Əsas ondan ibarətdir ki, orada hər bir dövlət başçısı öz ölkəsinin Xəzərə aid və Xəzərin statusuna aid fikirlərini bildirdi. Mən orada dünən də demişdim, bu gün də qapalı iclasda dedim ki, Xəzərin statusu təkcə Xəzərin dibinin bölünməsindən ibarət deyil, Xəzərin problemləri var. Xəzərin ən böyük problemi ekologiya problemidir. Çünki Xəzər dənizi kimi dünyada bənzəri olmayan nadir bir dəniz, təəssüflər olsun ki, çox çirklənir. Keçmişdə də çirklənibdir, amma indi daha da çox çirklənir. Xəzərin statusunun müəyyən edilməsi bu məsələnin həlli ilə bağlı olmalıdır.

Yaxud da ki, Xəzərin bioloji ehtiyatları. Xəzərdə olan nadir balıqlar get-gedə azalır, onların məhv olmaq təhlükəsi var. Bununla da ciddi məşğul olmaq lazımdır. Xəzərdə gəmiçilik məsələsi də var. Bunlarla bərabər, indi bu dəqiqə çox aktual olan məsələ – Xəzərin mineral ehtiyatlarının istifadə olunmasıdır. Bunlardan istifadə olunur, o cümlədən Azərbaycan tərəfindən. Xəzərin sektorlara bölünməsi, yəni Xəzərin statusunun müəyyən edilməsi ondan ibarətdir ki, gərək müəyyənləşdirilsin ki, hansı ölkə hansı sərhəddə öz işini apara bilər. Bunda da indiyə qədər əldə olunmuş təcrübə var. Beynəlxalq hüquq normalarına uyğun olan orta xətt prinsipi var və bu, əsas götürülməlidir. Əlbəttə, biz bu barədə öz mövqeyimizi orada bildirdik.

Müzakirələr çox oldu. Bizim açıq iclasımızda müzakirə olmadı, orada çoxlu mətbuat nümayəndələri var idi. Amma ondan sonra qapalı iclasımızda geniş müzakirə oldu və əvvəldən nəzərdə tutulmuşdu ki, bir bəyannamə imzalansın. O da bir neçə vaxtdır hazırlanırdı.

Nəhayət, aprelin 22-də qərar qəbul olunmuşdu ki, ekspertlər qrupu ayrıca görüşsünlər, bu bəyannamənin layihəsini hazırlasınlar. Onlar da görüşmüşdülər, hazırlamışdılar. Belə bir bəyannamə layihəsi var idi. Ancaq sonra qapalı iclasda biz bəyannamə layihəsini müzakirə edərkən bir neçə məsələlər çox mübahisəli oldu. Ona görə dövlət başçıları qərara gəldilər ki, ekspertlər qrupuna tapşırılsın ki, gecə səhərə qədər işləsinlər, bu hazır olsun və səhər biz bəyannamənin layihəsinə baxaq və onu imzalayaq. Onlar gecə saat beşə qədər işləmiş, əvvəlki mətni, variantı müəyyən qədər təkmilləşdirmişdilər. Ancaq təkmilləşmiş variant da bəzi mübahisələr doğurdu. Ona görə bu gün bizim qapalı iclasımız beş saat çəkdi.

Mübahisələr olduğuna görə, bir fikrə gələ bilmədiyimizə görə belə qərara alındı ki, bəyannamə qəbul edilməsin. Elə sammitin keçirilməsinin özü çox əhəmiyyətli hadisədir və bu, gələcəkdə belə görüşlərimizin tez-tez keçirilməsi üçün bir başlanğıcdır. Qərara gəldik ki, hər ölkə üzrə xarici işlər nazirliklərinə tapşıraq, onlar bu bəyannamənin üzərində işləsinlər. Hazır olan zaman biz baxmalıyıq. Əgər hamı onunla razı olsa, toplaşıb bunu imzalaya bilərik.

**S u a l: Cənab Prezident, Saparmurad Niyazovun «Xəzərdən qan iyi gəlir» fikrinə münasibət bildirməyinizi xahiş edirəm. Bu, regiondakı vəziyyətin gərginləşməsinə gətirib çıxarmayacaq?**

**C a v a b:** Bilirsiniz, sizdən xahiş edirəm, mənə bu sualları verməyin. Mən bunların heç birinə cavab verməyəcəyəm. Təyyarədə mənə dedilər ki, bizim bəzi qəzetlərdə yenə də – bu məsələ qurtarmır – mən buraya gəlməmiş bir çox şeylər yazıblar. Nə bunlara cavab verəcəyəm, nə də bu barədə mübahisəyə keçəcəyəm.

**S u a l: Cənab Prezident, Saparmurad Niyazov dedi ki, o necə statusdur ki, Azərbaycan Xəzər sahillərindən 184 kilometr uzaqda, Türkmənistandan 84 kilometr uzaqda iş aparır. Bu nə dərəcədə əsaslandırılıbdır?**

**C a v a b:** Mən təəssüf edirəm ki, o bu fikirləri mətbuatın yanında deyir. Amma bu onun fikridir. Dünyada qəbul olunmuş beynəlxalq hüquq normalarına əsaslanan orta xətt prinsipi var. O isə orta xətt prinsipini kənara qoyur, özü nə cür düşünür, o cür də xətt çəkir. O, çəkilən xəttə görə həmin məsafələri deyir. Belədir, fikir ayrılığıdır.

**S u a l: Cənab Prezident, növbəti görüşün vaxtı müəyyənləşibmi?**

**C a v a b:** Yox, müəyyənləşməyibdir. Sağ olun.

## YERLİ SAHİBKARLARLA GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev salonun foyesində ölkəmizdə istehsal edilən yüksək keyfiyyətli məhsullardan ibarət sərgi ilə yaxından tanış oldu.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, bu məhsulların əksəriyyəti 1970-ci illərdə respublikada yaradılmış və hazırda özəl sektora məxsus müəssisələrdə istehsal olunmuşdur.*

*Prezident Heydər Əliyev ayrı-ayrı müəssisələrin, səhmdar cəmiyyətlərinin buraxdığı məhsullarla, istehsal müəssisələrinin vəziyyəti, rəqabət qabiliyyəti, daxili tələbatın ödənilməsi, bazarda məhsulların satışının vəziyyəti və təşkili ilə maraqlandı, müvafiq tövsiyə və məsləhətlərini verdi.*

*Dövlətimizin başçısı sahibkarlara müraciətlə dedi ki, əgər siz yaxşı işləsəniz, məhsulları keyfiyyətli və bol etsəniz, bazarı ələ alacaqsınız, Qərb ölkələrindən belə məhsulların gətirilməsinə o qədər də ehtiyac olmayacaqdır. Bu məhsullar əhalimizi təmin etməlidir. Bunlar nə qədər keyfiyyətli olsa, həm əhali təmin olunar, həm də, yenə deyirəm, bazarı ələ ala bilərsiniz. Bazar iqtisadiyyatı rəqabətdir. Gərək hər gün düşünəsən ki, bazarı itirməyəsən.*

*Sahibkarlar onları görüşə dəvət etdiyinə, fəaliyyətləri üçün yaratdığı şəraitə və dəyərli tövsiyələrinə görə Azərbaycan prezidentinə dərin minnətdarlıqlarını bildirdilər, öz müəssisələrinin işi barədə məlumat verdilər, respublikamızın rəhbərinə xatirə hədiyyələri təqdim etdilər.*

*Prezident Heydər Əliyev görüşü giriş nitqi ilə açdı.*

**H e y d ə r Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Hörmətli sahibkarlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram və bütün işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan dövlətinin iqtisadi siyasəti Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdən ibarətdir. Bunun üçün biz 1995-ci ildən başlayaraq, ardıcıl surətdə lazım olan iqtisadi islahatları həyata keçiririk. Biz bu gün məmnuniyyət hissi ilə deyə bilərik ki, artıq bizim iqtisadi siyasətimiz, həyata keçirdiyimiz tədbirlər öz müsbət nəticəsini verir və verməkdədir.

Azərbaycanın iqtisadiyyatı 1990-cı ilin əvvəllərində böhran vəziyyətində olduğu halda, 1995-ci ildən artıq inkişafa başlayıbdır. İqtisadiyyatın bütün sahələrində inkişaf müşahidə olunur və bu inkişaf ilbəil artır. Bunların əsas səbəbləri, qeyd etdiyim kimi, iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. İqtisadi islahatlar müxtəlif xarakter daşıyır, müxtəlif sahələri əhatə edir və böyük tədbirlərin həyata keçirilməsini tələb edir. Biz bunların hamısını edirik, baxmayaraq ki, bunları həyata keçirmək üçün bir çox çətinliklərimiz var idi. Keçmiş iqtisadi psixologiyadan uzaqlaşmaq, insanları yeni iqtisadi təfəkkürə alışdırmaq və beləliklə də, islahatları həyata keçirərək, eyni zamanda onların müsbət nəticələrinin əldə olunmasına nail olmaq lazım idi. Dediyim kimi, biz bu nəticələri əldə etmişik.

Aparılan siyasət, islahatlar və bazar iqtisadiyyatı prinsipi ölkədə yeni təbəqənin, sahibkarlar təbəqəsinin yaranmasına gətirib çıxarıbdır. Bu belə də olmalıydı, çünki bazar iqtisadiyyatının əsasında şəxsi mülkiyyət, özəl mülkiyyət və sahibkarlıq durur. Bizim görəcəyimiz işlər ondan ibarət idi ki, islahatları həyata keçirmək üçün, bazar iqtisadiyyatının tələblərini ödəmək üçün lazım olan qanunlar qəbul etməliydik, qaydalar yaratmalı idik və ölkəmizdə bu qanunların həyata keçirilməsini, onlara riayət olunmasını təmin etməliydik. Biz deyə bilərik ki, bunu da etmişik.

İndi Azərbaycanda böyük sahibkarlar təbəqəsi yaranıbdır. Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir. Özəlləşdirmə prosesi gedir, iqtisadiyyatın çox sahəsi özəlləşdirilibdir. Əldə etdiyimiz nailiyyətlərdə özəlləşdirmənin böyük əhəmiyyəti vardır. İqtisadiyyatın bir çox sahələrindəki nəticələr, özəl sektorun hesabına əldə edilibdir. Bir daha deyirəm, özəl sektorun yaradıcıları, özəl sektorun aparıcıları sahibkarlar qrupunu, sahibkarlar təbəqəsini meydana gətirir.

Demək olar ki, indi bizim sosial-iqtisadi inkişafımız sahibkarların fəaliyyətindən asılıdır. Çünki əgər iqtisadiyyat özəlləşdirilibsə, yaxud onun böyük bir hissəsi özəlləşdirilibsə, demək, iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycanın iqtisadiyyatının inkişafını təmin edən amildir. Ona görə də biz buna dövlət siyasətimizin böyük bir hissəsi kimi baxırıq.

Əgər keçmişlə müqayisə etsək, o vaxt bütün iqtisadiyyat dövlət inhisarında idi və biz iqtisadiyyatda inkişafı təmin etmək üçün, müxtəlif sahələrdə istehsalı təmin etmək üçün o sahələrdə fəaliyyət göstərən dövlət

orqanlarının, təşkilatlarının, birliklərin işləri ilə məşğul olurduq və vaxtaşırı onlarla müxtəlif müşavirələr keçirib gördükləri işləri təhlil edirdik, işlərin sürətlənməsi üçün lazımi tədbirlər görürdük və onlara kömək edirdik. İndi, demək olar ki, bunlar yoxdur, yaxud da bizim iqtisadiyyatımızın az hissəsinə aiddir. İqtisadiyyatın əsas hissəsini təşkil edən özəl sektordur.

Bir də qeyd edirəm, özəl sektorun da əsas daşıyıcıları, aparıcıları sahibkarlardır. Demək, biz keçmişdə gördüyümüz işləri indi sahibkarlarla görməliyik. Təbiidir, burada fərq var. Çünki keçmişdə dövlət tabeliyində olan təşkilatlar idi, biz lazımi müşavirələr keçirərək, onların qarşısına tələblər qoyurduq. İndi isə biznesmenlər sərbəstdirlər, öz əmlakının, öz işlərinin sahibidirlər. İş adamları ilə, biznes adamları ilə bizim münasibətlərimiz yalnız və yalnız demokratiya prinsipi əsasında qurulur və qurula bilər. Bu prinsiplərə riayət edərək, biz iş adamlarının fəaliyyətinin daha da səmərəli olmasında maraqlı olaraq, onlara yardım etmək, kömək göstərmək istəyirik. Biz bunu indiyə qədər etmişik. Qəbul etdiyimiz qanunlar bunu təmin edib və edir, prezidentin fərmanları və sərəncamları bunu təmin edibdir və edir, həyata keçirdiyimiz müxtəlif tədbirlər bunu təmin edir.

Bu gün, bu görüşdə isə bizim məqsədimiz Azərbaycanda yerli sahibkarların vəziyyəti ilə daha da yaxından tanış olmaqdan ibarətdir. Yəni yerli sahibkarların işində nə kimi çətinliklər var, onların işinə mane olan amillər nədən ibarətdir, dövlətin, hökumətin qanunlarının, sərəncamlarının, qərarlarının yerinə yetirilməsinə mane olan səbəblər nədən ibarətdir və nəhayət, sahibkarların işinin daha da səmərəli olması üçün nə etmək lazımdır. Bu məqsədlə də biz bu gün sizinlə görüşə gəlmişik.

Bilirsiniz ki, belə bir görüşün keçirilməsi haqqında mən aprel ayının 12-də qərar qəbul etdim, bu qərarı ictimaiyyətə çatdırdım və o gündən başlayaraq bizim müvafiq nazirliklər, xüsusən İqtisadi İnkişaf Nazirliyi belə bir görüşün hazırlanması ilə məşğuldur. Çox sevindirici haldır ki, bu görüşə Azərbaycanın iş adamları böyük maraq göstəriblər, yüzlərlə, minlərlə insan müraciət edib görüşdə iştirak etmək arzularını bildiribdir. Ancaq təəssüflər olsun ki, bizim bu salona – mənə bildirdilər ki, təxminən 500 adam tuta bilər – bundan artıq dəvət etmək mümkün olmayıbdır. Ancaq mən düşünürəm ki, əgər bizim bu görüşümüz istənilən səviyyədə alınsa və həqiqətən bizim sizinlə olan işlərimizə kömək etsə, müəyyən vaxt təyin edib, bu gün burada iştirak etməyə imkanı olmayan bütün başqa sahibkarlarla da görüşəcəyik.

Mən işi belə planlaşdırıram ki, bu gün sizinlə bu görüşü keçirək. Sonra Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin sahibkarları ilə belə bir görüş keçirmək istəyirəm. Bunların nəticəsində əldə olunan məlumatları, materialları öyrənmək və onların əsasında lazımi tədbirlər görmək üçün biz Azərbaycanın dövlət orqanlarının, hökumət orqanlarının nümayəndələri ilə müşavirə keçirəcək, hakimiyyət orqanlarının vəzifələrini müəyyən edəcəyik.

Bu görüşün və bundan sonra keçiriləcək görüşün məqsədi ondan ibarətdir ki, biz bilavasitə iş adamlarından məlumat alaq ki, sahibkarlıq işi nə vəziyyətdədir, bizim qanunlarımız, fərmanlarımız, sərəncamlarımız Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üçün lazımi imkanlar yaradırmı, yoxsa yox. Əgər bu sahədə qanunvericilik nöqteyi-nəzərindən, yaxud da ki, icra orqanlarının qərarları ilə əlaqədar çətinliklər varsa, sizdən məlumat aldıqdan sonra biz müzakirə etməli və lazımi fərmanlar, sərəncamlar verməliyik.

Ən başlıcası, biz istəyirik ki, bilək, sizin işinizə nə mane olur? Biz bunu əvvəldən də bilirik. Bir neçə dəfə müşavirələr keçirmişik, bu sizə məlumdur, televiziya və radio vasitəsilə, mətbuat vasitəsilə bilirsiniz ki, Azərbaycanda sahibkarlıq işi başlanandan, bazar iqtisadiyyatına keçid başlanandan Azərbaycanın müxtəlif hökumət orqanları cürbəcür yoxlamalarla, müdaxilələrlə sahibkarların işlərinə mane olmağa cəhd göstəriblər. Mən bu barədə bir neçə fərmanlar vermişəm və Azərbaycanda hüquq mühafizə orqanlarının, başqa nəzarət edən orqanların sahibkarlara mane olmaması tələblərini qoymuşam. Bunlar öz nəticələrini veribdir.

Ancaq son dövrün müşahidəsi onu göstərir ki, bizim həyata keçirdiyimiz tədbirlərə baxmayaraq, yenə də müxtəlif hökumət orqanları sahibkarlara şərait yaratmaq, yardım etmək, onlara kömək etmək əvəzinə, müxtəlif maneələr törədirlər, yoxlamalar aparırlar, onların işlərinə müdaxilə edirlər, öz şəxsi mənafelərini təmin etmək istəyirlər. Bunlar da sahibkarlara mane olur. Hətta mənə deyirlər ki, bəzi sahibkarlar belə yoxlamalardan, müdaxilələrdən o qədər boğaza gəlirlər ki, haqlı işlərini bağlayırlar. Sahibkar nə məqsədi daşıyır? O, iş görür ki, pul qazansın. Onun istəyi pul qazanmaqdır, işi isə cəmiyyətə fayda verməkdir. Sahibkar müəyyən məhsulun isteshalı ilə məşğul olur, demək, o məhsul cəmiyyətə lazımdır. Yaxud ticarətlə məşğul olur, cəmiyyətin yaxşı ticarətə ehtiyacı var. Başqa xidmət sahələri ilə məşğul olur. İnsanların buna da ehtiyacı var. Əgər sahibkar bu işlərlə məşğul olaraq qoyduğu sərmayəni çıxara və qazancı götürə bilmirsə, demək, onun sahibkarlıqla məşğul olmasının mənası yoxdur. Təəssüf ki, bizə məlumatlar çatır ki, belə hallar var və az deyildir. Bu bizi narahat edir.

Bizim bugünkü görüşümüzün əsas məqsədlərindən biri ondan ibarətdir ki, bilavasitə siz sahibkarların özündən vəziyyət haqqında doğru, düzgün, obyektiv məlumat alaq. Mən bir də deyirəm, doğru, düzgün, obyektiv. Yəni siz həqiqəti deməlisiniz. Nə həqiqəti gizlətməyə cəhd göstərməlisiniz, eyni zamanda öz şəxsi fikirlərinizə görə, münasibətinizə görə ayrı-ayrı hökumət, dövlət orqanları haqqında əsası olmayan fikirlər də söyləməməlisiniz.

Biz bu görüşə yalnız Azərbaycanın yerli sahibkarlarını çağırmışıq. Burada Azərbaycanın sahibkarlıq və bazar iqtisadiyyatı prosesində iştirak edən hakimiyyət orqanlarından, onların başçılarından heç kəs iştirak etmir. Məndən başqa, burada Baş nazir, Prezidentin İcra Aparatının rəhbəri, iqtisadi məsələlər üzrə dövlət müşaviri və prezidentin köməkçisi iştirak edir, ayrı heç kəs yoxdur. Mən bunu nə üçün etmişəm? Ona görə ki, siz burada sərbəst danışa biləsiniz, ayrı-ayrı nazirlər, hüquq mühafizə orqanlarından, vergi orqanlarından, başqa orqanlardan sizə təsir edə bilməsinlər, göz ağartmasınlar. Siz onların yanında danışmağa bir az çəkinə bilərsiniz, bu olmasın, sərbəstlik olsun. İndi siz deyə bilərsiniz ki, onlar burada yoxdur, amma televiziya vasitəsilə çəkirsiniz, bunu görəcəklər. Mən bu məsələni də nəzərə almışam. İndi bu bizim görüşümüzün birinci hissəsidir. Yəni mənim bu söhbətimdən sonra İqtisadi İnkişaf nazirinə söz verəcəyəm, o, qısa məruzə etsin. Bizim mətbuat nümayəndələri burada olacaqdır. Amma ondan sonra mən onları da uzaqlaşdıracağam ki, heç kəs narahat olmasın ki, dediyi sözlər yazıldı, şəkli çəkildi və onun asılı olduğu hansısa nazirə verildi, o da sonra ədavət aparmağa, yaxud da başqa işlər görməyə başladı.

Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə hələ belə hallar var. Ona görə də mən bu görüşdə təmin etmişəm ki, sizinlə açıq söhbət olsun, sərbəst söhbət olsun və Azərbaycanın prezidenti kimi, sizdən həqiqəti öyrənim. Bir də qeyd edirəm, sizin verdiyiniz bugünkü məlumatlar öyrəniləcək, təhlil olunacaq və onların əsasında bizim son müşavirəmiz keçiriləcəkdir. Mən istəyirəm ki, orada, həmin o müşavirədə bizim əlimizdə konkret materiallar olsun, lap aşağıdan gələn materiallar, sizdən gələn məlumatlar olsun.

Beləliklə, mən istəyirəm ki, bizim bu görüşümüz açıq keçsin, sərbəst, rahat keçsin, heç kəs narahat olmasın. Azərbaycan prezidenti kimi, mənim məqsədim həmişə belə olubdur: biz Azərbaycanda iqtisadi siyasətimizin istiqamətini müəyyən edən kimi və bunun bazar iqtisadiyyatı istiqaməti olduğunu təyin etdiyimizə görə, Azərbaycanda biznesin inkişafına daim fikir vermişəm və fikir verirəm.

Mən dedim, bu təkcə mənim subyektiv arzum deyildir. Azərbaycanda iqtisadiyyatın və sosial sahənin inkişafı biznesin inkişafından asılıdır, özəl sektorun inkişafından asılıdır. Biz özəl sektoru yaratmışıq, yaradırıq. Ancaq özəl sektor Azərbaycanda iqtisadiyyatın bütün sahələrini biz istədiyimiz səviyyədə əhatə edə bilsə, səmərəli iş görə bilsə, onda həqiqətən bazar iqtisadiyyatı kimi, iqtisadiyyatımız keçmiş mərkəzləşdirilmiş iqtisadiyyatdan qat-qat üstün olacaqdır.

Biz bazar iqtisadiyyatını elan etdik, özəlləşdirməni apardıq, özəl sektor yaratdıq. Amma əgər bu özəl sektor istənilən səviyyədə fəaliyyət göstərə bilmirsə, onda, demək, biz istədiyimizə nail ola bilmirik. Bizi bu da narahat edir. Bax, bu məqsədlə mən bu gün bu görüşü keçirməyi qərara almışam. Bu məqsədlə də sizi bu görüşə dəvət etmişəm. Bir də deyirəm, hər birinizdən açıq, ədalətli, obyektiv söhbət gözləyirəm.

* * *

**Heydər Əliyev:** Bizim görüşümüzün birinci hissəsi bitdi. Biz sizi, yəni iş adamlarını dinləyəcəyik. Görürəm, burada söz demək üçün müraciət edənlər var. Mən onların müraciətlərini nəzərə alaraq söz verəcəyəm. Ancaq burada yəqin ki, hər kəsin söz demək arzusu var. Ona görə də burada çıxış etmək lazım deyil, nitq söyləmək də lazım deyildir. Yaxşı sahibkarlıq edirsinizsə, çox sağ olun, yaxşı nəticələr əldə edirsinizsə, çox sağ olun. Əgər siz gəlib burada öz nailiyyətləriniz haqqında on dəqiqə, sizi narahat edən, sizə mane olan şeylərdən isə iki dəqiqə danışsanız, bu, səmərəli olmayacaqdır.

Sizin gördüyünüz işlər məlumdur. Sahibkarlar Azərbaycanda iqtisadiyyatın inkişafına böyük töhfələr verirlər. Ancaq bu gün bu barədə məlumat verməyə ehtiyac yoxdur. Mən xahiş edirəm ki, tribunaya, mikrofon qarşısına gəlmək istəyən hər bir şəxs ancaq və ancaq sahibkarlığın daha da uğurla həyata keçirilməsinə mane olan amillər barədə açıq-aydın desin, heç kəs utanmasın, heç kəs çəkinməsin. Çünki bu nöqsanların, mane olan şeylərin səbəbləri bizə məlumdur. Ola bilərdi mən sizinlə görüşmədən də böyük bir toplantı keçirərək, mənə məlum olan faktlardan istifadə edib Azərbaycanda hakimiyyət orqanları qarşısında lazım olan vəzifələri qoyum. Ancaq mən hesab edirəm ki, bizə məlum olmayan şeylər də var. Bunları siz bizdən daha yaxşı bilirsiniz. Sizin özünüz işinizdə bunu hiss edirsiniz. Rica edirəm ki, ancaq bu barədə danışasınız.

Təbiidir ki, indi biz günün axırına qədər burada bir yerdə işləyəcəyik. Ancaq buna baxmayaraq, hamı burada öz fikrini demək imkanı əldə edə bilməyəcəkdir. Ona görə də sizə xüsusi anket paylanıbdır. Siz orada öz fikirlərinizi yazıb qutulara atarsınız. Qutular haradadır?

**Ramiz Mehdiyev** (*Prezidentin İcra Administrasiyası rəhbəri*): Buradadır.

**Heydər Əliyev:** Onlar qutu deyil, Ramiz Mehdiyev, biz istəyirik ki, bu, gizli olsun, o yazılar da anonim olsun. İndi danışacaqlar, niyə qutu gətirməmisiniz? Şöbə müdiri qabağına bir dənə çanaq qoyub deyir ki, yazıları gətirin bura atın. Özünüz də deyirsiniz ki, anonim olsun. Yaxşı, qutunu hazırlamaq çətin bir şey deyildir ki?! Yəqin unutmusunuz, indi hazırlayırsınız.

**Ramiz Mehdiyev:** Cənab Prezident, nəzərdə tutmuşuq.

**Heydər Əliyev:** Bəs haradadır?

**Ramiz Mehdiyev:** Tənəffüs zamanı qoyulacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Axi niyə tənəffüsdə, indi yazacaqlar. Deyirsən ki, hələ fikirləşib yazacaqlar?! Elə bu iş vaxtı da qoya bilərdiniz.

**R a m i z  M e h d i y e v:** Get-gəl olmasın deyə, fikirləşdik ki, yazıb tənəffüs zamanı qutuya atarlar.

**H e y d ə r  Ə l i y e v:** Nə olar, bir az da get-gəl olsun.

Bir halda ki, belə deyirlər, onda mən rica edirəm, biz tənəffüs edən kimi qutuları gətirin. Özü də bir qutu olmasın, qutunun yanında da heç kəs durmasın. Rica edirəm ki, heç nədən çəkinməyin, qorxmayın, nə fikriniz varsa, həmin o anketdə yazıb qutulara atın. Yəni burada deyəcəyiniz və o qutuya atdığınız anketlərdəki fikirlər hamısı toplanacaqdır. Özü də onlar anonimdir. Adınızı yazmayın, familiyanızı yazmayın. Biz bunu nə üçün edirik – mən bunu dedim. Biz bilirik ki, şikayət edəcəyiniz orqanların rəhbərləri, ola bilər, gələcəkdə sizə kömək etmək əvəzinə, maneçilik etsinlər ki, niyə gedib bizim işlərimizi orada açdınız.

Bilirəm ki, bəzi biznesmenlərin şikayətləri var, öz aralarında deyirlər. Amma gəlib açıq demək istəmirlər. Bunun da səbəbi var. Çünki açıq deyəndə, hansı orqandan şikayət edibsə, o, təəssüflər olsun ki, ona qarşı daha da təzyiqlər edir, yaxud ədalətsiz hərəkətlər edir. Ona görə biznesmen fikirləşir ki, birtəhər başımı dolandırım.

* * *

*Görüşdə sahibkarlar onları narahat edən məsələlər barədə fikirlərini söylədilər.*

## YEKUN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Hesab edirəm ki, biz bu görüş ilə əlaqədar məqsədimizə nail olduq. Saat 11-dən indiyə qədər – artıq yeddi saatdır –biz burada, bu salonda sahibkarlığın inkişafı ilə əlaqədar birlikdə fikir mübadiləsi apardıq. Bizim bu görüş başlananda da mən müraciət etdim və bildirdim ki, bugünkü görüş yalnız və yalnız yerli sahibkarlığın inkişafına mane olan səbəbləri aradan qaldırmaq məqsədi daşıyır. Problemlər çoxdur, məsələlər çoxdur, əgər biz istəsəydik burada onların hamısını aşkar edək, yaxud da onlar haqqında fikir mübadiləsi aparaq, bu çox çətin olardı. Ona görə də mən əvvəldən də, görüş zamanı da dəfələrlə birdirdim ki, biz sahibkarlığın inkişafı ilə əlaqədar bir neçə tədbir həyata keçirmək məqsədindəyik və bu tədbirləri səmərəli keçirmək və nəhayət, sahibkarlığın inkişafı üçün lazımi qərarlar qəbul etmək üçün vəziyyəti sahibkarların özündən öyrənmək istəyirik. Buna görə də biz bugünkü görüşə gəlmişik.

Düşünürəm ki, bu görüşümüz səmərəli, maraqlı keçdi. Hər halda, güman edirəm ki, siz etiraf edərsiniz ki, mən burada hər kəsə öz fikrini sərbəst demək şəraiti yaratdım və hətta bəzilərinə fikirlərini ifadə etmək üçün kömək etməyə çalışdım. Düzdür, başlanğıc vaxtı sahibkarlar – yəni sizi deyirəm – bir az nədənsə çəkinirdilər, utanırdılar, amma sonra get-gedə açılışdılar. İndi, görüşümüzün sonunda hesab edirəm ki, bizim bu salonumuz çox qızışmış vəziyyətdədir.

Hiss etdim ki, əgər biz burada hələ beş-altı saat da otursaq danışmaq istəyən, fikir demək istəyən var. Ancaq bunu əvvəldən bildirmişdim ki, təbiidir, burada hamı danışa bilməz. Yəni danışa bilər, ancaq sadəcə, vaxt buna imkan vermir. Ona görə də bütün təkliflərinizi və xüsusən sizin işinizə nə mane olursa, onları yazılı surətdə, anonim surətdə oraya, qutuya atın. Bilmirəm, indi qutuya bir şey atılıb, yoxsa yox?

**R a m i z  M e h d i y e v**: Cənab Prezident, müəyyən qədər atılıbdır.

**H e y d ə r  Ə l i y e v:** Müəyyən qədər atılıbdır. Mən burada sahibkarlara dedim ki, istəyirəm siz şikayət edəsiniz. Əgər şikayət etməyə əsas varsa, çəkinməyəsiniz, bildirəsiniz ki, nə var, nə yoxdur. Nəhayət, biz buna nail ola bildik.

Bizim ordan-burdan eşitdiyimiz bəzi məsələlər haqqında burada açıq bəyanatlar verildi. Ancaq yenə də güman edirəm ki, bunlar yerli sahibkarların işinin yaxşılaşdırılması üçün hələ tam deyil. O mənada ki, biz bütün nöqsanları, bütün əngəlləri burada bilavasitə eşidə bilmədik. Ona görə də sizə verilmiş anketlərdə yazdıqlarınızdan, buradakı çıxışlardan istifadə olunacaqdır. Ən nəhayət, kim istəyirsə, bu gün də, sabah da, bir neçə gün müddətində də fikirlərini yazılı surətdə verə bilər. İstəsə öz imzası ilə yazsın, istəməsə anonim yazsın. Bunların hamısı təhlil olunacaqdır. Təbiidir ki, müəyyən qədər yoxlanılacaqdır. Biz son müşavirəmizdə bunların əsasında bu məsələlərə həm öz münasibətimizi bildirəcəyik, həm də bu barədə lazımi qərarlar qəbul edəcəyik.

Mən bugünkü görüşdən çox məmnunam. Çox məmnunam ki, bir neçə saatdır sahibkarlarla bir yerdəyik, sərbəst görüşürük, söhbət edirik. Bu mənim üçün çox əhəmiyyətlidir. Güman edirəm, sizin üçün də əhəmiyyətlidir. Elə bu, görüşün özünün əhəmiyyətli olduğunu təsdiq edir. Ancaq mən məmnunam ki, sahibkarlığa mane olan bir neçə məsələlər haqqında burada açıq fikirlər söyləndi. Onlar çoxdur və indi onların hamısını demək istəmirəm. Ancaq biz bunu əvvəldən də müəyyən qədər bilirdik. Sizin dediklərinizdən daha da geniş məlumatlandıq ki, bizim dövlət orqanlarının, hakimiyyət orqanlarının, yəni sahibkarların öz sahibkarlığını həyata keçirmək üçün cavabdeh olan orqanları işində çox böyük nöqsanlar, çox böyük qüsurlar, böyük əyintilər, vəzifələrindən sui-istifadə olunması faktları, hətta cinayət halları vardır. Təbiidir ki, cinayəti gərək məhkəmə təyin etsin. Amma mən sadəcə, öz fikrimi bildirmək istəyirəm.

Mən təsəvvür edə bilmirdim, bu görüşə hazırlıq zamanı bizim aparatın işçiləri sahibkarların nədən narazı olduqları barədə sorğu aparıblar. Hesab edirəm ki, sorğu çox maraqlı nəticələr veribdir. Ancaq bu da hələ işin başlanğıcıdır. Yəni bizim bu məsələni öyrənmək barəsində işimizin başlanğıcıdır. Sizin burada dediklərinizdən çox şey məlum oldu.

Məsələn, sorğuda belə məlumatlar var. Sorğu min nəfər arasında aparılıbdır. Aşağıda göstərilən səbəblərdən hansının sahibkarlığın inkişafına mane olur sualına cavablar belədir: yüksək vergilər – 508 nəfər, maliyyə vəsaitinin çatışmaması – 304 nəfər, bazar infrastrukturunun aşağı səviyyəsi – 106, əhalidə sahibkarlıq təşəbbüsünün zəifliyi – 95 nəfər, cəlb olunduğumuz müharibə – 125 nəfər, qanunsuz yoxlamalar – 441 nəfər. Siz çıxışlarınızda da bu rəqəmləri təsdiq etdiniz. Düzdür, heç biriniz rəqəmlər gətirmədiniz, ancaq sizin dedikləriniz, hər halda, sorğu ilə üst-üstə düşür. Sorğunun başqa göstəriciləri də var. Güman edirəm ki, bunlar hamısı bundan sonra görüləcək işlərimizdə istifadə olunacaqdır.

Beləliklə, bizim Vergi Nazirliyi, Gömrük Komitəsi, hüquq-mühafizə orqanları – bunlar üzdə olanlardır. Amma mən təsəvvür edə bilməzdim ki, sanitariya nəzarətçiləri sahibkarların iş aparması üçün nə qədər maneələr qoyublar və nə qədər çətinliklər yaradıblar. Yaxud burada dedilər, lisenziyaların bir çoxu lazımdır, ya lazım deyil? Doğrudur, hələ bu görüşə qədər mənim aparatımda və Nazirlər Kabinetində bu məsələ üzərində

işləyiblər və lisenziyaların sayının xeyli azalması haqqında mənə məlumat verilibdir. Ancaq hesab edirəm ki, bu görüşdən sonra bir daha düşünmək lazımdır.

Məni burada çox dəhşətə gətirən o oldu ki, gedib mağazaları bağlayırlar. Burada deyildi ki, hətta Gömrük Komitəsinin işçiləri gedib mağaza bağlayırlar. Birincisi, bu onların funksiyasına aid deyil. İkincisi də mağazanı bağlamaq olmaz. Yaxud mənim üçün çox təəccüblü oldu ki, Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət-İstehlak Departamenti indi Bakıda olan mağazaların işinə çox mane olur və onlar üçün böyük çətinliklər yaradır.

Mən sizinlə görüşümdə bu fikrimi bildirdim. Bunu bir də bəyan etmək istəyirəm ki, Azərbaycanda özəlləşmənin ən müsbət nəticələrindən biri ticarətin özəlləşdirilməsi olubdur. İndi özəlləşdirilmiş ticarət, yəni özəl sektorun əlində olan ticarət bizim Azərbaycanın bugünkü gününün ən yaxşı nailiyyətlərindən biridir. Azərbaycan vətəndaşı Bakının mağazalarından müxtəlif malları, istənilən malları, dünyanın hər yerində olan malları burada – öz şəhərində, yaşadığı yerdə ala bilir. İndi mağazaların görkəmi, xidmət səviyyəsi, onların reklamları, demək olar ki, Bakının görünüşünü xeyli dəyişdiribdir. Amma mən bunu deyirəm ona görə yox ki, bunlar gözəldirlər və bizim şəhərə müəyyən gözəllik verirlər. Mən bunu ona görə deyirəm ki, bu qədər mağazalar, müxtəlif mallarla dolu olan mağazalar ticarət aparırlarsa, Qərb ölkələrindən, digər ölkələrdən çox yüksək keyfiyyətli mallar gətirib Azərbaycanda satırlarsa, Azərbaycanın vətəndaşları bu mallardan istifadə edirlərsə, alırlarsa, bu bizim iqtisadi inkişafımızın ən yaxşı göstəricilərindən biridir. Biz buna nail olmaq istəyirik.

Ancaq unutmaq lazım deyil ki, keçmişdə, Sovet İttifaqı zamanı mağazaların içi boş idi. İndi mağazalar dəyişilibdir, onlar yüksək səviyyədə qurulubdur və çox zəngin mağazalardır. Bu bizim apardığımız iqtisadi siyasətin nəticələrindən biridir. Biz bunu inkişaf etdirməliyik, irəliyə aparmalıyıq.

Əgər Bakı Şəhər Ticarət-İstehlak Departamenti gedib bu mağazaları bağlayırsa, yaxud onların işinə mane olursa, vergi orqanları gedib onları sıxışdırırlarsa, hətta anlaşılmaz bir şeydir ki, gömrük orqanları gedib mağazaların işinə müdaxilə edirlərsə, bunlar dözülməz hallardır. Burada da deyildi. Ticarət təşkilatının rəhbəri burada bu barədə danışanda gördüm, zalda nə qədər alqışlar var idi. Nəyə görə alqışlar var idi? Ona görə ki, o, açıqca dedi ki, mağazaların işləməsinə imkan vermirlər. Sahibkarların çoxları da mağazaları bağlayırlar, bu işlərindən imtina edirlər. Çünki məmurların bu cür müdaxiləsi, yoxlamalar mağazaları elə vəziyyətə salır ki, sahibkar nəinki qazanc əldə edə, hətta qoyduğu vəsaiti çıxara bilmir. Təbiidir, belə halda heç kəs işləməz. Demək, son illərdə bizim böyük əzab-əziyyətlə yaratdığımız bu ticarət sistemi belə getsə dağılacaqdır. Bu çox narahatedici haldır. Təbiidir ki, biz bu barədə lazımi ölçülər götürəcəyik.

Ancaq mən öz təəssüratlarımı burada indi ilkin olaraq bildirmək istəyirəm. Burada deyildi ki, Goranboy rayonunda icra başçısı Ticarət–İstehlak Departamenti yaradıbdır, orada 23 nəfər işçi var və hər köşkə bir işçi çatır. Yaxşı, onda bu nəyə lazımdır? Bu məni dəhşətləndirdi. Kiçik bir rayonda Ticarət-İstehlak Departamenti yaratmaq və orada 23 nəfər işçi saxlamaq nəyə lazımdır, kimə lazımdır?!

Biz ticarətə azadlıq vermişik. Qoy onlar azad yaşasınlar, azad işləsinlər, ticarətini aparsınlar. Onlar böyük iş görürlər. Ancaq müxtəlif məmurlar, icra orqanları tərəfindən bunların qarşısı alınır. Ramiz Mehdiyev, mən sənə tapşırıq verirəm, sabah yoxla, Goranboy rayonunda həqiqətən belə bir vəziyyət varsa, mənə məruzə et. Güman edirəm, mən bu barədə lazımi konkret qərarı qəbul edəcəyəm. Bunu ləngitmək lazım deyil.

Ancaq biz burada təkcə ticarət sahəsində deyil, başqa sahələrdə də mövcud olan çətinlikləri eşitdik, bildik. Ona görə mən burada bizə verdiyiniz məlumatlara görə sizə təşəkkür edirəm. Hesab edirəm, bu gün bizim açıq söhbətimiz alındı. Ancaq hiss etdim ki, bu söhbətimiz o qədər qızışır ki, bunun üçün indiyə qədər işlədiyimiz vaxt çatmır. Yəqin ki, 10–15 saat vaxt lazımdır. Bir də təkrar edirəm, buna imkan olmadığına görə, siz ürəyinizdə olan bütün fikirləri, xüsusən işinizə mane olan halların hamısını yazın, verin.

Əmin ola bilərsiniz ki, biz – Azərbaycan dövləti və şəxsən Azərbaycan prezidenti ölkəmizdə sahibkarlığın inkişafını özümüzün əsas vəzifələrimizdən biri hesab edirik. Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq. Sizin işinizə qanunsuz müdaxilə edənlərin, sizə mane olanların, qanunsuz olaraq sizdən bəhrələnməyə çalışanların hamısının qarşısını alacağıq.

Mən istərdim siz biləsiniz ki, Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və onun bir hissəsi olan sahibkarlıq prosesinin yaranması və inkişaf etdirilməsi asan bir şey deyildir. Bizim hamımız birlikdə on illərlə mərkəzləşmiş dövlət iqtisadiyyatı şəraitində yaşamışıq. O dövrdə heç bir sahibkarlığa imkan verilmirdi və insanlar nəsildən-nəsilə sahibkarlığın nə olduğunu unudurdular. İndi sahibkarlığı yenidən bərpa etmək, insanları buna alışdırmaq, onlarda sahibkarlıq keyfiyyəti yaratmaq, insanlarda sahibkarlıq xüsusiyyətləri tərbiyə etmək, yüksək səviyyəli sahibkarlar hazırlamaq, milli sahibkarlar yaratmaq – bunlar vaxt tələb edir. Bunlar eyni zamanda, dövlətin qayğısını tələb edir.

Biz səbirli olmalıyıq. Siz bilməlisiniz ki, biz lazım olan qayğını göstərəcəyik. İnanıram ki, siz də, bütün sahibkarlar da daha çox təkmilləşəcəksiniz, sahibkarlıq xüsusiyyətlərini daha da dərindən mənimsəyəcəksiniz, sağlam, öz xalqına, vətəninə sədaqətlə xidmət edən sahibkarlar kimi inkişaf edəcəksiniz. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatın sürətlənməsini təmin edəcəkdir. Mən buna inanıram. Bunun üçün vaxt lazımdır.

Bir də qeyd edirəm, bunun üçün bir tərəfdən, dövlətin qayğısı, digər tərəfdən, sahibkarların özünün bu işi daha da dərindən mənimsəməsi lazımdır. Bu proses gedir. Biz bu prosesi gücləndirməliyik. Bizim bugünkü görüşümüz də məhz bu prosesi gücləndirmək və bu prosesi səmərəli etmək məqsədi daşıyır.

Ümidvaram ki, biz yaxşı nəticələr əldə edəcəyik. Bilin ki, Azərbaycan prezidenti bütün sahibkarların himayədarıdır və dayağıdır. Rahat yaşayın, çətinliklərlə mübarizə aparın, çətinlikləri, maneələri vaxtında bizə çatdırın. Biz isə bu çətinliklərin aradan götürülməsi üçün lazım olan bütün tədbirləri həyata keçirəcəyik.

Sizə, Azərbaycanın bütün sahibkarlarına cansağlığı arzu edirəm, bu yeni peşənin mənimsənilməsində və sahibkarlıq fəaliyyətinizdə böyük sosial-iqtisadi uğurlar arzulayıram. Sağ olun, gələn görüşə qədər!

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN UİLYAM MKAPAYA**

Hörmətli cənab Prezident!

Tanzaniya Birləşmiş Respublikasının milli bayramı – İttifaq günü münasibətilə Sizi və bütün Tanzaniya xalqını təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tanzaniya arasında yaranan əlaqələr inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tanzaniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 26 aprel 2002-ci il*

**TOQO RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB QNASİNQBE EYADEMAYA**

Hörmətli cənab Prezident!

Toqo Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Toqo xalqını təbrik edirəm. Əminəm ki, ölkələrimiz arasındakı münasibətlərin inkişafı xalqlarımız üçün faydalı olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Toqo xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 26 aprel 2002-ci il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün Polşa xalqını səmimi-qəlbdən təbrik edirəm.

Dostluğa, faydalı əməkdaşlığa, qarşılıqlı etimada və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin daim möhkəmlənməsindən məmnunluq duyuram.

Ümidvaram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan daha geniş istifadə etmək üçün göstərdiyimiz səylər yeni-yeni uğurlara yol açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 aprel 2002-ci il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TABO MBEKİYƏ**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı– Azadlıq günü münasibətilə Sizi və bütün Cənubi Afrika Respublikası xalqını təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Cənubi Afrika Respublikasının xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 aprel 2002-ci il*

**SYERRA LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD TECAN KABBAYA**

Hörmətli cənab Prezident!

Syerra Leone Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Syerra Leone xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafeyi naminə hərtərəfli inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Syerra Leone Respublikasının xalqına əmin-amanlıq və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 aprel 2002-ci il*

**NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ**

Ülyahəzrət!

Niderland Krallığının milli bayramı–Kraliça günü münasibətilə Sizi və bütün Niderland xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimizin qarşılıqlı səyləri ilə genişlənməkdə olan əlaqələrimizdən xalqlarımızın rifahı naminə səmərəli istifadə edəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 26 aprel 2002-ci il*

**NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİM KOKA**

Hörmətli cənab Baş nazir!

Niderland Krallığının milli bayramı–Kraliça günü münasibətilə Sizi və bütün Niderland xalqını təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Niderland arasında yaranan dostluq münasibətləri ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlıq imkanlarını daha da artıracaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 aprel 2002-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA**

Hörmətli cənab Prezident!

Erfurt şəhərindəki gimnaziyada baş vermiş faciə məni ürəkdən kədərləndirdi.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Almaniya xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 aprel 2002-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ZATİ-ALİLƏRİ**
**CƏNAB GERHARD ŞRÖDERƏ**

Hörmətli cənab Kansler!

Erfurt şəhərindəki gimnaziyalardan birində baş vermiş qətl hadisəsi məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Almaniya xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 27 aprel 2002-ci il*

## TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏNİN TRABZON ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*29 aprel 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Xoş gördük sizi. Tez-tez görüşürük. Mənim səfərimin də məqsədini, səbəbini yəqin ki, bilirsiniz. Artıq mətbuatda verilibdir ki, biz – Türkiyə, Gürcüstan və Azərbaycan prezidentləri bölgədə təhlükəsizlik məsələlərini müzakirə etmək üçün, indi işlərimizdə çox mühüm yer tutan Şərq–Qərb dəhlizinin, Baki–Tbilisi–Ceyhan neft ixrac kəmərinin, Bakı–Ərzurum qaz kəmərinin təhlükəsizliyini təmin etmək üçün və əsasən, beynəlxalq terrorizmlə mübarizə barəsində səylərimizi birləşdirmək üçün, bölgədə və ümumiyyətlə, ölkələrimizdə təhlükəsizliyi təmin etmək üçün bu görüşə toplaşırıq. Bu görüş Trabzondadır. Mən oraya gedirəm. Orada Türkiyənin prezidenti, Gürcüstanın prezidenti, bir də mən görüşüb söhbət edəcəyik.

**S u a l: Cənab Prezident, orada hansısa sənədlər imzalanacaqmı?**

**C a v a b:** Bəli, bir sənəd imzalanacaq. Onu daxili işlər nazirləri imzalayacaqlar.

**S u a l: Cənab Prezident, Trabzon görüşü regionda yeni güc mərkəzi yaratmaq təşəbbüsü kimi də qiymətləndirilir. Bu barədə Sizin fikrinizi bilmək olarmı?**

**C a v a b:** Bilirsiniz, belə şeyləri şişirtməyin. Yeni güc mərkəzi, filan... Hər xırda şeyi götürüb rəng verirlər. Bu, sadəcə regional əməkdaşlıqdır. Biz Aşqabada getdik. Orada regional məsələlər idi, güc mərkəzi deyildi ki. Burada da güc mərkəzi deyildir.

İndi dünyada gedən proseslər beladir ki, dövlətlər ikitərəfli əməkdaşlıq edirlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər və müxtəlif görüşlər keçirib regional səviyyədə əməkdaşlıq edirlər. Bunların hamısı bir məqsədə yönəldilibdir – sülh, təhlükəsizlik yaransın. İndi də ən aktual olan beynəlxalq terrorizmə, narkotiklərin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, silah qaçaqmalçılığı ilə mübarizə, insan alveri ilə mübarizə – bunlar çox mühüm məsələlərdir.

Bunlari hər ölkə aparır. Amma müəyyən regionlarda biz işlərimizi əlaqələndirəndə, bir-birimizə yardım edəndə bu işlər daha da uğurla gedir.

**S u a l: Cənab Prezident, Bakı–Tbilisi–Ceyhan neft ixrac kəmərinin təhlükəsizliyi məsələsi əsasən hansı aspektlərdə müzakirə olunacaqdır?**

**C a v a b:** Bilirsiniz, burada elə bir müzakirə olunası şey yoxdur. Bakı–Tbilisi–Ceyhanın təhlükəsizliyini boru xəttinin keçdiyi ölkələr–Azərbaycan, Gürcüstan, Türkiyə təmin edəcək, bunların hərəsi bu vəzifəni öz üzərinə götürübdür. Burada başqa bir aspekt yoxdur. Məsələn, mən fərman vermişəm, böyük bir komissiya yaratmışam, Baş nazir bu komissiyanın sədridir. Orada bizim bütün dövlət orqanları təmsil olunublar. Onlar lazımi tədbirlər hazırlayıb həyata keçirəcəklər ki, biz həm Bakı–Tbilisi–Ceyhan boru xəttinin, həm də Bakı–Tbilisi–Ərzurum kəmərinin təhlükəsizliyini təmin edək.

**S u a l: Cənab Prezident, Rusiya prezidenti Vladimir Putin Aşqabaddan qayıtdıqdan sonra Rusiya hərbi donanmasının Xəzərdə təlimlərə başlaması barədə göstəriş verdi. Xəzəryanı dövlətləri də bu təlimlərdə iştirak etməyə dəvət etdi. Buna Azərbaycanın münasibəti necə olacaqdır?**

**C a v a b:** Rusiyanın prezidenti Putin Aşqabadda mənimlə görüşərkən bu qərarı haqqında demişdi, bunda elə bir qeyri-adi şey yoxdur. Xəzər dənizində Rusiyanın hərbi donanması var. O gedib Həştərxanda donanmanın işi ilə tanış olubdur. O mənə demişdi ki, Aşqabaddan birbaşa Həştərxana gedəcəkdir, belə bir təlim keçirmək məqsədi var. Bu barədə qərar qəbul etmək istəyir. Mənə demişdi ki, bütün Xəzəryanı ölkələri dəvət edir. Bizi də dəvət ediblər və iştirak edəcəyik.

**S u a l: Cənab Prezident, növbəti sammitin Tehranda keçirilməsinə Putinin münasibətini Sizdən öyrənmək istəyirik.**

**C a v a b:** Belə şey yoxdur, necə yəni Tehranda keçirilməsi? Tehranda keçirilməsi haqqında qərar qəbul olunmadı ki.

**S u a l: Putin təklif etdi ki, Tehranda keçirilsin.**

**C a v a b:** Onu Putin təklif etmədi, sən səhv edirsən. Onu İranın prezidenti cənab Xatəmi təklif etdi. Putin də buna razılıq verdi və bizim də heç birimiz etiraz etmədik. Ancaq, iş bundadır ki, biz o bəyannaməni qəbul edə bilmədik. Bəyannamə qəbul edilmədiyinə görə də sammitin harada keçiriləcəyi barədə qərar da qəbul olunmadı.

**S u a l: Mübahisəli yataqlarda işlərin dayandırılması ilə bağlı məsələ qaldırılıb, sammitdə heç bir nəticə əldə edilmədiyinə görə, Türkmənistan prezidenti belə bir təşəbbüs irəli sürübdür ki, bu məsələlər əvvəlcə ikitərəfli danışıqlarla tənzimlənməlidir. Siz bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bilirsiniz, həmin görüşdə bəzi sərt ifadələr işlənilibdir. Ancaq buna o qədər də fikir verməyin. Sonra, sammitin axırında Türkmənistan prezidenti Saparmurad Niyazov mənimlə danışığında təklif etdi ki, biz nümayəndələrimizi müəyyən edək, qoy onlar görüşsünlər, danışsınlar və ikitərəfli danışıqlar aparaq. Mən də buna razılıq verdim.

O ki qaldı, siz «mübahisəli yataqlar» ifadəsi işlədirsiniz, mən orada ona cavab vermişəm. Gərək ki, bizim mətbuat nümayəndələri orada vardı. Bir də təkrar etmək istəyirəm, orada bu məsələ qalxanda mən dedim ki, gərək biz əvvəl Xəzər dənizində sektorların sərhədlərini müəyyən edək. Sərhədlər müəyyən ediləndən sonra hansısa yataqlar ola bilər ki, onlar heç mübahisəli olmasın. Hər iki tərəf danışar ki, bu yataqlarda birgə iş aparılsın. Ola bilər, kimsə desin ki, yox, bu mənimdir, digəri desin ki, mənimdir. Onda bu mübahisə olacaqdır. Mübahisəli yatağı müəyyən etmək üçün gərək mütləq sektorların sərhədləri müəyyən olunsun.

**S u a l: Cənab Prezident, İrana səfəriniz nə vaxt reallaşacaq?**

**C a v a b:** İnşallah, reallaşacaqdır.

**S u a l: Cənab Prezident, sahibkarlarla görüşdə bildirmisiniz ki, yekun qərar müşavirədə veriləcəkdir. Amma artıq bir neçə məmur vəzifəsindən kənarlaşdırılmışdır.**

**C a v a b:** Nə olsun ki, hələ bəlkə başqaları da uzaqlaşdırıldı.

**S u a l: Cənab Prezident, Siz indiki səfərinizdə Bakı–Axalkalaki–Qars dəmir yol xətti ilə bağlı hər hansı bir söhbət aparacaqsınızmı? Çünki Gürcüstan ərazisində müəyyən problemlər var. Bir də ki, ABŞ prezidenti Corc Buş bəyanatında Türkiyəni Ermənistanla münasibətlər yaratmağa çağırmışdır. Bununla bağlı nə deyə bilərdiniz?**

**C a v a b:** Bilirsiniz, Axalkalaki dəmir yoluna bizim o qədər marağımız yoxdur. O, Gürcüstanın öz daxili işidir. Biz bu işlərə qarışmaq istəmirik.

O ki qaldı ABŞ prezidenti Buşun Türkiyəyə müraciətinə, Türkiyəyə çox müraciətlər olubdur. Bu barədə Türkiyənin şərtləri var. O bu şərtlərdən geri çəkilməyib və heç vaxt da geri çəkilməyəcəkdir. Mən buna əminəm.

**S u a l: Cənab Prezident, kəmərlərə xarici təhlükə yaranarsa, eyni zamanda kəmərlər ətrafında mütəşəkkil terrorçu qruplar yaranarsa, bunlara qarşı mübarizə formalarını necə görürsünüz?**

**C a v a b:** «Bu yaranarsa, bu yaranarsa, bu yaranarsa», onda biz də yaradacağıq.

**S u a l: Cənab Prezident, bu görüşdə Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı hər hansı bir müzakirə gedəcəkmi?**

**C a v a b:** Ola bilər ki, fikir mübadiləsi olsun.

**S u a l: Cənab Prezident, MDB Kollektiv Təhlükəsizlik Şurasının katibi indiki üçtərəfli görüşlə bağlı bildiribdir ki, bu təhlükədir və Şuranın növbəti iclasında bu məsələyə münasibət bildiriləcəkdir. Sizcə MDB-nin Təhlükəsizlik Şurası nədən ehtiyat edir?**

**C a v a b:** Mən bunu eşitməmişəm. Bunu deyən kimdir?

**S u a l: Internet saytlarında bununla bağlı məlumat vardır.**

**C a v a b:** Mən eşitməmişəm. İnanmıram ki, onlar bunu böyük bir təhlükə hesab etsinlər.

**S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının hərbi mütəxəssisləri artıq Gürcüstandadırlar. Sizin Trabzondakı görüşünüzdə Bakı–Tbilisi–Ceyhan boru xəttinin təhlükəsizlik məsələlərinin müzakirəsində ABŞ-ın iştirakı ola bilərmi?**

**C a v a b:** Burada ABŞ-ın iştirakına nə ehtiyac var? Əgər biz Bakı–Tbilisi–Ceyhan boru xəttini də qoruya bilməyəcəyiksə, onda biz nəyik ki, başqa bir ölkə gəlsin, burada bizə yardım etsin? Buna ehtiyac yoxdur.

**S u a l: Siz Dünya azərbaycanlılarının birinci qurultayında bildirmişdiniz ki, diasporla işləyən bir təşkilat yaradılacaqdır. Bu barədə iş gedirmi?**

**C a v a b:** Yaradacağıq. Bu yaxınlarda yaradacağıq. Sağ olun.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ**

*29 aprel 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Trabzona gəlmişdir.*

*Dövlətimizin başçısını hava limanında Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, ölkəmizin Ankaradakı səfiri Məmməd Əliyev, İstanbuldakı Baş konsulu Xeyrəddin Qoca və digər rəsmi şəxslər mehribanlıqla qarşıladılar.*

*Hava limanında Azərbaycan rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Heydər Əliyev türk əsgərlərini salamladı.*

*Dövlətimizin başçısı avtomobil karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – «Zorlu Qrand» mehmanxanasına gəldi. Mehmanxananın qarşısına toplaşmış şəhər sakinləri və qonaqlar Azərbaycan prezidentini hərarətli alqışlarla salamladılar. Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi burada böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Gürcüstan prezidenti Eduard Şevardnadze «Zorlu Qrand» mehmanxanasına gəldi. Türkiyə, Azərbaycan və Gürcüstan prezidentləri burada birgə xatirə şəkli çəkdirdilər.*

## TÜRKİYƏ PREZİDENTİ
## ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞ

*Türkiyə, Trabzon*

*29 aprel 2002-ci il*

*Azərbaycan Respublikasının prezidentini səmimi salamlayan prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Trabzona gəldiyinə görə prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirdi.*

*Dost və qardaş ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının daha da genişlənməsindən və dərinləşməsindən çox məmnun qaldığını söyləyən prezident Əhməd Necdət Sezər Türkiyə Respublikasının Azərbaycan Respublikasına münasibətdə siyasətini heç vaxt dəyişməyəcəyini nəzərə çatdırdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının, uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşayan bir milyon Azərbaycan vətəndaşının doğma yurdlarına qayıtmasının zəruriliyini vurğulayan prezident Əhməd Necdət Sezər bildirdi ki, ATƏT-in Minsk qrupunun üzvü kimi, Türkiyə bu problemin həlli istiqamətində öz səylərini əsirgəməyəcəkdir.*

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının bu ilin iyun ayında İstanbulda keçiriləcək zirvə görüşündən söhbət açan, Azərbaycan prezidenti Heydər Əliyevə toplantıda iştirak etmək barədə rəsmi dəvət göndərdiyini söyləyən Türkiyə prezidenti dövlətimizin başçısını bu sammitə bir daha dəvət etdi.*

*Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin zirvə görüşünə dəvətə, səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirən prezident Heydər Əliyev Trabzon sammitində iştirak etməsindən məmnun olduğunu nəzərə çatdırdı.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində görülən işlərdən söhbət açan dövlətimizin başçısı Azərbaycanın haqq işinin qardaş Türkiyə tərəfindən daim dəstəklənməsini razılıqla vurğuladı.*

*Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasından, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşamasından bəhs edən prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, ATƏT-in Minsk qrupunun üzvü olan Türkiyə bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün öz səylərini daha da artıracaqdır.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə prezidentlər ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi, Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli, Şərq–Qərb enerji dəhlizinin – Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin təhlükəsizliyinin təmin olunması məsələlərinin müzakirəsinə geniş yer ayırdılar.*

*Görüşdə bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞ

*Türkiyə, Trabzon*

*29 aprel 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi dost və qonşu ölkənin prezidenti Eduard Şevardnadze səmimi və mehribanlıqla salamlayaraq, yenidən görüşmələrindən məmnun qaldığını bildirdi.*

*Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət başçılarının zirvə görüşünün keçirilməsini yüksək dəyərləndirən prezidentlər sammitdə müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd etdilər.*

*Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli sahəsində görülən işlərdən razılıqla söhbət açan prezidentlər Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğuladılar.*

*Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında imzalanacaq sazişin bölgədə sabitliyin təmin edilməsi sahəsində üçtərəfli əməkdaşlığın genişləndirilməsi baxımından çox faydalı olacağını bildirən dövlət başçıları beynəlxalq terrorizmə qarşı mübarizədə ölkələrimizin səylərini nəzərə çatdırdılar.*

*Prezidentlər hər iki ölkənin qarşılaşdığı ağır problemlərdən – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ və gürcü–abxaz, gürcü–osetin münaqişələrinin aradan qaldırılması məsələləri ətrafında fikir mübadiləsi apardılar.*

*Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər də nəzərdən keçirildi.*

* * *

*Aprelin 29-da axşam «Zorlu Qrand» mehmanxanasında Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərin adından Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin və Gürcüstan prezidenti Eduard Şevardnadzenin şərəfinə rəsmi ziyafət verildi. Prezidentlər ziyafətdə nitq söylədilər.*

## TRABZON ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Türkiyə, Trabzon*
*«Zorlu Qrand» mehmanxanası*

*29 aprel 2002-ci il*

*Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər zirvə görüşünü açaraq, dost, qardaş Azərbaycan və Gürcüstan prezidentlərini salamladı, zirvə görüşünün məqsədlərini açıqlayaraq vurğuladı ki, bunlar həm üçtərəfli, həm də ikitərəfli münasibətlərlə bağlı qarşıda duran məsələlər, yəni Şərq–Qərb nəqliyyat və enerji dəhlizlərinin təhlükəsizliyinin təmin olunması, habelə ötən ilin 11 sentyabr hadisələrindən sonra dünyada və bölgədə yaranmış yeni şəraitdə beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlıq məsələləridir. Bu ilk toplantıda ölkələrimizin daxili işlər nazirləri terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında hökumətlərarası saziş imzalayacaqlar...*

**H e y d ə r Ə l i y e v:** Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər!
Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze!
Xanımlar və cənablar!
Sizi səmimi-qəlbdən salamlayıram.

Qonşu və dost ölkələrimizin dövlət başçılarının bu görüşünü yüksək səviyyədə təşkil etdiyi üçün, bizə göstərilən qonaqpərvərliyə görə Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum Əhməd Necdət Sezərə minnətdarlığımı bildirirəm.

Ümid edirəm ki, region ölkələrinin dövlət başçıları arasında belə görüşlərin keçirilməsi bölgədə sülh və sabitliyə xidmət edir, iqtisadi inkişafa və tərəqqiyə təkan verir. Biz artıq bir müddətdir ki, Rusiya, Gürcüstan, Azərbaycan və Ermənistanın daxil olduğu «Qafqaz dördlüyü»nün mütəmadi görüşlərini keçiririk. Bir neçə gün bundan əvvəl Xəzəryanı dövlətlərin başçıları ilk zirvə görüşünə toplaşmışdılar. Bu görüşdə biz mövcud problemlərin həlli üçün, əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsi ücün region dövlətlərinin birgə səylərinin nə qədər vacib olduğunu bir daha yəqin etdik. Mən Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin bugünkü toplantısına da qarşılıqlı dialoqun yeni bir təzahürü kimi yanaşıram və Trabzon görüşünün işinə uğurlar arzulayıram.

Türkiyə, Gürcüstan və Azərbaycan tarixən həmişə sıx əlaqədə olublar. Xalqlarımızın çoxəsrlik tarixində heç vaxt nifaq və qarşıdurmaya yol verilməyibdir. Yeni şərait, yeni siyasi reallıqlar bizə bu tarixi ənənələri daha da inkişaf etdirmək üçün gözəl imkan yaradıbdır. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra digər region dövlətləri ilə bir sırada Türkiyə və Gürcüstanla da sıx qarşılıqlı əlaqələr və əməkdaşlıq yolunu tutubdur. Biz bu gün həm ikitərəfli qaydada, həm də beynəlxalq qurumlar çərçivəsində uğurla əməkdaşlıq edirik. Ona görə də haqlı olaraq düşünürük ki, həyata keçirmək əzmində olduğumuz mühüm iqtisadi layihələr təkcə regionun simasını dəyişdirməyəcək, həm də xalqlarımızı və dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıracaq, demokratik proseslərə daha böyük vüsət verəcəkdir. Bu, eyni zamanda, regionun sabitliyinə və iqtisadi rifahına xidmət edəcəkdir.

Enerji daşıyıcılarının hasilatı və nəqli sahəsindəki əməkdaşlığımız qarşılıqlı iqtisadi münasibətlərimizdə mühüm yer tutur. 1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» imzalandıqdan sonra Xəzər dənizinin mineral resurslarından istifadə olunması sahəsində ciddi uğurlar əldə edilmişdir. Bakı–Supsa və Bakı–Novorossiysk boru kəmərlərinin istifadəyə verilməsi, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələrinin reallaşması bu gün Şərq–Qərb enerji dəhlizi ideyasının birgə səylərimizlə gerçəkliyə çevrildiyini göstərməkdədir. Digər tərəfdən, regionumuzun irimiqyaslı nəqliyyat qovşağı olması da qarşılıqlı əməkdaşlığımız və dünya iqtisadi sisteminə inteqrasiyamız üçün mühüm şərtdir. Torpaqlarımızdan keçən tarixi İpək Yolunun bərpası Türkiyənin və Cənubi Qafqaz regionunun əhəmiyyətini daha da artırmışdır. Nəticədə ticarətin inkişafına, təbii ehtiyatların istifadəsi və nəqlinə, sivil və demokratik cəmiyyət quruculuğuna, mənəviyyatların və mədəniyyətlərin dialoquna yeni imkanlar açılmışdır.

Bu gün xalqlarımız və ölkələrimiz böyük inkişaf perspektivləri qarşısındadır. Lakin təəssüflər olsun ki, həm dünya miqyasında, həm də regionda cərəyan edən bir sıra proseslər bu ictimai və iqtisadi tərəqqini ləngidir. Hətta bir sıra hallarda qarşımıza qoyduğumuz məqsədlərin həyata keçirilməsinə ciddi təhlükə törədir. Bunu deyərkən mən, ilk növbədə beynəlxalq terrorizmi, təcavüzkar separatizmi, mütəşəkkil cinayətkarlığı, dövlətlərə və xalqlara qarşı çevrilmiş digər ağır cinayətləri nəzərdə tuturam. Əgər bizim regionda bütün bu ağrılı proseslər baş verməsəydi, əgər Cənubi Qafqaz münaqişələr meydanına çevrilməsəydi, bu gün üzləşdiyimiz mənzərə tamamilə fərqli olardı. Təəssüf

ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və torpaqlarımızın beşdə bir hissəsinin işğal altında olması, qonşu Gürcüstanın ərazi bütövlüyünün pozulması, habelə regionda mövcud olan bir sıra digər problemlər sürətli iqtisadi inkişafın, qarşılıqlı fayda prinsipinə əsaslanan əməkdaşlığın imkanlarını məhdudlaşdırır. Öz həllini tapmamış münaqişələr, ilk növbədə isə artıq on dörd illik bir tarixə malik olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda qeyri-sabitliyin ən böyük amilidir.

Bütün bunlara baxmayaraq, biz beynəlxalq xarakterli böyük iqtisadi layihələri həyata keçiririk. Bu layihələrin ideydan reallığa çevrilməsi qarşımıza bir sıra yeni vəzifələr qoyur. Bu da Şərq–Qərb enerji və nəqliyyat dəhlizlərinin tam təhlükəsizliyinin təmin olunmasıdır. Biz birgə səylərimizlə etibarlı təhlükəsizlik sisteminin yaradılmasına nail olmalıyıq. Enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsi üçün həm üçtərəfli əməkdaşlıq, həm də beynəlxalq qurumlarla və maraqlı olan dövlətlərlə əlaqələr yaradılması çox zəruridir. Çünki həyata keçirdiyimiz layihələr yalnız Türkiyə, Azərbaycan və Gürcüstanda deyil, beynəlxalq birliyin üzvü olan bir çox dövlətlərdə də iqtisadi baxımdan maraq doğurur.

Müasir mərhələdə terrorizmlə mübarizə ayrı-ayrı dövlətlərin milli təhlükəsizliyini, beynəlxalq miqyasda təhlükəsizliyi təmin etmək üçün mühüm şərtdir. Azərbaycan Respublikası əvvəllər olduğu kimi, yenə də beynəlxalq birliyin bu istiqamətdəki səylərini tam şəkildə dəstəkləyir. Biz qarşıya qoyulmuş məqsədlərdən asılı olmayaraq, terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyirik. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycanın dərhal, qeyd-şərtsiz və tərəddüdsüz olaraq antiterror koalisiyasına qoşulması və beynəlxalq terrorizmə qarşı mübarizəyə öz töhfələrini verməsi bu məsələyə münasibətdə mövqeyimizin nə qədər ardıcıl və prinsipial olduğunu bir daha göstərir. Beynəlxalq terrorizmlə mübarizənin hədəfi yalnız ayrı-ayrı terror təşkilatları və qrupları deyil, bütünlükdə bu dəhşətli bəlanı doğuran səbəblər və mənbələr olmalıdır. Məmnunluq hissi ilə qeyd etməliyəm ki, Azərbaycan Respublikası beynəlxalq terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni ticarəti, çirkli pulların yuyulması, silah qaçaqmalçılığı və insan alveri ilə mübarizə sahəsində qəbul edilmiş bütün əsas beynəlxalq sənədlərin iştirakçısıdır. Eyni zamanda, bu cinayətkar əməllərlə mübarizəni həyata keçirən beynəlxalq universal və regional təşkilatlar da Azərbaycan Respublikası ilə fəal əməkdaşlıq edirlər. Nəticə etibarilə, bizim birgə səylərimiz BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı kimi beynəlxalq təsisatlar çərçivəsində daha səmərəli nəticələrin əldə olunmasını təmin edir.

Regionun siyasi sabitliyinin və iqtisadi inkişafının əsas şərtlərindən biri regional təhlükəsizliyin təmin olunmasıdır. Bu isə ilk növbədə mövcud regional münaqişələrin dinc yolla nizama salınması və yalnız bundan sonra bütün sahələrdə hərtərəfli əməkdaşlığın həyata keçirilməsi sayəsində mümkündür. Türkiyə, Gürcüstan və Azərbaycan son illərdə regional əməkdaşlığın əyani nümunəsini yaratmışlar. Biz Trabzon görüşünə həmin əməkdaşlığı daha da möhkəmləndirmək niyyəti ilə gəlmişik. Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında üç dövlət arasında imzalanacaq saziş də niyyətimizin konkret təzahürüdür.

Sülhün və sabitliyin qorunub saxlanması, ümumbəşəri dəyərlərin və prinsiplərin ardıcıl şəkildə həyata keçirilməsi, iqtisadi və sosial tərəqqinin əldə olunması regionumuzun gələcək inkişafı ilə bağlı əsas vəzifələrimizdir. Bu vəzifələrin yerinə yetirilməsi hər üç dövlətin bundan sonra da siyasi, iqtisadi, sosial, mədəni, hüquqi sahələrdə, demokratiyanın inkişafı, əsas insan hüquq və azadlıqlarının qorunması sahələrində əməkdaşlığını zərurətə çevirir.

Ümidvaram ki, Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin Trabzon görüşü bu çoxtərəfli və çoxşaxəli əməkdaşlığımızın mühüm bir mərhələsi olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**AZƏRBAYCAN,TÜRKİYƏ VƏ GÜRCÜSTAN ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ**

*Türkiyə, Trabzon*
*«Zorlu Qrand» mehmanxanası*

*30 aprel 2002-ci il*

*Trabzondakı «Zorlu Qrand» mehmanxanasının «Authentinq» salonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərin, Gürcüstan prezidenti Eduard Şevardnadzenin iştirakı ilə «Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş»in imzalanma mərasimi oldu.*

*Sənədi Azərbaycanın Daxili Işlər naziri Ramil Usubov, Türkiyənin Daxili Işlər naziri Rüştü Kazım Yucelen, Gürcüstanın Daxili Işlər naziri Koba Narçemaşvili imzaladılar.*

*Sonda prezidentlər və daxili işlər nazirləri birlikdə xatirə şəkli çəkdirdilər.*

## TRABZON ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Türkiyə, Trabzon*

*30 aprel 2002-ci il*

### Türkiyə prezidenti Əhməd Necdət Sezərin bəyanatı

Hörmətli mətbuat nümayəndələri!

Türkiyə, Azərbaycan və Gürcüstan arasındakı işbirliyinin daha da gücləndirilməsinə və Qafqaz bölgəsinin sabitliyinə, iqtisadi inkişafına töhfələrimizi artırmaq məqsədi ilə keçirdiyimiz üçtərəfli zirvə toplantısını tamamlanmış hesab edirik. Dəvətimizi qəbul edərək bu toplantının gerçəkləşməsini təmin etdikləri üçün dost və qardaş Azərbaycanın və Gürcüstanın dövlət başçıları hörmətli Əliyevə, hörmətli Şevardnadzeyə bir daha təşəkkürümü bildirirəm.

Toplantıda gündəlikdə duran iqtisadi işbirliyi, təbii ehtiyatlardan istifadə, terrorizmlə mübarizə ilə bərabər, ölkələrimizi maraqlandıran digər regional və beynəlxalq məsələlər barədə söhbətlər apardıq, bölgəmizdəki son vəziyyəti dəyərləndirdik. Hörmətli Əliyev və hörmətli Şevardnadze ilə təkbətək görüşlərimizdə isə ikitərəfli əlaqələrimizə aid məsələləri gözdən keçirdik. İşgüzar və dostcasına keçən önəmli görüşlərimizin sonunda Türkiyə, Gürcüstan və Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi, xalqlarımızın mənafeyinə uyğun işbirliyimizin genişləndirilməsi və çeşidləndirilməsi sahəsində eyni mövqedə olduğumuzu bir daha görməkdən böyük məmnunluq duyduq.

Dəyərli mətbuat nümayəndələri!

Qafqazda sülhün, sabitliyin bərqərar olması və işbirliyimizin gücləndirilməsi ölkələrimizin qarşısında duran əsas məqsədlərdəndir. Bugünkü görüşlərimizdən sonra gələcəkdə keçiriləcək zirvə toplantılarımızın Qafqaz bölgəsində sabitliyin bərqərar olmasına kömək edəcəyinə inancım daha da artmışdır.

Hörmətli cümhur başqanları ilə belə görüşlərin davam etdirilməsi məqsədilə bu toplantıları hər il gerçəkləşdirmək barədə yekdil qərara gəldik. Önümüzdəki il üçtərəfli toplantımızın Tbilisidə keçirilməsi barədə hörmətli Şevardnadzenin dəvətini məmnunluqla qəbul etdik. Görüşlərimizdə iqtisadi inkişaf və əlaqələrimizin yüksəldilməsi üçün regional işbirliyinin önəmini bir daha dilə gətirdik. Bu çərçivədə üç ölkəni bir-birinə bağlayan Bakı–Tbilisi–Ceyhan və «Şahdəniz» yatağından təbii qazın ixracı üçün boru kəmərlərinin ən qısa zamanda reallaşdırılmasına dair ortaq qərarımızın olduğunu da nəzərinizə çatdırmaq istəyirəm.

Hörmətli Əliyev və hörmətli Şevardnadze ilə başladığımız və davam edən səylərimizi sona çatdırmaq üçün fəaliyyətimizi gücləndirmək haqqında da razılığa nail olduq. Hörmətli cümhur başqanları ilə görüşlərimizdə terrorizmə, narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizə sahələrində beynəlxalq işbirliyinin önəmli olduğunu vurğuladıq.

Bu gün daxili işlər nazirləri tərəfindən imzalanan terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında Türkiyə Cümhuriyyəti, Gürcüstan və Azərbaycan hökumətləri arasında anlaşmanın da bu məqsədə ən yaxşı formada xidmət edəcəyinə inanırıq. Bu fürsətdən istifadə edərək, Qafqaz bölgəsində sülh və sabitliyin bərqərar olması üçün Türkiyə, Azərbaycan və Gürcüstanın bundan sonra da birlikdə fəaliyyət göstərəcəklərini, xoş niyyətlə gücləndirdiyimiz işbirliyimizin heç bir ölkəyə qarşı olmadığını bildirirəm. Dövlətlərin barış içində bir yerdə yaşamaları üçün beynəlxalq hüquq normalarının gözlənilməsinə inanan ölkələrimizin bir istəyinin – bölgəmizdə xalqların dinc və firavan yaşamaları, gələcəyə ümidlə baxmaları arzusunun olduğunu vurğulamaq istəyirəm.

Hörmətli Əliyev və hörmətli Şevardnadze ilə gerçəkləşdirdiyimiz bu önəmli toplantının bütün bölgədə sülhün, ədalətin, əmin-amanlığın bərqərar olmasına və ölkələrimiz arasındakı işbirliyinə yeni imkanlar qazandırmasını diləyirəm.

Hamınıza təşəkkür edirəm.

### Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər!
Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze!
Hörmətli xanımlar və cənablar!
Hörmətli mətbuat nümayəndələri!

Türkiyə–Gürcüstan–Azərbaycan regional işbirliyi ilə əlaqədar toplantımız başa çatdı. Hesab edirəm ki, Trabzon görüşü uğurla başa çatıb və biz bölgəmiz üçün çox əhəmiyyətli məsələləri müzakirə etdik və nəticədə hökumətlərimiz arasında müvafiq saziş imzalandı. Bu bizim bölgəmizdə yeni bir hadisədir. Bu, eyni zamanda bizim bölgəmizdə Türkiyənin, Gürcüstanın və Azərbaycanın bütün başqa sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində, beynəlxalq terrorizm ilə mübarizə sahəsində və xüsusən, Şərq–Qərb dəhlizinin təhlükəsizliyinin təmin edilməsi sahəsində üçtərəfli əməkdaşlığının təməlini qoymuşdur. Hesab edirəm ki, biz çox dəyərli iş görmüşük və bu əməkdaşlığımız həm ölkələrimiz üçün, həm də bölgəmiz üçün çox əhəmiyyətli olacaq, bu bölgədə üç dövlətin əməkdaşlığının yeni mərhələsini müəyyən edəcəkdir.

Beynəlxalq terrorizmlə mübarizə indi bütün bəşəriyyətin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, Türkiyə, Gürcüstan və Azərbaycan ötən il sentyabrın 11-də baş vermiş hadisələrdən sonra beynəlxalq terrorizmə qarşı yaranmış koalisiyaya, alyansa dərhal qoşulmuşlar və bu mübarizəyə öz töhfələrini vermişlər. Bölgəmizin təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkələrimizin hər birinin milli təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Bu sahədə çox problemlər var. Biz bu barədə hörmətli cümhur başqanı Sezərlə, hörmətli prezident Şevardnadze ilə həm üçtərəfli görüşlərimizdə, həm də ikitərəfli görüşlərimizdə çox ətraflı müzakirələr apardıq.

Ən əsası ondan ibarətdir ki, bizim fikirlərimizin eyni olduğunu bir daha təsdiq etdik. Bütün bu məsələlər içərisində bizim üçün daha böyük önəm kəsb edən bölgəmizdə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru xətlərinin mühafizəsinin, təhlükəsizliyinin təmin olunmasıdır. Bildiyiniz kimi, bizim bu sahədə 1994-cü ildən indiyə qədər gördüyümüz işlər və birgə səylərimiz öz nəticələrini veribdir. Artıq Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac kəmərinin inşasına başlanır.

Güman edirəm ki, bu, 2004-cü ildə, ən geci 2005-ci ildə sona çatacaq və biz Xəzər dənizindən hasil etdiyimiz neftin Türkiyənin Ceyhan limanına çatdırılmasının və dünya bazarlarına göndərilməsinin şahidi olacağıq. İnanıram ki, həmin bu böyük hadisənin açılışında da biz birlikdə iştirak edəcəyik. Eləcə də Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışında.

Bizim Xəzər dənizində kəşf etdiyimiz «Şahdəniz» qaz yatağı çox zəngindir. Orada onilliklərlə böyük miqdarda hasil oluna biləcək təbii qaz var. Biz bu yataqda işləməyə başlayarkən və xüsusən son nəticələri aldığımız zaman məhz Türkiyə ilə əlaqələr yaratdıq və onun qaza olan ehtiyacını təmin etmək məqsədi ilə Azərbaycan qazının Türkiyəyə nəql olunmasını təklif etdik. Türkiyə Cümhuriyyəti bizim bu təklifimizi məmnuniyyətlə qəbul etdi və biz işə başlamışıq. Ümid edirəm ki, Azərbaycanın Xəzər dənizindəki «Şahdəniz» qaz yatağından çıxarılacaq qaz 2004-cü ildə Türkiyəyə axacaq, Türkiyənin müxtəlif bölgələrini təbii qazla təmin edəcəkdir. Biz gələcəkdə təbii qazın Türkiyə ərazisi ilə Avropaya nəql edilməsini də nəzərdə tuturuq.

Beləliklə, biz böyük layihələr həyata keçiririk və yaxşı nəticələr əldə etmişik. Onların təhlükəsizliyinin təmin edilməsi indi bizim gündəliyimizdə duran əsas məsələlərdən biridir. Bu məsələlər də burada, Trabzon zirvə görüşündə müzakirə olundu. Biz fikir mübadiləsi apardıq, eyni fikirdə olduğumuzu bildirdik, səylərimizin birləşdirilməsi haqqında qərar qəbul etdik. Bundan sonra birlikdə əməkdaşlıq edəcəyik, irəliyə gedəcəyik.

Beləliklə, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərin təşəbbüsü ilə ilk dəfə Trabzonda toplanmış zirvə görüşü çox əhəmiyyətlidir və çox uğurla başa çatıbdır. Ümidvaram ki, burada təməlini qoyduğumuz iş gələcəkdə davam edəcək, ölkələrimiz üçün, xalqlarımız üçün çox faydalı olacaqdır.

Mən Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə bu böyük təşəbbüsə görə, Trabzon zirvə görüşünün çox yüksək səviyyədə təşkil olunmasına görə, burada yaranmış işgüzar şəraitə görə, bizə göstərilən gözəl qonaqpərvərliyə görə təşəkkür edirəm. Əziz qardaşım Əhməd Necdət Sezərə, qardaş türk xalqına sevgi-məhəbbətimi bildirirəm və sülh, əmin-amanlıq, rifah diləyirəm. Sağ olun.

**Gürcüstan prezidenti Eduard Şevardnadzenin bəyanatı**

Dəyərli məsləkdaşlarım, hörmətli cənab Əhməd Necdət Sezər!

Hörmətli cənab Heydər Əliyev!

Hörmətli mətbuat nümayəndələri!

Keçirdiyimiz bu iki günə görə Sizə təşəkkürlərimi bildirmək istəyirəm. Biz bu günlər birlikdə qarşılıqlı anlaşma şəraitində çox əhəmiyyətli məsələləri müzakirə etmişik və gözəl bir saziş imzalamışıq. Bu qədər önəmli və çoxmənalı bir sənədin imzalanması ölkələrimiz arasındakı əlaqələrin bir qoludur. Bu, «soyuq müharibə»nin bitməsini və yeni bir mərhələnin yarandığını göstərir.

Biz görüşlərimizdə bu üç dövlətin Avropa və bütün dünya üçün, eləcə də həyata keçirdiyimiz böyük layihələr üçün nə qədər önəmli olduğunu vurğuladıq. Şərq–Qərb enerji dəhlizi və Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması layihələrindən danışarkən mənim çox yaxın, səmimi dostum cənab Heydər Əliyevin qəhrəmancasına, cəsarətli davranışlarından söz açmasam doğru olmaz. Çünki Xəzərin karbohidrogen ehtiyatlarının Gürcüstan və Türkiyə torpaqları üzərindən digər ölkələrə nəql edilməsi məsələsi hörmətli Əliyevin təşəbbüsü ilə olmuşdur və artıq bu həyata keçirilmək üzrədir. Tarixi önəmi olan bu, böyük layihələrin indiki

hala gətirilməsi sahəsində Türkiyə Cümhuriyyəti hökumətinin, nazirlərinin əməyini də yüksək qiymətləndirirəm. Eyni zamanda, görüşlərdə iştirak edən Amerika Birləşmiş Ştatlarının neft şirkətlərinə, maliyyə dairələrinə də təşəkkürümü bildirirəm.

Bir neçə il öncə xəyal hesab etdiklərimiz indi gerçəkləşibdir. Təbiidir ki, bu işlərimizin təməli Bakı–Supsa neft kəməri fəaliyyətə başladıqdan sonra qoyulmuşdur və indi gündəlikdə boru xətlərinin mühafizəsi və təhlükəsizlik məsələləri durur. Bu gün daxili işlər nazirlərimiz saziş imzaladılar. Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərin də söylədiyi kimi, bu anlaşma heç bir ölkəyə qarşı deyildir. Bu, sadəcə, boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması ilə bağlıdır.

Bu gün imzalanan sənədə əsasən təhlükəsizlik sahəsində işbirliyi müxtəlif sahələri əhatə edən digər layihələr üçün də önəmlidir. Gürcüstan olaraq biz bu anlaşma ilə boru xətlərinin mühafizəsini təmin etmək baxımından üzərimizə yeni vəzifələr götürürük.

Dünən söylədiyim fikri təkrar etmək istəyirəm ki, Gürcüstan üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirəcəkdir. Eyni zamanda, terrorizmi dəstəkləyən qaynaqlara, ayrı-seçkiliyə, separatizmə və digər cinayətkar əməllərə qarşı birlikdə mübarizə aparmaq vacibdir.

Dünən qərara almışıq ki, növbəti görüşümüz Tbilisidə, Gürcüstanda olacaqdır. Kim bilir, bəlkə də həmin dövrədək bu anlaşmaya qoşulanların sayı artacaqdır.

Mən bu gözəl təşəbbüsə və qonaqpərvərliyə görə Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə dərin təşəkkürümü bildirirəm. Sizə cansağlığı və uğurlar arzulayıram.

**S u a l: May ayında Reykyavikdə NATO-nun zirvə toplantısı zamanı Azərbaycan, Türkiyə və Ermənistan xarici işlər nazirlərinin də görüşü olacaqdır. Azərbaycan prezidenti Heydər Əliyev bu üçtərəfli görüşdən nə gözləyir?**

**H e y d ə r Ə l i y e v:** Biz hər bir görüşdən bir nəticə gözləyirik. Reykyavikdə Türkiyə, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə olacaqdır. İndiyə qədər belə görüşlər olmayıbdır. Ancaq indi belə üçtərəfli görüş də baş verir. Biz buna etiraz etmirik. Biz bu görüşdə iştirak edəcəyik və bir də qeyd edirəm, hər bir görüşdən bölgəmizdə sülhün, təhlükəsizliyin təmin olunması üçün faydalanmaq istəyirik və xüsusən Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını – Azərbaycan torpaqlarının beşdə biri onların işğalı altındadır – və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, yerindən-yurdundan didərgin düşmüş bir milyondan artıq azərbaycanlının, çadırlarda yaşayan insanların öz yerlərinə, yurdlarına qayıtmasını istəyirik. Bu istiqamətdə biz illər boyu çalışırıq, mübarizə aparırıq.

Əgər Reykyavik görüşü bu barədə bizə fayda verəcəksə, biz bundan çox məmnun olacağıq.

**S u a l: Mənim sualım Gürcüstan prezidenti Şevardnadzeyədir. Terrorizmə qarşı işbirliyi haqqında anlaşma imzalandı. Ancaq terrorçu təşkilat olan PKK-nın ölkənizdə bəzi dərnək və vəqflərlə fəaliyyət göstərməsi barədə məlumatlar var. Bunların qarşısını almaq üçün nə tədbir görəcəksiniz?**

**E d u a r d Ş e v a r d n a d z e:** Gürcüstanda belə işlərin olduğu mənə məlum deyil. Gürcüstanda qonşu dövlətlərdən gələn mürtəce qüvvələr mövcuddur. Onların arasında yaşlı qadınlar, uşaqlar vardır. Təbiidir ki, kişilər də vardır. Onların bir qismi, 3500 nəfər Çeçenistana qayıtmışdır. Bildiyimə görə, digərləri də qayıtmaq arzusundadırlar. Onların Çeçenistana dönməsi üçün imkan yarandıqca, bu proses davam edəcəkdir. Biz də bundan məmnun olarıq.

Onu da bildirmək istəyirəm ki, bu insanları Gürcüstan sərhədlərinə doğru zorla yönəltmişlər. Biz də onları qəbul etmək məcburiyyətində qaldıq.

**S u a l: Mənim sualım Gürcüstan prezidenti Eduard Şevardnadzeyədir. Siz bayaq çıxışınızda dediniz ki, Tbilisidə keçiriləcək ikinci zirvə görüşündə iştirakçı ölkələrin sayı arta bilər. Sizin zənninizcə, bunlar hansı ölkələr ola bilər? Trabzon zirvə görüşünü Azərbaycan prezidentinin və Türkiyə prezidentinin hörmətli Şevardnadzeyə dəstəyi hesab etmək olarmı?**

**E d u a r d Ş e v a r d n a d z e:** Mən indi regiondakı və ondan kənardakı ölkələrin rəhbərləri ilə məsləhətləşmədən, görüşmədən onların bu görüşdə iştirak etməyə namizəd olduqlarını yəqin ki, bildirməli deyiləm.

**S u a l: Mənim sualım Azərbaycan prezidenti Heydər Əliyevədir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin reallaşması üçün hər hansı problem varmı?**

**H e y d ə r Ə l i y e v:** Mətbuat nümayəndələri mənə Bakıda, Azərbaycanda da çox sual verirlər. Gəlmişəm, burada da öz jurnalistlərimiz mənə belə sual verir. Heç bir problem yoxdur. Amma bununla demək istəmirəm ki, hər şey rəvan gedir. Problemlər olubdur, biz onların qarşısını almışıq. Burada Türkiyənin mətbuat nümayəndələri əksəriyyət təşkil edirlər. Onlar bilirlər ki, 5-6 il bundan öncə mən Türkiyəyə gələndə hamı soruşurdu ki, Bakı–Tbilisi–Ceyhan boru xətti olacaq, ya olmayacaq? Çünki şübhələr çox idi və buna əsas da vardı. Ona görə ki, bu layihənin həyata keçirilməsinə böyük maneə var idi.

Özü də çox güclü istiqamətlərdən maneələr var idi. Ancaq biz bu gün fəxr edə bilərik ki, bu maneələrin hamısının qarşısını aldıq, ağır, çətin yoldan keçdik, sınaqlardan çıxdıq. İndi Bakı–Tbilisi–Ceyhan ixrac boru

kəmərinin inşası artıq realdır. Üç dövlət – Azərbaycan, Gürcüstan, Türkiyə öz parlamentlərində bizim hökumətlərarası sazişlərimizi təsdiq ediblər. İndi maliyyə məsələləri həll olunur. Bunlar da müsbət həll edilməkdədir. Ancaq bu o demək deyil ki, problem yoxdur. Problem var, problem də olacaqdır. Hətta biz Bakı–Tbilisi–Ceyhan xəttini tikib istismara verəndən sonra da problem olacaqdır. Çünki, yenə də deyirəm, buna qısqanclıq edən, buna mane olmaq istəyən, bunun əleyhinə olan qüvvələr var və onlar da yaşayırlar və yaşayacaqlar. Ancaq hamınızı əmin edirəm ki, biz bu işin ən ağır dövrünü keçmişik. İndi isə işin ikinci mərhələsindəyik. Güman edirəm ki, bu mərhələ bizim üçün əvvəlki mərhələdən daha da asan olacaqdır. Arxayın ola bilərsiniz, hər şey yaxşı olacaqdır.

**S u a l: Mənim sualım hər üç dövlətin rəhbərlərinədir. Bu gün burada mühüm bir saziş imzalandı. Amma məlumdur ki, Gürcüstanda da, Azərbaycanda da münaqişə ocaqları var. Azərbaycanın məlum Dağlıq Qarabağ problemi var. Bu baxımdan əgər gələcəkdə sazişin həyata keçirilməsində hər hansı bir problem olarsa, yəni ixrac boru kəmərlərinin təhlükəsizliyində problemlər olarsa, növbəti bir koalisiya yaradılması gözlənilə bilərmi? Bu koalisiya hansı məsələlərin tənzimlənməsi ilə məşğul ola bilər?**

**H e y d ə r Ə l i y e v:** Mən bu sualı daha çox anladım. Ona görə də mən cavab verim, qardaşlarım da hazırlaşsınlar.

Əgər gələcəkdə bu boru xətlərinin təhlükəsizliyi ilə bağlı bir hadisə baş verərsə – mən sualı belə anladım – biz nə edəcəyik? Birincisi, biz burada razılaşmışıq ki, boru xətlərinin təhlükəsizliyini hər dövlət öz ərazisində təmin edəcəkdir. Bu bizim hər birimizin öz ərazimizdə olan vəzifəmizdir. Güman edirəm ki, biz bunların öhdəsindən gələcəyik. Mən hesab etmirəm ki, elə bir şərait yaransın və biz bundan ötrü koalisiya yaratmalı olaq. Ancaq, təbiidir ki, biz bu işləri həmişə birlikdə aparırıq, məsləhətləşirik, işlərimizi əlaqələndiririk və bunu gələcəkdə də edəcəyik.

Hər hansı bir hadisə meydana çıxarsa, yenə də məsləhətləşəcəyik, bir-birimizin fikrini öyrənəcəyik və ümumi səylərimizlə bunları həll edəcəyik.

**Ə h m ə d N e c d ə t S e z ə r:** Bir az öncə hörmətli daxili işlər nazirlərinin imzaladıqları işbirliyi anlaşmasında istər Bakı–Tbilisi–Ceyhan, istərsə də Bakı–Tbilisi–Ərzurum neft və təbii qaz boru xətlərinin təhlükəsizliyi haqqında da qaydalar yaranmaqdadır. Bu qaydalardan biri də boru xətlərinin təhlükəsizliyinin qorunması haqqında protokol imzalamalarını nəzərdə tutur. Bu protokol çərçivəsində kəmərlərin təhlükəsizliyi təmin olunacaqdır.

Dünənki görüşümüzdə aydın oldu ki, hər üç ölkədə bu barədə hazırlıq işləri görülmüşdür. İnanıram ki, ən qısa vaxtda bu protokol imzalanacaq və gələcəkdə boru xətlərinin təhlükəsizliyi təmin olunacaqdır.

**E d u a r d Ş e v a r d n a d z e:** Danışıqlar zamanı Bakı–Supsa xəttinin təhlükəsizliyindən söz açarkən mən dedim ki, bu xəttin təhlükəsizlik sistemi qurulmuşdur. Təbiidir ki, bu bizə qismən yardımçı olacaqdır.

Digər boru kəmərlərinin təhlükəsizliyinə gəlincə, hörmətli cümhur başqanı Sezərin söylədiyi kimi, bununla bağlı özəl bir protokol imzalanacaqdır. Zənn edirəm ki, koalisiyaya heç bir iş qalmır.

**S u a l: Üç dövlətin başçılarına bir sualım var. Siz dediniz ki, koalisiya yaratmağa ehtiyac yoxdur. Amma Rusiya mətbuatı Trabzon zirvə görüşünü çox təhlükəli hesab edir. Bununla bağlı düşüncələrinizi bilmək olarmı? Bu gün ilk ABŞ əsgərləri Gürcüstana gəliblər, bu təsadüfdürmü, siz bunu necə dəyərləndirirsiniz?**

**Ə h m ə d N e c d ə t S e z ə r:** Dünən və bu gün burada keçirilən toplantını bu ölkələr arasında koalisiya yaratmaq kimi düşünmək yalnış fikirdir. Bu, təhlükəsizlik və işbirliyi anlaşmasıdır. Mətbuat nümayəndələrinə bildirdiyimiz kimi, bu öz bölgəmizdə sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində ilk addımımızdır. Hər hansı bir ölkəyə qarşı yönəldilmiş işbirliyi deyildir. Sabitliyin və təhlükəsizliyin təmin olunmasına yönəldilən bu işbirliyinə başqa ölkələr də qatıla bilər. ABŞ əsgərlərinin Gürcüstana gəlməsini isə hörmətli Şevardnadze açıqlayacaq. Təşəkkür edirəm.

**E d u a r d Ş e v a r d n a d z e:** Bu günlərdə Amerika Birləşmiş Ştatları hərbçilərinin Gürcüstana gəlməsi nə Rusiyanın, nə də başqa bir dövlətin əleyhinə deyildir. Biz müstəqil dövlətik, qəbul etdiyimiz qərar Gürcüstanın mənafeyinə uyğundur.

Rusiya mətbuatındakı həyəcanlı məlumatlardan söz açarkən deməliyəm ki, mən bir az uzaqda olduğuma görə onları burada hiss etmirəm.

**S u a l: İmzaladığınız bu anlaşmanın mahiyyəti nədir? Yəni bölgədə yeni bir ittifaq qurulubmu?**

**E d u a r d Ş e v a r d n a d z e:** Biz görüşlərimizin və razılaşmalarımızın məqsədinin nə olduğunu açıqladıq. Mən bu barədə qəzetlərdə yazılanlara etiraz etmirəm. Vurğuladığımız kimi, bu razılaşma narkotik maddələrin qanunsuz dövriyyəsinə, insan alverinə və terrorizmə qarşı müştərək mübarizə barədədir.

**S u a l: Cənab Eduard Şevardnadze, bu gün gözəl bir işin təməli qoyuldu. Xəzər dənizinin statusu ilə bağlı Gürcüstan prezidenti nə deyə bilər və Gürcüstan Azərbaycanı bu məsələdə dəstəkləyirmi?**

**E d u a r d Ş e v a r d n a d z e:** Dünən biz bu məsələni gündəmə gətirdik. Gürcüstan Xəzərdən bir qədər aralıdır, amma Xəzərin statusu məsələsində biz Azərbaycanı dəstəkləyirik.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ**

*Aprelin 30-da Azərbaycan prezidenti Heydər Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Gürcüstan prezidenti Eduard Şevardnadze böyük öndər Mustafa Kamal Atatürk muzeyini ziyarət etdilər.*

*Muzeyin yerləşdiyi və Atatürk köşkü adı ilə məşhur olan bu bina 1903-cü ildə Avropa memarlığı üslubunda tikilmişdir. Mustafa Kamal Atatürk 1924-cü ildə ilk dəfə Trabzona gələrkən həmin bina ona hədiyyə edilmişdir. Türkiyə Cümhuriyyətinin banisi 1930 və 1937-ci illərdə Trabzona növbəti səfərləri zamanı bu köşkdə qalmışdır. Atatürk özünün vəsiyyətinin bir hissəsini də burada yazmışdır. Hər il muzeyi minlərlə insan, o cümlədən xarici turistlər ziyarət edirlər.*

* * *

*Elə həmin gün dövlət başçıları Trabzondakı dövlət su işləri təsislərinə gedərək, bu müəssisənin işi ilə də tanış oldular.*

*Sonra Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərin adından Azərbaycan prezidenti Heydər Əliyevin və Gürcüstan prezidenti Eduard Şevardnadzenin şərəfinə rəsmi qəbul təşkil edildi.*

*Rəsmi qəbuldan sonra Azərbaycan prezidenti Heydər Əliyev və Gürcüstan prezidenti Eduard Şevardnadze hava limanına gəldilər. Ali qonaqları burada Türkiyə dövlətinin başçısı qarşıladı.*

*Trabzon hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər Türkiyə və Azərbaycan nümayəndələri ilə səmimiyyətlə görüşdülər. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər təyyarənin pilləkəni yanında mehribanlıqla sağollaşdılar.*

## TRABZONDAN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*30 aprel 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Trabzon zirvə görüşünün gedişi və yekunları, güman edirəm ki, sizə məlumdur. Çünki televiziya vasitəsilə hamısı verilibdir. Ona görə də bu barədə sizə əlavə məlumat verməyə ehtiyac yoxdur. Ancaq onu qeyd etmək istəyirəm ki, bu çox əhəmiyyətli görüş idi. Üç ölkənin – Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin zirvə görüşünün məqsədi bizim bölgədə bir neçə əsas sahələrdə əməkdaşlığı gücləndirməkdən ibarətdir. Bunlar beynəlxalq terrorizmlə mübarizədir, bölgənin təhlükəsizliyinin təmin olunmasıdır və Şərq–Qərb enerji dəhlizinin, yəni Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin mühafizəsi, təhlükəsizliyinin təmin edilməsidir. Əsasən bu məsələlər bizim toplaşmağımıza, belə bir regional əməkdaşlıq etməyimizə səbəb olmuşdur. Bu təşəbbüsü Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər irəli sürmüşdü. Orada bəyan etdim, bu gün bir daha deyirəm ki, bu çox dəyərli təşəbbüsdür və mən görülən işlərdən də çox məmnunam.

**S u a l: Cənab Prezident, təkbətək görüşlərdə hansı məsələlər müzakirə olundu?**

**C a v a b:** Təkbətək görüşlərdə, təbiidir ki, birinci növbədə iki ölkə arasında olan münasibətlər, bütün sahələrdə – həm iqtisadi, həm də başqa sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi barədə söhbət getdi, habelə yenə bölgəmizdə olan vəziyyəti təhlil edib fikir mübadiləsi apardıq.

**S u a l: Dağlıq Qarabağ məsələsinə toxunuldumu?**

**C a v a b:** Bəli, Dağlıq Qarabağ məsələsinə toxunuldu. Həm Əhməd Necdət Sezərlə, həm də Eduard Şevardnadze ilə mənim görüşlərimdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında söhbət getdi və xüsusən Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərlə bu barədə çox ətraflı danışdıq. Çünki bilirsiniz ki, Türkiyə Minsk qrupunun üzvüdür və bu qrupun həmsədrləri axırıncı dəfə bölgədə olandan sonra Ankaraya getmişdilər, Türkiyənin prezidenti və başqa şəxslərlə də görüşmüşdülər. Aparılan işlər, vəziyyət haqqında məlumatlar vermişdilər.

Bundan əlavə, Türkiyə Ermənistan–Azərbaycan münaqişəsi baş verəndən Azərbaycanı birmənalı dəstəkləyən bir ölkədir. Tək dəstək vermək deyil, o, bəyan edib, bu gün də bu bəyanatında qalır və Türkiyənin prezidenti bunu yenə də təkrar etdi ki, Ermənistan–Azərbaycan münaqişəsi sona çatmayana qədər, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmayana qədər, bu torpaqlar işğaldan azad olunmayana qədər Türkiyə Ermənistanla sərhədlərini açmayacaq və heç bir əməkdaşlığa getməyəcəkdir.

**S u a l: Cənab Prezident, Reykyavikdə Türkiyə, Azərbaycan və Ermənistan görüşünü keçirməkdə məqsəd nədir?**

**C a v a b:** Reykyavik görüşü Türkiyə tərəfinin təşəbbüsü ilə olacaqdır. Biz də ona etiraz etməmişik. Ola bilər ki, hər bir görüşün əhəmiyyəti olsun.

**S u a l: İmzalanan sənəddə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı məsələ öz əksini tapdı. Son vaxtlar Dağlıq Qarabağın adı bu məsələdə çox tez-tez hallanır. Bununla bağlı Dağlıq Qarabağda fəaliyyət necə tənzimlənəcək?**

**C a v a b:** Bilirsiniz, bu çox mürəkkəb məsələdir. Bu barədə bir şey demək olmaz.

**S u a l: Neft kəmərlərinin mühafizəsində hər bir ölkə öz ərazisindən keçən hissəyə cavabdehdir. Ola bilərmi ki, hansısa ölkə, məsələn, Gürcüstan çətinlik çəksə, Azərbaycan və Türkiyə ona kömək göstərsinlər?**

**C a v a b:** Siz niyə qabağa qaçırsız? Biz orada razılaşmışıq ki, hər ölkə öz ərazisində kəmərlərin təhlükəsizliyini təmin edəcəkdir. Mən güman edirəm ki, hər bir ölkə bu təhlükəsizliyi təmin etməyə qadirdir. Biz əməkdaşlıq edirik, əgər şayət, nə vaxt, nə isə olsa, onda bu məsələləri həll edəcəyik. İndidən bu məsələni ortaya atmağa ehtiyac yoxdur.

**S u a l: Cənab Prezident, Rusiyanın ATƏT-in Minsk qrupundakı keçmiş həmsədri Vladimir Kazimirov bildirib ki, Ermənistan və Azərbaycan prezidentlərinin xüsusi nümayəndələrinin Praqada keçiriləcək görüşləri kifayət qədər əhəmiyyətlidir. Buna münasibətiniz necədir?**

**C a v a b:** O öz fikrini bildiribdir. Biz isə başqa fikirdəyik.

**S u a l: Cənab Prezident, Yunanıstan Azərbaycan qazının Türkiyə ərazisindən öz ölkəsinə və oradan da Avropaya nəql edilməsini təklif etmişdi. Siz cənab Sezərlə görüşünüzdə bu məsələyə toxundunuzmu?**

**C a v a b:** Ay qızım, bunların hamısı gələcəyin işləridir. Gəlin əvvəlcə biz Azərbaycan qazını Türkiyəyə aparıb çatdıraq, Türkiyəni istənilən qədər təmin edək, Türkiyəyə qaz nəql etmək imkanlarımız artsın, sonra, əlbəttə, bizim fikrimiz gələcəkdə Avropaya çıxmaqdır. Ola bilər ki, Yunanıstan da bu sırada olsun. Amma bu çox uzaq gələcəyin işidir. Başınızı belə şeylərlə ağrıtmayın.

**S u a l: Cənab Prezident, Ankarada Azərbaycan səfirliyinin yeni binasının açılışı nə vaxt olacaq?**

**C a v a b:** İnşallah, bu yaxınlarda olacaq.

Hörmətli jurnalistlər, görürəm sizin əməlli suallarınız yoxdur. Sual naminə sual vermək lazım deyildir. Mən sadəcə, sizə məsləhət görürəm ki, belə görüşlərə gələndə əvvəldən hazırlaşın, hərəniz bir yaxşı sual hazırlayın. Onda doğrudan da məzmunlu, günün tələbinə çox aid olan sual verən jurnalist kimi görünərsiniz. Bu da o məsələ barədə sizə geniş məlumat verməyə imkan yaradacaqdır. Amma elə suallar verirsiniz ki, bunlara aldığınız cavabı da görürsünüz. Ona görə də siz bundan o qədər faydalana bilmirsiniz. Sağ olun.

**«AZƏRBAYCANIN MİLLİ - MƏDƏNİ VƏ TƏBİİ İRSİNİN QORUNUB SAXLANILMASI – MİLLİ PARKLAR PROQRAMI» BEYNƏLXALQ KONFRANSINA**

Hörmətli konfrans iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş Beynəlxalq konfrans iştirakçılarını Azərbaycan torpağında ürəkdən salamlayıram.

Konfrans Azərbaycanın milli mədəni və təbii sərvətlərinin qorunub saxlanılması ilə bağlı problemlərin həlli işinə həsr olunmuşdur. Milli parkların yaradılması proqramı üzrə keçirilən bu konfrans ətraf mühitin mühafizəsinin olduqca vacib, ümumbəşəri bir vəzifə kimi qarşıda dayandığı indiki dövrdə xüsusilə böyük əhəmiyyət kəsb edir. Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür. Keçirdiyiniz forum bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin qurulması və genişləndirilməsinin nə dərəcədə zəruri olduğunu göstərir.

Bu konfransın ölkəmizin paytaxtı Bakı şəhərində keçirilməsi Azərbaycanın zəngin təbii və tarixi mədəni irsinə göstərilən dərin maraq və ehtiramın ifadəsidir. Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir. Lakin təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, qonşu Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü milli mədəni və təbii sərvətlərimizə də olduqca ağır zərbə vurmuşdur.

Respublikamızda ekoloji problemlərin həll edilməsi dövlətin daim diqqət mərkəzində olmuş, ətraf mühitin mühafizəsi üzrə milli fəaliyyət proqramı qəbul edilmiş, beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində bir sıra mühüm işlər görülmüşdür. Əminəm ki, bu forum milli mədəni və təbii irsimizin qorunması işinə öz layiqli töhfəsini verəcəkdir.

Hörmətli konfrans iştirakçıları! Ölkəmizə gəlişinizdən, onunla yaxın tanışlıqdan böyük məmnunluq duyacağınıza inanır və sizə konfransin işində uğurlar diləyirəm.

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 may 2002-ci il*

**SƏRBƏST GÜLƏŞ ÜZRƏ 45-ci AVROPA ÇEMPİONATININ İŞTİRAKÇILARINA**

Əziz idmançılar!

Sizi – sərbəst güləş üzrə 45-ci Avropa çempionatının iştirakçılarını Bakı şəhərində səmimi-qəlbdən salamlayır, hər birinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Sərbəst güləş üzrə Avropa çempionatı kimi mötəbər idman yarışının ilk dəfə olaraq paytaxtımız Bakı şəhərində təşkil edilməsi müstəqil Azərbaycan Respublikasının həyatında mühüm hadisədir. Bu, 10 illiyini keçən il təntənə ilə qeyd etdiyimiz müstəqillik dövründə ölkəmizin həyatının digər sahələrində olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də əldə etdiyimiz nailiyyətlərə beynəlxalq idman ictimaiyyəti tərəfindən verilən yüksək qiymətin parlaq ifadəsidir. Sevindirici haldır ki, son illər ərzində Azərbaycanda beynəlxalq səviyyəli nüfuzlu idman yarışlarının keçirilməsi artıq gözəl bir ənənəyə çevrilməkdədir.

Azərbaycan dövləti əhalinin fiziki sağlamlığının qorunub möhkəmləndirilməsində bədən tərbiyəsi və idmanın böyük əhəmiyyət kəsb etdiyini dərk edərək bu sahənin daha da inkişaf etdirilməsinə xüsusi diqqətlə yanaşır, onun təbliğ olunması və kütləviliyinin artırılması yolunda atılan hər bir addımı dəstəkləyir. İnanıram ki, Bakıda təşkil edilmiş bu çempionat da xalqlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi ilə yanaşı, zəngin güləş ənənələrinə malik olan Azərbaycanda bu idman növünün, ümumiyyətlə, idmanın inkişafı işinə öz töhfəsini verəcəkdir.

Sizə böyük idman sevinci və yeni qələbələr, çempionatınıza uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 may 2002-ci il*

## BAKI İDMAN - KONSERT KOMPLEKSİNDƏ SƏRBƏST GÜLƏŞ ÜZRƏ 45-ci AVROPA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*2 may 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev təntənəli mərasimdə iştirak etmişdir. Minlərlə tamaşaçı və qonaqlar dövlətimizin başçısını hərarətlə, sürəkli alqışlarla qarşıladılar.*

*Ölkəmizin paytaxtında ilk dəfə keçirilən, Avropanın 25 ölkəsindən onlarla idmançının iştirak etdiyi bu çempionatda güləşçilər öz qüvvələrini yeddi çəki dərəcəsində sınayacaqlar.*

*Azərbaycan, Almaniya, Belarus, Bolqarıstan, Estoniya, Fransa, Gürcüstan, Hollandiya, İngiltərə, İsrail, İspaniya, İsveçrə, İtaliya, Latviya, Litva, Macarıstan, Makedoniya, Moldova, Polşa, Rumıniya, Rusiya, Slovakiya, Türkiyə, Ukrayna və Yunanıstan idmançıları musiqi sədaları altında meydançaya daxil oldular.*

*Azərbaycan prezidenti Heydər Əliyevin Avropa çempionatının iştirakçılarına təbriki oxundu.*

*Mərasimi Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyev açdı.*

## BAKIDA KEÇİRİLƏN «AZƏRBAYCANIN MİLLİ- MƏDƏNİ VƏ TƏBİİ İRSİNİN QORUNUB SAXLANILMASI – MİLLİ PARKLAR PROQRAMI» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Mən Bakıda keçirilən Beynəlxalq konfransın Azərbaycanın milli və təbii irsinin qorunub saxlanılmasına, milli parklara həsr olunmasını yüksək qiymətləndirirəm. Mən konfransa təbrik məktubu göndərmişəm, ancaq istəyinizi nəzərə alaraq bu gün sizinlə görüşürəm. Almaniyanın təbiətin mühafizəsinə böyük əhəmiyyət verdiyi məlumdur. Bilirəm ki, almanlar ölkənizdə təbiətin mühafizəsi ilə çox ciddi məşğul olur, xalq da bunu çox yüksək qiymətləndirir. Təsadüfi deyil ki, təbiəti mühafizə partiyası – «Yaşıllar» partiyası parlamentə seçkilərinizdə öncül yerdə olub və indi Almaniyanın aparıcı partiyası olan Sosial Demokrat Partiyası ilə birlikdə koalisiya hökuməti yaradıbdır. Vitse-kansler cənab Yoşka Fişeri yaxşı tanıyıram. O, Azərbaycanda olubdur, mən onunla görüşmüşəm, söhbət aparmışıq. Güman edirəm, Almaniyada təbiətin mühafizəsinə böyük fikir verildiyinə görədir ki, bu Beynəlxalq konfransda da Almaniyanın nümayəndələri çoxluq təşkil edirlər. Mən çox məmnunam ki, belə böyük sayda, çox hörmətli alimlər, təbiətşünaslar Azərbaycana gəliblər və burada keçirilən konfransda iştirak edirlər.

Mən buna görə sizə təşəkkür edirəm. Ümidvaram ki, burada keçirdiyiniz günlər, sizdə Azərbaycan haqqında xoş təəssüratlar yaradacaq, təbiətin mühafizəsi sahəsində bizə yardım edəcək və Almaniya–Azərbaycan dostluğunu, əməkdaşlığını möhkəmləndirəcəkdir.

**M i x a i l Z u k k o v** (*Almaniyanın Mixail Zukkov adına Təbiəti Mühafizə Fondu şurasının sədri*): Cənab Prezident, səmimi qəbul üçün nümayəndə heyəti adından Sizə minnətdarlığımızı bildirirəm. Bu, dünya ekoloqlarının zəhmətinə Sizin verdiyiniz ən yüksək qiymətdir. 30 il öncə mən sizin ölkənizdə olmuşam və çox böyük təəssüratlarım var. İki ildir ki, biz bu fondu yaratmışıq və onun vasitəsilə ölkənizlə əlaqə saxlayırıq. Azərbaycan haqqında təsəvvürüm bu iki ildə daha da artıbdır. Fəxrlə deyə bilərəm ki, sizin ölkə vəhşi heyvanların və bitkilərin növlərinə görə bütün Avropada birinci yerdə dayanır. Təkcə qartalın 9 növü var. Amma Almaniyada, təəssüflər olsun ki, bircə növünü tanıyırıq.

Ötən ilin qışında biz Azərbaycanda Ağ göl ətrafında quşların qışlamasının şahidi olduq. Belə qənaətə gəldik ki, dünya quşlarının üçdə iki hissəsi Ağ göl ətrafında öz qışlama yerini tapıbdır. Cənab Prezident, ona görə də mən sizin ölkədə qışlayan quşlar barəsindəki bu hesabatı, məlumatı sizə təqdim edirəm.

Sizə məlumat verərək bildirirəm ki, fond Milli park proqramının həyata keçirilməsində Gürcüstana öz yardımını göstərib, indi isə Azərbaycana mümkün olan yardımı edəcəkdir.

Cənab Prezident, mən Sizə iki kitab təqdim etmək istəyirəm. Bunların biri Avrasiyada təbiətin mühafizəsinə həsr olunmuş kitabdır. Həmin kitabda keçirilən konfranslar öz əksini tapmışdır. İkincisi isə mənim Sizə şəxsi hədiyyəmdir. Mən hələ ADR-də təbiəti mühafizə nazirinin müavini işləmişəm və Milli park proqramını işləyib hazırlayanlardan biriyəm ki, bu da Almaniyanın birləşməsindən sonra bütün ölkəmizə şamil edildi. Bu kitabda təbiəti mühafizə sahəsində görülən işlər barədə məlumat və bununla bağlı sənədlər verilmişdir.

Ən nəhayət, Sizə sadə bir hədiyyəni təqdim etmək istəyirəm. Bu, Azərbaycan dilində tərtib olunmuşdur və cənab Bağırovla görəcəyimiz işin proqramıdır. Bu bizim gələcəkdə birgə fəaliyyətimizin proqramı hesab edilə bilər.

**H e y d ə r Ə l i y e v:** Hədiyyələrə görə təşəkkür edirəm. Ola bilər, bizim mütəxəssislər bilirlər, amma mən heç bilmirdim ki, siz Azərbaycanın təbiətini və xüsusən quşlarını bu qədər yaxşı tanıyırsiniz. Almaniyada Azərbaycanın təbiətinə və xüsusən quşlarına göstərilən belə diqqət – bu təkcə diqqət deyildir, eyni zamanda qayğıdır – məni çox sevindirir.

Ekologiya indi bəşəriyyət üçün ən əsas məsələlərdən biridir. İnsanlar hələ bunun əhəmiyyətini, demək olar ki, tam başa düşə bilməyiblər. Hərə öz işini görmək üçün, məqsədinə nail olmaq üçün istər-istəməz təbiətə, ətraf mühitə böyük ziyan vurur. Biz çox böyük səlahiyyətlərə malik olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaratmışıq. Bundan da məqsədimiz bütün bu sahəyə aid olan məsələlərin hamısını bir əldə toplamaq və bu işlərlə daha ciddi məşğul olmaqdan ibarətdir. Güman edirəm, belə bir nazirliyin yaranmasının nəticəsidir ki, Azərbaycanda indi belə konfranslar keçirilir. Ancaq bir şeyi bilməlisiniz ki, nə üçün Azərbaycanda bu qədər quş var. Çünki biz onların qırılmasının qarşısını alırıq, çox ciddi tədbirlər görürük. Azərbaycanda təbiətin mühafizəsi mənim üçün ən əsas vəzifələrdən biridir. Sizə bir daha təşəkkür edirəm ki, bu məsələlərlə məşğul olaraq Azərbaycana belə böyük diqqət yetirirsiniz.

**X a n ı m   H i l a   A l t m a n** (*Almaniyanın ətraf mühit, təbiəti mühafizə və nüvə təhlükəsizliyi məsələləri nazirinin müavini*): Mən də görüş üçün yaradılan imkana görə minnətdarlığını bildirirəm və cənab Prezident, Sizə Almaniya hökumətinin və təmsil etdiyim nazirliyin rəhbərliyinin salamlarını çatdırıram. Konfransda iştirakımdan və Azərbaycan kimi gözəl ölkə ilə, onun insanları, mədəniyyəti ilə tanış olmaq imkanı əldə etməyimdən, Azərbaycan xalqının qonaqpərvərliyindən məmnun qaldığımı bildirirəm. Hüseynqulu Bağırovun şəxsində özümə yaxşı həmkar tapmışam və ümid edirəm ki, birgə əməkdaşlığımız sayəsində gələcək nəsil üçün çox vacib bir irs qoyub gedəcəyik.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev görüşün sonunda qonaqlarla xatirə şəkli çəkdirdi.*

**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ CƏNAB JAK ROQQA**

Hörmətli cənab Jak Roqq!

Sizi – Olimpiya hərəkatinin görkəmli nümayəndəsini bütün Azərbaycan xalqı adından 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Ümidvaram ki, Sizin rəhbərliyiniz altında Beynəlxalq Olimpiya Komitəsi xalqlar arasında dostluğun, dünyada sülhün və əmin-amanlığın möhkəmləndirilməsinə xidmət edən olimpiya ideallarının bərqərar olması, gənc nəslin bu nəcib amallara sədaqət ruhunda tərbiyə edilməsi və yüksək idman nailiyyətlərinin əldə olunması yolunda yeni-yeni uğurlar qazanacaq.

Sizə bu nəcib fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Səmimiyyətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 may 2002-ci il*

**SƏRBƏST GÜLƏŞ ÜZRƏ 45-ci AVROPA ÇEMPİONATININ FƏXRİ QONAQLARI İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*3 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq dedi ki, sərbəst güləş üzrə 45-ci Avropa çempionatının ölkəmizdə keçirilməsi faktını Azərbaycanda yüksək qiymətləndirirlər və ictimaiyyət bunu böyük hadisə hesab edir. Azərbaycan prezidenti buna görə Avropa Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirərək vurğuladı ki, əhalinin böyük hissəsi çempionatın televiziya ilə birbaşa yayımlanmış açılış mərasimini, habelə güləşçilərin çıxışlarını izləmişdir. Bakıda keçirilən və sayca 45-ci olan qitə çempionatı Avropa Güləş Federasiyasının təşkil etdiyi birinciliklər sırasında önəmli yer tutacaqdır. Prezident Heydər Əliyev çempionatın açılış mərasimindən və güləşçilərin çıxışlarından böyük məmnunluq duyduğunu vurğuladı.*

*Avropa Sərbəst və Yunan-Roma Güləş Federasiyasının prezidenti Tseno Tsenov qəbulda çıxış edərək, çempionatın uğurlu başlanğıcı münasibətilə şəxsən öz adından və Beynəlxalq Güləş Federasiyasının prezidenti Mir Mirtseyin adından Azərbaycan prezidentini təbrik etdi. O bildirdi ki, beynəlxalq və Avropa federasiyalarının üzvləri Azərbaycan dövlət başçısının çempionatın iştirakçılarına göndərdiyi məktubda idmanın müasir həyatda, beynəlxalq münasibətlərdə rolu, gənclər və bütün yaşlardan olan insanlar üçün əhəmiyyəti haqqında dediyi fikirlərə şərikdirlər.*

*Avropa Federasiyasının sərbəst güləş üzrə növbəti çempionatı Bakıda keçirməsi bir sıra səbəblərə görə heç də təsadüfi deyildir. İdmanın həmin növündə Azərbaycanın əsrlərdən bəri davam edən ənənələri var, Azərbaycan pəhləvanları Avropada və dünyada güləşin inkişafına töhfələr vermişlər. Federasiyanın prezidenti dedi ki, çempionatların təşkili məsələləri ilə əlaqədar onların irəli sürdüyü bütün tələblər Azərbaycanda ən yüksək səviyyədə yerinə yetirilmişdir. O, əmin olduğunu bildirdi ki, yaxın illərdə Azərbaycan paytaxtında güləş üzrə dünya çempionatı da keçiriləcəkdir. Tseno Tsenov Azərbaycan güləşçilərinin çempionatda uğurla çıxış etdiklərini söyləyərək vurğuladı ki, onların yaxşı nəticələrə nail olmaq imkanları var.*

*Sonra Avropa Federasiyasının başçısı Azərbaycan prezidenti Heydər Əliyevə ən yüksək mükafatı – ancaq dövlət başçılarının təltif olunduğu «Qızıl boyunbağı» fərqlənmə nişanını təqdim etdi.*

*Daha sonra çıxış edən Beynəlxalq Güləş Federasiyasının birinci vitse-prezidenti Rafael Martinetti də Azərbaycan güləşçilərinin indiki çempionatda uğurla yarışdıqlarını vurğuladı.*

*Prezident Heydər Əliyev Avropa Güləş Federasiyasının ən yüksək mükafatına layiq görülməsinə görə təşəkkürünü bildirərək dedi ki, bu onun üzərinə idmana daha böyük diqqət yetirmək, xüsusilə sərbəst güləşə qayğı göstərmək vəzifəsi qoyur. Sərbəst güləşlə bağlı fərqlənmə nişanı almağın xüsusi əhəmiyyəti var. Dövlətimizin başçısı bildirdi ki, sərbəst güləş xalqımızın qədim idman növüdür, XX əsrdən etibarən o, dünyada geniş inkişaf tapmışdır. İndi Azərbaycan müstəqil dövlət olaraq idmanın bir çox növləri, o cümlədən də sərbəst güləş üzrə dünya, Avropa çempionatlarında, eləcə də regional çempionatlarda iştirak edir. Prezident Heydər Əliyev əmin olduğunu vurğuladı ki, indiki çempionat yüksək səviyyədə başlandığı kimi, yüksək səviyyədə də başa çatacaq və sərbəst güləş tarixinə daha bir parlaq səhifə – Bakıda sərbəst güləş üzrə 45-ci Avropa çempionatı kimi yazılacaqdır.*

* * *

*Qəbuldan sonra Türkiyənin «Qırxpınar» yağlı güləş federasiyasının həmsədri Sait Yavuz Azərbaycan prezidenti Heydər Əliyevə müraciətlə dedi:*

*Cənab Prezident, mən ölkəmizin 641-ci «Qırxpınar ağasıyam». Türk xalqının Sizə sevgi və salamlarını gətirmişəm. Sizi bu il iyunun 28–30-da Türkiyədə yağlı güləş üzrə keçiriləcək 641-ci birinciliyə dəvət etmək üçün gəlmişəm. Bu münasibətlə Zati-alinizin Sizi sevən türk xalqı ilə bir yerdə olmasını arzu edirik. Siz bununla bizə şərəf vermiş olarsınız.*

*Sonra qonaq Azərbaycan prezidentinə xatirə hədiyyələri təqdim etdi.*

*Dövlətimizin başçısı Heydər Əliyev hədiyyəyə görə qonağa təşəkkürünü bildirdi. Türkiyədə keçirilən ənənəvi yağlı güləş yarışlarını sevdiyini, bu güləş federasiyasının sədri ilə Bakıda görüşdüyünü, onun tərəfindən vaxtilə Türkiyəyə dəvət olunduğunu, lakin imkan tapıb gedə bilmədiyini söyləyərək dedi ki, indiki dəvəti qəbul edir və mütləq Türkiyəyə gedəcəkdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqla xatirə şəkli çəkdirdi.*

**TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ**
**HİKMƏT SAMİ TÜRKÜN BAŞÇILIQ ETDİYİ**
**NÜMAYƏNDƏ HEYƏTİ İLƏ**
**GÖRÜŞ**

*Prezident sarayı*

*3 may 2002-ci il*

*Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev dost ölkənin Ədliyyə nazirinin Bakıya səfərinin Türkiyə–Azərbaycan münasibətlərinin inkişafı üçün əhəmiyyətli olduğunu, əlaqələrimizin daha da genişləndirilməsinin vacibliyini bildirdi.*

*Respublikamızın rəhbəri Trabzonda Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin görüşündən danışaraq, bölgəmizdə təhlükəsizlik, beynəlxalq terrorizmlə mübarizə, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin təhlükəsizliyinin təmin olunması ilə bağlı çox ətraflı müzakirələr aparıldığını, daxili işlər nazirlərinin xüsusi saziş imzaladıqlarını nəzərə catdırdı.*

*Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Hikmət Sami Türk prezident Heydər Əliyevin söylədiyi «biz bir millət, iki dövlətik» kəlamının müdrikliyini Bakıda olduğu iki gün müddətində bir daha hiss etdiyini vurğuladı.*

*Prezident Əhməd Necdət Sezərin və Baş nazir Bülənd Ecevitin ölkəmizin rəhbərinə səmimi salamlarını, hörmət və ehtiramını və Azərbaycan xalqına ən xoş diləklərini çatdıran Hikmət Sami Türk Bakıda sərbəst güləş üzrə 45-ci Avropa çempionatının açılış mərasimində iştirak etdiyini bildirərək dedi ki, idmançılar salona daxil olanda Azərbaycan güləşçilərindən sonra ən çox alqışlanan Türkiyənin komandası oldu. Bu da iki ölkənin bir-birini nə qədər çox sevdiyini göstərən çox gözəl bir əlamətdir. Bunu ölkəmə qayıdandan sonra da xatırlayacağam.*

*O bildirdi ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə kimi, Türkiyə respublikamızla bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirmiş, Azərbaycan ilə Türkiyə arasında indiyədək yüzdən çox saziş imzalanmışdır. Nazir bildirdi ki, Bakıya səfəri zamanı Türkiyə ilə Azərbaycan arasında hüquq və ticarət sahələrində ədliyyə yardımı haqqında saziş imzalanmışdır. İki ölkənin mütəxəssislərinin beynəlxalq standartlara uyğun hazırladığı bu sazişdə anlaşılmazlıq yaranan hallarda tərəflərin dinlənilməsi, məhkəmə qərarlarının qarşılıqlı tanınması və digər məsələlər öz əksini tapmışdır.*

*Keçən il Türkiyə ilə Azərbaycanın ədliyyə nazirlikləri arasında əməkdaşlıq protokolunun imzalandığını və onun reallaşdırılması üçün proqramın təsdiqləndiyini vurğulayan nazir bildirdi ki, bütün bunlar iki ölkə arasındakı əlaqələrin sağlam və hüquqi təməl əsasında inkişaf etdiyini göstərir.*

*O, hazırda 1500-ə yaxın türk firmasının Azərbaycana təxminən 1,5 milyard dollarlıq sərmayə qoyduğunu, prezident Heydər Əliyevin rəhbərliyi altında respublikamızda bütün sahələrdə görülən işləri təqdirlə izlədiklərini və dəstəklədiklərini vurğulayan cənab Hikmət Sami Türk dedi ki, ölkələrimiz demokratiya, insan haqlarına hörmət, hüququn aliliyi, sərbəst bazar iqtisadiyyatı prinsipi ilə yaşayan dövlətlərdir. Azərbaycan Sizin müdrik rəhbərliyinizlə bu sahədə irəliyə çox addımlar atmışdır. Avropa Birliyinə üzv olmaq istəyən ölkə kimi, Türkiyə indi Konstitusiyasında və qanunlarında dəyişikliklər aparır, bəzi islahatlar keçirir. Ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığından, Ermənistan–Azərbaycan münaqişəsindən söhbət açan nazir dedi ki, beynəlxalq hüquqa zidd olaraq, Azərbaycanın torpaqları Ermənistan tərəfindən işğal edilmişdir. Biz münaqişənin sülh yolu ilə həllini istəyirik və bu sahədə ATƏT-in üzvü kimi, Türkiyə üzərinə düşən işləri fəal yerinə yetirir. Ermənistan bu torpaqları tərk etməsə, Azərbaycan xalqının qəbul edəcəyi qərar əldə olunmasa, Türkiyə ilə Ermənistan əlaqələrinin yaranması mümkün olmayacaqdır. Biz hər zaman Azərbaycanlayıq.*

*Hikmət Sami Türk Trabzon zirvə görüşünü yüksək qiymətləndirdi və dedi ki, cənab Prezident, Türkiyə üçün əhəmiyyətli olan layihələrin gerçəkləşdirilməsində Sizin şəxsi zəhmətinizi, rolunuzu bilirik və buna görə Sizə təşəkkür edirik.*

*Türkiyə–Azərbaycan əlaqələri haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirən prezident Heydər Əliyev ölkələrimiz arasında yaranmış səmimi dostluq, qardaşlıq münasibətlərinin ilbəil möhkəmləndiyini vurğulayaraq bildirdi ki, ədliyyə sahəsindəki əməkdaşlıq həm Türkiyənin, həm də Azərbaycanın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə aiddir. Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət qurmaq yolunda çox işlər görmüşdür. Bu gün dövlət quruculuğu yüksək səviyyədədir və dövlətin hüquqi əsasda qurulması bizim əsas prinsiplərimizdən biridir.*

*Türkiyənin Avropa Birliyinə daxil olmaq istəyini Azərbaycanın dəstəklədiyini bildirən respublikamızın rəhbəri dedi ki, biz arzu edirik Türkiyə qarşısına qoyduğu məqsədə nail ola bilsin. Türkiyənin hüquqi dövlət quruculuğu sahəsində böyük təcrübəsi vardır. Ona görə əməkdaşlığımızda bu təcrübədən faydalanmaq, istifadə etmək lazımdır. Türkiyə–Azərbaycan dostluğu sarsılmazdır və buna heç kəs heç bir şey edə bilməz. Biz bundan sonra da birlikdə irəliyə gedəcəyik.*

*Cənab Hikmət Sami Türk prezident Heydər Əliyevi qarşıdan gələn ad günü münasibətilə təbrik etdi, ona möhkəm cansağlığı, taleyüklü işlərində uğurlar arzuladı və xatirə hədiyyəsi təqdim etdi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident!
Əziz dostum!

Fransa Respublikasının prezidentliyinə seçkilərdə qazandığınız möhtəşəm qələbə münasibətilə Sizə ən hərarətli təbriklərimi yetirir, yenidən seçildiyiniz ali dövlət vəzifənizdə, məsul və şərəfli fəaliyyətinizdə Sizə böyük uğurlar arzulayıram.

Avropa dəyərlərini, demokratiyanı və humanizmi faşistsayağı ekstremizm təhlükəsindən qorumağa bu gün də ehtiyac vardır. Əlamətdar tarixi hadisədir ki, Fransa xalqı bu dəyərləri məhz Sizin rəhbərliyiniz altında saxlamaq əzmini nümayiş etdirdi.

İnanıram ki, fransızlar qarşıdan gələn qanunvericilik seçkilərində də Sizə öz etimadlarını nümayiş etdirəcəklər və Sizinlə birlikdə Böyük Fransanı irəli aparacaqlar.

Mən ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafını yüksək qiymətləndirirəm. Ümidvar olduğumu bildirirəm ki, Sizin yeni mandatınız müddətində bu münasibətlər daha yüksək mərhələyə qalxacaq və birgə səylərimiz sayəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi özünün ədalətli həllini tapacaqdır.

Cənab Prezident, Sizə olan dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimi dostluq hissləri ilə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 may 2002-ci il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLİSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Kano şəhəri üzərində təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Nigeriya xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 may 2002-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Ümumxalq referendumunda xalqın böyük əksəriyyətinin etimadını qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında qarşılıqlı anlaşmaya və dəstəyə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərindən məmnunluq duyuram. Əminəm ki, möhkəm təməl üzərində qurulmuş Azərbaycan–Pakistan əlaqələri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 may 2002-ci il*

## TÜRKİYƏ RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2002-ci il*

*Hörmətli qonağı səmimiyyətlə salamlayan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev onun dəvətini qəbul edərək respublikamıza rəsmi səfərə gəldiyinə görə cənab Dövlət Baxçalıya təşəkkürünü bildirdi.*

*Cənab Dövlət Baxçalının respublikamıza səfərini Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının inkişaf etdirilməsində əlamətdar bir hadisə kimi dəyərləndirən prezident Heydər Əliyev ölkələrimizin bütün sahələrdə əməkdaşlığının hazırkı vəziyyətindən razılıqla söhbət açdı. Azərbaycana rəsmi dəvətə, göstərilən qonaqpərvərliyə və vaxt tapıb onları qəbul etdiyinə görə respublikamızın prezidenti Heydər Əliyevə dərin təşəkkürünü, hörmət və ehtiramını bildirən cənab Dövlət Baxçalı Bakıda keçirdiyi görüşlər, apardığı danışıqlar barədə məlumat verdi.*

*Prezident Heydər Əliyevin Türkiyə Respublikasına səfərlərinin qardaş ölkədə həmişə tarixi hadisə kimi dəyərləndirildiyini, bu səfərlərin Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əməkdaşlığın sürətlə inkişaf etdirilməsində mühüm rol oynadığını nəzərə çatdıran cənab Dövlət Baxçalı qardaş ölkələrimizin münasibətlərinin dövlətimizin başçısının «Biz bir millət, iki dövlətik» anlayışı çərçivəsində gündən-günə möhkəmlənməsindən çox məmnun qaldığını söylədi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində aparılmış danışıqlardan bəhs edən respublikamızın rəhbəri Heydər Əliyev Azərbaycanın haqq işinin müdafiə edilməsində qardaş Türkiyənin göstərdiyi daimi dəstəkdən razılıqla söhbət açdı.*

*Prezident Heydər Əliyevin bu münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətindəki zəhmətinin Türkiyə Respublikasında həmişə yüksək dəyərləndirildiyini vurğulayan Dövlət Baxçalı bir daha bildirdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməyincə, işğal olunmuş Azərbaycan torpaqları azad edilməyincə Türkiyə Ermənistanla heç bir əlaqə qurmayacaqdır. Bu məsələnin həllində Türkiyə həmişə Azərbaycanın yanında olacaqdır.*

*Azərbaycanda prezident Heydər Əliyevin rəhbərliyi ilə aparılan demokratik islahatların gedişinin və əldə olunan uğurların qardaş Türkiyədə böyük maraqla izlənildiyini nəzərə çatdıran cənab Dövlət Baxçalı ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının ildən-ilə daha da möhkəmlənəcəyinə əmin olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan–Türkiyə əməkdaşlığının perspektivləri, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*7 may 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini hörmətli Dövlət Baxçalı!

Türkiyə Cumhuriyyəti hökumətinin hörmətli nazirləri!

Hörmətli qonaqlar!

Hamınız Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Türkiyə kimi, Azərbaycan da sizin vətəninizdir. Ona görə deyirəm ki, öz vətəninizə gəlmisiniz.

Hörmətli dostum, siz Azərbaycana ilk dəfədir gəlirsiniz və bu gəlişiniz də mənim dəvətimin nəticəsində olubdur. Mən sizi bir müddət bundan öncə dəvət etmişdim. Çox məmnunam ki, siz imkan tapıb mənim bu dəvətimi həyata keçirmisiniz, indi Azərbaycanda ziyarətdəsiniz.

Hörmətli Dövlət Baxçalı, mənim dəvətimi qəbul etdiyinizə görə, Azərbaycana rəsmi ziyarətə gəldiyinizə görə sizə səmimi-qəlbdən təşəkkür edirəm. Hesab edirəm ki, sizin bu ziyarətiniz Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının inkişaf etdirilməsində əlamətdar bir hadisədir.

Biz bu gün sizinlə təkbətək, yaxud sizin dillə desək, baş-başa, çox yaxşı söhbət etdik. Çox səmimi, dostyana, qardaşyana söhbət etdik. Təbiidir ki, Türkiyə–Azərbaycan məsələlərini, yaxud da ölkələrimizi maraqlandıran başqa məsələləri müzakirə etmək üçün bir saat, iki saat, üç saat azdır. Biz gərək saatlarla, günlərlə söhbət edək. Ancaq biz indi protokoldan çıxdıq. Ona görə ki, söhbətimiz çox səmimi və çox mehriban idi, eyni zamanda çox əhəmiyyətli idi.

Mən söhbət zamanı dedim, bir də bildirmək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra sürətlə – hər gün, hər ay, hər il inkişaf edir. Bu təbiidir. Bu həm Türkiyənin istəyidir, türk xalqının istəyidir, həm də Azərbaycanın istəyidir, Azərbaycan xalqının istəyidir. Ölkələrimiz xalqlarımızın tarixi kökləri, qədim dostluq-qardaşlıq əlaqələri üzərində, milli-mənəvi dəyərləri, ənənələri üzərində dövlətlərarası əlaqələri qurublar. Biz iki dövlət baş-başa verib bu əlaqələri inkişaf etdiririk. Bir millət, iki dövlət – bu, artıq həqiqətə çevrilibdir. Belə də var və bu da bizim əlaqələrimizin əsas forması olubdur.

Siz burada çox görüşlər keçirmisiniz. Görüşlər zamanı Türkiyə–Azərbaycan əlaqələrinə aid bir çox məsələləri müzakirə etmisiniz. İndi onlara yenidən qayıtmaq lazım deyildir. Biz, demək olar ki, sizinlə əsas məsələləri danışdıq. Burada hamı, mətbuat da bilməlidir ki, bizim apardığımız söhbətlər içərisində əsas yeri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsi tutdu. Bu barədə çox ətraflı danışdıq, fikir mübadiləsi apardıq, yaranmış vəziyyəti təhlil etdik ki, nə etmək lazımdır, hansı yol ilə getmək lazımdır ki, biz bu məsələni həll edək. Biz bu məsələ barəsində daim Türkiyənin dəstəyindən bəhrələnmişik. Türkiyə ilə məsləhətləşmişik, bunun həll edilməsində Türkiyə ilə bərabər olmuşuq.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən Türkiyə Azərbaycanın problemlərinə böyük maraq göstərir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi elə o vaxt, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndə də mövcud idi. O vaxtdan Azərbaycan Türkiyə ilə bu barədə əməkdaşlıq edir. Bizim əməkdaşlığımız da çox əhəmiyyətli nəticələr verir və bu gün də biz vaxtımızı əməkdaşlığın indi və gələcəkdə hansı yollarla aparılmasına sərf etdik.

Mən sizinlə bu barədə apardığım danışıqlardan çox məmnunam. Çox məmnunam ki, Siz Azərbaycana çox böyük diqqət göstərirsiniz. Azərbaycanın məsələləri, problemləri ilə yaxından maraqlanırsınız və bizimlə bərabər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün çalışırsınız. Siz də bu fikri irəliyə sürdünüz ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız sülh yolu ilə həll edilə bilər. Mən də bu fikirdəyəm. Mən bu fikri dəfələrlə təhlil etmişəm, yoxlamışam və yenə də bu fikrə gəlmişəm ki, biz indi də məsələni sülh yolu ilə həll etməyə çalışmalıyıq. Biz bu məsələdə sizinlə eyni fikirdə olduq və mən bundan çox məmnunam. Bundan sonra da əməkdaşlıq edəcəyik və bu barədə də sizinlə danışıqlar apardıq.

Başqa elə bir məsələ yoxdur. Bizim ölkələrimiz arasında heç bir problem yoxdur. Bir problem var – dostluğu, qardaşlığı daha da yüksəklərə qaldırmaq. Biz bunu da birlikdə edirik. Bir də təkrar edirəm, sizin ziyarətiniz bizim bu işimizdə çox əhəmiyyətli yer tutur və güman edirəm ki, öz nəticələrini verəcəkdir. Buyurun.

**D ö v l ə t  B a x ç a l i:** Hörmətli Cümhur başqanım!

Zati-alinizin dəvəti ilə Azərbaycana gəldiyimiz üçün, bu gün bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

Azərbaycana ilk dəfədir gəlirəm. Burada hökumətinizin səlahiyyətli şəxsləri ilə çox önəmli ikitərəfli görüşlər keçirilmişdir. Nümayəndə heyətimizdə olan nazir həmkarlarımız buradakı nazir həmkarları ilə ikitərəfli görüşlər keçirmişlər. Ziyarətimizin ikinci günündə çox əhəmiyyətli, çox gözəl görüşlər olmuşdur. Bu gün də bizi qəbul etdiniz və Zati-alinizin Azərbaycan–Türkiyə əlaqələri barədə dəyərləndirmələrinə görə təşəkkür edirəm.

Zati-alinizin ifadə etdiyi kimi, Türkiyə ilə Azərbaycan arasında başlanmış olan və davam edən çoxyönlü əlaqələr vardır. Bu əlaqələr Zati-alinizin Türkiyəyə həyata keçirdiyiniz ziyarətlər, Türkiyənin cümhur başqanının və digər nümayəndələrin Azərbaycana ziyarətləri sayəsində çox gözəl inkişaf etmişdir. Biz inanırıq ki, Türkiyə və Azərbaycan Zati-alinizin «bir millət, iki dövlət» anlayışı çərçivəsində bu dostluq və qardaşlıq əlaqələrini çox yüksək səviyyədə inkişaf etdirməyi arzulamaqdadır. Azərbaycanın sabitlik şəraitində inkişafında Türkiyənin həmişə yanınızda olacağına əmin olmağınızı istəyirik. Azərbaycan üçün Türkiyə vardır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan üçün çox önəmli bir məsələdir. Zati-alinizin bu münaqişənin sülh yolu ilə həlli istiqamətindəki zəhmətini hər kəs bilir. Ancaq demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi çözülmədən Türkiyə–Ermənistan əlaqələrində heç bir normallaşma ola bilməz. Bizim üçün Türkiyə ilə Ermənistan arasındakı əlaqələr Dağlıq Qarabağ məsələsinin ədalətli həlli ilə bağlıdır, ermənilərin işğal etdiyi Azərbaycan torpaqlarından çıxması ilə bağlıdır. İnanıram ki, Türkiyə Azərbaycanın bu əsas məsələsinin həlli sahəsində bütün xidmətləri ilə Azərbaycanın yanında olacaqdır.

Hörmətli Cümhur başqanım, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli nazirlərinizin bir sözü var, yoxsa yox?

Hörmətli dostum, mən Sizə bu ziyarətinizə görə bir daha təşəkkür edirəm. İndi sizin dediyiniz dəyərli sözlərə görə təşəkkür edirəm. Ümid edirəm ki, Azərbaycanla sizin yaxından ilk tanışlığınız Azərbaycana olan marağınızı artıracaq və Azərbaycana yenə də gələcəksiniz. Mən sizi yenə də Azərbaycana dəvət edirəm. Sağ olun.

## BÖYÜK BRİTANİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ENDRYÜ TAKER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2002-ci il*

*Böyük Britaniya diplomatını mehribanlıqla salamlayan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev səfirliyin işləri ilə maraqlandı və dedi ki, mən 1998-ci ildə Londonda olarkən Böyük Britaniyanın Xarici Işlər naziri Bakıdakı səfirliyin genişləndiriləcəyini bildirmişdi.*

*Səmimi qəbul üçün təşəkkür edən cənab Endryü Taker Azərbaycanda bütün sahələrdə işlərinin kifayət qədər olduğunu vurğulayaraq, səfirlikdə işçilərin sayının üç dəfə artdığını, hazırda Britaniyadan 18, Azərbaycandan isə 17 nəfərin çalışdığını söylədi. Səfir dedi ki, keçən il Azərbaycan vətəndaşları Britaniyaya getmək üçün 2800-dən artıq viza almışlar.*

*Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin çox genişləndiyini, bu ölkənin şirkətlərinin Bakıda çox yaxşı fəaliyyət göstərdiyini xatırladan respublikamızın rəhbəri Heydər Əliyev dedi ki, bp şirkəti indi Xəzərdə aparıcı rol oynayır. «Şahdəniz» qaz yatağı da onun qismətinə düşdü. Mən indi başa düşürəm ki, bp hər şeyi yaxşı öyrənmişdi və bilirdi ki, orada nə var. O vaxt bəziləri şübhə edirdilər. Ancaq bp bu yataqdan çox möhkəm yapışmışdı. Nəticəsi isə gözləniləndən də yaxşı oldu.*

*Görüşdə bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## NATO BAŞ KATİBİNİN ELM VƏ ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ, ALYANSIN ELM KOMİTƏSİNİN SƏDRİ JAN FÜRNE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qonağı salamlayaraq, onun respublikamızda ekologiya məsələləri ilə məşğul olması, burada həyata keçirilən böyük proqramda iştirak etməsi barədə məlumatı olduğunu vurğuladı.*

*Səmimi qəbul üçün Azərbaycan prezidentinə təşəkkürünü bildirən cənab Jan Fürne bu görüşü özü üçün şərəf saydığını bildirdi. Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırovla birlikdə Xəzərdə ətraf mühitin qorunmasına dair seminarda iştirak etdiyini söyləyən qonaq dedi ki, bu seminar Xəzəryanı ölkələr və Xəzər hövzəsinə yaxın olan dövlətlər, hətta regiondan uzaqda olan ölkələr üçün də böyük maraq doğurur.*

*Məşğul olduğu işlərin elm adamlarını, ekspertləri bir yerə yığmaq, onları yaxınlaşdırmaq məqsədi daşıdığını deyən Jan Fürne ənənəvi olaraq təhlükəsizlik problemləri ilə məşğul olan NATO çərçivəsində digər əməkdaşlıq üsulunun da təklif edildiyini nəzərə çatdırdı.*

*Cənab Jan Fürne dedi ki, Bakıya gəlməzdən əvvəl ekspertlərlə söhbət etmiş və Azərbaycanda NATO ilə əməkdaşlığa, xüsusən siyasi sahədə əlaqələrə böyük maraq göstərildiyini bilirdi. Buraya gəldikdən sonra isə onun məşğul olduğu sahəyə Azərbaycanda maraq olduğunu öyrəndi.*

*Bu gün səhər keçirilən seminar, qarşıdakı aylar üçün planlaşdırılan işlər buna əyani sübutdur.*

*Qonağa təşəkkürünü bildirən prezident Heydər Əliyev dedi ki, NATO-nun eyni zamanda ətraf mühitin qorunması ilə məşğul olması çox mühümdür. NATO-nun Baş katibinin bu sahədə xüsusi müavininin olması da onu göstərir ki, bu təşkilat doğrudan da bu məsələlərə çox böyük diqqət yetirir.*

*Dövlətimizin başçısı ətraf mühitin qorunmasının qlobal məsələ olduğunu, bütün Dünya Birliyi kimi, Azərbaycanın da buna böyük əhəmiyyət verdiyini vurğulayaraq dedi ki, ölkəmiz NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramı və başqa proqramlar çərçivəsində geniş əməkdaşlıq edir.*

*Azərbaycanda NATO-ya çox böyük hörmət, rəğbət və müsbət münasibət olduğunu söyləyən prezident Heydər Əliyev bildirdi ki, NATO-nun müxtəlif proqramlarının ölkəmizdə həyata keçirilməsi dövlətimizin milli mənafeləri baxımından çox əhəmiyyətlidir.*

*Cənab Jan Fürnenin Bakıda çox mühüm məsələ–Xəzərin ekoloji vəziyyətinin öyrənilməsi məsələsi ilə maraqlanmasını müsbət qiymətləndirən prezident Heydər Əliyev dedi ki, qonağın burada keçirdiyi görüşlər və Xəzərə həsr edilmiş seminar ekologiyanın sağlamlaşdırılması sahəsində ölkəmizə böyük yardım olacaqdır.*

*Prezident Heydər Əliyev vurğuladı ki, Xəzər nadir bir dənizdir. Xəzəryanı dövlətlərin başçılarının bu yaxınlarda Aşqabadda Xəzərin hüquqi statusu məsələsini müzakirə etdiklərini söyləyən dövlətimizin başçısı bildirdi ki, dənizin statusunun müəyyən olunması eyni zamanda Xəzərin ekologiya problemləri ilə sıx bağlıdır.*

*Xəzəryanı dövlətlərin başçıları eyni fikirdə oldular ki, Xəzərin qorunması, onun çirklənməsinin qarşısının alınması bu ölkələrin əsas vəzifələrindən biridir.*

*Azərbaycan prezidenti təəssüflə vurğuladı ki, Xəzər son illər davamlı olaraq çirklənir. Xəzəryanı ölkələrin heç birində dənizin çirklənməsinin qarşısını almaq barədə təsirli tədbirlər görülmür. Dənizin çirklənməsi isə onun bioloji ehtiyatlarının məhvinə gətirib çıxaran əsas səbəblərdən biridir.*

*Bütün bu məsələlərə NATO-nun diqqət göstərməsini təqdirəlayiq hal kimi qiymətləndirən prezident Heydər Əliyev ölkəmizin NATO ilə bu sahədə daha geniş əməkdaşlıq etməyə hazır olduğunu vurğuladı.*

*Xoş sözlərə görə Azərbaycan prezidentinə təşəkkürünü bildirən cənab Jan Fürne dövlətimizin başçısını əmin etdi ki, NATO bu sahədə gələcəkdə də Azərbaycanla sıx əməkdaşlıq edəcək, təcrübəsini bölüşəcəkdir.*

*Qonaq prezident Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB TSZYAN TSZEMİNƏ**

Hörmətli cənab sədr!

Dalyan şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 may 2002-ci il*

**DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU XANIM CUDİ O KONNOR İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*8 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qonağı salamlayaraq onunla hal-əhval tutdu.*

*Xanım Cudi O Konnor səmimi qəbul üçün təşəkkürünü bildirərək dedi ki, cənab Prezident, bir növ qəribə hisslər keçirirəm. Çünki Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru kimi, burada son səfərdəyəm və bu məni bir qədər məyus edir. Lakin ölkənizdə vəziyyət çox yaxşıdır. Mən bilirəm ki, Siz dəyişməz xətt götürmüsünüz.*

*Prezident Heydər Əliyev bildirdi ki, sizinlə əməkdaşlıq bizim üçün çox faydalı olmuşdur, ona görə sizin getməyinizdən çox məyus oluram. Siz bizə çox faydalı məsləhətlər vermisiniz və görmüsünüz ki, biz bu məsləhətlərdən istifadə edərək işlərimizi irəliyə aparırıq.*

*Xanım Cudi O Konnor dedi ki, cənab Prezident, burada mənimlə daimi işləyən nümayəndələr var, onlar işlərindən çox razıdırlar. Onların hamısının adından Sizə minnətdarlığımı bildirmək istəyirəm ki, burada bizim işimiz, əməkdaşlığımız üçün yaxşı şərait yaratmısınız. Biz Azərbaycandakı təkcə makroiqtisadi dəyişikliklərə görə deyil, eyni zamanda bundan daha çətin sayılan struktur islahatlarına görə də razılığımızı bildiririk.*

*Məlum olduğu kimi, struktur islahatları üzrə biz yeni bir razılaşma da imzalamışıq. Ona əsasən bizim işimiz daha mükəmməl və hərtərəfli olacaqdır. Bu çərçivədə biz çox işlər görməliyik. Bir sahədə tərəqqini xüsusilə qeyd etmək istəyirəm. Bu sahədə siz unikal nailiyyətlər əldə etmisiniz. Baxmayaraq ki, Neft Fondu cəmi 18 aydır fəaliyyət göstərir, burada idarəetmə üzrə çox gözəl uğurlarınız var. Mən Fondun fəaliyyəti ilə bağlı şəffaflığı, açıqlığı qeyd etmək istəyirəm. Əlbəttə, Sizin vəziyyətinizi başa düşürəm. Yəqin ki, Sizə böyük təsirlər vardır və çox istəyirlər ki, Siz bu Fondun vəsaitindən müəyyən məqsədlər üçün istifadə edəsiniz. Lakin biz inandırmağa çalışırıq ki, həmin Fonddan yoxsulluğun azaldılması, təhsilin inkişafı üçün istifadə edilsin. Ümumiyyətlə, daha çox kənd əhalisi üçün istifadə edilsin.*

*Dövlətimizin başçısı Heydər Əliyev qonağa müraciətlə dedi ki, arxayin olun, mənə bu barədə heç kəs təsir edə bilməz. Biz Neft Fondunu yaradanda müxtəlif fikirlər var idi. Sizdə də, Valyuta Fondunda da bir çox şübhələr vardı. Bunu müəyyən qədər başa düşmək olar. Ancaq o vaxt mən sizi inandırırdım ki, narahat olmayın. Biz neftdən gəlir əldə edirik və Neft Fondu yaradırıq, ondan hansısa başqa məqsədlər üçün istifadə edilməsinə yol vermək olmaz. Şəffaflıq haqqında da sizi əmin etmişdim ki, narahat olmayın. İndi Neft Fondu mətbuatda daim məlumatlar verir ki, nə qədər vəsaiti var. Ondan heç bir başqa məqsədlər üçün istifadə olunmayıbdır. Yalnız qaçqınların yaşayış yerlərini müəyyən qədər normallaşdırmaq üçün müəyyən məbləğdə vəsait götürmüşük. Onlar sizin dediyiniz ən yoxsul təbəqədirlər. Amma mən hələ o fondu qoruyuram və qoruyacağam. İnşallah, vəsait bir az çox olanda, bəlkə siz dediyiniz bəzi istiqamətlərdə də xərcləmək olar.*

*Dünya Bankının nümayəndəsi həm Maliyyə Nazirliyində, həm də İqtisadi İnkişaf Nazirliyində əlahiddə bölmələrin Neft Fondundan istifadə olunmasının prinsiplərini işləyib hazırlamasını müsbət hal kimi vurğulayaraq dedi ki, bu prinsiplərə görə fonddan gələcəkdə qeyri-neft sektorunda iş yerlərinin açılması, habelə yoxsulluğun birbaşa aradan qaldırılması üçün istifadə olunacaqdır. Biz Biləsuvar rayonunda iki qaçqın düşərgəsinə getmişik. Orada daimi yaşayış yerlərindən məhrum edilmiş insanlarla görüşmüşük, həqiqətən də onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün müəyyən işlər görülmüşdür. Bu insanlar gələcəyə böyük ümidlə baxırlar. Onlar ümid edirlər ki, vəziyyətlərinin yaxşılaşdırılması prosesi gələcəkdə də davam etdiriləcəkdir.*

*Eyni zamanda onlar öz qürurlarını saxlayırlar. Çox fəxr edirlər ki, onların bir şagirdi keçən il test imtahanlarında respublikada ikinci nailiyyət əldə edibdir. Zənnimcə, bu faktın özü çox vacib siqnaldır və ilk növbədə donor təşkilatlara ünvanlanmışdır. Elə bilirəm ki, bundan sonra biz gərək donorları arayıb-axtaraq, onları bu regiona yönəldək ki, təhsil işləri üçün fəaliyyətlərini artırsınlar.*

*Daha sonra gələcək işləri haqqında danışan xanım Cudi O Konnor bildirdi ki, onlar Azərbaycan hökumətinin yoxsulluğun azaldılmasına dair işləyib hazırladığı proqramı bir daha nəzərdən keçirməyə, onun üzərində işləməyə hazırdırlar.*

*Hazırda Dünya Bankı Azərbaycana iki sahədə yardım edə bilər. Bunlardan biri tibb və təhsil sahələridir. Digər tərəfdən, yolların çəkilməsində, başqa inşaat işlərində sizə yardımçı ola bilərik. Biz öz proqramımızı Milli Proqramla müqayisə edərkən görürük ki, burada mühüm fərqlər yoxdur. Prinsipial məsələlərdə tam razılığa gəlirik. Bircə məsələdə tərəddüd edirik ki, bu da səhiyyə sahəsinə aiddir. Əlbəttə, Azərbaycanın səhiyyə*

*sahəsində problemləri çoxdur, biz bunu anlayırıq. Biz üstün istiqamətləri nazirliklə bir daha müəyyən etməliyik. Bəzi məsələlər artıq həll olunmuşdur, Baş nazir də bizə yaxından kömək etmişdir.*

*Xanım Cudi O Konnor dedi ki, cənab Prezident, biz digər sahədə də müəyyən işlər görməyi planlaşdırmışdıq. Lakin görürük ki, bu sahədə Siz özünüz təşəbbüsü ələ almısınız. Bu da biznes sahəsində işlərin qaydaya salınmasıdır. Biz biznes nümayəndələri ilə indiyə qədər görüşmüşük. Onları narahat edən məsələləri bildiriblər. Elə bilirəm ki, sizinlə görüşdə də öz fikirlərini açıqlayacaqlar və beləliklə, onların üzləşdikləri çətinliklər aradan götürüləcəkdir. Bu günə qədər neft sektorunun inkişafı çox dəstək almışdır. Ümid edirik ki, bundan sonra qeyri-neft sektoruna da kifayət qədər dəstək olacaqdır.*

*Biz maliyyə sektoru vasitəsilə biznes sektorunun inkişafına müəyyən yardım edə bilərik. Mən kreditləri, mikrokreditləri nəzərdə tuturam. Gələcəkdə orta və iri sahibkarlıq üçün də kreditlər ayrılması mümkündür.*

*Xanım Cudi O Konnor dedi ki, onlarda ölkələrin, o cümlədən Azərbaycanın göstəricilərinin əks olunduğu illik hesabatlar var. Eyni zamanda ölkədə maliyyə siyasətinin həyata keçirilməsi üzrə göstəricilərə dair hesabat da vardır. Bunlara əsaslanaraq biz Azərbaycana «Ay-Bi-Ey» krediti ayırmaq fikrindəyik. Bu, Beynəlxalq İnkişaf Assosiasiyasının ayırdığı kreditdir. Bu krediti alan ölkədən 35 il müddətində faiz tutulmur. Ümid edirik ki, Azərbaycanın göstəriciləri gələcəkdə yaxşı olacaqdır. Göstəricilər artmaqda davam edərsə, bizim hesablamalara görə, üç ildən sonra respublikanıza «Ay-Bi-Ar-Di» krediti ayrılacaqdır. Bu isə yoxsul, kasıb ölkələr üçün deyil, daha yuxarı səviyyədə olan ölkələr üçün ayrılan kreditdir.*

*Xanım Cudi O Konnor bildirdi ki, onun həmkarı iyunun axırında Azərbaycana gələcəkdir.*

*Prezident Heydər Əliyev Azərbaycanın iqtisadiyyatındakı müsbət dəyişikliklər haqqında fikirlərinə görə xanım Cudi O Konnora təşəkkür edərək dedi ki, bu dəyişikliklər son illərdə gördüyümüz böyük tədbirlər nəticəsində mümkün olubdur. Bunda Dünya Bankı ilə əməkdaşlığın da mühüm rolu var. Məni sevindirən odur ki, Azərbaycan iqtisadiyyatında struktur dəyişiklikləri ardıcıl surətdə həyata keçirilir və bundan əlavə, yeni tədbirlər görülür. Bütün sahələrdə islahatları ardıcıl surətdə həyata keçiririk. Məhz onların nəticəsində siz dediyiniz bu nailiyyətlər əldə olunubdur.*

*Dünya Bankı ilə əməkdaşlıq etmək asan iş deyildir. Çünki sizin çox ciddi tələbləriniz var. İlk vaxtlarda bizim bəzi adamlar bu tələbləri o qədər anlaya bilmirdilər. Amma bizim gördüyümüz tədbirlər və sizin göstərdiyiniz yardım indi elə nəticələr veribdir ki, insanların hamısı bu işlərin həqiqətən doğru-düzgün olmasına və gələcəkdə də uğurlu olacağına inanırlar.*

*Gələcək işlər haqqında sizin tövsiyələriniz və fikirləriniz də çox əhəmiyyətlidir. Mən sizinlə tamamilə razıyam. Güman edirəm, siz də bunu təsdiq edirsiniz, Azərbaycan iqtisadi islahatların həyata keçirilməsi sahəsində doğru yoldadır və çox böyük nailiyyətlər əldə edibdir. Biz bu yolu bəyənmişik, bu yolla gedirik və gedəcəyik. Gələcəkdə də sizinlə əməkdaşlığımız bu yolla getməkdə bizə kömək edəcəkdir. Mən ancaq ona təəssüf edirəm ki, siz bizdən ayrılırsınız. Yeni işinizdə sizə uğurlar arzulayıram. Hesab edirəm ki, Dünya Bankının sizi burada əvəz edəcək nümayəndəsi də Azərbaycanla sizin kimi çox səmərəli əməkdaşlıq edəcəkdir.*

## 9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ

*9 may 2002-ci il*

*Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 57-ci ildönümü – Qələbə bayramı münasibətilə mayın 9-da ölkəmizin paytaxtında təntənəli mərasim keçirildi.*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir.*

*Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarı önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, paytaxt sakinləri Azərbaycan prezidenti Heydər Əliyevi hörmət və ehtiramla, alqışlarla qarşıladılar. Respublikamızın rəhbərinə gül dəstəsi təqdim olundu.*

*Prezident Heydər Əliyev müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi.*

*1941–1945-ci illərin ağır və çətin sınaqlarından keçmiş veteranlar onlara göstərdiyi diqqət və qayğıdan razılıqla danışaraq, ölkəmizin başçısı Heydər Əliyevə dərin minnətdarlıqlarını bildirdilər, onu Qələbə bayramı və ad günü münasibətilə səmimi-qəlbdən təbrik etdilər, uzun ömür, cansağlığı arzuladılar.*

*Azərbaycan prezidenti Heydər Əliyev xarici ölkələrin Bakıdakı səfirləri ilə, ölkəmizdə səfərdə olan qonaqlarla səmimiyyətlə görüşdü, onları bayram münasibətilə təbrik etdi.*

*Azərbaycan prezidenti Heydər Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğlunun əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.*

**Heydər Əliyev:** Əziz veteranlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli səfirlər və dostlar!

Sizi Böyük Vətən müharibəsində qələbənin 57-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, Sizə cansağlığı, səadət və uğurlar arzulayıram.

İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi bəşər tarixində ən dəhşətli, ən qanlı, ən dağıdıcı müharibə olmuşdur. Bu müharibədə Sovetlər İttifaqının xalqları, antihitler koalisiyası – SSRİ, Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa alman faşizmi üzərində misilsiz qələbə çalmışdır. Bu qələbə böyük tarixi əhəmiyyətə malikdir. Əsrlər keçəcək, gələcək nəsillər bu qələbənin bəşəriyyət üçün, dünya üçün, gələcək üçün nə qədər əhəmiyyətli olduğunu daha da çox dərk edəcəklər.

Azərbaycan xalqı Sovetlər İttifaqının tərkibində İkinci dünya müharibəsinin, Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur. Azərbaycanın 600 minə qədər vətəndaşı cəbhəyə göndərilmişdir. Onlar qəhrəmancasına vuruşmuş, yarısından çoxu geriyə dönməmiş, özlərini qurban vermiş, həlak olmuşdur. Zəfərlə qayıdan Azərbaycan oğulları isə 1945-ci ilin 9 mayından indiyədək xalqımız üçün, millətimiz üçün böyük qələbənin rəmzidir. İllər keçir, nəsillər nəsilləri əvəz edir, veteranlar bu gün də yaşayırlar. Biz hamımız böyük məmnuniyyət hissi keçiririk ki, Böyük Vətən müharibəsinin veteranları bu gün bizimlə bərabərdir, xalqın içindədir, ictimai-siyasi fəaliyyətlə məşğuldurlar və xalq, müstəqil Azərbaycan dövləti qarşısında öz xidmətlərini göstərirlər.

Azərbaycan xalqı faşizm üzərində qələbəyə arxa cəbhədə də böyük töhfələr vermişdir. O illərdəki müharibə motorlar müharibəsi idi. Tanklar, təyyarələr, maşınlar müharibəsi idi. Bunların hamısı üçün birinci növbədə yanacaq lazım idi. O illərdə Sovetlər İttifaqında neftin 75 faizindən çoxu Azərbaycanda hasil olunurdu, burada emal edilirdi və böyük çətinliklərlə cəbhəyə göndərilirdi. Ona görə də biz faşizm üzərində qələbənin 57-ci ildönümünü qeyd edərkən, eyni zamanda, bu qələbənin əldə olunmasında arxa cəbhədə fədakarlıqla çalışmış Azərbaycan övladlarının da xidmətlərini xüsusi vurğulayırıq.

Qələbədən 57 il sonra dünya çox dəyişmişdir. Dünyada böyük proseslər baş vermiş, imperiyalar dağılmış, Sovetlər İttifaqı dağılmış, çox xalqlar öz dövlət müstəqilliyini əldə etmişlər. O cümlədən Azərbaycan da dövlət müstəqilliyini əldə edib, Azərbaycan xalqı öz müstəqil dövlətini qurubdur, müstəqil dövlət kimi yaşayır. Bu, Azərbaycan xalqının XX əsrin sonunda əldə etdiyi ən böyük tarixi nailiyyətdir. Bu gün biz müstəqil Azərbaycanda keçmiş tariximizin hər səhifəsinə diqqət yetiririk, hörmət və ehtiramımızı bildiririk. Bu baxımdan 1941–1945-ci illər Böyük Vətən müharibəsi, İkinci dünya müharibəsi Azərbaycan xalqının tarixində də daim yaşayacaqdır.

Əziz veteranlar, biz çox sevinirik ki, sizi bu gün burada sağ-salamat görürük. Siz böyük döyüşlərdən keçmisiniz, sonrakı nəsillərin, bugünkü nəsillərin azad, sərbəst yaşaması üçün xidmətlər göstərmisiniz. Dünyanın faşizm təhlükəsindən xilas olması bəşər tarixi üçün ən böyük, əlamətdar bir hadisədir. Siz məhz bu hadisənin iştirakçılarısınız. Xidmətlərinizi o illərdə də göstərmisiniz, bu gün də Azərbaycan xalqı, müstəqil dövlətimiz qarşısında xidmət göstərirsiniz. Mən sizə səmimi-qəlbdən təşəkkür edirəm. Xalqımız sizə daim minnətdar olacaqdır. Faşizm üzərində qələbədə xidmətlərinizə görə sizi, eyni zamanda, bu qələbənin çalınmasında canlarını qurban vermiş, həlak olmuş Azərbaycan övladlarının xatirəsini xalqımız qəlbində daim yaşadacaqdır.

Əziz veteranlar, mən sizi, bütün Azərbaycan xalqını qələbənin 57-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, xalqımıza, millətimizə, müstəqil Azərbaycan dövlətinə sülh, əmin-amanlıq, rifah arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev daha sonra tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə səmimi görüşdü, Qələbə günü münasibətilə onları təbrik etdi.*

**H ə z i A s l a n o v** *(Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun nəvəsi)*: Möhtərəm cənab Prezident, icazə verin, Həzi Aslanovun ailəsi adından Sizə dərin minnətdarlığımı bildirim. bizə və müharibə veteranlarına göstərdiyiniz böyük diqqət və qayğıya, hörmət və ehtirama görə Sizə təşəkkür edirəm. Qələbə bayramı və ad gününüz münasibətilə Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, uzun ömür arzulayıram.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Qəhrəmanımızın yaxşı nəvə və nəticələri var. Hamınızı təbrik edirəm.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Kaspiysk şəhərində insan tələfatına səbəb olmuş partlayış haqqında xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmasını arzulayıram.

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 may 2002-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bundestaqın Avropa Birliyinə dair məsələlər üzrə komissiyasının sədri Fridbert Pflüger başda olmaqla, Almaniya Federativ Respublikasının nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimiyyətlə qarşılayaraq hal-əhval tutdu.*

*Səmimi qəbul üçün təşəkkür edən cənab Fridbert Pflüger Azərbaycanda səfərdə olmaqdan çox məmnun qaldıqlarını bildirərək dedi ki, cənab Prezident, çox şadam ki, almanların gənc nəslinin nümayəndəsi kimi, təntənəli tədbirdə iştirak edirdim. 9 May bizim nəslin nümayəndələri üçün, biz almanlar üçün də Qələbə günüdür. Çünki o, bir növ nasist Almaniyasından, Hitler Almaniyasından xilas olmaq günüdür. Bu gün müharibə veteranlarına baxarkən düşünürdüm ki, onlar olmasaydı, bu qəhrəmanlıq və şücaəti göstərməsəydilər, yəqin ki, biz də başqa şəraitdə yaşayardıq, azadlıqda yaşamazdıq, Avropa da başqa şəkildə görünərdi.*

*Sovetlər İttifaqı dövründə Azərbaycan bir ölkə kimi, Almaniyadan çox uzaqda idi. Lakin bizim əlaqələrin qədim keçmişi vardır. Azərbaycanda 50 minədək alman yaşamışdır. İndi biz Avropa məkanında sizinlə birlikdə olmağa, ölkənizi daha yaxından öyrənməyə imkan tapırıq. Azərbaycan Avropanın ayrılmaz hissəsidir. Ona görə də mən tərəfdarıyam ki, hökumətimiz Qafqaza daha yaxından fikir versin. Bundestaqın Avropa Birliyinə dair məsələlər üzrə komissiyasının sədri kimi, mən daim bunun tərəfdarı olmuşam.*

*Bu regionla xüsusi əlaqələr yaradılmasını zəruri hesab etmişəm. Bu haqda fikirlərimi prezident Şevardnadze ilə də bölüşmüşəm.*

*Prezident Heydər Əliyev cənab Pflügerin Azərbaycana, Qafqaza marağından məmnun olduğunu bildirərək dedi ki, hesab edirəm, Bundestaqın və Almaniya hökumətinin sizin kimi üzvləri Azərbaycana daha da çox maraq göstərməlidirlər. Hələ XX əsrin əvvəllərində alman şirkətləri Azərbaycanda fəaliyyət göstəriblər. O dövrdə «Siemens» şirkəti ölkəmizdə böyük işlər görübdür. Burada almanlar çox yaşayıblar. Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində oxuyarkən mənim özümün alman tələbə yoldaşlarım vardı, yataqxanada bir alman tələbə ilə bir otaqda yaşamışam.*

*Dövlətimizin başçısı xatırlatdı ki, beş-altı il öncə Almaniya Azərbaycana daha çox maraq göstərirdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində də Almaniyanın, onun hökumətinin fəaliyyətini hiss edirdik. O vaxtkı Xarici Işlər naziri cənab Kinkel bu işlərlə çox ətraflı məşğul olurdu. İndiki Xarici Işlər naziri Yoşka Fişer də Qafqazda, Azərbaycanda olmuşdur, onunla görüşümdən çox məmnunam. Amma mənə belə gəlir ki, indi Almaniyanın Azərbaycana marağı bir az zəifləyibdir. Hər halda, mən öz təəssüratımı deyirəm. Biz istəyirik ki, Almaniya ilə Azərbaycan arasında əlaqələr daha sıx, daha geniş olsun, hərtərəfli inkişaf etsin.*

*Güman edirəm, Azərbaycana ilk səfəriniz sizə imkan verəcək ki, dediyim sözlərin nə qədər həqiqət olduğunu görəsiniz. Mən dövlət başçısı, prezident kimi, öz arzularımı bildirirəm. Hesab edirəm ki, Almaniya ilə Azərbaycan arasında əlaqələrin daha da yüksək səviyyəyə qaldırılması üçün bizim böyük imkanlarımız var. İqtisadi əlaqələrin inkişaf etdirilməsində imkanlar çoxdur. Bu imkanlardan istifadə etmək lazımdır və biz öz tərəfimizdən buna hazırıq.*

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT**
**ŞURASININ SƏDRİ**
**CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA**

Hörmətli Məhəmmədəli Məhəmmədoviç!

Kaspiysk şəhərində partlayış nəticəsində insan tələfatının olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxın adamlarına, bütün Dağıstan xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 may 2002-ci il*

**NORVEÇİN KRALI**
**ƏLAHƏZRƏT V HARALDA**

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün Norveç xalqını təbrik edirəm. Azərbaycan ilə Norveç arasındakı dostluq və əməkdaşlığın genişlənməsindən məmnunluq duyuram. Əminəm ki, qarşılıqlı əlaqələrimiz xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 may 2002-ci il*

**NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KYEL MAQNE BONDEVİKƏ**

Hörmətli cənab Baş nazir!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün Norveç xalqını təbrik edirəm.

Əminəm ki, dost ölkələrimiz arasındakı əməkdaşlıq münasibətləri qarşılıqlı surətdə faydalı zəmində daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 may 2002-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏLİ ABDULLA SALEHƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının milli bayramı münasibətilə Sizi və bütün Yəmən xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daha da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 may 2002-ci il*

## XARİCİ SAHİBKARLARLA GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*14 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev salonun foyesində xarici sahibkarların ölkəmizdə istehsal etdikləri yüksək keyfiyyətli məhsullardan ibarət sərgi ilə yaxından tanış oldu.*

*Xarici sahibkarlar, müştərək şirkət və müəssisələrin rəhbərləri başçılıq etdikləri istehsal sahələri, buraxılan məhsullar barədə ətraflı məlumat verdilər.*

*Prezident Heydər Əliyev ayrı-ayrı şirkətlərin, səhmdar cəmiyyətlərin məhsulları, müəssisələrin vəziyyəti və inkişaf perspektivləri ilə, daxili tələbatın ödənilməsi, bazarda məhsulların satışının vəziyyəti və təşkili ilə maraqlandı, tövsiyə və məsləhətlərini verdi.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda sənayenin bir çox sahələri üzrə istehsalı genişləndirmək üçün imkanlar çoxdur.*

*Azərbaycan prezidenti ölkəmizin neft sektorunda işləyən tanınmış xarici şirkətlərin fəaliyyətini əks etdirən stendlərlə də tanış oldu, həmin şirkətlərin nümayəndələri ilə söhbət etdi.*

*Xarici iş adamları ölkəmizdə sahibkarlığın inkişafına, Azərbaycana xarici sərmayələrin cəlb edilməsinə, xarici sahibkarlarla dövlət idarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsinə, sahibkarların problemlərinin həllinə göstərdiyi qayğı və diqqətə görə prezident Heydər Əliyevə dərin təşəkkür və minnətdarlıqlarını bildirdilər.*

*Dövlətimizin başçısına sahibkarlar adından gül dəstəsi, xatirə hədiyyələri təqdim olundu.*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Hörmətli iş adamları!

Sizin hamınızı səmimi-qəlbdən salamlayıram, işlərinizdə uğurlar arzulayıram. Bugünkü görüşümüz iqtisadiyyatımızın inkişafı ilə əlaqədar Azərbaycan dövləti tərəfindən görülən mühüm tədbirlərdən biridir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demokratiya yolu ilə, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə gedib və ötən 10 ildə xalqımız, dövlətimiz böyük nailiyyətlər əldə edibdir.

Azərbaycan bazar iqtisadiyyatı yolu ilə getməkdədir. Azərbaycanda bazar iqtisadiyyatını təmin etmək üçün 1995–1996-cı illərdən etibarən müxtəlif tədbirlər həyata keçirilibdir. İndi biz deyə bilərik ki, Azərbaycan bazar iqtisadiyyatına keçibdir. Əlbəttə, keçid dövrünün hələ müəyyən problemləri var. Bəzi sahələrdə görüləsi işlər var. Ancaq biz qətiyyətlə deyə bilərik ki, Azərbaycanın iqtisadiyyatı indi bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur və inkişaf etdirilir. Buna nail olmaq üçün biz bir çox tədbirlər həyata keçirmişik. Birinci növbədə dövlət mülkiyyətinin özəlləşdirilməsi, iqtisadi islahatların aparılması, torpaq islahatının həyata keçirilməsi və bir çox başqa tədbirlər Azərbaycanda artıq iqtisadiyyatın əsasən özəl sektora mənsub olmasını təmin edibdir. Təxminən 1994–1995-ci illərdən dövlətimiz Azərbaycanda bazar iqtisadiyyatını inkişaf etdirmək üçün xarici sərmayələrin cəlb olunması sahəsində ardıcıl siyasət aparır və konkret tədbirlər görmüşdür.

Azərbaycana xarici sərmayənin cəlb olunmasının əhəmiyyəti artıq bizim cəmiyyətimiz üçün məlumdur. Bunu sizə izah etməyə də ehtiyac yoxdur. Bazar iqtisadiyyatını təmin etmək üçün qarşımızda özəlləşdirməni aparıb, əmlakı şəxsi mülkiyyətə verib özəl sektorun inkişafını təmin etmək vəzifəsi dururdu. Ancaq bunu təmin etmək, sürətləndirmək üçün Azərbaycana xarici sərmayənin, müasir texnologiyanın, müasir idarəetmə sisteminin və bazar iqtisadiyyatının qabaqcıl ölkələrdə əldə etdiyi nümunələrinin gətirilməsi zərurəti vardı.

Ötən illər biz bunlarla məşğul olmuşuq. İndi məmnuniyyətlə qeyd edə bilərik ki, Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edir. Azərbaycanda özəl sektor, sahibkarlar təbəqəsi yaranıbdır. Azərbaycana güclü xarici sərmayə gəlir. Bununla bərabər, Azərbaycana müxtəlif ölkələrdən şirkətlər, iş adamları gəlib burada iş görürlər. Məhz bunların nəticəsidir ki, Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edir.

Deməк, bazar iqtisadiyyatının aparıcı qüvvəsi iş adamlarıdır, özəl şirkətlərdir, xarici sərmayəçilərdir. Bu sahədə görülən işləri qiymətləndirərək, hesab edirik ki, hələ istifadə olunmamış imkanlar da çoxdur. Əldə edilmiş təcrübədən daha səmərəli istifadə etmək lazımdır. Biz indiyə qədər görülən işləri Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə getməsi prosesində birinci mərhələ hesab edirik. Bunların əsasında daha da sürətlə irəliyə getmək istəyirik. Məhz bu səbəbdən biz Azərbaycanda özəl sektorun inkişaf etməsi üçün lazım olan bütün şəraiti yaratmışıq. Azərbaycana xarici sərmayənin cəlb olunması üçün əsas şərtləri yaratmışıq. Birinci növbədə,

Azərbaycanda daxili ictimai-siyasi sabitliyin təmin olunması bütün sahələrdə, o cümlədən iqtisadiyyatın inkişafında əldə etdiyimiz nailiyyətlərin əsasıdır.

Özəl sektorun inkişafı üçün lazım olan qanunlar qəbul edilib, qaydalar müəyyənləşdirilib, fərmanlar verilibdir. Bunlar hamısı öz işini görübdür. Ancaq qeyd etdiyim kimi, biz bundan sonra daha da sürətlə irəliləməliyik. Biz həm Azərbaycanda artıq yaranmış sahibkarların işini çox əhəmiyyətli hesab edirik, onlara hər cür yardım edirik və bundan sonra da edəcəyik. Həm də Azərbaycana gələn xarici şirkətlərin öz işlərini istənilən səviyyədə aparması üçün lazımi tədbirlər görmüşük və bundan sonra da görəcəyik. Bu məqsədlə də biz daim özəl sektorun nümayəndələri ilə əlaqə saxlayırıq. Azərbaycanda fəaliyyət göstərən müxtəlif firmalarla əlaqə saxlayırıq, onların işləri ilə maraqlanır, onlara yardım etməyə çalışırıq.

Bildiyiniz kimi, aprelin 25-də biz Azərbaycanın yerli sahibkarları ilə, yəni onların nümayəndələri ilə görüşdük və qarşıda duran məsələləri müzakirə etdik. Bu gün isə mən Azərbaycanda iş görən xarici şirkətlərin nümayəndələri ilə, yaxud xarici şirkətlərlə Azərbaycan şirkətlərinin yaratdıqları müştərək müəssisələrin nümayəndələri ilə görüşməyi qərara almışam. Bu məqsədlə mən sizi dəvət etmişəm. Çox məmnunam ki, mənim müraciətim Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər, iş adamları tərəfindən qiymətləndirilibdir və bu gün biz sizinlə görüşə gəlmişik.

Həm aprel ayının 25-dəki, həm də bugünkü görüşün məqsədi biznesin inkişafına kömək etməkdən ibarətdir. Yəni biznesin inkişafı üçün lazım olan əlavə tədbirlər haqqında məlumat almaq, təkliflər almaq və onların əsasında dövlət, hökumət tərəfindən müvafiq qərarlar qəbul etməkdən ibarətdir. Biznesin inkişafına mane olan, yaradılan əngəllər haqqında məlumat almaq, onların aradan qaldırılması üçün lazımi tədbirlər görməkdən ibarətdir. Bunların müəyyən hissəsi bizə məlumdur. Yəni, bundan sonra biz Azərbaycanda biznesin inkişaf etdirilməsi üçün daha nə kimi tədbirlər həyata keçirməliyik – bunlar bizə məlumdur, biz bunu bilirik. Ancaq bilmədiyimiz şeylər də var. Onları sizlərdən öyrənmək istəyirik.

Azərbaycanda özəl sektorun fəaliyyətinə, biznesin inkişafına maneələrin, əngəllərin bir qismini biz bilirik və lazımi tədbirlər görürük. Ancaq bilmədiklərimiz də var. Bunları biz bilavasitə sizdən öyrənmək istəyirik. Ona görə də bizim bugünkü görüşümüz müəyyən qədər qeyri-formal xarakter daşıyır. Aprel ayının 25-də olan görüş kimi, bugünkü görüş də Azərbaycan prezidentinin biznes nümayəndələri ilə daha yaxın münasibətlər yaratması məqsədi daşıyır. Bu münasibətlər də yalnız və yalnız Azərbaycanda biznesin inkişafını təmin etməkdən, xarici sərmayəni daha çox cəlb etməkdən və ölkəmizin iqtisadiyyatını inkişaf etdirməkdən ibarətdir. Buna görə də mən istərdim ki, bizim bu görüşümüzdə hər kəs özünü sərbəst hiss etsin. Biz bir-birimizlə səmimi olmalıyıq, formalizmə yol vermək olmaz. Mənim şəxsən məqsədim sizlərdən daha da çox məlumat almaq, işlərinizdə sizə mane olan hər bir faktı – yaxud mane olan, bəlkə də, ümumi problemlər var – aradan qaldırmaqdır.

Aprel ayının 25-dəki görüşlərdən sonra bizdə bir çox fikirlər yaranıbdır. Onlar özəl sektora daha da əlverişli şərait yaratmaqdan ibarətdir. Güman edirəm ki, sizinlə də görüşümüzdə əldə etdiyimiz yeni məlumatlar, fikirləriniz, təklifləriniz çox ətraflı təsəvvür əldə etmək və lazım olan tədbirlər görmək üçün faydalı olacaqdır.

Siz xarici ölkələrin vətəndaşlarısınız. Azərbaycan bazar iqtisadiyyatı sahəsində gənc bir ölkədir. Bizdə təcrübə azdır. Biz bazar iqtisadiyyatını sosialist iqtisadiyyatının, yəni o dövrlərdə yaranmış mülkiyyət formasının dəyişdirilməsi ilə yaratmağa başlamışıq. Bu, çətin proses olubdur, bu gün də çətindir. Ən çətini odur ki, bizdə təcrübə yox idi. Yaşadığımız hər il bizi daha da təcrübələndirib, bu sahədə biliklərimizi genişləndiribdir. Ancaq bunlara baxmayaraq, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olan təcrübənin hamısını hələ Azərbaycana gətirə bilməmişik.

Siz, xarici ölkələrin vətəndaşları öz ölkələrinizdə bizneslə məşğul olub təcrübə toplamısınız. Ona görə sizin burada fəaliyyətiniz Azərbaycanda biznesin inkişafı üçün, ölkəmizin iqtisadiyyatının inkişafı üçün çox əhəmiyyətlidir. Sizin bu təcrübəniz, indiyə qədər buradakı əməli fəaliyyətiniz Azərbaycana kömək edibdir. Ancaq bundan sonra nə etməliyik? Qarşımızda duran çətinliklər, əngəllər nədən ibarətdir? Bunların hamısını biz sizdən öyrənmək istəyirik. Bunlar barəsində sizdən məlumatlar almaq istəyirik.

Mən bir daha rica edirəm ki, burada söz demək istəyən şəxslər öz fikirlərini açıq desinlər, çəkinməsinlər. Bizi tənqid etmək lazımdır, tənqid edin. Əgər buraya gələn iş adamları bizi ancaq tərifləsələr, bu görüşün əhəmiyyəti olmazdı. Yəni çatışmayan çəhətlər, nöqsanlar, əngəllər tənqid edilməli, açıq deyilməlidir. Buna görə də biz aprel ayının 25-də olduğu kimi, bu görüşümüzü də müəyyən mərhələlərə bölürük. Birinci hissədə, indi mənim çıxışımdan sonra məlumat veriləcəkdir. Ondan sonra bütün mətbuat nümayəndələrindən xahiş edəcəyik ki, onlar istirahətə çəkilsinlər, biz burada qapalı şəraitdə, mətbuat nümayəndələrinin və Azərbaycanın vəzifəli şəxslərinin iştirakı olmadan müzakirə aparaq. Ondan sonra isə bizim görüşümüzün son iclası olacaqdır. Onda xahiş edəcəyəm ki, mətbuat nümayəndələri də iştirak etsinlər.

Bu gün burada Azərbaycanın hökumət üzvlərindən, dövlət nümayəndələrindən yalnız bir neçə şəxs iştirak edir. Başqalarını buraya dəvət etməmişik. Çünki istəyirik ki, burada sərbəstlik olsun və daha çox xarici şirkətlərə yer verilsin və bundan biz faydalana bilək.

Bizim bu görüşümüzə Azərbaycanda təmsil olunan xarici ölkələrin səfirləri də gəliblər. Bilirəm ki, onlar öz ölkələrinin iş adamlarının Azərbaycanda daha da uğurla işləməsini istəyirlər. Biz də bunu istəyirik. Biz səfirlərlə

vaxtaşırı görüşlər keçiririk. Onların verdikləri məlumatlardan istifadə edirik. Amma bu gün onların bizim bu görüşümüzdə iştirakını da mən çox əhəmiyyətli hesab edirəm.

**YEKUN NİTQİ**

Hörmətli xanımlar və cənablar!

Bu görüşə gəldiyinizə, bəyan etdiyiniz fikirlərə, təkliflərinizə, tənqidinizə görə sizə bir daha təşəkkür edirəm. Bildirmək istəyirəm ki, aprelin 25-də keçirdiyiniz görüş və bugünkü görüşümüz Azərbaycan iqtisadiyyatının problemlərini həll etmək, onun inkişafını təmin etmək üçün çox əhəmiyyətlidir. Əmin ola bilərsiniz ki, sizin irəli sürdüyünüz təkliflər, tənqidi fikirlər, göstərdiyiniz faktların hamısı, o cümlədən burada səslənməyən, ancaq yazılı şəkildə təqdim etdiyiniz təkliflər hamısı birlikdə çox diqqətlə təhlil olunacaq və Azərbaycanda iqtisadiyyatın, biznesin inkişafı üçün nəzərdə tutduğumuz gələcək tədbirlərimizdə onlardan istifadə ediləcəkdir.

Burada bildirilən fikirlər biznesin müxtəlif sahələrinə aiddir. Mən bu barədə danışmaq istəmirəm. Çünki bizim bu tədbirlərin forması bundan ibarətdir ki, biz qapalı görüşdə sizinlə açıq söhbət aparırıq və bunların nəticəsindən istifadə edəcəyik. İndi isə bizim bu görüşümüzə yekun vuraraq bildirmək istəyirəm ki, göstərilən bütün nöqsanlara, qüsurlara baxmayaraq, Azərbaycanın iqtisadiyyatı son illər sürətlə inkişaf edir. Azərbaycanda iqtisadi islahatlar və onlardan əvvəl siyasi, hüquqi islahatlar uğurla həyata keçirilibdir. Bir çox işlər görmüşük və onların əməli nəticələrini müşahidə edirik.

İqtisadiyyatımızın son illərdə ardıcıl olaraq, ilbəil inkişaf etməsi məhz Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi üçün lazım olan tədbirlərin görülməsinin nəticəsidir.

Biz 1990-cı illərin əvvəllərində dövlət müstəqilliyini əldə edəndə keçmiş sosialist sisteminin iqtisadiyyatına malik idik. Ağır bir şəraitdə dövlət müstəqilliyini qoruyub saxlaya bildik, Azərbaycanın iqtisadiyyatında mövcud olan dağıdıcı proseslərin qarşısını aldıq və tədricən iqtisadiyyatı inkişaf etdirməyə başladıq. O vaxt da biz bəyan etmişdik ki, Azərbaycanda iqtisadiyyatın inkişafını təmin etmək üçün xarici sərmayənin cəlb olunması, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi, ticarətin liberallaşdırılması əsas şərtlərdən biridir.

Biz bu yol ilə getdik. Məlumdur ki, 1994-cü ildən başlayaraq Azərbaycanda yeni neft strategiyasının həyata keçirilməsi ölkəmizin iqtisadiyyatının inkişafında xüsusi rol oynayır. Biz 1994-cü ildə ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalayanda buna inanırdıq, gələcəyə çox böyük ümidlə baxırdıq. Ancaq o müqavilənin nə qədər ağır və çətin şəraitdə imzalanmasını və sonra onun Azərbaycanda həyata keçirilməsi üçün müxtəlif maneələrin olmasını nəzərə alsaq, aydın olar ki, biz nə qədər ağır və çətin bir yol keçmişik. Ancaq bu yolu keçmişik və bunun müsbət nəticələri göz qabağındadır. İndi artıq Azərbaycanda neft sektorunda böyük layihələr həyata keçirmişik və həyata keçiririk. Pay bölgüsünə aid 21 müqavilə imzalanıbdır. Onların bir çoxu artıq öz nəticələrini verir.

Burada bildirildi ki, neft sahəsində müqavilələrin həyata keçirilməsində 400 xarici şirkət iştirak edir. Bu, təkcə neft sahəsinə yox, ona xidmət edən bütün başqa sahələrə xarici sərmayənin və şirkətlərin cəlb olunmasının əyani nümunəsidir.

Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri artıq reallığa çevrilmişdir. Hörmətli cənab Vudvord burada bildirdi ki, bu ilin sonuna kimi Bakı–Tbilisi–Ceyhan boru xəttinin inşasına başlanacaqdır. Gələn il Bakı–Tbilisi–Ərzurum qaz xəttinin inşasına başlanacaqdır. Ancaq təkcə bunlar deyil, bizim başqa böyük layihələrimiz də var. Amma bunlarla yanaşı, biz daim çalışmışıq ki, qeyri-neft sektoruna da xarici sərmayə cəlb olunsun və xarici ölkələrin şirkətləri həm müstəqil şəkildə, həm də Azərbaycan şirkətləri ilə bərabər ölkəmizdə iş görsünlər və biz respublikamızın iqtisadiyyatının bütün sahələrini inkişaf etdirə bilək.

Cəhdlərimiz çoxdur, nailiyyətlərimiz də var. Ancaq istədiyimizin çoxuna hələ nail olmamışıq. Bu yolda çətinliklər də var. Bunlar həm bizim üçün olan çətinliklərdir, həm də xarici sərmayəçilər üçün, xarici ölkələrin iş adamları, xarici şirkətlər üçün olan çətinliklərdir. Ona görə də aprel ayının 25-də keçirilmiş görüşün, bu gün keçirilən görüşün nəticələrinə əsasən biz böyük tədbirlər planı hazırlayırıq. Bir çox fərmanların layihələri hazırlanır. Hakimiyyət orqanlarının nümayəndələri ilə də görüş keçiriləcəkdir.

Ümidvaram ki, mövcud olan nöqsanların çoxunun aradan qaldırılması üçün lazımi tədbirlər görmək mümkün olacaqdır.

Sizin burada dediyiniz və bizə məlum olan, xarici biznesmenlərin iş görməsinə əngəl törədən problemlər, çətinliklər bir çox qrupa bölünür. Bunların bir hissəsi Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədardır.

Ancaq mən bu gün sizləri dinləyərək və özüm də müəyyən qədər daxilən təhlil edərək düşünürəm ki, biz bir çox qanunlar qəbul etmişik. Bəzən bir qanun o biri qanunun bir hissəsinə mane olur. Bir qanun o birini təkrarlayır. Bəlkə də qanunlar çox olduğuna görə onların icrasını təmin etmək də çox çətin olur. Amma bu o demək deyildir ki, bundan sonra qanunlar qəbul edilməməlidir. Qanunlar qəbul olunacaqdır. Lazım olan

qanunlar qəbul ediləcəkdir. Əmin edirəm ki, qanunların hamısının məzmunu Azərbaycanda özəl sektorun, biznesin inkişafını təmin etmək, xarici sərmayəni Azərbaycana cəlb etmək məqsədi daşıyacaqdır. Buna görə də qanunvericiliyin təkmilləşdirilməsi–bu görüşlərdən mən nəticə çıxarıram – bizim qarşımızda duran məsələlərdən biridir.

Vergi haqqında burada hamı danışdı. Vergidən heç kəs məmnun deyildir. Hər bir iş adamı arzu edərdi ki, vergi olmasın, yaxud da vergi çox az olsun. İş adamı iş görməlidir, qazanc götürməlidir. Lakin dövlət, ölkə də yaşamalıdır. Vergilər toplanmalıdır. Amma bugünkü danışıqlardan sonra, görünür ki, biz vergilər haqqında da düşünməliyik, lazımi tədbirlər görməliyik.

Burada iş adamlarına mane olan çox misallar gətirildi. Həm Vergilər Nazirliyi və onun orqanları, həm Gömrük Komitəsi və onun bütün orqanları… Bəlkə siz bu gün demədiniz, yaxud da az dediniz. Özəl sektora müdaxilə, bizim ayrı-ayrı orqanlar tərəfindən onların yoxlanılması və beləliklə, onların işlərinin pozulması faktları da bizə məlumdur. Hüquq-mühafizə orqanları əməkdaşlarının vəzifələrindən sui-istifadə etməsi təkcə iş adamlarına deyil, bir çox sahələrdə biznesin də inkişafına çox mane olur.

Lisenziyalar haqqında çox danışıldı. Bu barədə biz düşünürük. Ancaq ötən görüşdə və bugünkü görüşdə söylənən fikirlər tələb edir ki, lisenziya sistemini köklü surətdə təkmilləşdirmək lazımdır. Lisenziyalar çoxdur. Onları verən orqanlar çoxdur. Burada deyildi ki, lisenziyanı çox hallarda rüşvətsiz vermirlər. Deməli, bunların qarşısı alınmalıdır. Yenə deyirəm, lisenziya sistemi tamamilə təkmilləşdirilməlidir.

Rüşvətxorluq, korrupsiya haqqında da fikirlər söylənildi, ümumiyyətlə, biz bilirik, həm biznes sahəsində, həm iqtisadiyyatda, həyatınızın başqa sahələrində belə hallar var. Bunlarla mübarizə aparırıq və bundan sonra da aparacağıq. Güman edirəm ki, bizim bu iki görüş nəticəsində görəcəyimiz tədbirlərdə məhz rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır.

Burada bir çox başqa problemlər haqqında da danışıldı. Hamısı nəzərə alınacaqdır. Əgər neft sektorunu kənara qoysaq, Azərbaycanda özəl sektor yaranandan indiyə qədər xarici şirkətlər əsasən ticarət, xidmət, iaşə, bir az da nəqliyyat sahəsindədir. Bu sahələrə ilk illərdə əsasən xarici şirkətlər cəlb olunublar, yaxud da onlar maraq göstəriblər. Ya özləri, ya da yerli şirkətlərlə birlikdə çox işlər görüblər. Bu işlər öz nəticəsini verir. Bir tərəfdən, bizim iqtisadi islahatları, özəlləşdirmə proqramını həyata keçirməyimiz, digər tərəfdən, xarici ölkələrin şirkətlərinin Azərbaycanda ticarət, xidmət, iaşə və s. sahələrdə çox işlər görməsi, demək olar ki, bu sahələri lazımi səviyyəyə qaldırıbdır. İndi Azərbaycanda ticarət, demək olar, tamamilə özəl sektora məxsusdur. Çox məmnunedici haldır ki, özəl sektor da ticərəti yaxşı inkişaf etdiribdir. Bizdə indi gözəl ticarət şəbəkələri, mağazaları, müəssisələri yaranıbdır. Dünyanın bir çox ölkələrindən müxtəlif çeşidli mallar gətirilir. Azərbaycan bazarı tamamilə doludur, bu barədə heç bir problem yoxdur.

Siz bəlkə də bir o qədər demədiniz ki, xaricdən mal gətirən və burada ticarətlə məşğul olan hər bir iş adamı böyük çətinliklərlə rastlaşır. Amma biz bunu bilirik. Ancaq görün ki, bizim iş adamları, təkcə bizim yox, Azərbaycana gələn xarici ölkələrin iş adamları nə qədər inadla iş görmək istəyirlər ki, bütün bu maneələrdən, bürokratik əngəllərdən keçərək, harada onlardan rüşvət tələb edirlərsə, o rüşvətləri verərək Azərbaycanda ticarəti inkişaf etdiriblər. Hesab edirəm ki, bu bizim əsas nailiyyətlərimizdən biridir.

İndi inşaat sahəsində biznes inkişaf edir. Geniş miqyasda inşaat işləri gedir. Ümumiyyətlə, Azərbaycanda, ölkəmizin bütün bölgələrində sürətlə inşaat işləri gedir. Bu da şəxsi evlərin tikilməsidir. Müxtəlif bölgələrdə insanlar özləri üçün şəxsi evlər tikirlər. Kənd yerlərində çox, deyə bilərəm ki, müasir tələblərə uyğun fərdi evlər tikilir. Bakı şəhərində də müasir tələblərə cavab verən çox binalar, yaşayış evləri tikilir. Bunlar müsbət haldır. Biz bunları dəstəkləyirik. Hesab edirəm ki, bizim iş adamları bu sahədə daha uğurlu işlər görəcəklər.

Başqa xidmət sahələrində də xarici və yerli şirkətlər çox iş görüblər və görürlər. Bu gün burada sərgiyə baxdıq. Sərgidə təqdim olunan mallar, əsasən, həmin şirkətlərin istehsal etdikləri məhsullardır. Ancaq indi Azərbaycanın yerli iş adamları 6-7 il bundan əvvəlki səviyyədə deyillər. Onlar xarici şirkətlərlə birgə iş görərək, xarici ölkələrin təcrübəsindən istifadə edərək, artıq müasir səviyyədə işləyə bilirlər. Ona görə də yerli biznes genişlənibdir. Bəlkə bu səbəbdən də inşaat, yaxud da ticarət, iaşə sahəsində xarici şirkətlər azalıbdır. Bu, təbii prosesdir. Çünki yerli sahibkarlıq artıq inkişaf edibdir.

Biz istəyirik ki, xarici sərmayə vasitəsilə, xarici şirkətlər vasitəsilə Azərbaycanda yerli sahibkarlığı, yerli biznesi inkişaf etdirək. Ançaq indi qeyri-neft sektoru haqqında danışanda, xarici sərmayənin cəlb olunması və yerli sərmayədən istifadə olunması vasitəsilə onun inkişafını təmin etmək haqqında danışanda, birinci növbədə istehsal sahəsini nəzərdə tuturuq. Açıq demək lazımdır ki, bizdə neft sektorundan kənarda biznesin istehsal sahəsi çox azdır. Xaricdən gələn şirkətlər bu sahəyə az sərmayə qoyublar, az fəaliyyət göstəriblər, bu sahəyə o qədər də böyük maraq göstərməyiblər. Həm də bizim yerli iş adamları daha çox ticarətlə, indi inşaatla, iaşə, xidmət və başqa sahələrlə məşğuldurlar. Ançaq istehsal müəssisələri yaratmaq, yerli istehsalı inkişaf etdirmək və bunun nəticəsində yeni iş yerləri açmaq indi bizim bazar iqtisadiyyatında, özəl sektorda əsas vəzifələrimizdir. Mən arzu edərdim ki, Azərbaycana maraq göstərən xarici şirkətlər indi qeyri-neft sektorunda daha çox istehsal sahəsi ilə məşğul olsunlar. Azərbaycanda bu barədə imkanlar çoxdur. Burada deyildi ki, bir çox sənaye müəssisələri özəlləşdiriləcəkdir. Bizdə çoxlu maşınqayırma zavodları, metallurgiya sənayesi, kimya sənayesi

var. Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı üçün çox gözəl sənaye müəssisələri yaratmaq olar. Mən istəyirəm ki, bunlara xarici sərmayə daha çox cəlb olunsun. Xarici ölkələrin şirkətləri bu sahəyə daha da çox maraq göstərsinlər.

Azərbaycanda kənd təsərrüfatı tamamilə özəlləşibdir. Bu da çox yaxşı nəticələr verir. Kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil artır. Azərbaycan bir çox ərzaq məhsulları ilə özünü təmin edə bilir. Bilirsiniz ki, bazarlarda Azərbaycanda istehsal olunan həddindən çox ərzaq məhsulları var. Ançaq bu məhsulların emal edilməsi hələ ki, çox zəifdir. Mən bu sahəyə də xarici sərmayəçilərin cəlb olunmasını istərdim.

Burada bizim rabitə sahəsindəki nöqsanlardan danışıldı. Mən deyilən tənqidlərlə tamamilə razıyam. Demək olar ki, bizim bütün sahələrdə görülən işlərimiz az da, çox da olsa, lazımi səviyyədə gedir. Ançaq təəssüflər olsun ki, bu sahədə hələ ki, lazımi iş görə bilməmişik. Guman edirəm ki, biz yaxın vaxtlarda bununla ciddi məşğul olmalıyıq.

Bu görüşlərin nəticəsi ilə əlaqədar biz Azərbaycanın dövlət hakimiyyət orqanlarının vəzifələri haqqında gələcək görüşümüzdə ətraflı danışacağıq. Ançaq mən indi sizi əmin etmək istəyirəm ki, dediyiniz tənqidlə tamamilə razıyam. Sizin irəli sürdüyünüz təkliflərin çoxu əhəmiyyətlidir və onlar nəzərə alınacaqdır. Bu görüşlərdən sonra Azərbaycanda yerli sahibkarlığın, ümumiyyətlə, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılacaqdır.

Bazar iqtisadiyyatına keçid ağır, çətin prosesdir. Biz bu prosesin iştirakçılarıyıq, onun çətinliyini hamı bilməlidir.

Təbiidir, biz istəyirik ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quraraq bütün sahələri inkişaf etmiş ölkələrin, Avropa ölkələrinin standartları səviyyəsinə çatdıraq. İnanın, biz bunu istəyirik. Biz buna doğru gedirik. Bütün tədbirlərimiz də məhz bu istiqamətə yönəlibdir. Ancaq siz də bilməlisiniz və ümumiyyətlə, ölkədən kənarda da hamı bilməlidir ki, bu, ağır və çətin bir prosesdir.

Keçmiş Sovetlər İttifaqına məxsus olan ölkələrin hamısında bu proses gedir. Amma çətin gedir, ağır gedir. Mən Azərbaycanın nailiyyətlərini şişirtmək istəmirəm. Ancaq Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının araşdırmalarına görə, bir çox sahələrdə Azərbaycanın göstəriciləri Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrin göstəricilərindən üstündür. Ancaq onlar bizi də qane etmir, sizi də. Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün Azərbaycanda tərəqqi daha da sürətləndirilsin. Ancaq bilmək lazımdır: bunların hamısını bir gündə, bir ayda, bir ildə etmək mümkün deyildir. Buna həm zaman lazımdır, həm də iradə, inam lazımdır. Zaman bizdən asılı deyildir. Ancaq iradə, inam özümüzdən asılıdır. Hamı bilməlidir ki, Azərbaycan dövlətində, Azərbaycan hakimiyyətində bu iradə, bu inam var. Bu iradə ilə, bu inamla da biz bütün işlərimizi görürük. Bəzən bizim ölkəmizi inkişaf etmiş dövlətlərlə müqayisə edirlər. Orada korrupsiya bu qədərdir, sizdə bu qədərdir... Birincisi, mən bildirmək istəyirəm ki, harada nə qədər korrupsiya olduğunu heç kim bilmir. Korrupsiyanın bir üzdə olan tərəfi var, bir də altda. Özü də heç yerdə bir ölçü yoxdur ki, biləsən korrupsiya harada hansı dərəcədədir. Ancaq təbiidir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə, demokratiya sahəsində inkişaf etmiş ölkələrdə korrupsiya azdır. Mən heç də deyə bilmərəm ki, yoxdur. Ancaq keçid dövrünü yaşayan ölkələrdə – bir ölkədə o birindən çox, digərində o birindən az korrupsiya vardır. Korrupsiyanı inkar etmək mümkün deyildir. Korrupsiya ilə mübarizə etmək lazımdır. Mübarizə də Azərbaycanda gedir və gedəcəkdir. Buna heç kəsin şübhəsi olmasın. Bizim iqtisadi tədbirlərimizin də çoxu – əgər onları yaxşı həyata keçirə bilsək – məhz korrupsiyanın qarşısını ala biləcəkdir. Başqa vasitələrdən də istifadə olunacaqdır. Bunu hamı bilməlidir.

Mən hesab edirəm ki, burada çalışan iş adamları Azərbaycanın nailiyyətlərini öz ölkələrində təbliğ etməlidirlər. Bizim nöqsanlarımızı burada deyin, Azərbaycanda deyin, bizə deyin. Amma öz ölkənizdə deməyin. Nailiyyətlərimizi isə öz ölkənizdə təbliğ edin. Lazımdır ki, bizimlə iş görən adamlar Azərbaycanda biznes şəraitinin nöqsanları haqqında öz ölkələrində çox geniş söhbət aparmasınlar. Əksinə, təbliğ etmək lazımdır ki, sərmayəçilər Azərbaycana gəlsinlər. Biz də bütün bu tədbirlərimizlə nöqsanları aradan qaldırmağa çalışırıq. Sizinlə birlikdə bu nöqsanları aradan qaldırmalıyıq. Əgər siz olmasaydınız, xarici biznes Azərbaycanda olmasaydı, bu problemlər də olmazdı. Bu problemlər var, bu bizim ümumi işimizin nəticəsidir. Demək, bu problemləri biz həll etməliyik.

Problemlərin həll edilməsi üçün də, təbiidir ki, bir tərəfdən, səylərimizi artırmalıyıq, digər tərəfdən, bizə zaman lazımdır. Məsələn, neft sektorunda bizim apardığımız işləri görürsünüz. Böyük problemlər yoxdur. Mən orada korrupsiyanı da görməmişəm, hiss etməmişəm. Başqa mənfi hallar da orada yoxdur, bəlkə də azdır. Mən bunu xarici neft şirkətləri ilə və yaxud da müqavilələrin həyata keçirilməsinə cəlb olunmuş şirkətlərlə işin timsalında bildirmək istəyirəm. Bunlar çox böyük, formalaşmış şirkətlərdir. Onlar öz təcrübələrini Azərbaycana gətiriblər. Bu sahədə biz müsbət mənzərəni görürük.

Ancaq digər sahələrdə mənzərə bundan fərqlidir. Əksər hallarda mənfiliyinə görə fərqlidir. Bunlar bizim problemlərimizdir. Biz bunları həll etməliyik və inana bilərsiniz ki, həll edəcəyik. Arzumuz ondan ibarətdir ki, əməkdaşlıq etdiyimiz hər bir ölkədə Azərbaycanda bugünkü biznes şəraiti haqqında, ölkəmizin daxili ictimai-siyasi vəziyyəti haqqında doğru-düzgün, obyektiv məlumat verilsin. Təəssüflər olsun ki, xırda faktlardan çox

böyük fikirlər yaradırlar. Bu da bizə lazım deyildir. Biz özümüz sizinlə birlikdə nöqsanlarımızı yaxşı bilirik. Bu iki görüş Azərbaycan prezidenti kimi, şəxsən mənə çox şeyləri məlum etdi. Bir də deyirəm, ona görə də mən bu görüşlərdən məmnun oldum.

Mövcud nöqsanları biz birgə aradan qaldırmalıyıq. Biz Azərbaycanda biznes mühitini daha da sağlam etməliyik, şəffaflığı təmin etməliyik. Bütün bürokratik əngəlləri aradan qaldırmalıyıq, hamımız bir yerdə korrupsiya ilə ciddi mübarizə aparmalıyıq.

Təbiidir ki, biz hakimiyyət olaraq bunları etməliyik. Bizimlə əməkdaşlıq edən hər bir qurum, təşkilat, hər bir firma da bizə yardım etməlidir, bizimlə bərabər mübarizə aparmalıdır. Bəzi hallar var ki, onlarla bəlkə də bir gün yox, bir ay yox, bir il yox, uzun müddət mübarizə aparmaq lazımdır. İnsanlar bəzi mənfi hərəkətlərə öyrəniblər. Onların çoxu artıq başqa cür işləyə bilmir. Ona görə də insanların bu psixologiyasını dəyişmək üçün biz hələ çox iş görməliyik. Ancaq mən inanıram ki, biz bu işləri görməyə qadirik, bu işləri görürük və görəcəyik.

Azərbaycanın prezidenti kimi, mən onu bildirmək istəyirəm ki, ölkəmizdə biznesin və o cümlədən xarici biznesin inkişafını Azərbaycanın iqtisadiyyatını təmin edən əsas amillərdən biri kimi görürəm.

Biznes indi iqtisadiyyatın aparıcı qüvvəsidir. Ona görə də mən bu sahəyə daim diqqət yetirmişəm, yetirirəm və bundan sonra da yetirəcəyəm. Hər bir iş adamı – xarici ölkədən gəlmiş, yaxud Azərbaycan vətəndaşı – bilsin ki, Azərbaycanın prezidenti kimi, mən onun sağlam iş görməsinin himayədarıyam. Bu himayədarlığı daim edəcəyəm. Hər bir iş adamına, sağlam iş görən iş adamına mənim daim qayğım olacaqdır. Hər bir iş adamının iş görməsi üçün şəraitin yaxşılaşdırılmasını özümün əsas vəzifələrimdən biri hesab edirəm.

Əmin ola bilərsiniz ki, mənim bu siyasətim, bu əməli fəaliyyətim bundan sonra da davam edəcəkdir. Mən Azərbaycanın gələcək inkişafını, gələcəyini demokratiyanın inkişafında görürəm. Azərbaycanın inkişafını bazar iqtisadiyyatının inkişafında görürəm. Bu istiqamətdə indiyə qədər gördüyümüz işləri davam etdirəcəyik və daha da sürətlə irəliyə gedəcəyik.

Mən sizin hamınıza bu görüşə görə bir daha təşəkkür edirəm. Hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

**BEYNƏLXALQ PROKURORLAR ASSOSİASİYASININ İCRAİYYƏ KOMİTƏSİNİN BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARINA MÜRACİƏT**

Hörmətli iclas iştirakçıları!

Beynəlxalq Prokurorlar Assosiasiyası İcraiyyə Komitəsinin növbəti iclasının Bakı şəhərində keçirilməsini təqdir edərək, onun iştirakçılarını salamlayıram.

1996-cı ildən fəaliyyətə başlamış və 80-dən artıq ölkəni əhatə edən Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclasının Azərbaycanda keçirilməsi həm bu təşkilatın fəaliyyətində, həm də müstəqilliyini bərpa edərək, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə irəliləyən ölkəmizin həyatında əlamətdar hadisədir.

Hamınızın üzv olduğu bu mötəbər təşkilatın amalı ədalətli, qərəzsiz, səmərəli cinayət təqibinin və ədalət mühakiməsinin həyata keçirilməsi, habelə cinayətkarlığa qarşı mübarizə problemlərinin həll olunması sahəsində müxtəlif dövlətlərin prokurorluq orqanlarının səylərini əlaqələndirməkdən və əməkdaşlığı genişləndirməkdən ibarətdir. Bu çox yüksək bir amaldır. Məmnunam ki, Azərbaycan Prokurorluğu da təşkilatınızın məqsədləri uğrunda səmərəli fəaliyyət göstərir.

Bəşər tarixi və müasir dünyada baş verən proseslər göstərir ki, cinayətkarlıq insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, ictimai-siyasi sabitliyi pozan, dövlətin əsas dayaqlarını sarsıdan, cəmiyyətin tərəqqisinə təhlükə törədən sosial bəladır. İctimai-iqtisadi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi irsindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, bu gün cinayətkarlıq problemləri ilə qarşılaşmasın. Müşahidələr onu deməyə əsas verir ki, törədilmiş cinayətlər getdikcə ağırlaşır, onların törədilmə üsulları qəddarlaşır, cinayətkarların özləri isə amansızlaşırlar.

Müasir inkişaf dövrü cinayətkarlığın qloballaşması ilə səciyyələnir. Belə ki, dünyada geniş vüsət almış inteqrasiya prosesləri transmilli mütəşəkkil cinayətkarlığın – terrorçuluq, korrupsiya, insan və silah alveri, narkobiznes, çirkli pulların yuyulması və digər bu kimi təhlükəli cinayətlərin yayılması ilə müşayiət olunur.

Bundan əlavə, dünyanın bəzi bölgələrində hələ də davam edən hərbi münaqişələr və onların nəticəsində formalaşmış işğalçı rejimlər hakimiyyət orqanlarının və beynəlxalq təşkilatların nəzarət edə bilmədiyi ərazilərdə terrorçuluq və digər «cinayətkarlıq yuvalarının» yaranmasına gətirib çıxarmışdır. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində ölkəmizin Dağlıq Qarabağ bölgəsində yaradılmış rejim buna əyani sübutdur. İşğalçı rejimlər beynəlxalq hüququn prinsip və normalarını, demokratik dəyərləri və insan hüquqlarını kobudcasına pozaraq, yalnız öz əhalisi üçün deyil, həm də digər ölkələrin əhalisi üçün real təhlükə yaratmaqdadırlar. Nə qədər ki, belə hallar aradan qaldırılmayıb, heç bir dövlət özünü rahat hiss edə bilməz.

Hörmətli iclas iştirakçıları!

Keçən il sentyabrın 11-də Vaşinqton və Nyu-York şəhərlərində baş vermiş dəhşətli terror aktlarının miqyası bir daha göstərdi ki, müasir dövrdə mütəşəkkil cinayətkarlıq bir və ya bir neçə dövlətin deyil, bütün dünyanın qlobal probleminə çevrilmişdir.

Bəşəriyyəti sarsıdan, beynəlxalq sülhə və əmin-amanlığa təhlükə törədən bu hadisələr hamımızı transmilli mütəşəkkil cinayətkarlığın həqiqi mahiyyətini dərk etməyə sövq edir və onunla mübarizədə daha da sıx əməkdaşlığı zəruri edir.

Əminəm ki, Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsindəki əməkdaşlığınız cinayətkarlığın qarşısının alınması və qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi kimi ali məqsədlərə nail olunmasına dəyərli töhfəsini verəcəkdir.

Məqsəd və məramlarınızın həyata keçirilməsində Sizə uğurlar arzulayıram.

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 may 2002-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında diplomatik münasibətlər yaradılmasının 10 illiyi münasibətilə Sizi təbrik edirəm.

Şadam ki, Azərbaycan və Moldova arasında bir-birinə hörmət, etimad və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan ənənəvi dostluq münasibətləri ötən dövr ərzində strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Beynəlxalq və regional təşkilatlarda mövqe və məqsədlərimizin yaxınlığı, qarşılıqlı fəaliyyətimiz və qarşılıqlı dəstəyimiz, transmilli layihələrin həyata keçirilməsi sahəsində birgə səylərimiz ölkələrimizin müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, iqtisadi inkişafına xidmət edir.

Azərbaycan Moldova ilə çoxsəpkili və qarşılıqlı surətdə faydalı əməkdaşlığı – ölkələrimizin xalqlarının ümdə mənafelərinə, regionda təhlükəsizliyin, sabitliyin və tərəqqinin təmin olunması vəzifələrinə cavab verən əməkdaşlığı bundan sonra da hər vasitə ilə inkişaf etdirmək əzmindədir.

Sizə möhkəm cansağlığı, səadət və dövlət fəaliyyətinizdə uğurlar, Moldova xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 may 2002-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ SƏFİRİ STİVEN MƏNN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*16 may 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Sizinlə yenidən görüşməyimdən çox məmnunam.

**S t i v e n M ə n n:** Cənab Prezident, səmimi qəbul üçün təşəkkürümü bildirirəm. Bəli, Bakıda olmağımdan çox məmnunam.

**H e y d ə r Ə l i y e v:** Hiss edirəm ki, yaxşısınız.

**S t i v e n M ə nn:** Mən Sizinlə tamamilə razıyam. Cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm ki, məni Bakıya dəvət etmisiniz. ABŞ prezidenti Corc Buşdan, dövlət katibi Kolin Pauelldən Sizə salamlar gətirmişəm. Məndən xüsusi xahiş ediblər ki, onların hörmət və ehtiramını Sizə yetirim. Vitse-prezident Dik Çeyni də Sizə salam göndərmişdir.

Mən buraya gəlməzdən əvvəl vitse-prezidentlə görüşdüm. O Sizin liderliyiniz haqqında, Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsi sahəsində Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığınız barədə çox yüksək fikirdədir və çox xoş sözlər dedi. Bir daha çox sağ olun, cənab Prezident.

**H e y d ə r Ə l i y e v:** Cənab səfir, sağ olun, sizə təşəkkür edirəm. Mən çox məmnunam ki, siz mənə bu qədər salamlar gətirmisiniz. Prezident cənab Buşdan salam almaq, təbiidir ki, mənim üçün çox sevindiricidir. Həmçinin dövlət katibi Kolin Pauelldən və vitse-prezident Çeynidən.

Mən çox məmnunam ki, sizin bildirdiyiniz kimi, onlar bizim fəaliyyətimizi yüksək qiymətləndirirlər. Bu bizim üçün və şəxsən mənim üçün böyük dəstəkdir. Çünki bilirsiniz ki, hər halda, biz burada mürəkkəb şəraitdə bir çox işlər görürük. Ona görə bizə verilən dəstək bizim üçün əhəmiyyətlidir. Xahiş edirəm, mənim salamımı, ən böyük hörmət və ehtiramımı prezident cənab Buşa çatdırasınız. Mənim səmimi salamımı dövlət katibi cənab Kolin Pauellə çatdırasınız. Vitse-prezident Çeyniyə salamımı, hörmət və ehtiramımı çatdırasınız. Bildirəsiniz ki, biz dostluğumuzu, əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.

Vitse-prezident cənab Çeyni vaxtilə Azərbaycanda olubdur. Mən onunla burada çox maraqlı söhbətlər aparmışam. Ancaq lazımdır ki, dövlət katibi Kolin Pauell də, prezident cənab Corc Buş da gəlib Azərbaycanı görsünlər. Xoş xəbərlərə görə mən sizə bir daha təşəkkür edirəm.

**S t i v e n M ə n n:** Cənab Prezident, çox sağ olun. Sizin salamlarınızı çox böyük ruh yüksəkliyi ilə Vaşinqtona aparacağam. Məlum olduğu kimi, çox vacib bir enerji layihəmiz vardır və uzun illərdir ki, onun üzərində işləyirik. Bu layihənin həyata keçirilməsinə nail olmağa çox yaxınıq. Biz Azərbaycanın neft və qaz yataqlarının istismar edilməsi prosesini böyük maraqla izləyirik. Fərəh hissi ilə demək istəyirəm ki, Amerika Birləşmiş Ştatları yeni boru kəmərlərinin çəkilməsində Azərbaycanla tərəfdaşdır.

Beləliklə, mən buraya gəlmişəm ki, boru kəmərlərinin inşasına başlanmazdan əvvəlki, bu son həftələr müddətində Azərbaycanla sıx işləyim və bu layihənin irəli getməsinə, onun tezliklə həyata keçirilməsinə kömək edim.

Artıq Azərbaycanda Yanacaq və Energetika naziri, Dövlət Neft Şirkətinin və Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin nümayəndələri ilə çox səmərəli görüşlərim olmuşdur. Onlardan aldığım bütün məlumatlar müsbət səciyyəlidir.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Siz bilirsiniz ki, biz bu layihənin üzərində uzun illərdir işləyirik. Bu layihəni çox ağır şəraitdə həyata keçirməkdə Amerika Birləşmiş Ştatları bizə daim dəstək veribdir. Xatırlayıram, Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçıları 1999-cu ildə İstanbulda Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac kəmərinin inşası haqqında müqaviləni imzalayarkən – üc dövlət başçısı yox, həmin layihəyə Qazaxıstan da qoşuldu – ona Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton da imza atdı. Biz 1994-cü ildən bu layihənin üzərində işləyirdik və nəhayət, 1997-ci ildə bu barədə saziş imzaladıq. Ondan sonra bizim işimizin ikinci mərhələsi başladı. Biz onu da uğurla keçdik. İndi üçüncü mərhələdir, inşaata başlayırıq. Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev sizinlə aparılan danışıqlar haqqında mənə məlumat verdi. O sizə deyib ki, bəzi xırda məsələlər var. Mən indi onu demək istəmirəm, kiçik məsələlərdir... Şirkətlərdən, başqalarından asılı məsələlərdir. Amma bunların hamısı həll olunacaqdır.

Bilirsiniz ki, indi də Bakı–Tbilisi–Ceyhana xor baxanlar var. Bəziləri deyirlər ki, bu, baş tutmayacaqdır. Onlar öz arzuladıqlarını deyirlər. İnandırmaq istəyirlər ki, onların arzuları doğrudur. Ona görə Bakı–Tbilisi–

Ceyhan boru xəttinə dünyada daim çox böyük maraq, böyük diqqət, eyni zamanda, müxtəlif tərəflərdən müqavimət var. Ona görə sizin xüsusi olaraq bu məsələ üçün Azərbaycana gəlməyiniz və bununla məşğul olmağınız məni çox sevindirir.

Biz bu layihəni yerinə yetirəcəyik. Buna mənim heç bir şübhəm yoxdur. Ancaq lazımdır ki, bəzi maneələr bizi gecikdirməsin. Güman edirəm, siz də bu işə həm kömək, həm də nəzarət edəcəksiniz.

**S t i v e n  M ə n n:** Cənab Prezident, çox sağ olun. Həqiqətən də biz bəzi məsələləri həll etməliyik. Bunlar əsas məsələlər deyil və praktiki olaraq layihənin həyata keçirilməsinə təsir göstərmirlər. Lakin artıq neft sənayesinə və eləcə də dünyaya yaxşı məlumdur ki, Bakı–Tbilisi–Ceyhan layihəsi işə düşəcəkdir. Əlbəttə, bu layihəyə müqavimət var.

Cənab Prezident, lakin mənim iqtisadi, həm də intellektual dəlillərim vardır ki, Bakı–Tbilisi–Ceyhan layihəsi yalnız Azərbaycana deyil, həm də bütün regiona xeyir verəcəkdir. Bu, Avrasiya üçün iqtisadi yüksəliş və inkişaf yoludur. Köhnə sovet inhisarı geridə qalmışdır. Azərbaycan xarici sərmayələri ölkəyə cəlb etməklə özü iş görür. Bunun ən bariz təzahürü Şərq–Qərb dəhlizinin yaranmasıdır.

Cənab Prezident, beləliklə, Sizin qəbul etdiyiniz qərarlara və müəyyən etdiyiniz yola bizim ölkədə böyük hörmət vardır.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Mən bir də qeyd edirəm ki, bu, ölkəmiz üçün çox böyük əhəmiyyətlidir ki, biz irəli gedəndə qarşımıza çıxan maneələrin hamısını dəf edə biləк.

Bilirsiniz ki, biz – Xəzəryanı ölkələrin dövlət başçıları Aşqabadda görüş keçirdik. Mən cənab Uilsona da bu barədə məlumat vermək istəyirdim, lakin vaxtım yox idi. Hesab edirəm ki, bu görüş çox yaxşı oldu. Heç bir qərar qəbul etmədik. Mən bilirdim ki, heç bir qərar qəbul olunmayacaqdır. Ancaq özlüyündə ilk dəfə keçirilən bu görüş çox əhəmiyyətli oldu. Çünki Xəzəryanı dövlətlər öz mövqelərini orada açıq-aydın, tək yox, mətbuata yox, bir-birlərinə bildirdilər. Azərbaycanın, Rusiyanın və Qazaxıstanın mövqeləri bir-birinin eyni oldu. Türkmənistan, İran isə başqa bir mövqedə oldular. Hər halda, hamıya aydın oldu ki, bu barədə kim hansı mövqedədir, kim nə istəyir. Mən bundan çox məmnunam. Bir şey həll etmədiksə də, bir-birimizə öz sözümüzü dedik.

Bilirsiniz ki, Rusiya ilə Qazaxıstan, Rusiya ilə Azərbaycan və Azərbaycanla Qazaxıstan arasında bu barədə artıq sazişlər imzalanıbdır. Bu günlərdə Moskvada Rusiya ilə Qazaxıstan dənizdə sektorların bölünməsi koordinatlarına aid son sazişi imzaladılar. Biz də Rusiya ilə belə bir saziş hazırlayırıq. Düşünürəm ki, iyun ayının əvvəlində mən Sankt-Peterburqda prezident Putinlə görüşəcəyəm, orada bu sazişi imzalayacağıq.

Beləliklə, Xəzərin statusu həll olunmayıbsa da, bu məsələdə irəliləyiş davam edir.

**S t i v e n  M ə n n:** Rusiya ilə Qazaxıstanın əldə etdikləri razılıq, zənnimizcə çox müsbət addımdır. Mən Rusiya ilə Azərbaycan arasında razılaşma əldə olunması münasibətilə Sizi qabaqcadan təbrik edirəm. Hesab edirəm ki, bu, Xəzər dənizinin sektorlara bölünməsində məsələyə çox realist yanaşmadır.

Cənab Prezident, elə bilirəm ki, Siz Rusiya və Qazaxıstana artıq göstərmisiniz ki, insanlar yalnız inzibati bölgü nöqteyi-nəzərindən fikirləşməməlidir, eyni zamanda iqtisadi maraqları da nəzərə almalıdırlar. Cənubi Qafqazda bu məsələ çox gərgindir. Lakin elə hesab edirəm ki, diplomatiya, ağıl və dözümlülük vasitəsilə Cənubi Qafqazda da buna nail olmaq mümkündür.

Sizin səylərinizi, eləcə də digər ölkələrin – Türkmənistanın, Qazaxıstanın, Rusiyanın səylərini Amerika Birləşmiş Ştatları hansı bir vasitə ilə dəstəkləyə, kömək edə bilərsə, biz bunu etməkdən çox xoşbəxt olarıq.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun.

**İNQUŞETİYA RESPUBLİKASININ PREZİDENTİ**
**CƏNAB MURAT ZYAZİKOVA**

Hörmətli Murat Maqomedoviç!

İnquşetiya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq münasibətləri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hərtərəfli əməkdaşlıq bundan sonra da Qafqazda sülh, sabitlik və tərəqqi naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2002-ci il*

**XALQ ARTİSTİ MİRZƏ BABAYEVƏ**

Hörmətli Mirzə Babayev!

Sizi, Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsini ifaçılıq yaradıcılığınızın 70 illik yubileyi münasibətilə səmimi- qəlbdən təbrik edirəm.

Siz Azərbaycanda estrada musiqisinin təşəkkül tapmasında və inkişafında böyük xidmətləri olan sənətkarlardansınız. Dövlət Caz Orkestrinin ilk solistlərindən biri kimi çıxışlarınız bu musiqi janrının qısa müddət ərzində ölkəmizdə geniş yayılmasında mühüm rol oynamışdır. Ürəyəyatan səs, orijinal ifaçılıq tərzi və yüksək səhnə mədəniyyəti ilə səciyyələnən yaradıcılığınız musiqi tariximizdə ayrıca bir mərhələ kimi qiymətləndirilə bilər. Azərbaycan bəstəkarlarının yüzlərlə mahnısı məhz sizin ifanızda musiqisevərlər arasında geniş şöhrət tapmış, sizə isə xalq arasında böyük rəğbət və məhəbbət qazandırmışdır.

Siz XX əsrdə öz çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin sürətli inkişafına töhfələr vermiş ziyalılar nəslinə mənsub olan insanlardansınız. Pərəstişkarlarınız sizi təkcə müğənni kimi deyil, həm də aktyor, memar və rəssam kimi tanıyırlar. Bir çox bədii filmlərdə yaratdığınız obrazlar öz təbiiliyi, orijinallığı və təsir gücü ilə kinoşünasların diqqətini cəlb etmiş, kino həvəskarları tərəfindən yüksək qiymətləndirilmişdir.

Sevindirici haldır ki, artıq dillər əzbəri olmuş mahnılarınızı yaşınızın bu müdrik çağında da əsl gənclik həvəsi ilə oxuyursunuz. Musiqi mədəniyyətimizə böyük məhəbbət və sıx bağlılıqla səciyyələnən fəaliyyətiniz sənətə sonsuz sədaqət nümunəsi, əsl həyat məktəbidir. Inanıram ki, hələ neçə-neçə sənətkarlar nəsli bu məktəbdən, sizin zəngin təcrübənizdən faydalanaraq Azərbaycan musiqisinin inkişaf etdirilməsinə öz layiqli payını verəcəkdir.

Sizə cansağlığı və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2002-ci il*

## BEYNƏLXALQ PROKURORLAR ASSOSİASİYASININ PREZİDENTİ NİKOLAS KOUDERİ BAŞDA OLMAQLA BU TƏŞKİLATIN İCRAİYYƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 may 2002-ci il*

**H e y d ə r   Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. İcraiyyə Komitəsinin iclasının Azərbaycanda keçirilməsindən çox məmnun qaldığımı bildirirəm. Beynəlxalq Prokurorlar Assosiasiyası qeyri-dövlət təşkilatı kimi, böyük işlər görür. Siz müxtəlif ölkələrin prokurorluq xidmətlərini, prokurorluq orqanlarının nümayəndələrini birləşdirərək, həm təcrübə toplayır, həm də təcrübə mübadiləsi aparır və bir-birinizə kömək edirsiniz. Azərbaycan müstəqil dövlət kimi gənc olsa da, qısa tarixi zamanda ölkə həyatının bütün sahələrində, o cümlədən məhkəmə-hüquq sistemi sahəsində xeyli işlər görübdür. Bizim məhkəmə sistemi, prokurorluq, demək olar ki, beynəlxalq standartlara uyğunlaşıbdır. Ancaq bu iş davam edir və başqa ölkələrin təcrübəsindən istifadə etməyə hələ çox böyük ehtiyac var. Güman edirəm ki, İcraiyyə Komitəsinin iclasını Azərbaycanda keçirməyiniz ölkəmiz üçün təcrübə əldə etmək imkanları yaradır.

Mən İcraiyyə Komitəsinin iclasına müraciətimi göndərmişəm, öz fikirlərimi və mülahizələrimi bildirmişəm.

**N i k o l a s   K o u d e r i:** Azərbaycanda olmaq bizə çox xoşdur və Siz bu gün bizi qəbul etməklə hamımıza böyük şərəf verdiniz. Əslində bizim buraya gəlməyimizə də səbəb elə Siz oldunuz. Biz qərara almışdıq ki, bu görüşü Bakıda keçirək və Siz razılığınızı bildirdiniz. Buna görə biz Sizə dərin minnətdarlığımızı bildiririk. Çoxumuz Azərbaycana ilk dəfə gəlirik və burada həddindən artıq xoş və dostcasına münasibətlə qarşılaşmışıq. Buna görə xalqınıza minnətdarlığımızı bildirmək istəyirik. Gördüklərimiz bizi həqiqətən valeh etmişdir, buradan çox gözəl təəssüratla qayıdacağıq.

Cənab Prezident, Beynəlxalq Prokurorlar Assosiasiyası haqqında məlumat verərək bildirim ki, bu təşkilata həm ölkələr, həm də fərdi şəxslər daxil olurlar. Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədov bir neçə ildir ki, İcraiyyə Komitəsinin üzvüdür. Onun vasitəsilə ölkəniz assosiasiyanin inkişafına nəzərəçarpacaq töhfələr vermişdir.

Mən Bakıda olarkən Respublika Baş prokurorunun Avropa Şurasının nümayəndələri ilə görüşündə iştirak etmişəm. Həmin görüş zamanı qanunun aliliyi, insan hüquqlarının qorunması, demokratiyaya, azadlıqlara hörmət nümayəndələr tərəfindən çox yüksək qiymətləndirilmişdir. Azərbaycanın 1995-ci il Konstitusiyasında və eləcə də ədliyyə və prokurorluqla əlaqədar olan qanunlarda Siz açıq-aydın göstərmisiniz ki, adı çəkilən bütün bu prinsipləri yüksək tutursunuz və ölkəniz inkişafını bu istiqamətdə davam etdirəcəkdir.

Biz elə bir vaxtda yaşayırıq ki, cinayətkarlıq qlobal səciyyə daşımağa başlayır. Bu, eyni ilə bizim iclasa Sizin müraciətinizdə də bildirilmişdir. Beynəlxalq terrorizmə qarşı görülməli olan tədbirlər də bu məsələnin nə dərəcədə vacib olduğunu göstərir. Beynəlxalq Prokurorlar Assosiasiyasının məqsədi bu sahədə prokurorların işini asanlaşdırmaq, onlara mümkün qədər yardım etməkdir.

Cənab Prezident, Sizə bir xatirə hədiyyəsi təqdim etmək istəyirik. Bunun rəmzi mənası da vardır. Biz bilirik ki, mayın 10-u Sizin ad gününüz idi. Gec də olsa, Sizi ad gününüz münasibətilə təbrik edir, ən xoş arzularımızı bildiririk. Arzu edirik ki, gələcəkdəki ad günləriniz bundan da xoşbəxt keçsin.

(*Nikolas Kouderi XVIII əsrə aid olan, üzərində Azərbaycan ərazilərinin də göstərildiyi xəritəni prezident Heydər Əliyevə təqdim etdi*).

**M a r k v a r t   Ş o l t s** (*Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibi*): Cənab Prezident, mən 1997-ci ildə Azərbaycanda olmuşam. Burada bir daha olmaq mənim üçün böyük şərəfdir. Xatirimdədir ki, həmin vaxt biz Sizinlə görüşmüşdük.

**B a r r i   H a n k o k** (*Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş müşaviri*): Cənab Prezident, mən isə Azərbaycana üçüncü dəfədir gəlirəm və hər dəfə də dövlət başçısı ilə görüşürəm. Respublika Prokurorluğunun 80 illiyi ilə keçirilən tədbirdə iştirak etdiyimi də çox yaxşı xatırlayıram. Biz Azərbaycan tərəfi ilə işləməkdən çox böyük məmnunluq duyuruq.

**F e n q   Y e** (*Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti*): Cənab Prezident, Sizə məmnunluqla bildirmək istəyirəm ki, Çin ilə Azərbaycan arasında çox gözəl münasibətlər vardır, ölkənin prokurorluq xidmətləri arasında yaxşı əlaqələr qurulmuşdur və bunun daha da genişləndirilməsi haqqında razılaşma imzalanmışdır.

**H e y d ə r Ə l i y e v:** Hamınıza təşəkkür edirəm. Mən sizə İcraiyyə Komitəsinin iclasının müvəffəqiyyətlə başa çatmasını arzu edirəm. Arzu edirəm ki, prokurorluq orqanları həm Beynəlxalq Prokurorlar Assosiasiyasının tərkibində, həm də başqa beynəlxalq təşkilatlarda daha da səmərəli əməkdaşlıq etsinlər.

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARDO ALBERTO DUALDEYƏ**

Hörmətli cənab Prezident!

Argentina Respublikasının milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizi və bütün Argentina xalqını təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Argentina arasında yaranmış dostluq münasibətləri xalqlarımızın yaxınlaşması və faydalı əməkdaşlığı üçün əlverişli zəmin olacaqdır.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə sabitlik və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2002-ci il*

**İORDANİYA HAŞİMİLƏR MƏMLƏKƏTİNİN**
**MƏLİKİ ƏLAHƏZRƏT II ABDULLAYA**

Əlahəzrət!

İordaniya Haşimilər Məmləkətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün İordaniya xalqını təbrik edirəm.

Azərbaycan ilə İordaniya arasındakı dostluq münasibətlərindən böyük məmnunluq duyuram. Əminəm ki, qarşılıqlı səylərimiz sayəsində əlaqələrimizi daha da genişləndirəcək, hər cəhətdən faydalı əməkdaşlığa nail olacağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına sülh və tərəqqi arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2002-ci il*

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**

Hörmətli Eduard Amvrosiyeviç!

Milli bayram – Dövlət müstəqilliyinin bərpası günü münasibətilə Sizi, Gürcüstanın dost xalqını ürəkdən təbrik edirəm.

Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan münasibətlər inkişaf edir və regionumuzda sülh, sabitlik və təhlükəsizlik işinə xidmət edir.

İnanıram ki, Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı surətdə faydalı və hərtərəfli əməkdaşlıq xalqlarımızın və dövlətlərimizin rifahı naminə genişlənəcək və dərinləşəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, uğurlar, Gürcüstan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2002-ci il*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB POL BİYYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və bütün Kamerun xalqını təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranan dostluq münasibətləri faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamerun xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 may 2002-ci il*

**ROMA PAPASI II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ**

Əlahəzrət!

Ad gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz bütün ömrünüz boyu humanizm ideallarına sədaqətlə xidmət edərək, insanlar arasında qarşılıqlı anlaşma, mərhəmət, şəfqət hisslərini, dostluq və əməkdaşlığı tərənnüm edirsiniz.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs işinizdə uğurlar diləyirəm.

Tezliklə Sizi Bakıda gözləyirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*18 may 2002-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN DƏVƏTİ İLƏ İRANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*18 may 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən İrana rəsmi səfərə gedirəm. İranın prezidenti cənab Xatəmi məni dəvət edibdir. Səfərin də məqsədi İran–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsindən ibarətdir. Kimin nə sözü varsa, buyursun.

**S u a l: Cənab Prezident, görüşünüzdə Xəzərin statusuna dair müzakirələr aparılacaqmı və bu müzakirələrdən nə gözləyirsiniz?**

**C a v a b:** Bəli, aparılacaq. Ola bilməz ki, mən İrana gedim, orada Xəzərin statusu haqqında müzakirə aparılmasın. Aparılacaqdır.

**S u a l: Cənab Prezident, Sizcə, bu səfər arada olan mübahisələrə son qoya bilərmi?**

**C a v a b:** Çalişiriq ki, mübahisələr olmasın.

**S u a l: Cənab Prezident, Sizə yaxşı yol və cansağlığı arzu edərək, istərdim soruşum ki, İranın bölgədəki mövqeyi baxımından iki ölkə arasındakı əlaqələrin Azərbaycan üçün nə kimi önəmi ola bilər?**

**C a v a b:** Bu əlaqələr həm Azərbaycana, həm də İrana lazımdır. Biz qonşuyuq və keçmişdə çox əlaqələrimiz olubdur, bu gün də var. İndi bu əlaqələrin bütün sahələrdə – iqtisadiyyat, mədəniyyət, elm, təhsil, idman və başqa sahələrdə inkişaf etdirilməsi və dövlətlərarası münasibətlərin daha da mehribanlaşması həm İran üçün, həm də Azərbaycan üçün lazımdır.

**S u a l: Azərbaycan İran üçün nə kimi önəm daşıyır və nə edə bilər?**

**C a v a b:** Bunu dedim, Azərbaycan da İran üçün çox önəmlidir, İran da Azərbaycan üçün önəmlidir.

**S u a l: Cənab Prezident, İranda yaşayan azərbaycanlılarla Sizin görüşləriniz nəzərdə tutulurmu?**

**C a v a b:** Orada dövlət işində olanların bir hissəsi elə azərbaycanlılardır. Onlarla görüşəcəyəm.

**S u a l: Cənab Prezident, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı söhbət aparılacaqmı?**

**C a v a b:** Mütləq aparilacaq.

**S u a l: Sizin səfərinizdən sonra İran bu münaqişənin həllinə fəal surətdə cəlb oluna bilərmi?**

**C a v a b:** Baxarıq.

**S u a l: Cənab Prezident, belə bir məlumat var ki, iyun ayında Norveçdə Köçəryanla Sizin görüşünüz gözlənilir. Bu məlumat doğrudurmu?**

**C a v a b:** Ola bilər ki, nə vaxtsa biz görüşək, amma bunun vaxtı müəyyən olunmayıbdır.

**S u a l: Cənab Prezident, Praqa görüşünün nəticəsi necə oldu?**

**C a v a b:** Onu biz hələ təhlil etməmişik.

**S u a l: Bu səfərdən gözlədiyiniz nədir?**

**C a v a b:** Gözləyirəm ki, İranla Azərbaycan bir-biri ilə daha da mehriban, dost olsunlar.

**S u a l: Cənab Prezident, sahibkarlarla Sizin görüşünüzdən sonra hansı tədbirlər görüləcəkdir?**

**C a v a b:** Mən birinci görüşdə də, ikinci görüşdə də demişdim. Bu görüşlərin nəticələri çox ətraflı, ciddi təhlil olunur. Bunların əsasında lazımi tədbirlər hazırlanır. Bunlar hazırlanan zaman mən Azərbaycanın hakimiyyət orqanlarının nümayəndələri ilə görüş keçirəcəyəm.

**S u a l: Görüşün nəticələrinə uyğun olaraq hansısa kadr dəyişiklikləri ola bilərmi?**

**C a v a b:** Yaşayarıq, görərik.

**S u a l: Səfər zamanı siyasi bəyannamə imzalanacaqmı?**

**C a v a b:** Çox yaxşı bir müqavilə imzalanacaqdır.

**S u a l: İran–Azərbaycan əlaqələrinin inkişafı bölgədə sülhün və sabitliyin bərqərar olmasına nə kimi təsir göstərəcəkdir?**

**C a v a b:**Yaxşi təsir göstərə bilər. Görürəm, sözünüz qurtarıbdır. Sağ olun.

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**PREZİDENTİ HEYDƏR ƏLİYEVİN**
**İRANA RƏSMİ SƏFƏRİ**

*18 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 18-də günorta Tehrana gəlmişdir.*

*İran paytaxtının Mehrabad hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi təyyarənin pilləkəni yanında İranın Kooperasiya naziri Əli Sufi, Xarici Işlər nazirinin müavini Möhsün Əminzadə, İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfəri, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov, İranın Bakıdakı səfiri Əhəd Qəzai mehribanlıqla qarşıladılar. Respublikamızın rəhbərinə gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dövlətimizin başçısı maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış «Gülüstan» iqamətgahına gəldi.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev qısa istirahətdən sonra İran prezidentinin dövlət iqamətgahına gəldi. Burada rəsmi qarşılanma mərasimi oldu.*

*Respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İran İslam Respublikasının prezidenti cənab Seyid Məhəmməd Xatəmi Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi hərarətlə qarşıladı.*

*Azərbaycanın və İranın dövlət himnləri səsləndi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

## İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*18 may 2002-ci il*

*İran prezidentinin dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi arasında təkbətək görüş olmuşdur.*

*Görüşün əvvəlində dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Cənab Xatəmi, İran fələstinliləri müdafiə etməyə, İsrail ilə əlaqələri kəsməyə çağırır. Bəs, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə İrandan belə bir mövqe gözləmək olarmı?**

**C a v a b:** Mənə sual verdiyinizə görə təşəkkür edirəm. Amma mən gözləyirdim ki, jurnalistlər əvvəlcə hörmətli qonağımıza, sonra mənə sual verəcəklər.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə İranın mövqeyi məlumdur. Biz Ermənistanın Azərbaycana təcavüzünü pisləmişik və bunu müxtəlif beynəlxalq təşkilatlarda, yüksək səviyyələrdə elan etmişik. Biz belə fikirdəyik ki, bu münaqişə danışıqlar və sülh yolu ilə həll olunmalıdır.

Sözsüz ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll edilməməsindən narahatıq, amma Fələstində baş verən hadisələr tayı-bərabəri olmayan qeyri-insani fəlakətdir. Bunu digər hadisələrlə müqayisə etmək mümkün deyildir. Torpağın qəsb edilməsi, işğal olunması bir məsələdir, həmin torpaq üzərində yaşayan insanların – qadınların, uşaqların vəhşicəsinə öldürülməsi isə çox ağır məsələdir. İctimaiyyət bu hadisəyə xüsusi diqqət yetirir, belə görünür ki, bu faciəyə dözmək olmaz.

**S u a l: Hörmətli cənab prezident Heydər Əliyev, Sizin İrana səfərinizin məqsədi nədən ibarətdir?**

**C a v a b:** Sizə təşəkkür edirəm. Mənim İrana rəsmi səfərimin məqsədi Azərbaycan–İran dostluğunu və əməkdaşlığını daha da inkişaf etdirməkdən ibarətdir. Biz qonşu ölkələrik, qədim müştərək tariximiz vardır, milli-mənəvi dəyərlərimiz bir-birinə bənzərdir, bunlar hamısı xalqlarımızın tarixən dostluğunu təmin edibdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra çox ölkələrlə dostluq, əməkdaşlıq əlaqələri qurub və bunu inkişaf etdirir. Azərbaycan ilə İran arasındakı əlaqələr də on il bundan əvvəl qurulub və ötən müddət ərzində böyük yol keçibdir. Ancaq biz hesab edirik ki, bu əlaqələr daha da genişləndirilməli, inkişaf etməlidir. Bax, bu məqsədə nail olmaq üçün mən İrana rəsmi səfərə gəlmişəm.

**S u a l: Cənab prezident Heydər Əliyev, Sizin İrana rəsmi səfəriniz bir neçə dəfə təxirə salınmışdır. Tehrana indi rəsmi səfərə gəlməyiniz hansı amillərlə bağlıdır.**

**İkinci sualım cənab Xatəmiyədir. Cənab Xatəmi, Xəzəryanı ölkələr qarşıya çıxan problemləri dərhal həll etmək üçün bir birlik yaratsalar, daha yaxşı olmazmı?**

**H e y d ə r Ə l i y e v:** Bəli, biz bir-iki dəfə İrana rəsmi səfərə hazırlaşmışıq, lakin bu, təxirə salınıbdır. Bunun obyektiv səbəbləri olubdur. Amma ötən müddətdə mən İranda səfərdə olmuşam. Məsələn, 2000-ci ildə mən İranda EKO təşkilatının zirvə görüşündə iştirak etmişəm. Mən o vaxt burada olarkən hörmətli prezident cənab Xatəmi ilə çox əhəmiyyətli görüşlər keçirmişik, danışıqlar aparmışıq. O zaman İranın ali dini rəhbəri ayətullah Seyid Əli Xamenei ilə də görüşmüşəm, danışıqlar aparmışam. Yəni bizim əlaqələrimiz davam edibdir. Amma mən bu gün İrana rəsmi səfərə gəlmişəm. Bu mənim İrana əvvəlki səfərlərimdən çox fərqlidir. Bu rəsmi səfər zamanı biz bir çox məsələləri müzakirə edəcək, dövlətlərimiz arasında əməkdaşlığa dair bir sıra sənədlər imzalayacağıq ki, bunun da böyük əhəmiyyəti var.

**M ə h ə m m ə d X a t ə m i:** Xəzər dənizi qapalı göl sayılır və Xəzəryanı beş ölkəyə aiddir. Xəzərdən istifadə bu ölkələr arasındakı razılıq əsasında həyata keçirilməlidir. Biz hamımız, yəni beş ölkə belə hesab edirik ki, Xəzər dənizi bu beş ölkəyə aiddir. Digər məsələlər – ekologiya, gəmiçilik, balıqçılıq və sair məsələlər sahəsində qarşılıqlı anlaşma şəraitində əməkdaşlıq olmalıdır. Sözsüz ki, keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Xəzər dənizinin istifadəsinə dair üsullar dəyişibdir. Ona görə də bu sahədə əməkdaşlığa yeni bir baxış meydana gəlibdir. Odur ki, bu məsələ qarşılıqlı anlaşma və sülh yolu ilə həll olunmalıdır.

Mazandaran gölü ətrafında yerləşən ölkələrin dövlət başçılarının Aşqabadda sammiti keçirildi. Bu çox əhəmiyyətli bir zirvə görüşü idi.

**H e y d ə r Ə l i y e v:** Mən başa düşmədim, Mazandaran gölü nə deməkdir?

**M ə h ə m m ə d X a t ə m i:** Siz tərəfdə Xəzərə Qəzvin gölü, İranda isə Mazandaran gölü deyirlər. Amma heç bir tərəf narahat olmasın deyə, onun adını Xəzər dənizi qoyaq.

**H e y d ə r Ə l i y e v:** Onun adı çoxdan Xəzər dənizidir. Xəzər dənizinin adını dəyişmək olmaz.

**M ə h ə m m ə d X a t ə m i:** Bəli, onun adı ingiliscə Kaspian si-dir.

**H e y d ə r  Ə l i y e v:** Bəli, Kaspian si – Xəzər dənizi.

**M ə h ə m m ə d  X a t ə m i:** Dəryayi-Kaspi.

**H e y d ə r  Ə l i y e v:** Dəryayi-Kaspi sözünü mən birinci dəfədir eşidirəm.

**M ə h ə m m ə d  X a t ə m i:** Kaspian – Qəzvin deməkdir. İcazə verin suala cavab verim. Xəzər dənizi beş ölkəyə aiddir. Ümidvarıq ki, Xəzəryanı ölkələr bütün sahələrdə dostcasına, qardaşcasına əməkdaşlıq edib, bu məsələləri həll edəcəklər. Aşqabad zirvə görüşü çox əhəmiyyətli bir toplantı idi. Xəzərin həddindən artıq zəngin ehtiyatlarından sahilyanı bütün ölkələr istifadə etməlidir.

* * *

*Sonra görüş mətbuat nümayəndələrinin iştirakı olmadan davam etdirildi.*

*Azərbaycan prezidenti Heydər Əliyevi hörmət və ehtiramla salamlayan İran prezidenti Seyid Məhəmməd Xatəmi dəvətini qəbul edib Tehrana rəsmi səfərə gəldiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirdi. Cənab Məhəmməd Xatəmi böyük siyasi təcrübəyə malik olan müdrik dövlət xadimi Heydər Əliyev ilə hər bir görüşü çox faydalı və dəyərli hesab etdiyini bir daha nəzərə çatdırdı.*

*Prezident Heydər Əliyevin Tehrana rəsmi səfərinin İran–Azərbaycan əməkdaşlığında yeni üfüqlər açdığını vurğulayan prezident Seyid Məhəmməd Xatəmi bu səfərin ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin inkişafında mühüm mərhələ olduğunu bildirdi.*

*Səmimi sözlərə, rəsmi səfərə dəvətə görə təşəkkür edən prezident Heydər Əliyev dost və qonşu ölkədə ona və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərlikdən məmnun qaldığını söylədi.*

*Azərbaycan–İran ikitərəfli münasibətlərinin inkişaf etdirilməsi barədə geniş müzakirələr aparan prezidentlər bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin və dərinləşdirilməsinin zəruri olduğunu bildirdilər.*

*İqtisadi əlaqələrin inkişafında böyük əhəmiyyəti olan layihələrdə ölkələrimizin iştirakının vacibliyini nəzərə çatdıran dövlət başçıları Şimal–Cənub nəqliyyat dəhlizinin geniş perspektivləri olduğunu yekdilliklə təsdiq etdilər.*

*Xəzərin hüquqi statusu məsələsindən  söhbət açan prezidentlər sahilyanı ölkələrin bütün sahələrdə əməkdaşlığının daha da sıxlaşdırılmasının böyük əhəmiyyət daşıdığını, Xəzərin bundan sonra da sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi olacağına ümid bəslədiklərini bildirdilər. Prezidentlər Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı ekspertlər səviyyəsində müzakirələrin davam etdirilməsinin zəruriliyini vurğuladılar.*

*Görüşdə prezidentlər ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsinə də geniş yer ayırdılar. Prezident Heydər Əliyev xatırlatdı ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altında qalmaqdadır, bir milyon azərbaycanlı uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşayır.*

*Münaqişənin sülh yolu ilə həll edilməsi üçün aparılan danışıqlar prosesindən bəhs edən prezident Heydər Əliyev bu münaqişənin tezliklə aradan qaldırılması sahəsində Minsk qrupunun üzvü olan dövlətlərin səylərinin artırılmasının vacibliyini nəzərə çatdırdı.*

*Ermənistanın Azərbaycana təcavüzünün İran tərəfindən pislənildiyini və İranın bunu beynəlxalq təşkilatlarda açıq elan etdiyini vurğulayan prezident Seyid  Məhəmməd Xatəmi bu münaqişənin hələ də həll olunmamasından öz ölkəsinin narahatlığını bildirdi və münaqişənin tezliklə aradan qaldırılmasının bölgədə sülhün və əmin-amanlığın bərpa edilməsində mühüm rol oynayacağına əmin olduğunu söylədi.*

*Qədim tarixi ənənələrə malik qonşu və dost ölkələrimizin elm, təhsil, mədəniyyət və digər sahələrdə əlaqələrinin hazırkı vəziyyəti barədə müzakirələr aparan prezidentlər bu əlaqələrin daha da sıxlaşdırılmasının vacibliyini vurğuladılar.*

*Görüşdə prezidentlər bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi apardılar.*

*Prezident Heydər Əliyev prezident Seyid Məhəmməd Xatəmini Azərbaycana bir daha rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

* * *

*Dövlət başçılarının iki saatdan çox davam edən təkbətək görüşündən sonra prezident Heydər Əliyevin və prezident Seyid Məhəmməd Xatəminin iştirakı ilə geniş tərkibdə Azərbaycan–İran danışıqları oldu.*

*Azərbaycan prezidenti Heydər Əliyevi və onun başçılıq etdiyi nümayəndə heyətini bir daha səmimiyyətlə salamlayan, xalqlarımızın qədim tarixi, milli-mənəvi, dini, mədəni bağlılığından söz açan prezident Seyid Məhəmməd Xatəmi ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etdirilməsinin əhəmiyyətli olduğunu nəzərə çatdırdı.*

*İran prezidenti Seyid Məhəmməd Xatəmi iqtisadi əlaqələrin genişləndirilməsi üçün energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığın böyük imkanlar açdığını vurğuladı. O, Şimal–Cənub nəqliyyat dəhlizinin geniş perspektivlərə malik olduğunu bildirməklə yanaşı, Bakı–Astara avtomobil yoluna, Astara–Astara, və Astara–Qəzvin dəmir yollarının çəkilməsinə İranın böyük əhəmiyyət verdiyini söylədi.*

*Eyni bölgədə yerləşən qonşu və dost ölkələrimizin təhlükəsizliyinin, əmin-amanlığının bir-birinə bağlı olduğunu xatırladan cənab Seyid Məhəmməd Xatəmi Azərbaycanın və İranın qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsinin hər iki tərəf üçün böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*Azərbaycan prezidenti Heydər Əliyevin İrana indiki rəsmi səfərinin ölkələrimizin əlaqələrinin inkişafında yeni mərhələ açacağını söyləyən İran prezidenti ümidvar olduğunu bildirdi ki, bu səfər hər iki ölkənin xalqlarına fayda gətirəcəkdir.*

*Səmimi sözlərə görə və İran İslam Respublikasına rəsmi səfərə dəvətə görə prezident Seyid Məhəmməd Xatəmiyə minnətdarlıq edən prezident Heydər Əliyev Tehrana gəldiyi ilk andan ona və nümayəndə heyətinə göstərilən dostcasına və mehriban münasibətdən çox məmnun qaldığını söyləyərək dedi ki, ötən saatlarda biz Sizinlə təkbətək və nümayəndələrimizlə birlikdə çox səmərəli danışıqlar apardıq. Bütün bunlar isə onu göstərir ki, mənim İrana rəsmi səfərim doğrudan da həm lazımdır, həm də çox əhəmiyyətlidir. Sizin də, mənim də əsas məqsədimiz İran–Azərbaycan əlaqələrini daha da inkişaf etdirməkdən ibarətdir. Xalqlarımızın çoxəsrlik tarixi, müştərək ənənəsi, milli-mənəvi, dini dəyərləri bizi həqiqətən bir-birimizə bağlayıbdır.*

*Prezident Heydər Əliyev İrana rəsmi səfərini, burada keçirilən görüşləri, aparılan danışıqları İran–Azərbaycan əlaqələrinin inkişafında yeni bir mərhələ kimi qiymətləndirdi.*

*Görüşdə Azərbaycan–İran hökumətlərarası müştərək komissiyasının fəaliyyətinin genişləndirilməsinə dair məsələlər nəzərdən keçirildi, Xəzər dənizində əməkdaşlıq, nəqliyyat, ticarət, gömrük, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı.*

* * *

*Mayın 18-də axşam İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəminin adından Azərbaycan Pespublikasının prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu.*

## İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT

*19 may 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Tehrana səfərinin ikinci günü İran inqilabının rəhbəri imam Xomeyninin məqbərəsini ziyarətə gəldi. Dövlətimizin başçısını hərarətlə, mehribanlıqla qarşıladılar.*

*Burada Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri ifa olundu.*

*Azərbaycan prezidenti Heydər Əliyev imam Xomeyninin məqbərəsinə əklil qoydu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

«İran İslam Respublikasının rəhbəri ayətullah Xomeyninin qəbrini ziyarət edərək, onun xatirəsinə böyük hörmət və ehtiramımı bildirirəm.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

19 may 2002-ci il».

## İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ*

*19 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyevi səmimiyyətlə, mehribanlıqla salamlayan, onunla hər bir görüşdən çox məmnun qaldığını söyləyən ayətullah Seyid Əli Xamenei əmin olduğunu bildirdi ki, Azərbaycan prezidentinin İrana rəsmi səfəri iki dost və qonşu ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ açacaqdır.*

*Səmimi sözlərə, xoş münasibətə görə təşəkkür edən prezident Heydər Əliyev İrana rəsmi səfərə gəlməyindən və İranın ali dini rəhbəri ayətullah Seyid Əli Xamenei ilə görüşündən çox məmnun olduğunu, özünə və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərlikdən, səfər zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan razılığını bildirdi. Bu səfərin İran–Azərbaycan münasibətlərinin inkişafına böyük təsir göstərəcəyinə ümid bəslədiyini bildirən dövlətimizin başçısı dost, qonşu İran ilə bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər olduğunu vurğuladı.*

*Görüşdə bölgəmiz üçün çox böyük əhəmiyyəti olan Şimal–Cənub nəqliyyat dəhlizi layihəsində ölkələrimizin birgə iştirakı, Xəzər dənizində əməkdaşlıq məsələləri ətraflı müzakirə edildi. Bildirildi ki, Xəzər dənizi sülh, mehribanlıq və dostluq dənizi olmalıdır.*

*Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri davam etdiyini bildirən prezident Heydər Əliyev torpaqlarımızın 20 faizinin hələ də işğal altında qaldığını, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan qovularaq çadırlarda ağır şəraitdə yaşadığını xatırlatdı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlar prosesindən söhbət açdı.*

*Azərbaycan ilə İran arasındakı tarixi, mənəvi yaxınlığı, dərin əlaqələri yüksək dəyərləndirən ayətullah Xamenei Azərbaycan prezidenti Heydər Əliyevin bu səfərini ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə inkişafı üçün əhəmiyyətli olduğunu nəzərə çatdırdı.*

*Qafqazda baş verən münaqişələrin bölgədə sülhün və əmin-amanlığın bərqərar edilməsinə əngəl törətdiyini bildirən ayətullah Xamenei öz ölkəsinin Ermənistanın Azərbaycana təcavüzünü pislədiyini, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini vurğuladı.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan–İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.*

---

* Görüşdə İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi də iştirak edirdi.

## İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİNİN – İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ MEHDİ KƏRRUBİ İLƏ GÖRÜŞ

*19 may 2002-ci il*

*Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Mehdi Kərrubi Azərbaycan prezidenti Heydər Əliyevin İrana rəsmi səfərini yüksək dəyərləndirdi, respublikamızın rəhbəri ilə görüşdən çox məmnun olduğunu bildirdi.*

*Ölkələrimizin bütün sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün xeyli işlər görüldüyünü nəzərə çatdıran cənab Mehdi Kərrubi Azərbaycan və İran parlamentləri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın ildən-ilə inkişaf etməsindən razılıqla söhbət açdı.*

*İrana rəsmi səfərinin gedişindən, göstərilən qonaqpərvərlikdən məmnun qaldığını söyləyən prezident Heydər Əliyev qədim dostluq ənənələrinə malik ölkələrimizin əməkdaşlığının bütün sahələrdə inkişafının, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacib olduğunu bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə İran arasında bütün sahələrdə əlaqələrin hərtərəfli inkişaf etdirilməsi üçün böyük imkanlar olduğu və bu imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyi vurğulandı.*

*Prezident Heydər Əliyev və cənab Mehdi Kərrubi ölkələrimiz, xalqlarımız arasında səmimi və mehriban münasibətlərin möhkəmləndirilməsində Azərbaycan və İran parlamentlərindəki dostluq qruplarının rolunu müsbət qiymətləndirdilər, eyni zamanda, onların fəaliyyətinin daha da genişləndirilməsinin əhəmiyyətini vurğuladılar.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.*

### Görüşdən sonra Azərbaycan prezidenti Heydər Əliyevin və İran İslam Şurası Məclisinin sədri Mehdi Kərrubinin jurnalistlərin suallarına verdiyi cavab

**S u a l: Cənab Kərrubi, Azərbaycan prezidenti Heydər Əliyev ilə keçirdiyiniz görüşün nəticələrini necə qiymətləndirirsiniz?**

**M e h d i K ə r r u b i:** Azərbaycanın hörmətli prezidenti Heydər Əliyevin İrana rəsmi səfərə gəlməsi ölkələrimiz arasındakı münasibətlərdə yeni mərhələ yaradacaqdır. Biz uzun müddət idi ki, cənab prezident Heydər Əliyevin İrana səfərini gözləyirdik. Nəhayət, bu səfər həyata keçirildi.

Azərbaycan prezidenti Heydər Əliyev İran prezidenti Məhəmməd Xatəmi ilə çox səmərəli, mənalı görüşlər keçirmişdir. Hər iki tərəf çalışır ki, ölkələrimiz arasında bütün sahələrdə münasibətlər, o cümlədən parlamentlərarası əlaqələr inkişaf etsin, möhkəmlənsin.

Cənab prezident Heydər Əliyevi böyük bir nümayəndə heyəti – nazirlər müşayiət edirlər. Onlar öz həmkarları ilə danışıqlar aparıblar. Məqsəd bütün sahələrdə əlaqələri inkişaf etdirməkdən ibarətdir.

**S u a l: Cənab Kərrubi, görüşdə Xəzər dənizinin statusu məsələsinə toxunuldumu?**

**M e h d i K ə r r u b i:** Biz belə hesab edirik ki, Xəzər sülh, təhlükəsizlik və əmin-amanlıq dənizi olmalıdır.

**S u a l: Cənab prezident Heydər Əliyev, Xəzəryanı ölkələrin ümumi bir fikrə gəlmələri üçün müəyyən əngəllər vardır. Siz buna necə baxırsınız?**

**İkinci sualım belədir ki, dünyanın bir sıra böyük dövlətləri Xəzər probleminin həllinə maneçilik törədirlər. Sizcə, Xəzər problemi yaxın gələcəkdə həll olunacaqmı? İran dövləti bölgədən kənarda yerləşən böyük dövlətlərin bu məsələyə müdaxiləsinin əleyhinədir.**

**H e y d ə r Ə l i y e v:** Biz – Xəzəryanı ölkələrin dövlət başçıları Aşqabadda görüşdük və Xəzərin statusu barədə müzakirələr apardıq. Müxtəlif fikirlər oldu. Ancaq hesab edirəm ki, Aşqabad zirvə görüşü çox əhəmiyyətli idi. Bu görüşdə Xəzəryanı ölkələrin dövlət başçılarının hər biri öz dövlətinin fikrini bildirdi.

Xəzərin hüquqi statusu böyük məsələləri – ekologiya, gəmiçilik, dənizin bioloji ehtiyatlarının qorunması, çirklənmənin qarşısının alınması və Xəzərin enerji ehtiyatlarından istifadə olunması məsələlərini əhatə edir. Biz bu sahədə əməkdaşlığa təzə başlamışıq. Güman edirəm ki, bu əməkdaşlıq davam edəcəkdir. Yəqin ki, Xəzəryanı ölkələrin dövlət başçıları bir-birinin fikrinə hörmətlə yanaşaraq, bu məsələdə müəyyən bir razılığa gələcəklər.

Xəzərdən kənarda yerləşən dövlətlərin bu məsələyə qarışması barədə məndə məlumatlar yoxdur. Sağ olun.

## AZƏRBAYCANIN TEHRANDAKI SƏFİRLİYİNDƏ GÖRÜŞ

*19 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 19-da ölkəmizin Tehrandakı səfirliyində olmuşdur.*

*Dövlətimizin başçısını səfirliyin binası qarşısında hərarətlə, gül-çiçəklə qarşıladılar. Prezident Heydər Əliyev səfirliyin əməkdaşları və onların uşaqları ilə mehribanlıqla görüşdü.*

*Respublikamızın İrandakı səfiri Abbasəli Həsənov buradakı Azərbaycan diplomatlarının fəaliyyəti, son illərdə görülən işlər barədə məlumat verərək dedi ki, cənab Prezident, bütün sahələrdə qonşu ölkə ilə münasibətlərimizi inkişaf etdirmək barədə Sizin tapşırıqlarınızı yerinə yetirməyə çalışırıq. Bunlar səfirliyimizin əməkdaşlarının uşaqlarıdır. Buradakı məktəbdə oxuyurlar.*

**H e y d ə r Ə l i y e v:** Necəsiniz, uşaqlar, məktəbə gedirsiniz? Azərbaycan dilini yaxşı bilirsiniz?

**U ş a q l a r:** Hörmətli Prezidentimiz, yaxşıyıq, çox sağ olun. Məktəbə də gedirik, Azərbaycan dilini də bilirik.

**H e y d ə r Ə l i y e v:** Daha hansı dili öyrənirsiniz?

**U ş a q l a r:** İngilis, rus, fars, türk dillərini öyrənirik.

**H e y d ə r Ə l i y e v:** Həm Azərbaycan dilini, həm də türk dilini, başqa dilləri. Görün neçə dil öyrənirsiniz. Adın nədir?

**U ş a q:** Nəsrəddin.

**H e y d ə r Ə l i y e v:** Yaxşı addır. Nəsirəddin Tusi bizim böyük alimimiz olubdur. Onu tanıyırsan, onun haqqında oxumusan?

**N ə s r ə d d i n:** Bəli, tanıyıram, amma oxumamışam.

**H e y d ə r Ə l i y e v:** Burada Marağa şəhəri var, o orada yaşayıbdır. Sonra onun haqqında oxuyarsan.

*Uşaqlar vətənə, Heydər Əliyevə həsr olunmuş şeirlər söylədilər:*

*Çox keçmişəm bu dağlardan,*
*Durna gözlü bulaqlardan,*
*Eşitmişəm uzaqlardan*
*Sakit axan Arazları,*
*Sınamışam dostu, yarı...*

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

*Mən bir uşaq, sən bir ana,*
*Odur ki, bağlıyam sana.*
*Hansı səmtə, hansı yana*
*Hey uçsam da yuvam sənsən,*
*Elim, günüm, obam sənsən!*

*Fəqət səndən gen düşəndə,*
*Ayrılıq məndən düşəndə,*
*Saçlarıma dən düşəndə*
*Boğar aylar, illər məni,*
*Qınamasın ellər məni.*

* * *

*Heydər baba, sən bizi*

*azadlığa çatdırdın,*
*Qəhrəman elimizi*
*dünyaya tanıtdın.*
*Ömrün zəfərlə dolu, yolun azadlıq yolu,*
*Ey xalqımın mərd oğlu,*
*əziz Heydər babamız.*
*Hər günümüz xoş keçir*
*səninlə, Heydər baba,*
*Yurdumuz çiçək açır*
*səninlə, Heydər baba.*
*Sənin kimi ağıllı,*
*sənin kimi qayğıkeş,*
*Dağ vüqarlı, mehriban*
*baba görməmişik biz!*

* * *

*Heydər baba, Azərbaycan oğlusan,*
*Ürəyinlə öz xalqına bağlısan,*
*Dərin zəkan ilə ümman salmısan.*
*İstərəm həmişə firavan olsun,*
*Heydər baba, daim üzün ağ olsun,*
*Şan-şöhrətli igidlərin sağ olsun,*
*Əyilməyən vüqarın bir dağ olsun.*
*Heydər baba, xoş günümüz gələcək,*
*Övladların şadlanacaq, güləcək.*

* * *

*Sən xalqınla nəfəs aldın,*
*Neçə kənd və şəhər saldın,*
*Qartal kimi sən ucaldın,*
*Heydər baba, yüz il yaşa.*

*Çətin gündə* dayaq oldun,
*Gecə-gündüz oyaq oldun,*
*Bu ellərə mayak oldun,*
*Heydər baba, yüz il yaşa.*

* * *

*Uca tut başını,* ey ulu *Vətən,*
*Heydər babam tək rəhbərimiz var.*
*Vətənin işıqlı sabahı üçün,*
*Yorulmaz, fədakar rəhbərimiz var.*

*Gecə də, gündüz də düşünərək* o,
*Aparır xalqını xoş səadətə.*
*Zəfərlər çalaraq mənfur düşmənə,*
*Parlaq səhifələr yazır babamız.*

* * *

*Heydər babamın sözü, kəlamı,*
*Şah İsmayıl qılıncı tək itidir, iti.*
*Döyüşdü, vuruşdu idrakla, sözlə,*
*Zəfər çaldı babam yağı düşmənə.*

*Dayanıb atəş, kəsilib nalə,*
*Tökülmür göz yaşı, ucalmır fəryad.*
*Açılıb çöhrələr, gülür sifətlər,*
*Son qoyur savaşa babam, nəhayət.*

*Böyük qüdrətinə baş əyib dağlar,*
*Sənin unudulmaz xidmətlərin var.*
*Allah göndəribdir bizə xilaskar,*
*Sevək əməyini, ey Heydər baba.*

* * *

*Sən ki varsan, inanırıq sabaha,*
*Biz səninlə öyünürük bir daha,*
*Ümidimiz bir sənə, bir Allaha,*
*Tanrım sənin uca tutsun başını.*

*Arxayınıq, sən həmişə oyaqsan,*
*Xalqın sənə, sən xalqına dayaqsan,*
*Sən işıqsan, sən sönməyən mayaksan,*
*Yüz illərlə Allah versin yaşını.*

*Heydər baba, biz vurğunuq bu ada,*
*Sən ucasan, əvəzin yox dünyada.*
*Heydər babam, bizimkidir gələcək,*
*Heydər babam mütləq qalib gələcək.*

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşıdır. Əgər uşaq bu yaşından şeiri sevirsə, seir deyirsə, bu yaxşıdır. Vətən, ölkə, millət haqqında şeir uşaqları həmişə vətənpərvərlik ruhunda tərbiyə edir, onların qəlbində vətənə sevgini artırır. Həm də şeir dilimizə bağlılığı artırır. Çünki Azərbaycan dilini hamı yaxşı bilməlidir. Mən bunu dəfələrlə demişəm. Amma Azərbaycan dilini yaxşı bilmək üçün uşaq yaşlarından şeir oxumaq lazımdır. Şeir Azərbaycan dilinin mənimsənilməsi üçün ən böyük vasitədir.

Bilirəm, indi bunlar hamısı məktəblərdə rus dilində oxuyurlar. Dediniz ki, burada Rusiya səfirliyində rus məktəbi var. Amma yaxşıdır ki, uşaqlar Azərbaycan dilini belə yaxşı bilirlər. Yaxşıdır ki, şeir oxuyurlar. Əgər bu şeirləri bilirlərsə, yəqin başqa şeirlər də bilirlər. Mən başa düşdüm, əgər başqa şeirlər bilməsəydilər, oxumasaydılar, bu şeirləri belə həvəslə söyləyə bilməzdilər. Çox məmnunam ki, səfirliyin əməkdaşlarının uşaqları Azərbaycan şairlərinin şeirlərini bilirlər, oxuyurlar.

Dilimizi, Azərbaycan dilini nəinki bilmək, dilimizi inkişaf etdirmək lazımdır. Mən bunu hamıya demişəm. Xüsusən xarici ölkələrdə yaşayan, işləyən vətəndaşlarımıza deyirəm. Çünki təbiidir, onlar yaşadıqları ölkənin dillərini bilməlidirlər, o dildə danışırlar, öz fəaliyyətlərini o dildə göstərirlər. Amma öz Azərbaycan dilimizi unutmaq olmaz və Azərbaycan dilini daha yaxşı bilmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Azərbaycanda hələ bəzi adamlar Azərbaycan dilini yaxşı bilmirlər, yaxud da övladlarını başqa dilli məktəblərdə oxudaraq, onların Azərbaycan dilini öyrənməsinə o qədər də qayğı göstərmirlər.

Yaxşı, başqa nə sözünüz var?

**A b b a s ə l i  H ə s ə n o v:** Hörmətli cənab Prezident, bildirmək istəyirəm ki, biz uşaqlar üçün 1-ci sinifdən 11-ci sinfə qədər Azərbaycan dərsliklərini gətirmişik, kitabxanamızda var. Onlar rus məktəblərində oxuyurlar, amma valideynlər evdə uşaqlara Azərbaycan dilində olan dərslikləri öyrədirlər. Yəni uşaqların Azərbaycan dilini öyrənməsi üçün lazımi işlər görürük.

**H e y d ə r  Ə l i y e v:** Əməkdaşlarınız çoxdur, gərək sizin işinizin nəticəsi də çox olsun.

**A b b a s ə l i  H ə s ə n o v:** Cənab Prezident, çalışırıq. Bizə tapşırıqlarınızdan biri bu idi ki, dövlətimizin, xalqımızın adına layiq səfirlik yaradaq. Bu, təkcə səfirliyin zahiri görünüşü yox, daxili fəaliyyətinə də aiddir. Diplomatların peşəkarlığının, səriştəliyinin artırılması istiqamətində də iş aparırıq.

Cənab Prezident, Sizin İrana indiki səfəriniz Azərbaycan–İran münasibətlərində tarixi bir dönüş yaradır və bundan sonra səfirliyimizin görəcəyi işlər daha çox olacaqdır. Sizi bütün kollektivimiz, mütəxəssislərimiz adından əmin edirəm ki, qarşıda duran işləri həyata keçirmək üçün var gücümüzlə çalışacağıq.

**H e y d ə r  Ə l i y e v:** Mənim səfərim İran–Azərbaycan əlaqələrində əlamətdar bir hadisədir. Çünki bizim əlaqələrimizin gələcəyi üçün bu səfər zamanı çox iş görülür və görüləcəkdir. Bunların hamısı İran–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi ilə əlaqədardır, İran–Azərbaycan əlaqələrini gərginləşdirən, əlaqələrimizin inkişafına mane olan bəzi halları aradan qaldırmağa həsr olunubdur. Belə hallar var. Biz bunları inkar etmirik. Biz də inkar etmirik, İran tərəfi də inkar etmir. İran tərəfi də, biz də etiraf edirik ki, belə hallar var və hər iki tərəfə aiddir. Bir tərəfə aid deyildir. Ona görə çox iş görülməlidir və bunun üçün çox imkanlar yaranır.

Çünki mənə belə gəlir ki, bu səfərim İranda böyük həvəslə qarşılanıbdır. Mənə dəfələrlə deyirlər ki, Sizi çox gözlədik. Deməк, Azərbaycan prezidentinin İrana gəlməsini həqiqətən istəyirdilər və istəmişlər. Çox yaxşı, səmərəli danışıqlarımız keçdi. Münasibətlərimiz daha da mehribanlaşır.

Prezident Xatəmi ilə mənim təkbətək görüşüm, nümayəndə heyəti ilə görüşüm – ümumiyyətlə, dünən biz bir neçə saat bir yerdə, bir-birimizlə ünsiyyətdə olmuşuq – mənə belə deməyə əsas verir ki, mənim kimi, prezident Xatəmi də əməkdaşlığı səmimi olaraq inkişaf etdirmək, genişləndirmək istəyir, bəzi halların aradan qaldırılmasını istəyir. Düşünürəm ki, Azərbaycan–İran əlaqələrində Azərbaycan prezidenti və İran prezidenti bir-birinə çox uyğun tərəfdaşlardır. Bunun da bizim dövlətlərarası əlaqələrimizi inkişaf etdirmək üçün çox böyük əhəmiyyəti vardır. Ona görə bu imkanlardan istifadə etmək lazımdır.

Biz, dövlət başçıları siyasəti müəyyənləşdiririk, onun həyata keçirilməsinin yollarını müəyyənləşdiririk, böyük tədbirləri müəyyənləşdiririk. Amma onları bizim icra orqanları həyata keçirməlidir. Mən və buraya gələn nümayəndə heyətinin üzvləri, Azərbaycanın nazirləri, başqa idarələrin başçıları hərəsi öz sahəsində bunu etməlidir. Siz isə, səfirliyin əməkdaşları gərək hər bir məsələnin həyata keçirilməsində fəal iştirak edəsiniz. Biz sabah 10 müqavilə imzalayacağıq – bunları həyata keçirmək lazımdır. Biz müqavilələri imzaladıq, sonra parlament onları təsdiqlədi, amma əməli iş görülmədi – onda bunların əhəmiyyəti itir. Bunların hər birini həyata keçirmək üçün konkret işlər görmək lazımdır.

Mən Bakıya dönəndən sonra bu barədə tədbirlər planı hazırlamaq üçün göstəriş verəcəyəm. Orada hamısı yazılacaqdır. Ancaq siz bilirsiniz, hər müqavilədən irəli gələn vəzifələr nədən ibarətdir. Müqavilənin icraçıları bunu bilirlər, edirlər. Siz onlara yardımçı olmalısınız. Siz o məsələlərin irəliyə getməsinə kömək etməlisiniz. Sizin vəzifəniz, borcunuz bundan ibarətdir.

Mən istəyirəm inanam ki, Azərbaycanın İrandakı səfirliyi – belə böyük tərkibdə olan, eyni zamanda diplomatik potensialına görə də lazımi səviyyədə olan səfirliyimiz bundan sonra da İran–Azərbaycan əlaqələrinin inkişafında fəal iştirak edəcəkdir. Mən sizə işlərinizdə uğurlar, hər birinizə cansağlığı arzulayıram.

Sizin uşaqlarınızı gördüm, çox şad oldum. Arzu edirəm ki, onlar yaxşı böyüsünlər, yaxşı oxusunlar, sizə yaxşı övlad olsunlar və Azərbaycanın dəyərli vətəndaşları olsunlar.

**A b b a s ə l i  H ə s ə n o v:** Cənab Prezident, çox sağ olun. Kollektivimiz adından Sizi bir daha əmin edirəm ki, qarşımızda qoyduğunuz bütün bu məsələləri layiqincə yerinə yetirəcəyik.

* * *

*Sonra dövlətimizin başçısı Heydər Əliyev səfirliyin binasını gəzərək iş şəraiti ilə yaxından tanış oldu.*

**H e y d ə r  Ə l i y e v:** Siz divara çox yaxşı şəkillər vurmusunuz. Bu, yaxşı haldır. Bu da sizin yaxşı zövqünüz olduğunu göstərir.

Mən də sizə bir hədiyyə gətirmişəm. Bakının bir hissəsinin görüntüsüdür. Bu sizə həm Bakını daim yadda saxlamağa kömək edəcək, həm də səfirliyə gəlib-gedən adamlar görəcəklər ki, Bakının görüntüsü necədir. Bakı çox gözəl şəhərdir. Bakını görənlər ona valeh olurlar. Mən şəxsən Bakını çox sevirəm. O cümlədən bütün şəhidlər üçün ucaldılmış və memarlıq sənəti nümunəsi olan abidəni. Bütün şəhər oraya baxır. Ona görə də bunu sizə hədiyyə edirəm.

**A b b a s ə l i  H ə s ə n o v:** Möhtərəm cənab Prezident, çox sağ olun. Bu, səfirliyimizin ən əziz, ən dəyərli hədiyyəsi kimi, xüsusi guşədə saxlanılacaq və həmişə doğma vətənimizi, əziz Bakımızı və Sizin qarşımızda qoyduğunuz məsələləri bizə xatırladacaqdır. Çox sağ olun.

* * *

*Sonra Azərbaycanın incəsənət ustalarının – respublikamızın əməkdar artistləri Simarə İmanovanın, Mənsum İbrahimovun, tarzən Zamiq Əliyevin, kamança çalan Ədalət Vəzirovun iştirakı ilə konsert oldu.*

*Prezident Heydər Əliyev konsertdən sonra səfirliyin əməkdaşları, uşaqlar və incəsənət ustaları ilə xatirə şəkli çəkdirdi.*

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ İLƏ GÖRÜŞ

*Tehran,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*19 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayan, dövlətimizin başçısı ilə hər bir görüşdən çox məmnunluğunu bildirən cənab Kamal Xərrazi Azərbaycan prezidenti Heydər Əliyevin İrana rəsmi səfərinin ölkələrimiz arasındakı münasibətlərdə əsaslı dönüş yaradacağına əmin olduğunu söylədi.*

*Azərbaycan–İran münasibətlərinin ildən-ilə inkişaf etdiyini vurğulayan cənab Kamal Xərrazi ölkələrimizin bütün sahələrdəki, xüsusən energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığının daha da genişləndirilməsi üçün yeni imkanlar yaranmasından məmnun olduğunu, Bakı–Astara avtomobil yolunun, Astara–Astara və Astara–Qəzvin dəmir yolunun çəkilməsinin həm Azərbaycan, həm İran, həm də bölgənin digər ölkələri üçün böyük əhəmiyyət daşıdığını bildirdi.*

*İrana rəsmi səfərindən razılıqla bəhs edən, Tehranda keçirdiyi görüşləri, apardığı danışıqları çox əhəmiyyətli hesab etdiyini nəzərə çatdıran prezident Heydər Əliyev ölkələrimizin bütün sahələrdə əməkdaşlığı üçün geniş imkanlar olduğunu vurğuladı.*

*Şimal–Cənub nəqliyyat dəhlizinə Azərbaycanın da böyük əhəmiyyət verdiyini bildirən dövlətimizin başçısı Heydər Əliyev iqtisadi əlaqələrin daha da canlandırılması sahəsində Azərbaycan–İran müştərək komissiyasının son vaxtlar gördüyü işləri yüksək dəyərləndirdi.*

*Xalqlarımızın qədim tarixi, milli-mənəvi, dini, mədəni yaxınlığından söhbət açan prezident Heydər Əliyev bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin perspektivli olduğunu söylədi.*

*Görüşdə bölgədə vəziyyət, Xəzərin statusunun müəyyənləşdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

### İranın Xarici Işlər naziri Kamal Xərrazinin görüşdən sonra jurnalistlərin suallarına verdiyi cavab

**S u a l: Cənab Xərrazi, istərdik ki, Azərbaycan prezidenti ilə apardığınız danışıqların məzmununu açıqlayasınız. Hazırda İran ilə Azərbaycan arasında müəyyən problemlər mövcuddur. Həmin problemlərin, heç olmasa, arzuedilməz meyllərin qarşısının alınmasında prezident Heydər Əliyevin İrana səfərinin nə kimi rolu olacaqdır?**

**C a v a b:** Cənab Heydər Əliyevin İrana səfəri münasibətlərimizdə əsaslı dönüş yaradıbdır. Bunu dəqiq bilməlisiniz ki, cənab Heydər Əliyevin və cənab Xatəminin möhkəm siyasi iradəsi nəticəsində münasibətlərimiz tamamilə dəyişib və inkişaf edəcəkdir.

Cənab Heydər Əliyevin cənab Xatəmi ilə keçirdiyi görüşlər, apardığı danışıqlar və indi mənim də cənab Heydər Əliyev ilə danışıqlarım nəticəsində biz yollar axtardıq ki, münasibətlərimizi daha da yaxınlaşdıraq, məsələlərimizi həll edək.

**S u a l: Qarabağla bağlı müzakirələr oldumu? ATƏT-in Minsk qrupu görüş keçirəndən sonra bu barədə İrana məlumat vermişdi. Artıq tam sübut olunur ki, əgər İran Ermənistanla bağlı siyasətini sərtləşdirə bilsə, Ermənistanın Dağlıq Qarabağla bağlı mövqeyində hansısa dəyişiklik gözləmək olar. Yəni bu gün Ermənistanın bir çox məsələləri İrandan asılıdır. Cənab Xərrazi, Qarabağ probleminin həlli ilə bağlı İranın Ermənistana münasibətində hər hansı dəyişiklik gözləmək olarmı?**

**C a v a b:** Minsk qrupu Azərbaycanla Ermənistan arasında münaqişəni həll etmək və çıxış yolunu axtarmaqla məşğuldur. Bizi, yəni İranı dəvət ediblər ki, bu danışıqlarda iştirak edək. İran çalışır ki, bu münaqişə həll olunsun, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun və məsələlər tamamilə öz həllini tapsın. Azərbaycanın ərazi bütövlüyü İran üçün çox önəmlidir.

**S u a l: Bununla bağlı müzakirələr aparıldımı?**

**C a v a b:** Cənab Heydər Əliyev ilə bu barədə geniş danışıqlarımız oldu. Cənab Heydər Əliyevi əmin etdik ki, biz bütün imkanlarımızdan istifadə edib bu məsələnin həlli üçün çox çalışacağıq.

**S u a l: Cənab Xərrazi, Xəzər dənizinin orta xətt üzrə bölünməsi mövqeyinə İranın yaxınlaşmasını gözləmək olarmı?**

**C a v a b:** Hər iki tərəf qərara gəldi ki, ekspertlər səviyyəsində danışıqlar davam etdirilsin. Məncə bu, düzgün qərardır. Biz bu fikirdəyik ki, qarşılıqlı anlaşma şəraitində yollar axtarıb bu məsələni həll edə bilərik.

**S u a l: Təbrizdə Azərbaycanın Baş konsulluğunun açılması məsələsi barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Cənab Heydər Əliyevə həmişə demişik ki, Təbrizdə Baş konsulluq açmaq istəsələr, «Xoş gəldiniz!» deyirik.

**S u a l: Cənab Xərrazi, İran bir neçə dəfə Azərbaycanın hava və su sərhədlərini pozubdur. Sabah dostluq və əməkdaşlıq haqqında bir müqavilə imzalanacaq. Gözləmək olarmı ki, bu müqavilənin bəndlərinə əsasən, İran bu addımları bir daha atmayacaqdır?**

**C a v a b:** Biz Azərbaycanın hava və su sərhədlərini heç vaxt pozmamışıq. Bu müzakirələr davam etdirilsə, onda məlum olar ki, hansı ərazi İrana aiddir, hansı ərazi isə Azərbaycana aiddir. Bundan sonra, həqiqətən, heç bir anlaşılmazlıq olmayacaqdır.

## İRANIN KOOPERASİYA NAZİRİ, İRAN İLƏ AZƏRBAYCAN ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ MÜŞTƏRƏK KOMİSSİYANIN HƏMSƏDRİ ƏLİ SUFİ İLƏ GÖRÜŞ

*Tehran,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*19 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayan cənab Əli Sufi Azərbaycan dövlətinin başçısı ilə yenidən görüşmək imkanından böyük məmnunluq duyduğunu vurğulayaraq dedi ki, biz Sizin İrana rəsmi səfərinizi səbirsizliklə gözləyirdik və bu səfər dost, qonşu ölkələr arasında münasibətlərin bütün sahələrdə daha da genişlənməsi və möhkəmlənməsi baxımından son dərəcə əhəmiyyətlidir.*

*İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi-ticarət əlaqələrinin daha da inkişaf etdirilməsinin hər iki tərəf üçün faydalı olduğunu söyləyən nazir müştərək komissiyanın bu sahədə gördüyü işlər və fəaliyyətinin gələcək istiqamətləri barədə məlumat verdi. Cənab Əli Sufi Avropanı Hind okeanı sahilləri ilə birləşdirəcək Şimal–Cənub nəqliyyat dəhlizindən söhbət açaraq dedi ki, onun işə salınması İran ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın genişlənməsi baxımından da çox sərfəli olacaqdır.*

*Azərbaycan prezidenti Heydər Əliyev İrana rəsmi səfərinin əhəmiyyətini yüksək qiymətləndirərək, prezident Seyid Məhəmməd Xatəmi ilə keçirdiyi təkbətək görüşdən, nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə aparılmış danışıqlardan məmnun qaldığını vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, bu danışıqlar, habelə imzalanacaq sənədlər İran ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsinə təkan verəcəkdir.*

*Respublikamızın rəhbəri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu, bundan ötrü müştərək komissiyanın daha fəal işləməsinin zəruriliyini vurğuladı. Prezident Heydər Əliyev bildirdi ki, Xəzər dənizinin hüquqi statusu ilə bağlı məsələlərin həll edilməsi, Şimal–Cənub nəqliyyat dəhlizinin açılması dost və qonşu ölkələrimizin əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün faydalı olacaqdır.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər haqqında fikir mübadiləsi aparıldı.*

### İranın Kooperasiya naziri Əli Sufinin görüşdən sonra jurnalistlərin suallarına verdiyi cavab

**S u a l: Cənab Sufi, Azərbaycan prezidenti Heydər Əliyevlə görüşdə Şimal–Cənub dəhlizi layihəsinin həyata keçirilməsi barədə müzakirələr apardınızmı?**

**C a v a b:** Şimal–Cənub dəhlizi dedikdə, bunun tərkibində bir neçə layihə var. Bunlardan biri Astara–Astara dəmir yolunun çəkilməsidir. Bunun bir hissəsi Azərbaycan tərəfinin üzərinə düşür. Layihənin davamı – Astara–Rəşt–Qəzvin dəmir yolunun çəkilməsidir. Bu isə İran ərazisində çəkiləcəkdir.

Bu dəhlizin tərkib hissəsindən biri isə Bakı–Astara avtomobil yolunun çəkilməsidir. Bu layihənin həyata keçirilməsi üçün İran tərəfi onun maliyyələşdirilməsini təmin edəcəkdir. Amma iki dövlət – Azərbaycan və İran bu layihəni müştərək qaydada həyata keçirəcəklər.

**S u a l: Cənab nazir, Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi təxminən 60 milyon dollar təşkil edir. Sizin fikrinizcə, ticarət-iqtisadi əlaqələri inkişaf etdirmək üçün Azərbaycan Respublikası tərəfindən hansı addımlar atılmalıdır?**

**H e y d ə r Ə l i y e v** (*müxbirə*): Sən sualı bir qədər dolğun etsəydin, deməliydin ki, bunun üçün Azərbaycan tərəfi və İran İslam Respublikası hansı addımları atmalıdır. Sən deyəsən, bunu unutdun, mən sənə kömək etmək istəyirəm.

**Ə l i S u f i:** Birincisi, nəqliyyat sahəsində əməkdaşlığı genişləndirmək, yük daşımalarının həcmini artırmaq tələb olunur. Bakı–Astara avtomobil yolunun bu sahədə müsbət təsiri olacaqdır. Digər tərəfdən, sərhəd-keçid məntəqələrində iş saatını artırmağı lazım bilirik. Belə ki, əgər Astara gömrükxanası gündə 24 saat işləsə, onda bu, əlaqələrə müsbət təsir göstərə bilər. Şahtaxtı körpüsünün tikintisi çoxtonluq avtomobillərlə yük daşınmasını yaxşılaşdırmağa imkan yaradacaqdır. Astarada piyadalar üçün körpünün inşası, Biləsuvarda yolun tikintisi və sair tədbirlərin də əlaqələrin genişlənməsinə müsbət təsiri olacaqdır.

Eyni zamanda, sərhədyanı bazarların fəaliyyətinin gücləndirilməsi ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə təkan verəcəkdir.

## İRAN İSLAM RESPUBLİKASININ TİKİNTİ VƏ ŞƏHƏRSALMA NAZİRİ ƏLİ ƏBDÜLƏLİZADƏ İLƏ GÖRÜŞ

*Tehran,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*19 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayan və onunla hər bir görüşdən böyük şərəf duyduğunu nəzərə çatdıran cənab Əli Əbdüləlizadə Azərbaycan prezidentinin İrana səfərinin ölkələrimiz arasındakı münasibətlərdə tarixi hadisə olduğunu söylədi.*

*Səmimi sözlərə görə minnətdarlığını bildirən və İran İslam Respublikasına rəsmi səfərindən çox məmnun qaldığını söyləyən prezident Heydər Əliyev Tehranda keçirdiyi görüşləri, apardığı danışıqları çox yüksək qiymətləndirdiyini vurğuladı.*

*Görüşdə Azərbaycan–İran əməkdaşlığının perspektivləri və hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLIKASININ PREZIDENTI SEYID MƏHƏMMƏD XATƏMI ILƏ GÖRÜŞ

*Tehran,*
*İran prezidentinin dövlət iqamətgahı*

*20 may 2002-ci il*

*Cənab Seyid Məhəmməd Xatəmi onun dəvətini qəbul edib İran İslam Respublikasına rəsmi səfərə gəldiyinə görə Azərbaycan prezidenti Heydər Əliyevə bir daha minnətdarlığını bildirdi, bu səfəri ölkələrimiz arasındakı münasibətlərdə yeni tarixi hadisə kimi səciyyələndirdi.*

*İranın qonşu, dost ölkə olan Azərbaycan ilə bütün sahələrdə əlaqələri genişləndirməyə həmişə hazır olduğunu nəzərə çatdıran cənab Seyid Məhəmməd Xatəmi görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin siyasi təcrübəsindən istifadə edib ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinin zəruriliyini bildirdi.*

*İrana rəsmi səfərə dəvətə, göstərilən qonaqpərvərliyə görə, cənab Seyid Məhəmməd Xatəmiyə minnətdarlıq edən prezident Heydər Əliyev bu səfərinin Azərbaycan–İran münasibətlərinin daha da inkişaf etdirilməsi üçün çox əhəmiyyətli olduğunu vurğuladı.*

*Tehranda keçirdiyi görüşləri, apardığı danışıqları yüksək qiymətləndirən prezident Heydər Əliyev imzalanacaq sənədlərin Azərbaycan–İran əməkdaşlığının sürətli inkişafına təkan verəcəyinə əmin olduğunu bildirdi.*

*Prezidentlər Azərbaycan ilə İran arasında qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi barədə yekdil fikirdə olduqlarını nəzərə çatdırdılar.*

*Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.*

**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ
İRAN İSLAM RESPUBLİKASI ARASINDA
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ VƏ PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI**

*İran prezidentinin dövlət iqamətgahı*

*20 may 2002-ci il*

*Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sənədlərin imzalanması mərasimi oldu. Prezident Heydər Əliyev və prezident Seyid Məhəmməd Xatəmi «Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında» müqavilə imzaladılar.*

*Sonra «Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş», «Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında saziş», «Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında bitkilərin karantin xidməti sahəsində əməkdaşlıq haqqında saziş», «Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu», «Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Elm, Tədqiqatlar və Texnologiya Nazirliyi arasında təhsil və tədqiqat sahəsində əməkdaşlıq haqqında memorandum», «Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında memorandum», «Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında saziş», «Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi ilə İran Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, sertifikatlaşdırma və metrologiya sahəsində əməkdaşlığa dair memorandum», «Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Bədən Tərbiyəsi Təşkilatı arasında idman sahəsində əməkdaşlıq haqqında saziş» imzalandı.*

*Sənədləri Azərbaycan tərəfindən Xarici Işlər naziri Vilayət Quliyev, Iqtisadi Inkişaf naziri Fərhad Əliyev, Kənd Təsərrüfatı naziri İrşad Əliyev, Idman, Gənclər və Turizm naziri Əbülfəs Qarayev, Mədəniyyət naziri Polad Bülbüloğlu, İran tərəfindən Kooperasiya naziri Əli Sufi, Iqtisadiyyat və Maliyyə naziri Təhmasib Məzahiri, Mədəniyyət və Islami Irşad naziri Əhməd Məsced Camei və digər rəsmi şəxslər imzaladılar.*

*Sonra Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İrana rəsmi səfərinin yekunlarına dair mətbuat üçün birgə bəyanat yayıldı.*

* * *

**S u a l: Hörmətli cənab Heydər Əliyev, Sizin burada İranın rəhbərliyi ilə keçirdiyiniz görüşlərdə əsasən hansı mövzulara toxunulubdur, hansı istiqamətdə, hansı məsələlərə dair danışıqlar aparıldı və Mazandaran–Xəzər dənizinə aid hansı razılıqlar əldə edilibdir?**

**H e y d ə r Ə l i y e v:** Biz burada mənim rəsmi səfərim çərçivəsində İran–Azərbaycan əlaqələrinə aid bütün məsələləri müzakirə etmişik. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bütün görüşlərimizdə, apardığımız bütün danışıqlarda bir-birimizə xoş münasibət göstərmişik, bir-birimizi anlamaq istəmişik. İran–Azərbaycan dostluq, əməkdaşlıq əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək istəmişik. Hesab edirəm ki, biz bu sahədə böyük nailiyyətlər əldə etmişik. Bizim danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçibdir. Bunların nəticəsi olaraq, bu gün İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında hökumətlərarası on sənəd imzalanıbdır. İmzalanmış sənədlər içərisində İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə xüsusi yer tutur. Bildirmək istəyirəm ki, İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında on ildən artıqdır ki, diplomatik əlaqələr mövcuddur. Ancaq indiyə qədər bu gün imzaladığımız sənəd kimi, yəni İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə kimi sanballı sənəd imzalanmamışdı.

Bu müqavilə İran–Azərbaycan əlaqələrində ilk böyük hüquqi sənəddir. Ölkələrimiz arasındakı əlaqələri bütün sahələrdə tənzimləyir. Hesab edirəm ki, bu mənim səfərimin, bizim görüşlərimizin ən əhəmiyyətli nəticələrindən biridir.

Bizim görüşlərimiz, danışıqlarımız İran–Azərbaycan əlaqələrində yeni mərhələ açıbdır. Ümidvaram ki, bundan sonra bizim əlaqələrimiz daha sürətlə inkişaf edəcək və dostluq, əməkdaşlıq, mehribanlıq əlaqələri daim davam edəcəkdir.

Hörmətli jurnalist, siz sualınızda bir səhv buraxdınız. Mən istərdim ki, gələcəkdə belə səhvlər buraxmayasınız. Dünya xəritəsində «Mazandaran» gölü adında göl yoxdur. Əgər belə bir göl İran ərazisindədirsə, mən hələ onu tanımıram, xahiş edirəm mənə tanıdasınız.

**S e y i d M ə h ə m m ə d X a t ə m i:** Cənab müxbir də bundan sonra «Kaspian si» deyəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Necə yəni bundan sonra deyəcək, elə «Kaspian si»dir. Xəzər dənizi Kürreyi-ərz yaranandan mühüm dənizlərdən biridir və onun adı Xəzərdir. 300–400 il bundan öncəki xəritələri götürsəniz, orada Xəzər dənizi – ağayi Xatəmi bunu ingiliscə deyir, Kaspian si – yazılıbdır. Siz, İranda bəzi adamlar, belə adlar icad etməklə bizim Xəzər barədə danışıqlarımıza mane olursunuz. Xahiş edirəm, bunu nəzərə alasınız.

Bəli, biz Xəzər dənizinin hüquqi statusu haqqında çox ətraflı danışıqlar apardıq. Bu danışıqlar çoxdan gedir. Aprelin 18-də Aşqabadda Xəzəryanı dövlətlərin zirvə görüşündə biz bu məsələni müzakirə etmişdik. Hesab edirəm ki, Aşqabad zirvə görüşü hamımız üçün çox əhəmiyyətli olmuşdur. O danışıqların davamı olaraq, burada çox ətraflı danışıqlar gedibdir. Bizim ekspertlər, demək olar ki, bu məsələnin həll olunması ilə əlaqədar saatlarla yollar axtarmaqla məşğul olublar. İndiki danışıqlarda bizim ekspertlərin arasında xeyli qarşılıqlı anlaşma əldə olunubdur. Bu da bizim gələcək danışıqlarımıza çox yaxşı şərait yaratmışdır.

Ekspertlərin növbəti görüşü iyunun 11-də Bakıda keçiriləcəkdir. Güman edirəm ki, beləliklə, onlar bizim üçün münasib təkliflər hazırlayıb təqdim edəcəklər. Təşəkkür edirəm.

**S u a l: Mənim sualım cənab Xatəmiyədir. Hörmətli cənab Xatəmi, Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevlə danışıqları, görüşləri necə qiymətləndirirsiniz?**

**H e y d ə r Ə l i y e v:** Amma İranın daxilindən bir az kənara çıxın. Daxilində qalsanız bir şey çıxmayacaqdır.

**S e y i d M ə h ə m m ə d X a t ə m i:** Mən xahiş edirəm ki, cənab prezidenti narahat etməyin, icazə verin, biz işimizi davam etdirək.

Xoşbəxtlikdən, bütün sahələrdə mənimlə cənab Heydər Əliyev arasında, eyni zamanda digər məsul şəxslər arasında, onların öz aralarında yaxşı, faydalı danışıqlar aparılmışdır. İkitərəfli münasibətlərə, regional məsələlərə, beynəlxalq əlaqələrə, eyni zamanda iqtisadi, siyasi, digər sahələrə dair yaxşı danışıqlar aparıldı.

Hörmətli müxbirlər də şahid oldular ki, bu gün çox faydalı sənədlər imzalandı. Amma bu sənədlərdən də əhəmiyyətlisi, hər iki tərəfdən göstəriləcək iradə və əzmkarlıqdır. Biz bunu qəbul edirik ki, taleyimiz bir-birimizlə bağlıdır. Hər bir ölkədə əmin-amanlıq və sabitliyin olması, digər ölkədə də əmin-amanlıq və sabitlik deməkdir. Hər iki ölkə, hər iki dövlət sürətlə inkişaf etməkdədir. İnkişaf üçün sabitlik, əmin-amanlıq mühüm, vacib şərtdir. Biz hər iki ölkədə əmin-amanlıq, sabitlik haqqında düşünərək, həm də bölgədə, regionda da sabitliyin, əmin-amanlığın bərqərar olması barədə düşünürük. Eyni zamanda belə bir qərara gəldik ki, iqtisadiyyat sahəsində mövcud olan əlaqələrimizi daha da genişləndirək. Mən inanıram ki, cənab Heydər Əliyevin bu səfəri ikitərəfli əlaqələrimizdə böyük dönüş yaradacaqdır.

Xəzər dənizi sülh, əməkdaşlıq dənizidir. Bu dənizin hüquqi statusu və ondan istifadə beş Xəzəryanı ölkəyə aiddir. Bu sahədə fikir mübadiləsi, danışıqlar aparılıbdır.

Bunlar çox faydalı olubdur. Ekspertlərimiz arasında yaxşı danışıqlar, müzakirələr aparılıbdır. Mən inanıram ki, yaxın gələcəkdə iki ölkə arasında ədalətli bir çıxış yolu tapılacaqdır. İnşallah, iyunun 11-də keçiriləcək danışıqlar hər iki tərəf üçün faydalı olacaqdır.

Biz bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı hörmət, ehtiram göstərmək şərtilə münasibətlərimizi inkişaf etdirmək üçün çalışacağıq. Sağ olun.

**S u a l: Mənim sualım cənab Seyid Məhəmməd Xatəmiyədir. Cənab Prezident, möhtərəm prezident Heydər Əliyevin İrana rəsmi səfərindən və bu gün burada sənədlərin imzalanmasından sonra Cənubi Qafqaz regionunun və Xəzər regionunun gələcəyini Tehran necə görür? Çünki hazırda Cənubi Qafqazda bir sıra münaqişələr, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Xəzərlə bağlı müəyyən fikir ayrılıqları var. Təkcə Xəzərin adına münasibətdə yox, həm də onun bölüşdürülməsinə münasibətdə fərqli mövqelər var. Zəngin dövlətçilik ənənələri olan bir dövlət kimi, İran bu münaqişələrin və fikir ayrılıqlarının aradan qaldırılmasında öz rolunu necə görür?**

**S e y i d M ə h ə m m ə d X a t ə m i:** Əvvəla, Qafqaz çox mühüm bir bölgədir. Odur ki, bütün Qafqazın əmin-amanlığı bizim üçün çox əhəmiyyətlidir. İran bu regionda yerləşən böyük və qüdrətli dövlətlərdən biridir. Qafqazın əmin-amanlığını təmin etməkdə onun da öz payı var və öz rolunu göstərməlidir. Qafqazda baş verən münaqişələr bu bölgədə heç kimin xeyrinə deyildir. Bu münaqişələr regionda yerləşən ölkələr tərəfindən həll olunmalıdır. Münaqişələri ölkələrin özləri, regiondan kənarda yerləşən qüvvələrin müdaxiləsi olmadan həll etməlidirlər. İşğalın, təcavüzün hər hansı bir şəkildə baş verməsindən asılı olmayaraq, biz onu pisləyirik. Cənab Heydər Əliyevin özü də dəfələrlə bəyan edibdir ki, Qarabağ münaqişəsi sülh və danışıqlar yolu ilə həll olunmalıdır. Bu sahədə biz əlimizdən gələn hər cür köməyi əsirgəməyəcəyik. Xəzər isə təkcə bu bölgədə yox, ümumiyyətlə, dünyada mühüm göllərdən biri sayılır. İstər bölgədə, istərsə də dünyada ekoloji sistem sahəsində mühüm rolu vardır. Xəzər təbii sərvətlərindən əlavə, digər cəhətlər baxımından da əhəmiyyətlidir. Ekologiya, gəmiçilik, balıqçılıq – bu

sahələrdə də çox əhəmiyyətlidir. Həmin sahələrdə də əməkdaşlıq olmalıdır və inanmıram ki, bu barədə fikir ayrılığı ola bilsin.

Xəzər dənizi sahilyanı beş ölkəyə aiddir. Amma bizim vəzifəmiz ondan ibarətdir ki, bəşəriyyətə aid olan bu böyük sərvətdən düzgün istifadə edək.

Xəzər ətrafında müstəqil dövlətlərin yaranması və ümumiyyətlə, dünyada baş verən proseslər baxımından bu məsələyə, Xəzər dənizinin hüquqi statusuna yenidən baxılmalıdır. Xəzər dənizinin gələcək taleyi ümumi fikir birliyi nəticəsində həll olunmalıdır.

Qonşu dövlətlər bu sahədə bir-birləri ilə daha çox əlaqə saxlayaraq fikir yaxınlığı yaratmalıdırlar. İranla Azərbaycan arasında xoş niyyət və anlaşma olduğunu, yarandığını nəzərə alaraq, inanıram ki, lap yaxın gələcəkdə bu sahədə, bu məsələnin həllində ümumi bir razılığa gələ biləcəyik.

Doğrudur ki, Xəzəryanı ölkələrin hamısı gərək öz milli mənafeyini nəzərə alsın. Eyni zamanda, bu məsələ ədalətli həll olunmalıdır. Biz qərara gəlmişik ki, öz milli mənafeyimizi müdafiə edərkən, bu, digər ölkələrin milli mənafeyinə zidd olmasın.

Mən inanıram, Azərbaycanla ki bizim bu qədər yaxınlığımız var, bizi bir-birimizə bağlayan bu qədər müştərək cəhətlər var, elə hesab edirəm ki, bunların əsasında biz bu məsələni həll edə biləcəyik. Dostluq, qardaşlıq şəraitində bu məsələnin həllinə nail olacağıq. Çox sağ olun.

**S u a l: Azərbaycan prezidentinə sual vermək istəyirəm. Möhtərəm Prezident, bu gün imzalanan sənədlərin bir çoxu iqtisadi əməkdaşlığa aiddir. Siz hazırda İran–Azərbaycan iqtisadi əməkdaşlığını necə qiymətləndirirsiniz və bir də gələcəkdə böyük beynəlxalq layihələrdə İranın iştirakını necə görürsünüz?**

**H e y d ə r Ə l i y e v:** Ağayi Xatəmi ilə mənim imzaladığım müqavilədən əlavə, imzalanan sənədlərin, demək olar ki, hamısı iqtisadiyyata aiddir. Bizim münasibətlərimizdə, apardığımız danışıqlarda iqtisadiyyat məsələləri çox mühüm yer tutur.

Mənim bu səfərimin nəticəsi, bizim görüşlərimizin, danışıqlarımızın nəticəsi ondan ibarətdir ki, biz İran–Azərbaycan iqtisadi əlaqələrini bundan sonra daha da genişləndirməliyik. Bunun üçün böyük imkanlar var. Güman edirəm ki, hər iki tərəf bu imkanlardan daha səmərəli istifadə etməyə çalışacaqdır.

Biz ağayi Xatəmi ilə böyük layihələr haqqında çox ətraflı söhbətlər apardıq. Layihələrdən biri ümumdünya xarakteri daşıyan Şimal–Cənub layihəsidir. İran İslam Cümhuriyyəti bu layihənin həyata keçirilməsinin təşəbbüskarıdır. İran artıq Rusiya və Hindistanla bu barədə saziş əldə edibdir. Azərbaycan bu layihədə iştirak etmək istəyir və mütləq iştirak etməlidir. Yaxın vaxtlarda bu müqaviləyə, bu layihəyə daxil olacaqdır. Bu böyük layihənin içərisində bizim müzakirə etdiyimiz Astara–Astara, Qəzvin–Astara dəmir yollarının və Astara–Bakı avtomobil yolunun inşası xüsusi yer tutur. Demək olar ki, biz bu məsələnin həllində çox yaxşı nailiyyət əldə etdik. İran İslam Cümhuriyyəti Qəzvin–Astara dəmir yolunun inşasına başlayır. İran və Azərbaycan birlikdə Astara–Astara dəmir yolunun çəkilməsini təmin edəcəkdir. İranın krediti ilə Bakı–Astara avtomobil yolunun çəkilməsinə başlanacaqdır. Azərbaycan Astara–Bakı dəmir yolunu daha da təkmilləşdirəcəkdir. Bunların nəticəsində, təxminən 2-3 ildən sonra böyük nəqliyyat dəhlizi açılacaqdır.

Bunun da əsas hissəsi İranın və Azərbaycanın ərazisindən keçir. Əgər biz bu layihəni həyata keçirsək, o, Avropanın ən şimal nöqtəsindən dəmir yolu xəttini Qafqazdan, Azərbaycandan, İrandan keçməklə İranın cənubuna – Bəndər Abbasa, oradan Hindistana çatdıra biləcək. Güman edirəm ki, bir neçə ildən sonra, bu layihə başa çatandan sonra onun nə qədər böyük əhəmiyyətə malik olduğunu bizim xalqlarımız biləcək və başqa ölkələrin xalqları da biləcəklər.

İran başqa layihələrdə də iştirak edir. Məsələn, Xəzər dənizində neft və qaz ehtiyatlarının işlənilməsində İran neft şirkəti iki layihədə iştirak edir.

Zəngin qaz ehtiyatlarına malik olan «Şahdəniz» yatağında – orada bir trilyon kubmetrdən çox qaz olduğu təsdiq edilibdir – İran neft şirkətinin on faiz payı var.

Gələcək layihələrdə də İran Azərbaycanla birlikdə iştirak edəcəkdir. Təşəkkür edirəm.

* * *

*Mayın 20-də Azərbaycan prezidenti Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfəri başa çatdı.*

*İran prezidentinin iqamətgahı qarşısında rəsmi yolasalma mərasimi keçirildi. İqamətgahın qarşısındakı meydanda fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Heydər Əliyev və Seyid Məhəmməd Xatəmi fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan prezidenti İranın rəsmi şəxsləri, İran prezidenti Azərbaycan nümayəndə heyətinin üzvləri ilə sağollaşdılar.*

*Azərbaycan prezidenti Heydər Əliyev və İran prezidenti Seyid Məhəmməd Xatəmi bir daha səmimiyyətlə sağollaşdılar.*

**X a t ə m i:** Cənab Prezident, inanıram ki, Sizin İrana bu rəsmi səfəriniz ölkələrimizə xeyir gətirəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Mən Sizə əziyyət verdim. Amma çox şadam ki, bu səfərim baş tutdu. Mən İrandan böyük təəssüratlarla ayrılıram. Cənab Xatəmi, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Siz də məni İrana rəsmi səfərə dəvət etmişdiniz. Mən İrana gəldim, güman edirəm ki, Siz də Azərbaycana səfərə gələcəksiniz.

**M ə h ə m m ə d  X a t ə m i**: Mən mütləq Azərbaycana rəsmi səfərə gələcəyəm. Biz Azərbaycanı İranı sevdiyimiz qədər sevirik. Cənab prezident Heydər Əliyev, Sizin şəxsiyyətinizə bizim böyük hörmətimiz vardır.

## TEHRANDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*20 may 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli jurnalistlər, sizi xoş gördük. Yəqin ki, mənim səfərim sizə məlumdur. Çünki mənə dedilər ki, Azərbaycan televiziyası ilə oradakı görüşlərin çoxunu veriblər, görmüşünüz, eşitmisiniz. Ancaq sizə onu deyə bilərəm ki, mən bu gün orada mətbuat konfransında da dedim – səfər çox uğurlu oldu. Təbiidir ki, səfər edən bizik, bizi qəbul edən İran tərəfidir. Həm bizim üçün, həm də onlar üçün uğurludur. Biz çox əhəmiyyətli görüşlər keçirdik, danışıqlar apardıq.

Əlbəttə, birinci növbədə prezident cənab Xatəmi ilə çox səmərəli danışıqlar apardıq, bir sıra görüşlər keçirdik və bir çox məsələləri müzakirə etdik. İqtisadi məsələləri, siyasi məsələləri və başqa məsələləri müzakirə etdik.Gələcəkdə İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etdirilməsinin yollarını birgə müəyyən etdik.

Hesab edirəm – orada cənab Xatəmi də bunu bir neçə dəfə təkrar etmişdir – bu səfər İran–Azərbaycan əlaqələrində bir dönüş nöqtəsidir, yeni mərhələnin başlanğıcıdır, bizim əlaqələrimizin inkişafına güclü təkan vermişdir. Mən bu səfərdən çox məmnunam. Hiss etdim ki, İran tərəfi də çox məmnundur, razı qalıbdır. Onlar bəlkə də səfərimizi belə gözləmirdilər. Mən də düşünürdüm ki, bəlkə belə olmayacaqdır. Amma həm onların tərəfindən çox böyük səylər göstərildi, həm də bizim siyasətimiz açıq siyasətdir. Heç bir şeyi gizlətmirik, hər şeyi açıq deyirik.

Mən dəfələrlə demişəm və bu gün də deyirəm ki, İran bizim qonşumuzdur, İran böyük dövlətdir. Biz İranla həm iqtisadi sahədə, həm də başqa sahələrdə çox sıx əməkdaşlıq etməliyik. Bu həm İranın xeyrinədir, həm də bizim xeyrimizədir. Hesab edirəm ki, bunları hərəkətə gətirmək üçün bu istiqamətdə biz çox faydalı iş gördük.

**S u a l: Cənab Prezident, Bakıya çatan məlumatlara görə, danışıqlar zamanı Azərbaycan tərəfi «Alov» və «Şərq» yataqlarında işləri dayandırmaq barədə razılığa gəlibdir. Bu nə dərəcədə doğrudur?**

**C a v a b:** Belə şey, razılıq yoxdur.

**S u a l: Cənab Prezident, Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Xəzərin statusu ilə bağlı danışıqlar apardıq. Bizim ekspertlər orada İran ekspertləri ilə bir yerdə işləmişdilər. Mən buradan Xəzər məsələlərini yaxşı bilən bir qrup adam aparmışdım. Onlar orada dünən bütün günü, axşam saat 10-a qədər onlarla bir yerdə işlədilər. Ekspertlərin mənə verdiyi məlumata görə, mövqelərin müəyyən qədər yaxınlaşması meyli görünür. Müsbət nəticə ondan ibarətdir ki, artıq biz qərar qəbul etdik – ekspertlərin bu görüşləri bundan sonra da ardıcıl surətdə davam etməlidir. Məsələn, Bakıda espertlərin görüşlərini iyunun 11-nə təyin etmişik.

**S u a l: Cənab Prezident, sentyabrda İran prezidentinin Azərbaycana gəlməsi gözlənilirmi?**

**C a v a b:** Bilirsiniz, mən İran prezidenti cənab Xatəmini dəfələrlə Bakıya dəvət etmişdim. O da məni dəvət etmişdi. Mənə deyirdi ki, əvvəlcə sən gəl. Mən də belə düşünürdüm ki, bəlkə əvvəlcə mən getməliyəm. Mən də bu səfəri etdim. İndi o çox böyük həvəslə Azərbaycana gələcəyi haqqında bəyanat verdi. Amma nə vaxt gələcək, onu hələ müəyyənləşdirəcəkdir.

**S u a l: Cənab Prezident, Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanmasında İranın iştirakı nə dərəcədə realdır?**

**C a v a b:** Mən sizin sualınızı başa düşdüm. Siz bilirsiniz ki, Minsk qrupu İrana məlumatlar veribdir. İran da hesab edir ki, bu prosesdə iştirak etməlidir. İndi baxaq görək, necə olur.

**S u a l: Cənab Prezident, konsulluğun açılması ilə bağlı razılıq oldumu?**

**C a v a b:** Biz bu məsələyə toxunmadıq.

**S u a l: Cənab Prezident, Roma papasının Azərbaycana qarşıdakı səfərini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Yaxşı qiymətləndirirəm. Bu, tarixi hadisədir.

**S u a l: Cənab Prezident, İran tərəfi ikinci dəfədir Sizin rəsmi səfərinizin proqramına Təbrizi ziyarət etməyi salmayıbdır. Bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Yox, bu, düzgün deyildir. Mən bu dəfə Təbrizə özüm getmək istəmədim. Çünki hesab etdim ki, Tehrandan kənara çıxmamalıyıq. İşlərimizi Tehranda görməliyik. Onlar mənə Təbrizi, Ərdəbili təklif etmişdilər. Amma mən özüm getmədim.

**S u a l: Cənab Prezident, İranın dini rəhbəri ilə də görüşmüsünüz. Azərbaycanda İran təmayüllü dini məsələlərlə bağlı fikir mübadiləsi apardınızmı?**

**C a v a b:** Bilirsiniz, mən dövlətlərarası münasibətlər haqqında söhbət etdim. O, İranın ali rəhbəridir. Biz dövlətlərarası məsələləri müzakirə edirdik, dini məsələləri müzakirə etmirdik. Axı bu mənim işim deyildir. Bizdə din dövlətdən ayrıdır. Din məsələlərinə mən baxmıram və onu müzakirə etmirəm. Sağ olun.

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN DƏVƏTİ İLƏ VATİKAN**
**DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI**
**II İOHANN PAVELİN**
**AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ**

*22 may 2002-ci il*

*Vatikan dövlətinin başçısı, Roma papası II İohann Pavel Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfərə gəlmişdir.*

*Binə beynəlxalq hava limanı Vatikanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmişdi, binanın önündən Roma papasının iri portreti və «Zati-Müqəddəsləri, Azərbaycana xoş gəlmisiniz» sözləri yazılmış transparant asılmışdı.*

*Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ali qonağı qarşılamaq üçün hava limanına gəldi.*

*Dövlətimizin başçısı Heydər Əliyev Vatikan dövlətinin başçısını təyyarənin pilləkəni yanında səmimiyyətlə, mehribanlıqla salamladı.*

*Milli geyimli uşaqlar pontifikə gül-çiçək və sinidə Azərbaycan torpağı təqdim etdilər. Roma papası dodaqları ilə bu torpağa ehtiramla toxundu.*

*Prezident Heydər Əliyev və Roma papası II İohann Pavel uçuş meydanında qoyulmuş xüsusi tribunada əyləşdilər.*

*Vatikanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlət başçılarına raport verdi.*

## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏ* NİTQ

*22 may 2002-ci il*

Zati-Müqəddəsləri!

Sizi Azərbaycanda salamlamaqdan böyük məmnunluq duyuram. Dəvətimi qəbul edib Azərbaycana gəldiyinizə görə Sizə öz minnətdarlığımı bildirirəm.

Siz ölkəmizə çox əlamətdar bir vaxtda gəlmisiniz.

Bilirəm ki, mayın 18-də doğum gününüzü qeyd etmisiniz. Bu münasibətlə Zati-Müqəddəslərinizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, dünyada sülh, qarşılıqlı anlaşma sahəsində gördüyünüz böyük işlərdə uğurlar arzulayıram.

Sabah, yəni mayın 23-də müstəqil Azərbaycan Respublikasının Vatikan dövləti tərəfindən rəsmən tanınmasının 10 ili tamam olur. Məhz belə bir gündə Sizin Azərbaycanda olmağınız tarixi hadisədir.

Mən 1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfərim zamanı Vatikanı ziyarət etməyimi və orada Sizinlə görüşməyimi, ətraflı fikir mübadiləsi aparmağımızı məmnunluqla xatırlayıram. Çox şadam ki, aradan beş il keçəndən sonra Sizi yenidən, bu dəfə Azərbaycanda əziz qonağım kimi qarşılayıram.

Zati-Müqəddəsləri!

Vatikan dövlətinin başçısı və Roma papası kimi, Siz əsrlər boyu mövcud olan ənənələrin hüdudlarını cəsarətlə aşmısınız. Siz dini, irqi, milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanların və xalqların dostu kimi tanınmış, bütün dünyanın vətəndaşına çevrilmisiniz.

Həmişə öz dini dözümlülüyü, tolerantlığı ilə seçilən Azərbaycan xalqı Sizin fəaliyyətinizin bu nəcibliyini və insanpərvərliyini yaxşı başa düşür və yüksək qiymətləndirir.

Azərbaycan da daxil olmaqla, islam dininin geniş yayıldığı ölkələrə Sizin səfərləriniz iki böyük dünya dini arasında sülhə və qarşılıqlı etimada xidmət edir.

Siz insanlar arasında şəfqət və rəhmdillik ideyaları təbliğ edir, ağır fəlakətə düşənlərə səbr və təsəlli diləyirsiniz. Azərbaycanda da belə fəlakət qurbanları var. Onlar qonşu Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində öz yurd-yuvalarını itirmiş bir milyondan çox azərbaycanlı qaçqınlardır. Bu insanlar Sizin xeyirxah sözünüzə, təsəllinizə ehtiyac duyurlar. Onlar haqqın öz yerini tutmasında Sizdən də kömək umurlar.

Zati-Müqəddəsləri!

Siz katolik kilsəsinin mövcud olduğu iki min ilə yaxın bir müddət ərzində Azərbaycana səfər edən ilk Roma papasısınız.

Bu səfəri həyata keçirdiyiniz üçün Sizə minnətdarlığımı bildirir və «Azərbaycana xoş gəlmisiniz!» deyirəm.

---

* Rəsmi qarşılanma mərasimində Roma papası II İoann Pavel də nitq söyləmişdir.

## ROMA PAPASI II İOHANN PAVEL İLƏ TƏKTƏBƏK GÖRÜŞ

*Prezident sarayı*

*22 may 2002-ci il*

*Ali qonağı səmimiyyətlə, hörmət və ehtiramla salamlayan prezident Heydər Əliyev onun dəvətini qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinə görə Zati-Müqəddəsləri II İohann Pavelə minnətdarlığını bildirdi.*

*Azərbaycan Respublikasının müstəqilliyinin Vatikan dövləti tərəfindən rəsmən tanınmasının 10-cu ildönümü günü ərəfəsində Zati-Müqəddəslərinin ölkəmizə rəsmi səfərini tarixi hadisə kimi qiymətləndirən prezident Heydər Əliyev II İohann Paveli dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanların və xalqların dostu kimi tanıdığını vurğuladı.*

*1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfəri zamanı Müqəddəs Vatikanı ziyarət etdiyini, orada Zati-Müqəddəsləri ilə görüşdüyünü və ətraflı fikir mübadiləsi apardığını xatırlayan prezident Heydər Əliyev II İohann Pavelin Azərbaycana gəlməsindən məmnunluq duyduğunu bildirdi.*

*Səmimi sözlərə, Azərbaycana rəsmi dəvətə və ona göstərilən qonaqpərvərliyə görə prezident Heydər Əliyevə minnətdarlıq edən II İohann Pavel bu gözəl ölkəyə gəlməyindən böyük sevinc duyduğunu nəzərə çatdırdı.*

*II İohann Pavel həzrətləri respublikamıza rəsmi səfərinin Azərbaycan ilə müqəddəs Vatikan arasında diplomatik münasibətlər yaradılmasının 10-cu ildönümünə təsadüf etdiyindən çox məmnun qaldığını vurğuladı.*

*Vatikan dövlətinin başçısı II İohann Pavel Azərbaycan ilə Vatikan arasında qurulmuş əlaqələrdən razılıqla söhbət açdı, prezident Heydər Əliyev ilə 1997-ci ildə Vatikanda keçirdiyi görüşləri, apardığı danışıqları həmişə xatırladığını söylədi.*

*Prezident Heydər Əliyev müstəqillik qazandıqdan sonra Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatlardan ətraflı söhbət açdı.*

*Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşadığını nəzərə çatdırdı. Prezident Heydər Əliyev bu münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə aradan qaldırılması sahəsində görülən işlərdən, danışıqlar prosesindən söhbət açaraq bildirdi ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatları və dövlətləri münaqişənin tezliklə həll edilməsi sahəsində səylərini artırmalıdırlar.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki tərəfi maraqlandıran bir sıra məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

## ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANIN DİN, ELM VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜNDƏ* NİTQ

*Prezident sarayı*

*22 may 2002-ci il*

Zati-Müqəddəsləri!

Sizi Azərbaycan dövləti adından səmimiyyətlə salamlayıram. Sizə xalqımızın ən xoş hisslərini çatdırıram. Sizin səfəriniz tarixi hadisədir, Azərbaycan dövlətinə olan hörmətinizin, bizim isə Avropa ilə bütünləşməyimizin təsdiqidir.

Siz Azərbaycana çox əlamətdar bir vaxtda gəlmisiniz. Sabah Vatikanın Azərbaycanın dövlət müstəqilliyini tanımasının 10 ili tamam olur. Belə bir günü məhz Azərbaycanda keçirmək niyyətiniz həqiqətən də nəcib diqqətlilik nümunəsidir.

Mən 1997-ci ilin sentyabrında İtaliya Respublikasına rəsmi səfərim çərçivəsində Vatikanı ziyarətimi və Sizinlə görüşümü böyük məmnunluq hissi ilə xatırlayıram. O zaman Sizinlə görüşüm və söhbətlərim mənə çox böyük təsir bağışlamışdı. Çox şadam ki, həmin görüşdə etdiyim dəvəti qəbul etmisiniz və Azərbaycana gəlmisiniz.

Siz müasir dünya tarixində mühüm rol oynayan şəxsiyyətsiniz, dini, irqi, milli sosial və siyasi fərqlərindən asılı olmayaraq, bütün insanlara xidməti özünün həyat idealına çevirmiş böyük humanistsiniz. Məhz buna görə Sizin yolunuz yalnız xristian katoliklərin yaşadığı ölkələrdən deyil, digər dinlərin, mədəniyyətlərin mövcud olduğu, insanların yaşadığı hər yerdən keçir. Bu gün həmin yol Sizi Azərbaycan torpağına gətirmişdir.

Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur. Azərbaycanlılar artıq 1300 ildən çoxdur ki, islam dininə etiqad edirlər. Onlar eyni zamanda, dini dözümlülükləri ilə seçilir, başqa xalqların dinlərinə və mədəniyyətlərinə ehtiramla yanaşırlar.

Digər dini icmalar kimi, katoliklər də Azərbaycanda hər zaman hörmət və etimad görmüşlər. Tarixçilərin verdiyi məlumatlara görə, Azərbaycanda ilk katolik icması XIX əsrin 30-cu illərində formalaşmağa başlamışdır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində katolik icmasının nümayəndələri Bakının mədəni-ictimai həyatında mühüm rol oynamış, xüsusən də səhiyyə, mədəniyyət və memarlıq sahələrində bu gün də minnətdarlıqla xatırlanan izlər qoymuşlar. 1912-ci ildə yerli katolik icmasının təşəbbüsü və əhalinin ianəsi ilə Bakının mərkəzi hissəsində «Müqəddəs Məryəm» kilsəsi ucaldılmışdı. Təəssüf ki, stalinizm dövründə islam, xristianlıq və yəhudiliklə bağlı bir çox din ocaqları kimi, bu katolik məbədi də dağıdılmışdı. Din və etiqad sərbəstliyinin hökm sürdüyü Azərbaycanda indi digər dini icmalar kimi, katoliklər də bütün hüquq və azadlıqlara malikdirlər.

Zati-Müqəddəsləri!

Azərbaycan xalqı özünəməxsus və nadir bir mədəniyyət yaratmışdır. Bu mədəniyyətin əsasında müsəlman və xristian sivilizasiyalarının sintezi dayanır. Orta əsrlərdən etibarən Azərbaycan mədəniyyəti Şərq ilə Qərb, müsəlman və xristian dünyaları arasında bir körpü olmuşdur. Zəngin müsəlman sivilizasiyasının nailiyyətləri bir sıra hallarda Azərbaycan alimlərinin, fikir adamlarının səyi nəticəsində Qərbin və bütün insanlığın mənəvi sərvətinə çevrilmiş, Qərb dəyərləri isə islam dünyasında yayılmışdır.

Azərbaycan xalqı kökü Avropadan gələn yenilikçi ideyalara yiyələnmək baxımından həmişə öncül yerlərdən birini tutmuşdur. Bu özünü elm, təhsil, mədəniyyət sahəsində xüsusilə aydın göstərmişdir. Biz bu gün haqlı olaraq fəxr edirik ki, müsəlman Şərqində yeni tipli məktəblər, demokratik mətbuat, qadın təhsili, seçmək və seçilmək hüququ ilk dəfə Azərbaycanda reallığa çevrilmiş, 1918-ci ildə bütün islam dünyasında Avropa tipli ilk dövlət – Azərbaycan Xalq Cümhuriyyəti bizim ölkəmizdə qurulmuşdur.

Artıq 10 ildən çoxdur ki, biz müstəqil dövlətimizdə yaşayırıq. Bu on il ərzində ciddi dəyişikliklərə nail olmuşuq. Mühüm iqtisadi islahatlar həyata keçiririk. Keçmiş irsdən imtina edərək, demokratik islahatlar yolunu tutmuşuq. Yoxsulluğa qarşı mübarizə aparırıq.

Mənəvi dəyərlərimizi dirçəldirik. İnsan haqlarının qorunmasına, əsas hüquq və azadlıqların təmin edilməsinə çalışırıq.

Biz tarixi seçimimizi etmişik, yəni, öz ənənələrimizdən qopmadan, milli simamızı itirmədən Qərb dünyasına, onun humanist və çağdaş dəyərlərinə üz tutmuşuq.

---

* Roma papası II İohann Pavel də görüşdə nitq söyləmişdir.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra biz böyük layihələr həyata keçiririk. Bu layihələr təkcə ticarət və iqtisadi mənfəət gətirmir, onlar həm də xalqları və mədəniyyətləri bir-birinə yaxınlaşdırır, inam və etimad mühiti yaradır, sivilizasiyalararası dialoqa xidmət edir.

Əlbəttə, regionumuzda ciddi problemlər, həllini tapmamış münaqişələr olmasaydı, uğurlarımız daha çox olardı. Bunu deyərkən, mən ilk növbədə Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsini nəzərdə tuturam. Bu region ən qədim zamanlardan bəri Azərbaycan torpağı kimi tanınmışdır. Burada yerli azərbaycanlılarla ermənilər sülh və dostluq şəraitində yaşamışlar. Ermənistanın bu bölgəyə haqsız iddiası və ölkəmizə hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib, 20 min nəfərdən çox azərbaycanlı həlak olub, 50 min nəfər yaralanmışdır. Çoxsaylı tarix və mədəniyyət abidələri həmişəlik yer üzündən silinmişdir. İbadət yerləri və qəbiristanlıqlar dağıdılmışdır. Ən dəhşətlisi isə budur ki, artıq on ilə yaxın bir müddət ərzində bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın vəziyyətində yaşayır. Onların məskunlaşdıqları çadır şəhərçikləri erməni işğalı nəticəsində Azərbaycanın necə bir humanitar fəlakətlə üzləşdiyi haqqında aydın təsəvvür yaradır. Biz bütün dünyanın, ilk növbədə isə şəfqət və rəhmliliyi öz başlıca prinsipi hesab edən Vatikanın bu insanların vəziyyəti ilə daha yaxından maraqlanmalarını istərdik.

1994-cü ildə atəşkəs elan olunmuşdur. Artıq 8 ildir ki, ağır və çətin sülh danışıqları aparırıq. Biz münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıyıq. Regionda yenidən hərbi əməliyyatların başlanmasını, qan tökülməsini istəmirik. Lakin dinc yolla nizamlama beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalı, ədalətli və daimi sülhə zəmin yaratmalıdır. Yalnız belə olduqda qədim Qafqaz torpağında asayiş və tərəqqiyə qovuşmaq, nifaq və qarşıdurmanı aradan qaldırmaq olar. Yalnız belə olduqda minlərlə insana fəlakət gətirən terrorçuluğun, aqressiv separatçılığın, milli və dini ədavətlərin ağır nəticələrini dəf etmək mümkündür.

Zati-Müqəddəsləri!

Sizin Azərbaycana qısamüddətli, lakin zəngin səfər proqramınızda din, elm və incəsənət xadimləri ilə görüşə xüsusi yer ayırmağınız əlamətdar hadisədir. Bəşəriyyətin qədim kitablarından biri olan Bibliyada deyilir ki, insanı yaşadan təkcə çörək deyil, həm də ilahi dərgahdan gələn Sözdür. Din, elm, mədəniyyət və incəsənət xadimləri həmin ilahi Sözün insanlara çatdırılmasını təmin edirlər, onların əxlaqını gözəlləşdirir, mənəvi cəhətdən saflaşmalarına, təmizlənmələrinə yardım göstərirlər. Düşünürəm ki, bütün bu nəcib işləri görmək, böyük və müdrik Sözü demək Sizin də səfərinizin başlıca məqsədlərindən biridir. İki gün ərzində Sizinlə təmasda olan, ibrətli kəlamlarınızı dinləyən hər bir azərbaycanlı Sizin timsalınızda yer üzündə insan ömrünün necə yaşanmalı olduğu haqqında daha dərindən fikirləşəcəkdir.

Bu mühüm və məsuliyyətli anları minlərlə Azərbaycan vətəndaşına yaşatdığınız üçün Sizə minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm.

* * *

*Sonra Azərbaycan prezidenti Heydər Əliyev ölkəmizin tanınmış elm, mədəniyyət, incəsənət, idman xadimlərini pontifikə təqdim etdi, II İohann Pavel onlara xatirə hədiyyələri təqdim etdi və ən yaxşı nemətlər dilədi.*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI,
ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA TƏNTƏNƏLİ
YOLASALMA MƏRASİMİ**

*23 may 2002-ci il*

*Vatikan dövlətinin başçısı II İohann Pavel və Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Binə beynəlxalq hava limanına gəldilər.*

*Azərbaycanın və Vatikanın dövlət bayraqları ilə bəzədilmiş Binə hava limanının binasında Roma papasının iri portreti asılmışdı.*

*Ali qonağın şərəfinə hava limanının uçuş meydanında fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Vatikan dövlətinin başçısı II İohann Pavelə və Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə raport verdi.*

*Prezident Heydər Əliyev və Roma papası II İohann Pavel üçüş meydanında qurulmuş xüsusi tribunada əyləşdilər.*

*Hərbi orkestrin ifasında Vatikanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Yolasalma mərasimində iştirak edən Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, nazirlər, dini konfessiyaların başçıları, Azərbaycanda akkreditə olunmuş bir sıra xarici ölkələrin səfirləri və beynəlxalq təşkilatların nümayəndələri Vatikan dövlətinin başçısı, Roma papası II İohann Pavellə, ali qonağı səfərdə müşayiət edən şəxslər Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevlə mehribancasına sağollaşdılar.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Roma papasına onun ölkəmizə rəsmi səfərini əks etdirən fotoalbom təqdim etdi.*

*Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Milli geyimli uşaqlar II İohann Pavelə gül-çiçək dəstəsi təqdim etdilər.*

**Heydər Əliyev:** Sizə çox təşəkkür edirəm. Azərbaycana səfər etdiyiniz üçün Sizə minnətdarlıq edirəm, səfəriniz çox yaxşı keçdi. Mən çox məmnunam. Sizin səfəriniz Azərbaycanda çox yaxşı qarşılanmışdır. Siz gördünüz, bu gün Sizinlə görüşməyə nə qədər adam gəlmişdi. Sizin səfərinizə çox böyük maraq var. Bir daha Sizə təşəkkür edirəm, işlərinizdə uğurlar, cansağlığı və yaxşı yol arzulayıram.

**II İohann Pavel:** Bakıya səfərimin yüksək səviyyədə təşkil olunmasından məmnun qaldığımı bildirirəm. Mənə göstərilən qonaqpərvərliyə görə prezident Heydər Əliyevə və Azərbaycan xalqına dərin minnətdarlığımı bildirirəm.

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Vatikan dövlətinin başçısı, Roma papası II İohann Pavel ilə təyyarənin pilləkəni yanında səmimiyyətlə sağollaşdı.*

*Roma papası Azərbaycan Dövlət Hava Yolları Şirkətinə məxsus xüsusi təyyarə ilə Bolqarıstana yola düşdü.*

* * *

**Klaudio Qucerotti** (*Vatikan dövlətinin Azərbaycandakı apostol nunsisi*): Cənab Prezident, Sizin tərəfinizdən edilən bu xeyirxahlıq Müqəddəs Ataya böyük təsir bağışladı. Siz onun da şahidi oldunuz ki, müəyyən çətinliklərə baxmayaraq, Müqəddəs Atanın özü istəyirdi ki, bu səfər baş tutsun. Biz böyük sevinc hissi ilə demək istəyirik ki, O, buraya gələndə hətta Sizin gözlərinizdən sevinc hissi duyulduğunun şahidi olduq.

Cənab Prezident, Bakıda katolik kilsəsinin tikilməsi üçün yer ayırdığınızı eşidəndə çox şad olduq. Hesab edirik ki, bu kilsə belə bir gözəl ölkədə belə gözəl xalq üçün öz töhfəsini verəcəkdir.

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, nəhayət, Roma papası, Zati-Müqəddəsləri II İohann Pavelin Azərbaycana səfəri baş tutdu. O, Azərbaycanda çox böyük sevinc hissi ilə qarşılanıbdır. Siz gördünüz ki, onu nə qədər məhəbbətlə, nə qədər hərarətlə qarşılayırdılar.

Dünən Azərbaycanın elm, mədəniyyət, incəsənət xadimləri ilə görüşümüz də çox yüksək səviyyədə keçdi və insanlar bunu çox müsbət qiymətləndirirlər. Bu gün İdman sarayında keçirdiyiniz tədbir də camaatda çox böyük maraq doğurmuşdur.

Poma papasının Azərbaycana bu səfəri tarixi hadisədir. Bu bizim xalqımızın tarixinə yazılıbdır. Mən bütün bunlara görə çox təşəkkür edirəm.

**Klaudio Qucerotti:** Cənab Prezident, çox sağ olun. Bircə onu demək istəyirəm ki, dünənki görüşümüzdə gördük ki, Azərbaycanın həqiqətən çox yaxşı uşaqları vardır. Onların oxuduğu mahnıları eşitdik.

Bunlar həmişəlik bizim qəlbimizdə qaldı. Cənab Prezident, mən sevinirəm ki, Siz öz xalqınızla fəxr edirsiniz.

**İ o s i f  D a n i i l  P r a v d a** (*Bakıdakı katolik kilsəsinin rəhbəri*): Cənab Prezident, Müqəddəs Atanı Azərbaycana dəvət etdiyinizə, səfərin yüksək səviyyədə təşkil olunmasına və bu ziyarətin uğurla başa çatmasına görə Sizə və Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm.

## BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU MƏHƏMMƏD ƏL-BARADEYİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*23 may 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənab əl-Baradeyinin dəvəti qəbul edib Azərbaycana səfər etməsindən çox məmnun olduğunu bildirdi, onunla Vyanadakı görüşünü xatırladığını vurğuladı.*

*Qonağa müraciətlə dedi ki, bilirəm, Milli Elmlər Akademiyasının prezidenti, Xarici Işlər naziri ilə görüşləriniz olubdur. Azərbaycan sizin agentlik ilə müqavilə bağlayıbdır. Siz bunu bilirsiniz və həmin müqavilə parlament tərəfindən təsdiq olunubdur. Biz sizinlə əməkdaşlığımızı bunun əsasında davam etdirmək istəyirik.*

**Məhəmməd əl-Baradeyi:** Cənab Prezident, səmimi qəbula görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin dəvətiniz mənim üçün çox böyük məna daşıyır. Ona görə də Sizin bu dəvətinizi qəbul edib ölkənizi ziyarət edirəm. Sizinlə görüşməyin mənim üçün böyük əhəmiyyəti vardır.

Mən də Vyanada Azərbaycanın Beynəlxalq Atom Enerjisi Agentliyinə üzv qəbul edilərkən keçirdiyimiz görüşü çox yaxşı xatırlayıram. O zaman biz Sizinlə Azərbaycanın üzvlüyü, eləcə də atom enerjisinin sülh məqsədləri üçün istifadə olunması məsələlərini müzakirə etdik. Azərbaycan nüvə silahlarının yayılmaması məsələsinə öz sadiqliyini bildirdi.

Mən burada olmağımdan çox şadam və ümid edirəm ki, biz əlaqələrimizi daha da dərinləşdirəcəyik və bir sıra məsələləri müzakirə edəcəyik. Deməliyəm ki, biz işimizi çox möhkəm təməl üzərində başlayırıq. İndiyədək bizim əldə etdiyimiz nailiyyətlər, əməkdaşlığımız məni tam qane edir.

**Heydər Əliyev:** Biz öz mövqelərimizə sadiqik. Yəni biz nüvə silahlarının yayılmaması prinsipini dəstəkləmişik və bu gün də dəstəkləyirik. Biz kütləvi qırğın silahlarının qadağan olunmasının tərəfdarıyıq. Xüsusən indi beynəlxalq terrorizmin geniş yayıldığı bir zamanda bu silahlardan hansısa bir vasitə ilə istifadə olunması çox təhlükəlidir. Bu barədə Azərbaycan daim öz mövqeyində olacaqdır və bu sahədə sizinlə bundan sonra da əməkdaşlıq edəcəkdir.

Bölgəmizdə bizi narahat edən Ermənistandakı atom elektrik stansiyasıdır. Bu elektrik stansiyasının tullantılarının harada basdırılması məsələsi bizə məlum deyil. Bəzi məlumatlar onu göstərir ki, onlar tullantıları Azərbaycanın işğal olunmuş ərazilərində basdırırlar, ya basdırmağa cəhd edirlər. Bölgəmiz üçün çox əhəmiyyətli olan Araz çayının da Ermənistan tərəfindən çirkləndirilməsi bizi narahat edir.

Xatirimdədir, hələ 1980-ci illərin əvvəllərində Ermənistanın Zod bölgəsində qızıl mədənlərindən çıxan filizin flotasiyası üçün Arazın kənarında bir zavod tikilirdi və oradakı tullantıların Araza buraxılması təhlükəsi var idi. Biz o vaxt buna etiraz etdik. Amma indi Ermənistan ilə Azərbaycan arasında münaqişə olduğu üçün bizim bu barədə məlumatımız yoxdur və bir şey də edə bilmərik. Bu məsələ nəzarət altında olmalıdır. Biz Araz çayından çox məqsədlər üçün istifadə edirik. Bu çayın suları Xəzər dənizinə axır. Demək, bu çayın təmizliyi Xəzər dənizinin təmizliyi üçün lazımdır. Ona görə bu məsələ bizi çox narahat edir. Biz istərdik ki, əməkdaşlığımızda bu məsələyə də diqqət yetirəsiniz.

Xəzər dənizinin ekologiyası, onun çirklənməsinin qarşısının alınması sahəsində də çox ciddi tədbirlər görmək lazımdır. Biz bununla məşğul oluruq. Güman edirəm, Xəzəryanı hər bir ölkə də, dövlət də bununla məşğul olur. Ancaq bizim hamımızın səylərimiz yetərli deyil. Xəzər dənizi ardıcıl surətdə çirklənir.

Bildirmək istəyirəm ki, Xəzər dənizindən neft və qaz hasilatı Xəzər dənizini çirkləndirmir. Çünki indi dünyanın böyük neft şirkətləri bizimlə bərabər Xəzər dənizində bu işlərlə məşğul olarkən, onlar müasir texnikanın, texnologiyanın tələblərindən, imkanlarından istifadə edirlər və ekologiya barəsində çox diqqətlidirlər.

Xəzər sahilyanı hər bir ölkədən dənizə buraxılan tullantılar nəticəsində çirklənir. Bu çox böyük problemdir. Bununla da məşğul olmaq lazımdır. Amma heç kəs təkbaşına bir şey edə bilməz.

**Məhəmməd əl-Baradeyi:** Sizin qaldırdığınız məsələlərin vacibliyi ilə tam razıyam. Çirkabların Araz çayına axıdılması elə bilirəm, bu regionda hamını narahat edən məsələdir. Mən təklif etmişəm ki, Araz hövzəsindəki suları biz yoxlayaq, onları testdən keçirək və orada çirkabların hansı səviyyədə olmasını müəyyən edək. Suların çirklənməsi üzrə bizim çox müasir laboratoriyamız vardır. Mən xahiş edəcəm ki, onlar buraya gəlsinlər və bu məsələ ilə məşğul olsunlar.

Sizinlə razıyam ki, Xəzərin ekologiyasının qorunması sahəsində səylərimizi artırmalıyıq. Mən belə başa düşürəm ki, Bakıda Xəzərin ekologiyası ilə məşğul olmaq üçün bir mərkəz yaratmaq yerinə düşər və biz də bu

mərkəzlə işimizi davam etdirə bilərik. Bütün bunların hamısı həm Sizin üçün, həm də bizim üçün çox vacib olan məsələlərdir. Sizi əmin etmək istəyirəm ki, adını çəkdiyim bütün bu məsələlərə yüksək səviyyədə lazımi diqqət göstəriləcəkdir.

**RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV BAŞDA OLMAQLA FEDERASİYA ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*24 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq, Rusiya parlamenti üzvlərinin Azərbaycanda olduqları qısa müddətdə bir sıra faydalı görüşlər keçirməsindən xəbərdar olduğunu bildirdi. Respublikamızın rəhbəri Azərbaycan xalqının slavyan mədəniyyətinə, rus dilinə məhəbbətinin nümunəsi olan Bakı Slavyan Universitetinin fəxri doktoru adına layiq görülməsi münasibətilə Sergey Mironovu təbrik etdi.*

*Azərbaycan prezidenti Federasiya Şurasının başçısına müraciətlə dedi ki, Sergey Mironovun vaxtilə hərbi xidmətdə olduğu Gəncə şəhərini özünün səfər proqramına daxil etməsi onu müsbət cəhətdən səciyyələndirir.*

*Sergey Mironov Azərbaycana dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi. O, Rusiya nümayəndə heyətinin mehribanlıqla qarşılandığı Milli Məclisdə keçirilmiş görüşlərdən məmnun qaldığını da bildirdi.*

*Sergey Mironov vurğuladı ki, Bakı Slavyan Universitetində keçirilmiş görüş, Rusiyaya məhəbbət və dostluq hisslərinin səmimiyyətlə izhar edilməsi ona unudulmaz təsir bağışladı. Federasiya Şurasının başçısı dini konfessiyaların rəhbərləri ilə keçirilmiş görüşdən danışaraq, Azərbaycanda aparılan milli siyasəti müdrik siyasət adlandırdı.*

*O dedi, Rusiya parlamentinin üzvləri Şəhidlər xiyabanını ziyarət etdilər. Sergey Mironov xiyabanın xatirə kitabında yazdığı bu sözləri sitat gətirdi: «Siyasətçilərin səhvləri üzündən öz ölkəsinin yüzlərlə günahsız vətəndaşının güdaza getməsi dəhşətli bir haldır. Mən Azərbaycan xalqı ilə birlikdə kədərlənirəm». O bildirdi ki, Azərbaycan paytaxtında olduğu qısa müddətdə bu şəhər özünün səliqə-sahmanı, habelə sakinlərin səmimi münasibəti ilə ona və həmkarlarına yaxşı təsir bağışlamışdır.*

*Sergey Mironov bəyan etdi ki, Federasiya Şurası başçısının sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan parlamentləri rəhbərlərinin Sankt-Peterburqda qapalı formatda görüşünü keçirmək barədə onun irəli sürdüyü təşəbbüsü Milli Məclisin sədri bəyənmişdir. Həmin təşəbbüsü Gürcüstan və Ermənistan parlamentlərinin başçıları da dəstəkləmişlər. Nəzərdə tutulduğuna görə, belə görüşlər rübdə bir dəfə növbə ilə Qafqaz ölkələrinin paytaxtlarında keçiriləcəkdir. Belə görüşlərin keçirilməsindən əsas məqsəd parlamentlərarası əlaqələri inkişaf etdirmək və regiondakı münaqişələrin nizama salınması prosesində ölkələrin rəhbərlərinə kömək göstərməkdir.*

*Sergey Mironovun sözlərinə görə, Rusiyanın prinsipial mövqeyi ondan ibarətdir ki, Qarabağ probleminin tənzimlənməsi yalnız iki ölkənin mənafelərinin gözlənilməsi şərti ilə mümkündür. Rusiya maksimum kömək etməyə və lazım gələrsə, hər hansı razılaşmaların təminatçısı olmağa hazırdır. O, qapalı formatda görüşün səmərəliliyini bununla bağladı ki, o, məhdud tərkibdə keçiriləcək və formal xarakter daşımayacaqdır.*

*Prezident Heydər Əliyev qonağın belə bir fikri ilə razılaşdı ki, nümayişkaranə xarakter daşıyan və nümayəndə heyətlərinin, müşayiət edən şəxslərin, televiziya işçilərinin iştirakı ilə keçirilən görüşlər Qafqazın mürəkkəb və kəskin məsələlərinin həlli kimi məsələdə çətin ki, konkret nəticələr versin. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq dedi ki, bu münaqişə son dərəcə mürəkkəbdir, özü də məhz ona görə mürəkkəbdir ki, ermənilər Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, bütün azərbaycanlıları oradan didərgin salmışlar – indi onlar çox ağır şəraitdə yaşayırlar – və həmin əraziləri işğal altında saxlayaraq, Dağlıq Qarabağa müstəqillik statusu verilməsini və ya onun Ermənistana birləşdirilməsini tələb edirlər. Prezident Heydər Əliyev bəyan etdi ki, Azərbaycan bununla razı deyildir və bu məsələ Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən həll olunmur. ATƏT-in Minsk qrupu bu münaqişənin həlli üzərində 10 ildən çoxdur işləyir. Son illər Rusiya prezidenti Vladimir Putinin, ABŞ prezidenti Corc Buşun, Fransa prezidenti Jak Şirakın iştirakı ilə Azərbaycan və Ermənistan prezidentləri arasında bir sıra görüşlər, o cümlədən təkbətək görüşlər keçirilmiş, lakin bütün bu görüşlər bir nəticə verməmişdir.*

*Azərbaycan prezidenti təcavüzkar separatizmdən danışaraq vurğuladı ki, dünyada heç bir ölkə öz ərazisinin bir hissəsinin ondan qoparılması ilə razılaşa bilməz. Dövlətimizin başçısı bununla əlaqədar Rusiyanı misal göstərərək dedi ki, məgər Rusiya öz ərazisinin hər hansı bir hissəsinin kiməsə verilməsi ilə razılaşa bilərmi? Neçə vaxtdır Çeçenistanda müharibə gedir, şübhəsiz ki, orada terrorçular var və beynəlxalq terrorizmlə mübarizə gedir. Bununla belə, bütün bunların əsas səbəbi odur ki, çeçenlər müstəqillik tələb edirdilər. Onlar hətta bir vaxtlar öz respublikasını yaratmış və onu İçkeriya adlandırmışdılar. Onlar dünyanın başqa dövlətləri ilə əlaqə saxlamağa başladılar, ancaq Rusiya bununla razılaşmadı və düz də etdi. Mən siyanı dəstəkləyirəm».*

*Prezident Heydər Əliyev daha sonra vurğuladı ki, Ermənistanla Azərbaycan arasında münaqişədə də söhbət Dağlıq Qarabağ tərəfindən təcavüzkar separatizmdən gedir və Ermənistan bu separatizmi lap əvvəldən*

*dəstəkləmişdir. Sonra Ermənistan bu proseslərin bilavasitə iştirakçısı və münaqişə tərəfi oldu, Azərbaycanla müharibə apardı.*

*Dövlətimizin başçısı bəyan etdi ki, Azərbaycanın ərazisi toxunulmaz olmalı, ölkənin pozulmuş ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan Ermənistan ərazisinin heç bir hissəsinə göz dikməyibdir. Mayın 12-də Praqada Azərbaycan və Ermənistan prezidentləri nümayəndələrinin görüşü keçirildi, iki prezidentin yaxın vaxtlarda görüşü haqqında razılaşma əldə etmək lazımdır. Azərbaycan prezidenti bildirdi ki, münaqişə həll olunmadan Ermənistanla əməkdaşlıqdan danışmaq qeyri-mümkündür.*

*Prezident Heydər Əliyev ilkin mərhələdə Rusiya, Azərbaycan və Qazaxıstanın iştirakı ilə Xəzəryanı ölkələrin Parlamentlərarası Assambleyasının yaradılmasına dair Sergey Mironovun təklifi barədə öz fikrini söyləyərək dedi ki, təşəbbüs diqqətəlayiqdir, lakin bu həmin formatdan kənarda qalan dövlətləri təcrid edə bilər, bu isə mövqelərin yaxınlaşmasına imkan verməyəcəkdir. Azərbaycan Xəzərin statusu məsələsinin bütün Xəzəryanı ölkələrin birgə səyləri ilə həll olunmasını istəyir.*

*Görüşün sonunda Sergey Mironov dövlətimizin başçısına xatirə olaraq kitab təqdim etdi. Sonra Azərbaycan prezidenti Heydər Əliyev və Rusiya nümayəndə heyətinin üzvləri xatirə şəkli çəkdirdilər.*

## *bp* ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ İSTEHSALAT ÜZRƏ BAŞ DİREKTORU DİK OLVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayıb hal-əhval tutdu.*

*Səmimi qəbula görə prezident Heydər Əliyevə minnətdarlıq edən cənab Dik Olver dövlətimizin başçısı ilə yenidən görüşmək imkanından şərəf duyduğunu vurğulayaraq dedi ki, 1990-cı illərin əvvəllərindən başlayaraq, xüsusilə də onun burada olmadığı son dörd il ərzində Azərbaycanda çox böyük dəyişikliklər baş vermişdir və bundan çox məmnunuq. Bizim üçün çox xoşdur Sizə məlumat verək ki, hazırda ilkin neft layihəsi çərçivəsində «Çıraq» platformasından gündə 140 min barrel, yəni 20 min ton neft hasil edirik. «Azəri», «Çıraq», «Günəşli» yataqlarının tammiqyaslı işlənilməsinin birinci fazası çərçivəsində də yüksək irəliləyişin şahidi oluruq. Planlaşdırmışdıq ki, bu günə qədər «Faza-1» layihəsinin tikinti işlərinin 20 faizini həyata keçirəcəyik. Məmnunluqla sizə deyirik ki, doğrudan da işlərin 20 faizi görülmüşdür.*

*Beləliklə, dörd ildən sonra Azərbaycanda olmaq mənim üçün çox xoşdur. Ötən illərə nəzər saldıqda görürəm ki, doğrudan da nailiyyətlərimiz böyükdür. İndi çox gözəl məqamdır ki, gələcək işlərimizin necə irəliləyəcəyinə bir daha nəzər salaq, məna verək.*

*Həmin gün Bakıda bp-nin biznes mərkəzinin açılacağını söyləyən qonaq ümidvar olduğunu bildirdi ki, bunun vasitəsilə bp və onun layihələrdəki tərəfdaşları gələcək tenderlərdə daha yaxşı, uğurla iştirak etməkdə Azərbaycan şirkətlərinə kömək göstərəcəklər. Ümumiyyətlə, biznes mərkəzi Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm rol oynayacaqdır. Gələn ay ərzində isə Azərbaycanda həyata keçirilən layihələr üzrə maliyyə vəsaiti ayrılması barədə qərarlar qəbul ediləcəkdir.*

*Təmsil etdiyi şirkətin Azərbaycanla əməkdaşlığının hər iki tərəf üçün faydalı olduğunu vurğulayan cənab Dik Olver dedi ki, Azərbaycanda həyata keçiriləcək iri layihələr çərçivəsində bp-nin qarşıdakı bir neçə ildə ayıracağı vəsait 1,5 milyard dollar olacaqdır. Bu layihələrin uğurla başa çatması nəticəsində Azərbaycan dünyada neft hasilatının 10 faizini verən ölkəyə çevriləcəkdir.*

*Dik Olver prezident Heydər Əliyevin sahibkarlarla görüşlərini, ölkədə biznes mühitinin yaxşılaşdırılmasına qayğı göstərməsini yüksək qiymətləndirərək dedi ki, biz Sizin nitqinizdə səslənən bütün fikirləri həyata keçirmək baxımından işlər görəcək, gözəl biznes mühitinin yaradılmasına öz köməyimizi edəcəyik.*

*Azərbaycan prezidenti Heydər Əliyev verilən məlumat üçün təşəkkür edərək dedi ki, mən bu işləri həmişə izləyirəm, çoxlarını bilirəm. Amma siz bütünlükdə həm görülən işlər, həm əldə olunan nailiyyətlər, həm də həyata keçiriləcək layihələr haqqında geniş məlumat verdiniz. Çox məmnunam ki, biz sizinlə çox səmərəli əməkdaşlıq edirik və bu əməkdaşlıq sınaqlardan keçibdir. Mən əminəm ki, bu, davam edəcəkdir. Dediyiniz layihələrin hamısını həyata keçirmək lazımdır. Mən bunları dəstəkləyirəm və istəyirəm ki, bunlar tez həyata keçirilsin.*

*«Azəri», «Çıraq», «Günəşli» yataqlarının irimiqyaslı işlənilməsinin birinci fazasına dair işlərin 20 faizinin görülməsi haqqında verdiyiniz məlumat məni çox sevindirdi. İndi 80 faizi qalıb, onu da tezliklə həyata keçirmək lazımdır. Biz Bakı–Ceyhan layihəsinin tezliklə inşasına başlanması üçün çalışırıq və bunu istəyirik.*

*Mən Amerika prezidenti cənab Buşun Rusiya prezidenti cənab Putin ilə görüşündən sonra bir neçə dəqiqə mətbuat konfransına qulaq asdım. Cənab Buş Bakı–Ceyhan layihəsini də dilinə gətirdi. Yəni bildirdi ki, bu barədə prezident Putin ilə danışıqlar aparıbdır.*

*«Şahdəniz» layihəsinə dair işləri də sürətləndirmək lazımdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*«Gülüstan» sarayı*

*27 may 2002-ci il*

Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycanın istiqlaliyyət günü – Respublika günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına sülh, rifah, əmin-amanlıq arzulayıram.

1918-ci ilin mayında Azərbaycanda, müsəlman aləmində ilk demokratik respublika, Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Azərbaycan xalqının həyatında böyük hadisə baş verdi. Xalqımız, millətimiz müstəqil, sərbəst yaşamaq iradəsini dünyaya nümayiş etdirdi. Azərbaycan Xalq Cümhuriyyəti özünün qısa ömrü dövründə dəyərli fəaliyyət göstərmişdir və Azərbaycan xalqının müstəqil olmaq iradəsini nümayiş etdirmişdir. Biz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini, onun qurucuları Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin və digərlərinin xidmətlərini böyük minnətdarlıq hissi ilə qeyd edirik.

1991-ci ilin oktyabr ayında Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdi. Azərbaycanda müstəqil dövlət yarandı. Ötən illərdə xalqımız böyük işlər görübdür və böyük nailiyyətlər əldə edibdir. Biz bu yaxın vaxtlarda Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünü qeyd etdik. Azərbaycanın müstəqil dövlət kimi keçdiyi on illik yolu təhlil etdik, nailiyyətlərimizi göstərdik və qarşıda duran vəzifələrimiz haqqında danışdıq. Bu illər Azərbaycanın yeni gələcək tarixinin parlaq səhifələridir. Çünki bu illərdə Azərbaycanın müstəqil dövləti qurulub, yaranıb, sınaqlardan keçibdir və indi Azərbaycan bir müstəqil dövlət kimi, dünyada özünə layiq yerini tutubdur.

Biz bu illərdə Azərbaycanı siyasi, iqtisadi böhrandan çıxardıq, Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdik, buna mane olan qüvvələri zərərsizləşdirdik, dövlətimizə qarşı silahlı çevriliş cəhdlərinin, terror aktlarının qarşısını aldıq. Bunların nəticəsində Azərbaycanda ictimai-siyasi, daxili vəziyyət sabitləşib, xalqımız rahat yaşamaq imkanı əldə edibdir.

Biz ötən illərdə demokratik, hüquqi, dünyəvi dövlətimizi qurmuşuq, onun təsisatlarını yaratmışıq, Azərbaycanın həyatında böyük dəyişikliklərə nail olmuşuq. Azərbaycanın demokratiya yolu ilə getməsi üçün lazımi qanunlar, fərmanlar qəbul etmişik. Bazar iqtisadiyyatının yaranması və inkişafı üçün lazımi işlər görülüb, iqtisadi, sosial, siyasi islahatlar aparılıb və ölkəmiz ardıcıl surətdə inkişaf edir. Azərbaycanın dövlət müstəqilliyi möhkəmlənibdir. Azərbaycanda daxili ictimai-siyasi sabitlik dönməz olubdur və ölkəmizdə quruculuq işləri gedir, biz demokratik dəyişikliklərə nail oluruq.

Azərbaycanın xarici siyasəti bütün ölkələrlə qarşılıqlı faydalı əlaqələr qurmaq və onu inkişaf etdirməkdən ibarətdir. Biz bu sahədə çox iş görmüşük və böyük nailiyyətlər əldə etmişik. Azərbaycan beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirmişdir. Bizim xarici siyasətimizdə əsas yeri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması tutur. Bu, Azərbaycanın həyatında ən böyük problem, ən böyük məsələdir. Bu sahədə görülən işlər cəmiyyətə məlumdur. ATƏT-in Minsk qrupu ardıcıl fəaliyyət göstərir. Onun həmsədrlərinin nümayəndələri mütəmadi olaraq bölgədə olurlar, lazımi işlər görürlər və görüşlər keçirirlər.

Son vaxtlar Minsk qrupunun həmsədrləri fəallaşıblar. İndi Ermənistan və Azərbaycan prezidentlərinin nümayəndələri görüşlər aparırlar, Ermənistan və Azərbaycan prezidentlərinin də görüşləri nəzərdə tutulur. Bütün bu görüşlər, danışıqlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına həsr edilir. Doğrudur, hələ istənilən nailiyyət əldə olunmayıbdır. Ancaq eyni zamanda, problem çox çətindir və çox mürəkkəbdir. Ümidvaram ki, biz bundan sonra da bu istiqamətdə işlərimizi davam etdirərək, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

İnanıram ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqları azad ediləcəkdir və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir, Azərbaycanın dövlət sərhədlərinin toxunulmazlığı təmin olunacaqdır. Bu məsələ indi dünyanın böyük dövlətlərinin diqqət mərkəzindədir. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu məsələnin həll olunması üçün səylər göstərirlər.

Bu günlərdə Moskvada Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş ilə Rusiya Federasiyasının prezidenti Vladimir Putinin görüşündə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması problemi öz yerini tapmışdır.

Bizim xarici siyasətimizdə qonşu ölkələrlə əlaqələrimizin möhkəmləndirilməsi, inkişaf etməsi, xüsusən iqtisadi əlaqələrin inkişaf etdirilməsi xüsusi yer tutur. Bu sahədə də nailiyyətlərimiz göz qabağındadır. Son günlərin hadisələrindən yüksək səviyyəli İran–Azərbaycan görüşlərini və Roma papasının Azərbaycana ziyarətini qeyd etmək olar.

Roma papasının Azərbaycana ziyarəti tarixi hadisədir. Onun Azərbaycanda olması, bizimlə aparılan danışıqlar və ictimaiyyətin nümayəndələri ilə, xalq kütlələri ilə görüşü bizim xalqımızın Roma papasına, ümumiyyətlə, sülhə, dostluğa münasibətini nümayiş etdirmişdir.

Azərbaycanın iqtisadiyyatında xarici investisiyanın cəlb olunması xüsusi yer tutur. Bu istiqamətdə biz xeyli işlər görmüşük və nailiyyətlərimiz də vardır. Böyük layihələr həyata keçiririk. 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» imzalanandan sonra Azərbaycana xarici investisiyanın cəlb olunması inkişaf edibdir və biz dünyanın böyük şirkətləri ilə müştərək layihələr həyata keçiririk. «Azəri», «Çıraq», «Günəşli» yataqlarından neftin hasil olunması ilə əlaqədar görülən işlər öz müsbət nəticəsini verir və bizim müştərək planlarımız da çox böyük ümidlər yaradır. Xəzər dənizində zəngin qaz yatağının – «Şahdəniz» qaz yatağının kəşf olunması, açılması da böyük hadisə olmuşdur.

Biz son dövrdə Xəzərin mineral ehtiyatlarının hasil olunması və onların dünya bazarlarına çıxarılması ilə əlaqədar böyük layihələr həyata keçiririk. O cümlədən, Bakı–Tbilisi–Ceyhan böyük ixrac neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri. Bu layihələr gələcəkdə Azərbaycan xalqına böyük faydalar gətirəcəkdir. Bu layihələr, xüsusən Xəzər dənizinin mineral ehtiyatlarından istifadə olunması, eyni zamanda, dünyanın böyük dövlətlərinin nəzər-diqqətini cəlb etmişdir. Bu günlərdə prezident Putinin prezident Buşla Moskvadakı görüşündə bu məsələ xüsusi yer almışdır və Bakı–Tbilisi–Ceyhan layihəsinə bir daha dəstək verilmişdir.

Bunların hamısı Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməyə, xalqımızın rifah halını yaxşılaşdırmağa yönəlibdir. Mən tam qətiyyətlə deyirəm ki, bizim gördüyümüz bu işlər yaxın gələcəkdə öz gözəl nəticələrini verəcəkdir. Bunlar da Azərbaycanın iqtisadiyyatını möhkəmləndirəcək, inkişaf etdirəcək, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və inkişaf etməsinə xidmət göstərəcək, Azərbaycan xalqının rifah halının daim yaxşılaşmasını təmin edəcəkdir. Bizim vəzifəmiz bu yolla getməkdən ibarətdir.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu uğurla həyata keçirilir. Demokratiya Azərbaycanın bütün sahələrini əhatə etmişdir. Bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsas aparıcı qüvvəsidir. Bunlar bizim gələcəyimizi təmin edir. Gələcəyimiz isə çox aydındır, çox uğurludur.

Azərbaycanda dövlət müstəqilliyi artıq dönməz olubdur. Azərbaycanda daxili ictimai-siyasi sabitlik dönməz olubdur. Azərbaycanda demokratiya dönməz olubdur. Azərbaycanda bazar iqtisadiyyatı dönməz olubdur. Beləliklə, biz dünya iqtisadiyyatına inteqrasiya oluruq və dünyanın inkişaf etmiş dövlətləri ilə əməkdaşlıq edirik. Bu əməkdaşlığın müsbət nəticələrini görürük. Azərbaycanın Avropa Şurasına qəbul olunması da bizim bu sahədə əldə etdiyimiz nailiyyətlərdəndir.

Bir sözlə, bizim ölkəmiz, xalqımız indi rahat yaşayır. Bizi narahat edən problemin həlli, işğal olunmuş torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması qarşıda duran vəzifəmizdir. Mən əminəm ki, biz bu vəzifəni yerinə yetirəcəyik. Ölkəmiz dünya miqyasında, beynəlxalq aləmdə özünə layiq yerini tutur. Bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir və biz buna görə xalqımıza, millətimizə minnətdarıq.

Mən bu bayram günü sizi bir daha təbrik edirəm. Azərbaycanın torpaqlarının keşiyində duran əsgərləri təbrik edirəm. Ağır vəziyyətdə çadırlarda yaşayan soydaşlarımızı təbrik edirəm. Şəhid ailələrini təbrik edirəm. Veteranları, torpaqlarımızın müdafiəsi uğrunda vuruşanları və xəsarət alanları təbrik edirəm. Bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm.

Bayramınız mübarək olsun!

* * *

*Təntənəli mərasimdə iştirak edən xarici ölkələrin Azərbaycandakı səfirləri, respublikamızın elm, mədəniyyət, incəsənət xadimləri, ictimaiyyətin nümayəndələri prezident Heydər Əliyevə yaxınlaşaraq onunla mehribanlıqla görüşdülər, dövlətimizin başçısını 28 May – Respublika günü münasibətilə səmimi-qəlbdən təbrik etdilər, uzun ömür, cansağlığı arzuladılar.*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN**
**28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ**
**ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMƏSİ**

*28 may 2002-ci il*

*28 may Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə tarixində ən unudulmaz günlərdən biridir. 1918-ci ilin məhz həmin günü Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır.*

*Ölkəmizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş mərd mübarizlərin xatirəsini yad etmək üçün respublika paytaxtı ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, elm, mədəniyyət və incəsənət xadimləri, xarici ölkələrin səfirləri mayın 28-də, Azərbaycan Xalq Cümhuriyyətinin 84-cü ildönümü, Respublika günü səhər müqəddəs ziyarətgaha – Şəhidlər xiyabanına toplaşmışdılar.*

*Azərbaycan prezidenti Heydər Əliyev xalqımızın mərd oğullarının əziz xatirəsinə ehtiramını bildirmək üçün Şəhidlər xiyabanına gəldi. Xiyabana toplaşanlar dövlətimizin başçısını alqışlarla qarşıladılar. Prezident Heydər Əliyev onları Azərbaycan Xalq Cümhuriyyətinin ildönümü – Respublika günü münasibətilə təbrik etdi.*

*Respublikamızın prezidenti Heydər Əliyev və onu müşayiət edən şəxslər şəhidlərin məzarları qarşısından keçərək, onların əziz xatirəsini ehtiramla yad etdilər. «Əbədi məşəl» abidəsinin önünə dövlətimizin başçısı adından əklil qoyuldu. Əklilin üzərində bu sözlər yazılmışdı: «Şəhidlərin xatirəsinə Azərbaycan Respublikasının prezidentindən».*

*Müdafiə Nazirliyi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.*

*Azərbaycan prezidenti Heydər Əliyev «Əbədi məşəl» abidəsini nəzərdən keçirərək mərasimdə iştirak edən jurnalistlərə dedi:*

Bu abidəni özüm yaratmışam, memarı da özüməm. Hərdən bir bura gələndə ona baxmaq istəyirəm. Çox gözəl abidədir.

Gözəl də şəhərimiz var. Gündən-günə də gözəlləşir. Bu gün hava çox yaxşıdır, səma da açıqdır, dəniz də sakitdir.

Bayram şəhərin hansı bölgələrində keçirilir?

**Hacıbala Abutalıbov** (*Baki Şəhər İcra Hakimiyyətinin başçısı*): Kukla teatrının arxasındakı böyük meydançada axşam saat 7-də bayram şənliyinə başlayırıq. Dənizdə gəmilər də olacaq, onlar su fəvvarələri vuracaq. Gözəl bayram şənliyi keçiriləcəkdir.

Nəsimi və Nizami rayonlarında, bütün rayonların baş meydançalarında, parklarında saat 4-dən etibarən şənliklər başlayacaqdır.

**Heydər Əliyev:** Çox gözəl. Milli Parkda axşam saat 7-də başlayacaqdır.

**Hacıbala Abutalıbov:** Saat 7-dən 8-ə kimi Milli Parkda şənlik olacaq, televiziya ilə birbaşa yayımlanacaqdır. Televiziya vasitəsilə bütün vətəndaşlar Milli Parka bayram şənliyinə dəvət olunublar.

**Heydər Əliyev:** Şəhəri abadlaşdırırsınız...

**Hacıbala Abutalıbov:** Sizin göstərişlərinizi yerinə yetirəcəyəm, buna əmin olun.

**Heydər Əliyev:** Yaxşıdır, gördüyünüz işlərdən hamı razıdır. Hətta bu «narazılar» da razıdırlar. Bunlar heç vaxt razı deyillər. Hər dəfə bir şeyə mütləq qulp qoyurlar. Amma bunlar da razıdırlar.

**Hacıbala Abutalıbov:** Çox sağ olun, minnətdarlığımı bildirirəm.

**Heydər Əliyev** (*jurnalistlərə müraciətlə*): Bayramınız mübarək. Sizi təbrik edirəm. Bütün xalqımızı, millətimizi təbrik edirəm. İndi isə sizinlə görüşərkən Azərbaycanın bütün jurnalistlərini təbrik edirəm. Mediyada çalışanları təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Yaxşı-yaxşı yazılar yazasınız, verilişlər verəsiniz. Həyatımızın reallığını əks etdirəsiniz.

**Jurnalistlər: Biz də Sizi təbrik edirik və arzulayırıq ki, inşallah, Azərbaycan Respublikasının 85-ci ildönümünə ölkəmiz Sizin rəhbərliyinizlə daha böyük uğurlar və nailiyyətlərlə gedəcəkdir.**

**Heydər Əliyev:** İnşaallah, 85-ci ildönümünə mütləq gedəcəyik.

**Sual:** *Cənab Prezident, biz istərdik ki, Siz Putin–Buş danışıqlarında Dağlıq Qarabağla bağlı məsələnin müzakirəsi zamanı əldə olunmuş nəticələrə münasibətinizi bildirəsiniz. Siz həmin danışıqlardan razı qalmısınızmı? Yəqin ki, danışıqlardan sonra Siz bu məsələ ilə bağlı əlaqə saxlamısınız?*

**Cavab:** Mən xüsusi əlaqə saxlamamışam. Ancaq, ümumiyyətlə, Moskvada prezidentlər Putin ilə Buş arasında aparılan danışıqlar və imzalanan sənədlər böyük maraq doğurur və hesab edirəm ki, onlar yüksək qiymətə layiqdir. Mən onları çox yüksək qiymətləndirirəm. Artıq dünyada bütün ictimaiyyət bu görüşləri, əldə olunan razılıqları yüksək qiymətləndiribdir. Biz də belə fikirdəyik. Bu, dünyada böyük dəyişikliklərin əsasını qoyubdur.

11 sentyabr hadisələrindən sonra, ümumiyyətlə, dünya dəyişibdir. Bütün dövlətlər bir-birinə qarşı olan bəzi ittihamları, yaxud ziddiyyətləri kənara qoyub, beynəlxalq terrorizmlə mübarizəni ön plana çəkiblər. Beynəlxalq terrorizmə qarşı koalisiya yaranıbdır.

Bilirsiniz ki, biz də həmin koalisiyaya daxil olmuşuq və bu mübarizədə öz xidmətlərimizi göstəririk. Ancaq bəzi belə fikirlər, görüntülər vardı ki, guya ABŞ, Rusiya müxtəlif mövqedədirlər. İndi isə bu görüşlərdə bütün dünyaya məlum oldu ki, Rusiya da, ABŞ da eyni mövqedən çıxış edirlər. Çox mühümü odur ki, nüvə silahlarının ixtisarı haqqında ciddi müqavilə imzalanıbdır. Mənim xatirimdədir, nüvə silahlarının ixtisarı barədə danışıqlar 1970-ci illərin əvvəllərindən gedir. O dövrdə, 1970-ci ildən 80-ci illərin əvvəllərinə qədər olan dövrdə – buna «gərginliyin zəiflədilməsi» dövrü deyirdilər. SSRI dağılandan sonra da bu danışıqlar gedirdi. Ancaq təəssüflər olsun ki, onlar lazımi nəticə vermirdi. İndi Moskvada keçirilmiş Putin–Buş danışıqlarında bu nəticələr əldə olunubdur.

Nüvə silahlarının ixtisar olunması, ümumiyyətlə, bütün dünya üçün böyük müsbət hadisədir. Əgər nüvə silahları tamamilə ləğv olunsaydı, insanlar daha da rahat olardılar. Ancaq indi ləğv edə bilmirlərsə, onların ixtisar edilməsi, təbiidir ki, böyük hadisədir, böyük bir nailiyyətdir.

Biz çox məmnunuq ki, bu görüşlərdə bizim bölgəyə də diqqət göstərilibdir. Deməli, bizim bölgə – Qafqaz bölgəsi, Xəzər hövzəsi bölgəsi dünyanın strateji bölgələrindən biridir. Böyük dövlətlərin, aparıcı dövlətlərin rəhbərləri öz görüşlərində bu bölgəyə diqqət yetirirlər.

Bilirsiniz ki, həmin sənədlərdə Qafqaz bölgəsi ilə əlaqədar müddəalar var. Bizim üçün maraqlı olan Xəzər dənizi ilə və bir də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə əlaqədar müddəalardır. Bunlar bizim bu sahədə işlərimizin daha da uğurla getməsinə, təbiidir ki, kömək edəcəkdir. Ona görə, bir daha deyirəm, mən bu görüşləri və əldə olunan sənədləri, razılıqları yüksək qiymətləndirirəm.

NATO–Rusiya əlaqələrinin yaranması da çox böyük və müsbət hadisədir. Çünki neçə illərdir ki, ümumiyyətlə, NATO yaranandan onunla Varşava Müqaviləsi Təşkilatı arasında həmişə böyük ziddiyyət və böyük qarşıdurma olubdur. Varşava Müqaviləsi Təşkilatı dağıldı, onun aparıcı qüvvəsi SSRİ olduğuna görə, varisi Rusiya idi. Bu da NATO ilə Rusiya arasındakı münasibətləri gərgin saxlayıbdır.

Son illər bu gərginlik tədricən aradan götürülür. Nəhayət, indi Moskvada əldə olunmuş razılıq, NATO–Rusiya formatı, təbiidir ki, dünyada yeni bir əhval-ruhiyyə və beynəlxalq aləmdə yeni vəziyyət yaradır. Bu vəziyyət də müsbət qiymətləndirilməlidir. Mən bunu yüksək dəyərləndirirəm.

**S u a l: Cənab Prezident, yerli və xarici sahibkarlarla Sizin görüşləriniz oldu. Bununla əlaqədar müşavirə nə vaxt keçiriləcək və hansı tədbirləri görəcəksiniz?**

**C a v a b:** Bu yaxınlarda müşavirə keçirəcəyik. Nazirlər, mənim müşavirim Vahid Axundov bu görüşlərin yekunlarını təhlil edirlər. Mən dünən bu məsələ ilə maraqlanmışam. Onlar söz veriblər ki, aparılan təhlillərin nəticəsini mənə təqdim edəcəklər. Ondan sonra mən müşavirənin gününü təyin edəcəyəm.

**S u a l: Cənab Prezident, Siz Köçəryanla görüşünüzün zəruriliyini vurğuladınız. Amma MDB ölkələri dövlət başçılarının sammiti oktyabr ayına qədər təxirə salınır. O vaxta qədər Köçəryanla görüşünüzün vaxtı dəqiqləşdiriləcəkmi?**

**C a v a b:** Ümumiyyətlə, bu görüş lazımdır. Hesab edirəm ki, Köçəryan və mən bu görüşün nə vaxt, harada keçirilməsi haqqında müəyyən razılıq əldə edə bilərik.

**S u a l: Cənab Prezident, Rusiya və ABŞ prezidentləri arasında müvafiq sənədlər imzalandı. Bu sənədlərin region dövlətləri və Azərbaycan üçün nə kimi əhəmiyyəti var?**

**C a v a b:** Çox böyük əhəmiyyəti var. Region dövlətləri üçün, ümumiyyətlə, Qafqaz regionu üçün əhəmiyyəti var. Bizim üçün xüsusi əhəmiyyəti var. Çünki siz bilirsiniz ki, bizim Amerika Birləşmiş Ştatları ilə strateji əməkdaşlığımız var. Rusiya ilə də sıx əməkdaşlığımız var. Ona görə məqsədlərimizi həyata keçirmək üçün bu görüşlər, əldə olunan nəticələr və xüsusən NATO–Rusiya formatı çox əlverişlidir və çox qiymətlidir.

**S u a l: Cənab Prezident, yəqin ki, Robert Köçəryanın son bəyanatından xəbəriniz var. O yenə bildirib ki, danışıqlar yalnız Paris prinsipləri əsasında aparılmalıdır. Bu, Ermənistanın, sadəcə, danışıqlara getmək istəmədiyini göstərmirmi ?**

**C a v a b:** Mən gördüm ki, sizin telekanalda Vilayət Quliyev buna cavab veribdir. Hesab edirəm ki, onun verdiyi cavaba əlavə bir şey demək olmaz. Amma yox, bu onu göstərmir.

**S u a l: Cənab Prezident, mətbuatda dövlət məmurları haqqında PKK ilə bağlı məlumatlar yayıldı. Bunlara Sizin münasibətiniz necədir?**

**C a v a b:** Buna mənim heç bir münasibətim yoxdur. Çünki bunların hamısı əvvəldən axıra qədər cəfəngiyyatdır. Ona görə, belə bir cəfəngiyyata mən heç bir münasibət bildirmək istəmirəm. Yalan, uydurma şeylər yayacaqlar ki, biz ona münasibət bildirək? Burada vəziyyəti gərginləşdirmək və cəmiyyətdə çaşqınlıq yaratmaq üçün belə bir yalanı ortaya atıblar. Bu, birinci hal deyildir. Bu onun müəlliflərinin xüsusiyyəti və əməli fəaliyyətidir.

**S u a l: Cənab Prezident, prezidentlər Buş və Putin region ölkələrinin ərazi bütövlüyünün təmin olunmasını önə gətirdilər. Bu baxımdan, Minsk qrupundan yeni təkliflər gözləmək olarmı?**

**C a v a b:** Bilirsinizmi, biz daim nə isə gözləməliyik. Özümüz də bu sahədə fikirləşməliyik ki, daha nə etmək olar ki, məsələnin həllinə nail olaq. Eyni zamanda biz daim təkliflər də gözləməliyik.

**S u a l: Cənab Prezident, ABŞ-ın bəzi araşdırma mərkəzləri Dağlıq Qarabağla bağlı danışıqların formatının dəyişdirilməsi barədə konkret təkliflərlə çıxış ediblər. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar müzakirələr hansı formatda aparılsa, daha yaxşı nəticə verə bilər?**

**C a v a b:** Bu, ABŞ mərkəzlərinin fikridir, yoxsa sənin fikrindir?

**J u r n a l i s t: Yox, ABŞ mərkəzlərinin fikridir. Özləri konkret təkliflərlə çıxış ediblər.**

**H e y d ə r Ə l i y e v:** Çixiş ediblərsə, yəqin ABŞ-ın və Rusiyanın müvafiq dairələri buna baxarlar.

**S u a l: Cənab Prezident, iyun ayının 25-də Türkiyədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində konfrans keçiriləcəkdir. İnşallah, Sizin iştirakınız gözlənilirmi?**

**C a v a b:** Mütləq gedəcəyəm.

**S u a l: Cənab Prezident, Sankt-Peterburqa səfərinizlə əlaqədar bilmək istərdik, Xəzərdə orta xətt koordinatları müəyyən edildimi?**

**C a v a b:** Hazirlayirlar. Deyəsən daha sualınız yoxdur, ona görə də mən sizə sual vermək istəyirəm. Kefiniz necədir? Necə yaşayırsınız? Maddi çətinliyiniz yoxdur ki? Sizə köməyim lazımdırmı?

**J u r n a l i s t l ə r: Cənab Prezident, çox sağ olun. Sizin sağlığınız Azərbaycan xalqına kömәkdir.**

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Görürəm ki, indi bizdə gənc, yaxşı jurnalistlər yetişir – həm qızlar, həm oğlanlar. Siz müasir tipli jurnalistlərsiniz. Bu məni sevindirir.

Mən istəyirəm sizin kimilər çox olsun ki, o mürtəçe xasiyyətli jurnalistlər aradan çıxsınlar. Onlar bizim bugünkü cəmiyyətə, dünyəvi dövlətə, bizim Qərblə münasibətlərimizə uyğun deyillər. Amma görürəm, siz bu mənada yaxşı yetişirsiniz. Mən istəyirəm ki, siz daha da kamil olasınız, öz biliyinizi, savadınızı artırasınız. Bilikləriniz yaxşıdır. Mən bəzən televiziyaya baxıram, ayrı-ayrı mövzular haqqında söhbət aparırsınız, yaxud fikirlər bildirirsiniz. Görürəm ki, siz gündəlik dünya mətbuatını izləyirsiniz, məlumatlar alırsınız və onlardan dərhal istifadə edirsiniz. Mən bunu çox müsbət qiymətləndirirəm. Bəzən də ayrı-ayrı məlumatları mən sizdən alıram. Mənim özümün də məlumat mənbəyim çox böyükdür, hər gün alıram. Ancaq bir də görürsən ki, nəyi isə eşitməmişəm, sizlərin biriniz televiziyada nəsə deyirsiniz, eşidirəm. Ona görə də mən bunları müsbət qiymətləndirirəm. İşinizi davam etdirin.

Bizim özəl televiziya kanalları da indi yaxşıdır. Əvvəl təkcə ANS idi, indi isə Space, LİDER də var. Yarış gedir. Yarış olması da yaxşıdır. Çünki rəqabət olanda, inkişaf da olur. Rəqabət olmasa, inkişaf olmaz. Əvvəl ANS-ə rəqabət yox idi. Nə istəyirdisə, onu edirdi. Amma indi ANS də fikirləşir, çalışır ki, bu rəqabətə dözsün. Amma o biri kanallar da özlərini yaxşı göstərirlər. Çox məmnunam.

Özəl kanallar, demək olar ki, yüksək səviyyədədir. Beynəlxalq standartlar səviyyəsindədir. Bu da məni sevindirir. Yaxşı işləyirsiniz. Sizə uğurlar arzulayıram. Məndən nə istəyirsiniz?

**S u a l: Cənab Prezident, biz sizin sağlığınızı istəyirik. Bayaq Siz dediniz ki, mən bu abidəni sevirəm, ona görə ki, özüm tikdirmişəm. 28 May Şərqdə ilk demokratik cümhuriyyətin yaranması günüdür. Sizin belə bir fikriniz varmı ki, elə bir park yaradılsın ki, orada Azərbaycan Xalq Cümhuriyyətinin çox məşhur nümayəndələrinin abidələri qoyulsun?**

**C a v a b:** Bilirsinizmi, Xalq Cümhuriyyətinin əbədiləşdirilməsi haqqında mənim fikirlərim var, bunu edəcəyik. İndi deyə bilmərəm ki, park və ya heykəl olacaq. Bilirsinizmi, bizdə heykəli çox sevirlər. Ancaq müsəlman aləmində heykəl yoxdur. Düzdür, biz artıq Avropa dəyərlərini mənimsəmişik. Amma bu qədər heykəl qoysaq, 50 ildən sonra Bakıda adamların sayından çox heykəl olacaq. Düşünürsünüzmü? Qərb ölkələrini götürün, siz oralara gedirsiniz. Məsələn, Parisi götürün, qədim Londonu götürün. Avropanın başqa mərkəzlərini götürün. Oralara gedəndə bir dəfə araşdırın. Orada neçə heykəl görəcəksiniz. Sonra gəlib Bakıdakı heykəlləri sayın. Görəcəksiniz ki, Bakıdakı heykəllərin sayı onlardan qat-qat çoxdur. Demək, biz istəmişik ki, onlar kimi olaq, amma bir az, necə deyərlər, ölçünü itirmişik. Ona görə hər kəs istəyir ki, nəyəsə heykəl qoyulsun. Ya onun pərəstiş etdiyi adamdır, ya qohumudur, ya dostudur və sair. Heykəl, heykəl, bir də heykəl... Yenə deyirəm, görün Bakıda nə qədər heykəl var. Əbədiləşdirmək, həqiqətən lazımdır. Amma heykəl məsələsində siz bir az düşünün. Yenə deyirəm, sən (*ANS-in müxbirinə*) hər şeyi çox operativ həll edirsən. Mən səndən xahiş edirəm, bu mövzunu araşdır, öz telekanalınızda ver ki, məsələn, Parisdə neçə və Bakıda neçə heykəl var. Bu birincisi. İkincisi, Parisdəki heykəllər kimin heykəlləridir, Bakıdakı heykəllər kimindir? Sənin bu verilişini eşidəndən sonra mən bir daha fikirləşəcəyəm.

**S u a l: Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarının varisləri, nəvələri müraciət etmişdilər ki, əvvəllər Azadlıq parkı olmuş keçmiş 26-lar bağı yenidən Azadlıq parkı adlandırılsın. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi barədə bəyannaməni imzalamış 26 nəfərin adları oradakı memoriala həkk olunsun. Bu təklif nə dərəcədə məqbuldur?**

**C a v a b:** Onlarin adlarının həkk olunması lazımdır, mən buna razıyam. Amma ora başı bəlalı bağdır, bunu bilirsiniz. Vaxtilə Azadlıq parkı olub, orada kimlərin cəsədləri olduğunu siz bilirsiniz. Elədirmi? Mən özüm də keçmiş 26-lar bağı haqqında çox düşünürəm. Orada dəyirmi abidə var, onun haqqında düşünürəm. Biz tarixi

düzgün araşdırdıq, 26-lar Azərbaycana düşmən olublar. Ona görə də indi o bağın elə vəziyyətdə saxlanması, yəqin ki, lüzumsuzdur. Orada indi başqa nəyinsə qoyulması... orada yerin altında nələr var, siz bunu bilirsiniz. Tarix bizə bəzi çətin problemlər qoyubdur, bəzən ha fikirləşirsən, bunun yolunu tapa bilmirsən.

Mən özüm o bağı hərdən görəndə, yaxud onun yanından keçəndə onun haqqında düşünürəm. Amma bir nəticəyə gələ bilmirəm. Bilirsinizmi, çox çətin məsələlər var. Bir nəticəyə gələ bilmirəm. Amma düşünmək lazımdır.

**S u a l: Cənab Prezident, Siz İranda olarkən belə bir ifadə işlətdiniz ki, imzalanmış sənədlərlə bağlı xüsusi tədbirlər planı işlənib hazırlanacaqdır. Bu, konkret nəzarət sistemini, yoxsa layihələrin həyata keçirilməsini nəzərdə tutur?**

**C a v a b:** Bu həm layihələrin həyata keçirilməsini, həm də nəzarət sistemini nəzərdə tutur. Sağ olun. Bayramınızı bir də təbrik edirəm.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə iştirak edən diplomatik korpusun üzvləri, elm, ədəbiyyat, incəsənət xadimləri ilə görüşüb söhbət etdi, onları Respublika günü münasibətilə təbrik etdi. Mərasim iştirakçıları dövlətimizin başçısına ən xoş arzularını bildirdilər, ona cansağlığı dilədilər.*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ PAYTAXTA GƏZİNTİYƏ ÇIXMASI**

*28 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev mayın 28-də, ölkəmizin milli bayramı olan Respublika günü paytaxta qısa gəzintiyə çıxmışdır.*

*Ölkəmizin qədim və gündən-günə gözəlləşən paytaxtının sakinləri dövlətimizin başçısını hər yerdə böyük sevinclə, hörmət və ehtiramla salamlayır, bayram münasibətilə təbriklərini, xoş arzularını yetirirdilər. Respublikamızın rəhbəri onları əlamətdar bayram münasibətilə ürəkdən təbrik etdi, səadət, firavanlıq arzuladı.*

*Prezident Heydər Əliyev Bakının mərkəzi meydan və kücələrini, yeni tikilmiş yaraşıqlı binaları seyr etdi, öz mülahizələrini, tövsiyələrini söylədi.*

*Azərbaycan prezidenti paytaxtın ən füsunkar güşələrindən birində, dahi Nizaminin adını daşıyan meydanda yerləşən «MakDonalds» yeməkxanasında da oldu. Dövlətimizin başçısı şəhər sakinlərinə və qonaqlara təklif edilən yeməklərin çeşidi, müştərilərə göstərilən xidmətin səviyyəsi ilə maraqlandı, özü də burada yemək yedi.*

*Prezident Heydər Əliyev Space televiziyası müxbirinin xahi şi ilə bayram münasibətilə xalqımıza arzularını çatdırdı:*

*Bayramınızı təbrik edirəm, sizin televiziya kanalının işçilərini təbrik edirəm, xoşbəxt həyat, sülh, əmin-amanlıq, rifah arzulayıram. Görürsünüzmü, indi insanlar necə rahat yaşayırlar, gəzirlər, istirahət edirlər. Mən bu gün işdən evə gedirdim, amma dedim ki, gəlim buralara baxım, görüm insanlar necə istirahət edirlər. Çox yaxşı istirahət edirlər, rahatlıqdır. Heç kəs heç kəsə toxunmur, yaxud zərər gətirmir. Siz gəncsiniz, ancaq yeddi-səkkiz il bundan öncə Bakıda belə deyildi. Ona görə bu bayram günü deyə bilərəm ki, bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanda ictimai-siyasi sabitlik yaratdıq, insanlara rahat yaşamaq imkanı yaratdıq. Baxın, hamının – gözəl qızların, oğlanların, uşaqların, böyüklərin əhval-ruhiyyəsi yaxşıdır. Görürəm ki, kefiniz yaxşıdır, istirahət edirsiniz. Sizə baxdıqca, mənim də kefim daha yaxşı olur.*

*Gəzintini davam etdirən Azərbaycan prezidenti paytaxt sakinlərinin qayğıları ilə maraqlandı, bunların həlli ilə bağlı müvafiq tapşırıqlar verdi.*

*Dövlətimizin başçısı daha sonra Bakının ən qələbəlik guşələrindən biri olan və Kitab passajı adı ilə tanınan əraziyə gəldi, burada satışa qoyulmuş boyakarlıq əsərlərinə baxdı, rəssamlarla söhbət etdi.*

*Paytaxtda bayram gəzintisi sakinlərdə və respublikamızın rəhbərində xoş ovqat yaratdı.*

**BİRİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM SƏRGİSİNƏ**

Hörmətli sərgi iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş Birinci Azərbaycan beynəlxalq turizm sərgisinin iştirakçılarını səmimi-qəlbdən salamlayıram.

Ümumdünya Turizm Təşkilatına üzv qəbul edilən ölkəmizdə hazırda turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar açılmışdır. Azərbaycanın Avropa ilə Asiyanın qovuşuğunda yerləşməsi də burada turizmin inkişafına münbit zəmin yaradır. Böyük İpək Yolunun üzərində mühüm mövqe tutan Azərbaycan ölkələrin və xalqların yaxınlaşması işinə xidmət edən turizm sənayesinin yaradılması yolunda addımlarını atsa da, bu sahədə həyata keçirilən layihələr turizmin respublikamızda böyük perspektivə malik olduğundan xəbər verir.

Azərbaycanın turizm tarixində ilk dəfə keçirilən beynəlxalq miqyaslı belə bir sərgi bir çox ölkələrlə genişlənən turizm əlaqələrinin bariz nümunəsidir. Tədbir zəngin mədəni irsə və rəngarəng təbiətə malik olan respublikamıza beynəlxalq turizm mütəxəssislərinin marağının artması baxımından mühüm hadisədir. İnanıram ki, bu sərgi Azərbaycanda turizmin inkişafı yolunda mühüm mərhələ olacaq, onun böyük potensialından istifadə etməklə turizmin yeni infrastrukturunun yaradılması prosesinə xarici investorların da cəlb edilməsinə imkan yaradacaq, ölkəmizin turizm məkanı kimi tanınmasında əhəmiyyətli rol oynayacaqdır.

Hörmətli sərgi iştirakçıları! Azərbaycanla yaxın tanışlıqdan böyük məmnunluq hissi keçirəcəyinizə inanır, sizə sərginin işgüzar və səmərəli keçirilməsində uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 may 2002-ci il*

**TÜRKİYƏ BAŞ NAZİRİNİN BAŞ MÜŞAVİRİ,**
**KEÇMİŞ DÖVLƏT NAZİRİ,**
**XOCA ƏHMƏD YASƏVİ**
**ADINA BEYNƏLXALQ TÜRK-QAZAX UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRI**
**NAMİQ KAMAL ZEYBƏK**
**İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*29 may 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonağı səmimiyyətlə salamlayaraq hal-əhval tutdu, onunla tanışlığının on ilinin tamam olduğunu vurğuladı.*

*Səmimi qəbula görə prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Namiq Kamal Zeybək dedi ki, cənab Prezident, ürəyimiz daim Azərbaycanda, Sizin yanınızdadır. Hörmətli Süleyman Dəmirəl hələ o zaman mənə demişdi ki, cənab Heydər Əliyevi çoxdan tanıyıram, çox ağıllı bir insandır. Görəcəksən, Azərbaycan onu özünə rəhbər seçəcək, Azərbaycanın cümhur başqanı olacaqdır.*

*Qonaq Bakıdakı Asiya Universitetinin fəxri doktoru adına layiq görüldüyü barədə də məlumat verdi.*

*Respublikamızın rəhbəri Heydər Əliyev cənab Süleyman Dəmirəl ilə şəxsi tanışlığının tarixindən söhbət açaraq, Naxçıvanda olarkən Türkiyənin rəhbərləri ilə telefon danışıqlarından, Naxçıvan ilə Türkiyə arasında tikilmiş dostluq körpüsünün əhəmiyyətindən bəhs etdi, 1992-ci ildə prezident Turqut Özal və Baş nazir Süleyman Dəmirəl, eləcə də Namiq Kamal Zeybək ilə görüşünü xatırladı, onların Naxçıvana göstərdikləri yardımları heç vaxt unutmayacağını söylədi.*

*Dövlətimizin başçısı hörmətli qonağı fəxri doktor adı alması münasibətilə təbrik etdi, onun digər universitetlərin də fəxri doktoru adına layiq olduğunu bildirdi, Türkiyə–Azərbaycan əlaqələrinin yaranması və inkişafındakı rolunu vurğuladı, Türkiyədən böyük Atatürk haqqında aldığı ilk gözəl kitabın müəllifinin də məhz o olmasını yüksək qiymətləndirərək dedi: Azərbaycanın prezidenti kimi, mən bilirəm ki, ölkəmiz hələ müstəqilliyini əldə etmədiyi bir vaxtda, Azərbaycanda Türkiyəyə sevgi-məhəbbət hər gün artdığı bir vaxtda Namiq Kamal Zeybək Mədəniyyət naziri kimi, çox işlər görmüşdür. Bunları Türkiyədə unutsalar da, biz unutmarıq, şəxsən mən unutmaram.*

*Xoş sözlərə görə minnətdarlıq edən, Azərbaycanda əldə olunan nailiyyətləri yüksək qiymətləndirən Namiq Kamal Zeybək dedi:*

*Cənab Prezident, Allah sizə uzun ömür versin ki, Azərbaycanda hər şey gözəl olsun. Azərbaycanda Sizin kimi görkəmli cümhur başqanı olduğu üçün biz çox sevinirik. Sizin zəkanız bizə də lazımdır. Allaha şükür edirik ki, Sizi bizə vermişdir, uzun müddət Azərbaycanın rəhbəri olmağınızı arzulayırıq. Bu, Türkiyə və Azərbaycan üçün vacibdir və bunu söyləməkdən fəxr duyuruq. Mən özümü təkcə Türkiyə vətəndaşı yox, həm də Azərbaycan vətəndaşı kimi hiss edirəm. Siz nə əmr edərsinizsə, onu yerinə yetirməyə hazıram.*

*Prezident Heydər Əliyev qonağa müraciətlə dedi ki, ölkəmizdə həmişə çox istənilən, arzu olunan və sevilən bir şəxs kimi, Azərbaycanda həmişə yeriniz vardır. Ümidvaram ki, kimin hansı vəzifə tutmasından asılı olmayaraq, bu əlaqələrimiz, dostluğumuz həm şəxsi münasibətlərimiz naminə, həm də Türkiyə–Azərbaycan dostluğu naminə davam edəcəkdir.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA**
**BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI**
**ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Taxt-taca sahib olmağınızın 50 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin Britaniya xalqı qarşısında xidmətləriniz və ölkələrimiz arasında əlaqələrin inkişafına töhfəniz Azərbaycanda yüksək qiymətləndirilir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Britaniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 30 may 2002-ci il*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALVARO URİBEYƏ**

Hörmətli cənab Prezident!

Kolumbiya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranan dostluq münasibətləri daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 may 2002-ci il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KARLO ARZELYO ÇAMPİYƏ**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və bütün İtaliya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunam. Ümidvaram ki, ölkələrimizin potensial imkanlarından daha tam istifadə edərək bütün sahələrdə faydalı əlaqələr quracağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 may 2002-ci il*

**İSVEÇİN KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı – İsveç bayrağı günü münasibətilə Sizi və bütün İsveç xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–İsveç münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. Ümidvaram ki, genişlənməkdə olan əlaqələrimiz ölkələrimiz arasında əsl dostluq və əməkdaşlıq körpüsü salacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveç xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 may 2002-ci il*

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YORAN PERSSONA**

Hörmətli cənab Baş nazir!

İsveç Krallığının milli bayramı – İsveç bayrağı günü münasibətilə Sizi və bütün İsveç xalqını ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasındakı dostluq münasibətləri səmərəli əməkdaşlıq üçün möhkəm təməldir. Şübhəsiz ki, birgə səylərlə bütün imkanlardan xalqlarımızın rifahı naminə istifadə edə biləcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveç xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 may 2002-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJİ SAMPAYYUYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının mili bayramı – Portuqaliya günü münasibətilə Sizi və bütün Portuqaliya xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 may 2002-ci il*

## Q E Y D L Ə R

**1. 8 mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 5-6.

**2. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 7–15,24,72,144,184,185,211,212,314,335,360,376,383,393.

**3. Trubnikov Vyaçeslav** (d.1944) – Rusiya dövlət xadimi, ordu generalı. 1996–2000-ci illərdə Rusiya Federasiyası Xarici Kəşfiyyat İdarəsinin direktoru, 2000–2004-cü illərdə Xarici İşlər nazirinin birinci müavini, 2004-cü ildən Hindistanda Fövqəladə və Səlahiyyətli səfirdir. – 7–15.

**4. Nyu-York** – ABŞ-ın ən mühüm iqtisadi, maliyyə, siyasi və mədəni mərkəzlərindən biri. Əsası 1626-cı ildə Yeni Amsterdam adı ilə hollandiyalılar tərəfindən qoyulmuşdur. 5 inzibati rayona bölünür. Sahəsi 816 $km^2$ (o cümlədən quru hissəsi 768 $km^2$), əhalisi 7 milyondan (ətrafı ilə birgə 16 milyon) çoxdur. – 7,8,12,283.

**5. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 7,13,14,24,45,59,69,72,101,102,104,118, 121,133,144,184,185,187,191,204,211,236,238,239,240,258,283,305,309,313,319,321,334,335,348,360,364,375,376,377,383,389,393.

**6. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 7,11,13,14,81,192,229.

**7. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 7,10,12,62,63,65-67, 72–73,78–86,87–88,94–96,123–126,133,137,139,140,142,143–144,179,189, 206,207,256,290,291,328,374–377,380,383,390,391,392,393.

**8. P u t i n V l a d i m i r V l a d i m i r o v i ç** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 9,10,66,72–73,82,84,95,128, 137,139,140,143–144,179,256,376,380,383,385,389,390,393.

**9. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 7,12,34–38,62–64,68–69,118–119,130,181,182,201,206,253,286–291,376,380,383,390,392,393.

**10. Fransa,** F r a n s a   R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 7,12,24–25, 231– 232,253,376,383.

**11. Gürcüstan,** G ü r c ü s t a n   R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 10,63,104–105,177–213,218,301, 375.

**12. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 12,24–25,231–232, 376.

**13. Joze Jaymi Matos da Qama** (d.1947) – Portuqaliya siyasi xadimi. 1995–2002-ci illərdə Portuqaliya Xarici İşlər naziri və ATƏT-in sədri olmuşdur. – 11,12.

**14. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 12,229.

**15. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 14,15,121,192.

**16. İran,** İ r a n   İ s l a m   R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 16–17,97–103,127,128,129,135–136,137,139,140,180,304–355,396.

**17. Xatəmi,** S e y i d   M ə h ə m m ə d   X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 16,98,100,102,103,128, 135–136,137,139–140,179,304,308,309–314,321,338,341–342,343–352, 353,354.

**18. Pakistan,** P a k i s t a n   İ s l a m   R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 18,120–122,234.

**19. Pərviz Müşərrəf** (d.1943) – 2001–2008-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuşdur. – 18,120,122, 234.

**20. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 19,212,218.

**21. Konstantinos Stefanopulos** (d.1926) – 1995–2005-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 19.

**22. İrlandiya,** İ r l a n d i y a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min $km^2$, əhalisi 3,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublindir. – 20.

**23. Meri Makalis** (d.1951) – İrlandiya siyasi xadimi. 1997-ci ildən İrlandiya prezidenti. 2004-cü ildə yenidən opponentlərsiz prezident seçilmişdir. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 20.

**24. Tunis,** T u n i s  R e s p u b l i k a s ı –Şimali Afrikada dövlət. Sahəsi 164,2 min $km^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 21.

**25. Zeynalabidin Bin Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987-2011-ci illərdə Tunis prezidenti olmuşdur. – 21.

**26. Namibiya,** N a m i b i y a  R e s p u b l i k a s ı – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 824,3 min $km^2$, əhalisi 1,7 milyon nəfərdir. İnzibati ərazisi 13 regiona bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Vindnik şəhəridir. – 22.

**27. Sem Nuyoma** (d.1929) – 1990–2005-ci illərdə Namibiyanın prezidenti olmuşdur. 2007-ci ildən SVAPO Partiyasının sədridir. – 22.

**28. Banqladeş,** B a n q l a d e ş  X a l q  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min $km^2$, əhalisi 123 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dakkadır. – 23.

**29. Bədruddoza Çoudnuri** (d.1932) – Banqladeş siyasi və dövlət xadimi. 2001-ci ildən Banqladeş prezidenti. – 23.

**30. Faiq Qarayev** (d.1959) – SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, Azərbaycanın «Əməkdar bədən tərbiyəsi və idman xadimi», 2002-ci ildən qadınlardan ibarət Milli yığma voleybol komandamızın Baş məşqçisi və Azərbaycan Voleybol Federasiyasının vitse-prezidentidir. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 26–33.

**31. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt, 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 30,124.

**32. İlham Əliyev**, İ l h a m  H e y d ə r  o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Xalqımızın ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 30,130,218.

**33. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 32,344.

**34. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 35,402.

**35. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 37,68–69,130,181,286,287,376,380,383,385,389,390,393.

**36. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 39–40,41–46.

**37. Rauf Hacıyev,** R a u f  S o l t a n  o ğ l u (1922–1995) – Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti. 1964–65-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının diretkoru 1965–71-ci illərdə Azərbaycan SSR Mədəniyyət naziri, 1979–85-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının katibi olmuşdur. Rauf Hacıyevin Azərbaycan operettasının inkişafında mühüm xidmətləri var. Rauf Hacıyevin operettaları SSRİ-nin, eləcə də xarici ölkələrin bir sıra teatrlarında tamaşaya qoyulmuşdur. – 42.

**38. Rəşid Behbudov**, R ə ş i d  M ə c i d  o ğ l u (1915–1989) – böyük Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qastrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanıdır. – 42.

**39. Əflatun Amaşov,** Ə f l a t u n  Ə h m ə d  o ğ l u (d.1957) – jurnalist. 1985–94-cü illərdə AzərTAc Dövlət Teleqraf Agentliyində müxtəlif vəzifələrdə çalışmışdır. 1995-ci ildə «Yeni Nəsil» Jurnalistlər Birliyinin yaradıcılarından biri olub. 1995–98-ci illərdə təşkilatın sədr müavini olmuşdur. 1998-ci ildə «Ruh» Azərbaycan jurnalistləri komitəsinin sədri seçilib. 2003-cü ildən Azərbaycan Mətbuat Şurasının sədridir. – 47–56.

**40. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 49,181,392.

**41. Seneqal,** S e n e q a l R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 196,2 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 57.

**42. Abdulay Vad** (d.1926) – 2000-ci ildən Seneqal prezidenti. Abdulay Vad Afrika Birləşmiş Ştatları yaratmaq ideyasının tərəfdarıdır. – 57.

**43. 31 mart azərbaycanlıların soyqırımı,** 1 9 0 5 – 1 8 - c i i l l ə r s o y q ı r ı m ı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 58–61.

**44. SSRİ,** S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t t i f a q ı – 1922–91-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 59,90,96,140,141,253,390,391.

**45. Cef Binqəmən** (d.1943) – Amerika siyasətçisi, senator. Senatda Enerji və Təbii Sərvətlər Komissiyasının sədridir. Cef Binqəmən 2002-ci ildə İraqa qarşı müharibəyə səs verməyən 25 deputatdan biridir. – 62–64.

**46. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 62,63,128,134–135,137,139,140,142,290, 291,377.

**47. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 62,190,271.

**48. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 62,127–148,180,290, 291.

**49. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 63,248,249.

**50. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 millyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 63,177–213,218,226,227–230,235–236,237–241,393,402–404.

**51. Sankt-Peterburq** (1914-cü llədək Sankt-Peterburq, 1924-cü llədək Petroqrad, 1991-ci llədək Leninqrad) – 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. – 65,66,94,128,144,375, 393.

**52. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 65.

**53. Puşkin,** A l e k s a n d r S e r g e y e v i ç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası» olan (N.Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 65.

**54. Vladimir Filippov** (d.1951) – fizika-riyaziyyat elmləri doktoru, professor. Rusiya Təhsil Akademiyasının akademiki, 1998–2004-cü illərdə Rusiya Federasiyasının Təhsil naziri olmuşdur. – 65.

**55. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 68,287.

**56. Şəhidlər xiyabanı.** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. –70,375,387–397.

**57. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n- d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 71,242,405.

**58. E l i z a b e t II** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 71,405.

**59. Çin Xalq Respublikası (**ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 74–75,116,246.

**60. Tszyan Tszemin** (d.1926) – Çinin partiya və dövlət xadimi. 1989-cu ildən Çin KP MK-nın Baş katibi, 1993–2005-ci illər Çin Xalq Respublikasının sədri olmuşdur. – 74–75,116,246.

**61. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 75,190,400.

**62. Tamilla Mahmudova** (d.1922) – pianoçu, professor. Azərbaycan Respublikasının Xalq artisti, Rusiya Federasiyasının Əməkdar artisti. XX əsrdə Azərbaycanın ən məşhur pianoçusu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 76–77,86.

**63. TRASEKA,** Transxəzər nəqliyyat dəhlizi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 80.

**64. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 81.

**65. Məmmədbağır Əliyev,** Məmmədbağır Cavad oğlu (d.1955) – tibb elmləri doktoru, professor, Rusiya Federasiyasının əməkdar elm xadimi, 2 dəfə Dövlət mükafatı laureatı, Rusiya Tibb Elmləri Akademiyasının akademiki. Tibb elminin inkişafında M.Əliyevin böyük xidmətləri var. O, 7 kəşfin, 6 yeni təcrübənin, 200-dən artıq nəşr olunmuş elmi işin, həmçinin 2 monoqrafiyanın müəllifidir.

Hazırda Məmmədbağır Əliyev dövlət klinikası –«N.N.Bloxin adına onkoloji elmi mərkəz»in direktor müavini, Moskva Onkologiya Elmi-Tədqiqat İnstitutunun direktoru və Ümumrusiya Azərbaycan Konqresinin prezidentidir. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 87–88.

**66. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 89–91,192, 385.

**67. Litva,** Litva Respublikası – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayon və respublika tabeçiliyində 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 89–91,218.

**68. Avpora Şurasının Nazirlər Komitəsi** – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin xarici işlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərinin milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşlığı məsələlərini həll edirlər. – 89–91.

**69. Antanas Valionis** (d.1950) – Litva siyasətçisi. 2000–2006-cı illərdə Litvanın Xarici İşlər naziri, 2003-cü ildə AŞ Nazirlər Şurasının sədri olmuşdur. – 89–91.

**70. Algirdas Brazauskas** (d.1932) – Litva dövlət və siyasi xadimi, 1993–98-ci illərdə Litvanın prezidenti, 2001-ci ildən Baş nazir. Prezidentliyi zamanı Rusiya ordusunu Litvadan çıxarmış. Litvanın NATO-ya qəbul olunmasını xahiş etmişdir. Sosial-demokratik koalisiyanın başçısıdır. –89,90.

**71. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti. – 91.

**72. Baltikyanı ölkələr** – bura Latviya, Litva və Estoniya daxildir.

**73. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 92,252–255.

**74. Varşava gettosu,** bax: Varşava üsyanı

**75. Varşava üsyanı (**1943**) –** Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı.

Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdülər, 6 min adam isə yanğınlar zamanı həlak oldu. Faşistlər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. – 92.

**76. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı qəddarcasına öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 92.

**77. Viktor Xristenko** (d.1957) – iqtisad elmləri doktoru, professor. 2000-ci ildən Rusiya Federasiyası Baş nazirinin müavini, 2004-cü ildən Rusiya Federasiyasının Sənaye və Energetika naziri, 2008-ci ildən Sənaye və Ticarət naziridir. – 94–96.

**78. Abbas Abbasov,** A b b a s A y d ı n o ğ l u (d.1949) – 1992–2006-cı illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 95,96.

**79. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min $km^2$, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 96,260.

**80. Xərrazi Seyid Kamal** (d.1945) – İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998–2005-ci illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. – 97–103,333–336.

**81. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 98,344,392.

**82. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min $km^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və 2 tabe mərkəzi mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 101,121.

**83. Şevardnadze,** E d u a r d A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 105,177–213,258,301.

**84. Suriya,** S u r i y a   Ə r ə b   R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazə (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 106.

**85. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidenti. – 106.

**86. Zimbabve,** Z i m b a b v e   R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 390,6 min km$^2$, əhalisi 11,5 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Hararedir. – 107.

**87. Robert Muqabe** (d.1924) – 1987-ci ildən Zimbabvenin prezidenti. 1980–87-ci illərdə Zimbabvenin Baş naziri və Müdafiə naziri olmuşdur. 1984-cü ildən Afrika Milli Qurtuluş Partiyasının Zimbabve üzrə Birinci katibidir. – 107.

**88. Vatikan** – Avropada Papa dövləti – şəhər. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 108–110,356–369.

**89. Klaudio Qucerotti** (d.1955) – katolik kilsəsinin arxiyepiskopu, diplomat. 2001–2011-ci illərdə Vatikanın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 108–110,367–368.

**90. II İohann Pavel,** d ü n y ə v i   a d ı   K a r o l   V o y t u l a   (1920–2007) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən qeyri-italyan mənşəli (polyak) ilk Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəifləndilməsində böyük xidmətləri var. II İohann Pavel 1978-ci ildə Roma papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 108,303,356–369,384.

**91. Norveç,** N o r v e ç   K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 111–113,261–262,305.

**92. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycanın neft layihələrində fəal iştirak edir. – 111–113.

**93. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 111,196,199,242,351,384.

**94. Steinar Gil** (d.1943) – filoloq, diplomat. Norveç Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır. 2002–2006-cı illərdə Norveçin Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 111.

**95. Tur Heyerdal** (1914–2002) – Norveç etnoqrafi və arxeoloqu. Köhnə Dünya (Asiya, Avropa, Afrika) və Yeni Dünya (Amerika) arasında xalqların transogean miqrasiyasının mümkünlüyünü tədqiq etmişdir. 1969 və 1970-ci illərdə papirusdan hazırlanmış «Ra» və «Ra-2» qayıqlarında Afrikadan Amerikaya, 1977–78-ci illərdə qamışdan hazırlanmış «Tiqris» qayığında Əlkürna (İraq) – Cibuti marşrutu ilə ekspedisiyalar təşkil etmişdir. 2 dəfə Azərbaycanda olmuş, Qobustan qaya təsvirlərinə, qədim Şabran şəhərinin qalıqlarına baxmış, bu abidələr barədə qiymətli mülahizələr söyləmişdir. Bir neçə dəfə Azərbaycana səfər etmişdir. – 111, 112.

**96. Danimarka,** D a n i m a r k a   K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,24 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı folketinqdir. Paytaxtı Kopenhagendir. – 114,115.

**97. II Marqrete** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 114.

**98. Andres Foq Rasmussen** (d.1953) – Danimarka siyasətçisi. 2009-cu ildən NATO-nun Baş katibidir. 2001–2009-cu illərdə Danimarkanın Baş naziri olmuşdur. – 115.

**99. Koreya,** K o r e y a   R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 117.

**100. Kim De Çyun** (d.1926) – 1997–2003-cü illərdə Koreyanın prezidenti. Milli Konqres Yeni Siyasətdə partiyasının lideri. Demokratiya və insan hüquqlarının müdafiəçisi. Həmçinin Şimali Koreya ilə sülh və barışığa görə Nobel mükafatı laureatı. – 117.

**101. Ross Uilson** (d.1955) **–** 2000–2003-cü illərdə Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Ross Uilson Türkiyədə ABŞ-ın səfiri vəzifəsində çalışır. – 118–119,289.

**102. Həmid Nəvaz xan –** 2001–2006-cı illərdə Pakistanın Müdafiə naziri, 2007–2008-ci illərdə Federal Daxili İşlər naziri olmuşdur. – 120–122.

**103. Tehran** – İranın paytaxtı. Ölkənin əsas siyasi, iqtisadi, ticarət-maliyyə və mədəniyyət mərkəzi. Tehranın əsası IX əsrdə Rey şəhərinin yaxınlığında qoyulmuşdur. XIII əsrdə monqollar Reyi dağıtdıqdan sonra Tehran böyüməyə başladı. 1785-ci ildə İranın paytaxtı elan edilmişdir. – 121,136,179,307–308,309–352,355.

**104. Kəşmir problemi** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 122.

**105. Mixail Şvidkoy** (d.1948) – Rusiya Federasiyasının dövlət xadimi. 2000-ci ildən Rusiya Mədəniyyət naziri və kinematoqrafiya mədəniyyəti üzrə Federal agentliyin, eyni zamanda Moskva Myuzikl Teatrının bədii rəhbəridir. Rusiya Dövlət mükafatı laureatıdır. – 123.

**106. Vladimir Fedoseyev (**d.1932) – Rusiya dirijoru; 1959-cu ildən Mərkəzi televiziya və radiosunun rus çalğı alətləri orkestrinin, 1974-cü ildən Böyük simfonik orkestrin, 1992-ci ildən «Ostankino» teleradio kompaniyasının bədii və baş dirijorudur. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 123,124.

**107. Georgi Svirodov** (1915–1998) – Rusiya dirijoru, pianoçu, ictimai incəsənət xadimi, klassik rus musiqi ənənəsinin davamçısı. SSRİ Xalq artisti0 SSRİ və Rusiya Dövlət mükafatları laureatı. – 123.

**108. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. –123.

**109. Neft Daşları** – Abşeron yarımadasından 42 km cənub–şərqdə, açıq dənizdə polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşlarında geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 123.

**110. Çaykovski,** P y o t r   İ l i ç (1840–1893) – böyük rus bəstəkarı. Çaykovski musiqili dramaturgiyada zərif psixoloq, ustad simfoniyaçıdır. O, musiqidə insanın daxili aləmini açmış, operada, baletdə, simfoniyada məşhur obrazlar yaratmışdır. Onun «Füsunkar qadın», «Yevgeni Onegin», «Mazepa» «İolanta» operaları, «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik» baletləri və bir sıra simfoniyaları onu dünyada məşhurlaşdırmışdır. – 124,125.

**111. Gennadi Xazanov,** G e n n a d i   V i k t o r o v i ç (d.1945) – məşhur rus estrada artisti. Rusiya Federasiyasının Xalq artisti. 1987-ci ildən «Mono» (Moskva) konsert-estrada kollektivinin artist və rejissoru, 1997-ci ildən isə Moskva Estrada Teatrının bədii rəhbəridir. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. – 125.

**112. Niyazi,** T a ğ ı z a d ə – H a c ı b ə y o v N i y a z i Z ü l f ü q a r o ğ- l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatıdır. – 125,126.

**113. Xəzəryanı ölkələr –** bura Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan aiddir.

**114. Aşqabad** – Türkmənistan Respublikasının (1924-cü ildən) paytaxtı. 1948-ci ildə zəlzələ zamanı məhv olmuş tarixi-mədəni «Nisa» qoruğunun məskəni. Əsası 1881-ci ildə Aşqabad kəndinin yerində qoyulmuşdur. 1919-cu ilə qədər Aşqabad, 1919–27-ci illərdə isə Poltoratsk adlanırdı. Əhalisi 412,2 min nəfərdir. – 127–145,178,179,322.

**115. Saparmurad Niyazov,** S a p a r m u r a d A t a o ğ l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən 2007-ci ilədək Türkmənistan Respublikasının prezidenti olmuşdur. –128,137,139,148,180.

**116. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 130.

**117. UEFA** – B e y n ə l x a l q A v r o p a İ d m a n T ə ş k i l a t ı – Avropa Futbol Assosiasıya Şurası. Əsası 1954-cü ildə qoyulmuşdur. – 131.

**118. FİFA –** Beynəlxalq Futbol Federasiyası. 1904-cü ildə Parisdə yaradılmışdır. Hazırda 210-a yaxın milli federasiyanı birləşdirir. – 131.

**119. Skinxedlər** – cəmiyyətdə xüsusi qəddarlıqla şəxsi (xüsusi) mülkiyyətə qarşı öz etirazlarını bildirən başıqırxıq barbar gənclər təşkilatı. Bu təşkilatların çoxu milliyyətçi və neofaşist təmayüllüdür. 1960-cı ildən qeydiyyatdadırlar. – 133.

**120. Murtuz Ələsgərov,** M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 133.

**121. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 134–135,137,139,140.

**122. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 158,161,165,366.

**123. Tanzaniya,** B i r l ə ş m i ş T a n z a n i y a R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 945,1 $km^2$, əhalisi 29,0 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dolomadır. – 168.

**124. Bencamin Mkapa** (d.1938) – Tanzaniya siyasi və dövlət xadimi, 1995-ci ildən Tanzaniya prezidenti. – 168.

**125. Toqo,** T o q o R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 5 əyalətə bölünür. Dövlət başçısı prezident, müvəqqəti qanunverici orqanı Ali Respublika Şurasıdır. Paytaxtı Lome şəhəridir. – 169.

**126. Qnassinqbe Eyadema** (1937–2005) – Toqo siyasi və dövlət xadimi, ordu generalı. 1972–2005-ci illərdə Toqo prezidenti olmuşdur.–169.

**127. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 170,218.

**128. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı, 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 170.

**129. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 41,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 171.

**130. Tabo Mbeki (d.1942)** – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. –171.

**131. Syerra Leone,** S y e r r a L e o n e R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 72,3 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 3 əyalətə və bir vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Nümayəndələr Palatasıdır. Paytaxtı Fritaundur şəhəridir. – 172.

**132. Əhməd Kabba** – Syerra Leone siyasi xadimi; 1998-ci ildən Syerra Leone prezidenti. – 172.

**133. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 173,174.

**134. II Beatriks** (d.1938) – 1980-ci ildən Niderlandın kraliçası. – 173.

**135. Vim Kok** (d.1938) – Niderland siyasətçisi. 1994–2002-ci illərdə Niderlandın Baş naziri olmuşdur. 2004-cü ildən Vim Kok Lissabon strategiyasının yerinə yetirilməsi ilə məşğul olan qrupun rəhbəridir. – 174.

**136. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 175,176,218,219–222,257–259.

**137. Rau Yohannes** (1931–2006) – Almaniya dövlət xadimi. Almaniya Sosial Demokrat Partiyasının liderlərindən biri. 1999–2004-cü illərdə Almaniyanın federal prezidenti olmuşdur. – 175.

**138. G e r h a r d Ş r ö d e r** (d.1944) – Almaniyanın dövlət və siyasi xadimi. 1980-ci ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 176.

**139. Trabzon** – Şimal–Şərqi Türkiyədə, Qara dəniz sahilində liman- şəhər. Trabzon ilinin inzibati mərkəzi. E.ə. VII əsrin ortalarında salınmışdır. V əsrdən XIII əsrin əvvəllərinə qədər Bizansin tərkibində olmuşdur. 1204–1461-ci illərdə Trabzon imperiyasının paytaxtı idi. 1461-ci ildən Osmanlı imperiyasının tərkibinə daxil edilmişdir. Tarixi-memarlıq abidələri ilə zəngindir. Əhalisi 144 min nəfərdir. – 177–213,227,229.

**140. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 177,178,179,182,185,190,196, 198,203,204,210,227,272,288,289,280,284,385.

**141. Məmməd Əliyev,** M ə m m ə d  N o v r u z  o ğ l u (d.1942) – Fövqəladə və Səlahiyyətli səfir, fizika-riyaziyyat elmləri doktoru. 1992–2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 183.

**142. Bakı– Tbilisi** – **Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 185,190,198, 199,203,205,210,227,272,384.

**143. Xeyrəddin Qoca,** Q o c a y e v  X e y r ə d d i n  S a y ə d d i n  o ğ l u (d.1950) – Azərbaycan jurnalisti. 1995–2000-ci illərdə Milli Məclisin deputatı, 1997–2002-ci illərdə isə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu olmuşdur. – 183.

**144. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 183–213,227.

**145. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 184,393.

**146. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 190,206.

**147. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 190.

**148. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 192.

**149. NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 192,244.

**150. Ramil Usubov,** R a m i l  İ d r i s  o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 194.

**151. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq»

proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 202,243–245,391, 392.

**152. Reykyavik** – İslandiyanın paytaxtı (1944), Atlantik okeanın Faxsafloun körfəzi sahilində ən əsas liman-şəhər. Reykyavik dünyanın mühüm balıqçılıq və balıq ticarəti mərkəzlərindəndir. Əsası 874-cü ildə qoyulmuşdur. Əhalisi 105,5 min nəfərdir. – 202,211.

**153. PKK** – burada əsasən Türkiyədə fəaliyyət göstərən senapatist, terrorçu Kürd Fəhlə Partiyası nəzərdə tutulur. – 202,392.

**154. Çeçenistan (İçkeriya) –** Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 203,376.

**155. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxilə-çilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 208,403.

**156. «Yaşıllar» Partiyası** – Almaniyada Avropada olan «yaşıllar»a oxşar ekologiya partiyası. Partiyanın proqramının xarakterik cəhəti – bazar iqtisadiyyatında təbiətin və ətraf mühitin qorunması dövlət nəzarətində olmalıdır. Partiya 1979-cu ildə AFR-də yaradılmışdır.– 219.

**157. Sosial Demokrat Partiyası,** bax: Almaniya Vahid Sosialist Partiyası.

**158. Almaniya Vahid Sosialist Partiyası** – 1946-cı ildə Almaniyada Kommunist Partiyası ilə Sosial Demokrat Partiyasının birləşməsi nəticəsində yaranmışdı. 1990-cı idən Sosialist–Demokrat Partiyası adlanır. – 219.

**159. Yoşka Fişer** (d.1948) – alman siyasətçisi. 1998–2005-ci illərdə Almaniya Xarici İşlər naziri və vitse - kansler olmuşdur. – 219,258.

**160. Ağ göl** – Azərbaycanda şor göl. Ağcabədi rayonu ərazisində, Mil düzündədir. Sahəsi 3,1 min hektardır. Suyunu Ağcabədi və Beyləqan rayonlarındakı kollektorlardan alır. Ətrafındakı dayaz yerlər qamışlıqdır. – 220.

**161. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyid oğlu (d.1955) – iqtisadçı. 1993-cü ildən Qərb Universitetinin təsisçisi, prezidenti və rektorudur. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 222,243.

**162. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 223.

**163. Jak Roqq** (d.1942) – belçikalı ortoped-cərrah, məşhur yelkənli qayıqsürmə idmançısı. Belçika kralı II Albert tərəfindən rıtsar adlandırılmış və qraf tituluna layiq görülmüşdür. Hazırda Beynəlxalq Olimpiya Komitəsinin sədridir. – 223.

**164. Büländ Ecevit** (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974, 1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi olmuşdur. – 227.

**165. Nigeriya,** N i g e r i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 233.

**166. Olisenun Obasanco** (d.1937) – Nigeriya siyasi və dövlət xadimi; 1999-cu ildən Nigeriyanın prezidenti. – 233.

**167. Dövlət Baxçalı** (1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökumət yaratmışdır. Baş nazirin müavini olmuşdur. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 235–236,237–241.

**168**. ***bp,*** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 242,378–380.

**169. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 247–251,278.

**170. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 248,278.

**171. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildən Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 252–255.

**172. Kaspiysk** (1947-ci ilədək Dviqatelstroy, qəsəbə) – Cənubi Rusiyada, Dağıstanda şəhər. Xəzər dənizi sahilindədir. Əhalisi 68,7 min nəfərdir. – 256,260.

**173. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 258.

**174. «Siemens» –** alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 258.

**175. Klaus Kinkel** (d.1936) – alman dövlət və siyasi xadimi. 1991–92-ci illərdə Almaniya Ədliyyə naziri, 1992–98-ci illərdə Almaniya Xarici İşlər naziri, eyni zamanda 1993–98-ci illərdə Almaniyanın vitse-prezidenti olmuşdur. – 258.

**176. Məhəmmədəli Məhəmmədov** (d.1930) **–** Rusiya dövlət və siyasi xadimi. 1983–2006-cı illərdə Dağıstan Respublikasının müxtəlif məsul vəzifələrində çalışmış və 2006–2010-cu illərdə Dağıstan Dövlət Şurasının sədri olmuşdur. – 260.

**177. V Harald** (d.1937) – 1991-ci ildən Norveçin kralı. Kral V Ulafin oğlu. – 261.

**178. Maqne Bondevik –** (d.1947) – 1997–2000-ci və 2001–2005-ci illərdə Norveçin Baş naziri. Hazırda Norveçdə «Sülh və insan hüquqları» mərkəzinin prezidentidir. – 262.

**179. Yəmən,** Y ə m ə n R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min km$^2$, əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. – 263.

**180. Əli Abdulla Saleh** (d.1932) – marşal, 1994-cü ildən Yəmən Respublikasının prezidenti. – 263.

**181. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 285.

**182. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti. – 285.

**183. Stiven Mənn –** amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 286–291.

**184. Kolin Pauell** (d.1937) – Amerika generalı. Prezident Corc Buş (ata) zamanında (1980–89,1989–92) Dövlət katibi olmuşdur. – 286,287.

**185. Çeyni Dik** (d.1941) – Amerikanın siyasi xadimi. 1989–1992-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Hallibörtn» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. 2001–2009-cu illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. – 286,287.

**186. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 42-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 288.

**187. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 288.

**188. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 288.

**189. İnquşetiya,** İ n q u ş e t i y a R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində respublika. Sahəsi 19,3 min km$^2$, əhalisi 313,3 min nəfərdir. Paytaxtı Nazran şəhəridir. – 292.

**190. Mirzə Babayev** (1913–2003) – müğənni-aktyor. Azərbaycan estrada musiqisinin banilərindən biri, Azərbaycan Respublikasının Xalq artisti. Görkəmli bəstəkar Tofiq Quliyevin mahnılarının ən gözəl ifaçısı. Mirzə Babayev 30-dan artıq filmdə çəkilmişdir. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasında çalışmışdır. İki dəfə «Humay» mükafatı laureatı. – 293.

**191. Fikrət Məmmədov,** F i k r ə t F ə r r u x o ğ l u (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, III dərəcə Dövlət ədliyyə müşaviri. Respublikada aparılan hüquqi islahatlarda, qanunvericiliyin təkmilləşdirilməsində fəal iştirak edir. – 296.

**192. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub–şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 34,9 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos–Ayresdir. – 299.

**193. Eduardo Albert Dualde** (d.1941) – 2002–2003-cü illərdə Argentina prezidenti olmuşdur. – 299.

**194. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 300.

**195. II Abdulla,** A b d u l l a b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 300.

**196. Kamerun,** K a m e r u n R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 13,6 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundadır. – 302.

**197. Pol Biyya** (d.1933) – Kamerun siyasi və dövlət xadimi. 1975–82-ci illərdə Kamerunin Baş naziri, 1982-ci ildən Kamerunun prezidentidir. – 302.

**198. Abbasəli Həsənov,** A b b a s ə l i K ə r ə m o ğ l u (d.1953) – şərqşünas, diplomat. 1998-ci ildən Azərbaycan Respublikasının İranda Fövqəladə və Səlahiyyətli səfiridir. Eyni zamanda 1998-ci ildən EKO-da – İqtisadi Əməkdaşlıq Təşkilatında idarə heyətinin üzvü, hazırda isə sədridir. – 307,323–332.

**199. İmam Xomeyni,** R u h u l l a M u s ə v i (1903–1989) – 1979-cu ildən İran İslam Respublikasının başçısı, Ayətullah. 1964-cü ildə ölkədən qovulmuş, əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olmuşdur. 1979-cu ildə İrana qayıtmış, şah rejimini devirməyə və İslam Respublikasını qurmağa nail olmuş inqilaba başçılıq etmişdir. – 317.

**200. Xamenei,** H ü s e y n X a m e n e i S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 311,318,319.

**201. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 336, 355.

**202. Mehdi Kərrubi** (d.1937) – İran dövlət xadimi. 1989–92, 2000–2004-cü illərdə İran İslam Şurası Məclisinin sədri olmuşdur. – 320–322.

**203. Nəsirəddin Tusi,** M ə h ə m m ə d i b n H ə s ə n (1201–1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 324.

**204. Marağa** – İranın şimal–qərbində şəhər. Şərqi Azərbaycan ostanındadır. Marağa Azərbaycanın ən qədim şəhərlərindəndir. Sasanilər dövründə Marağa iqtisadi və mədəni cəhətdən inkişaf etmiş şəhərlərdən idi. Şəhər dəfələrlə müxtəlif dövlətlər tərəfindən işğala məruz qalmış və XIII əsrdə Elxanilər dövlətinin paytaxtı olmuşdur. Müxtəlif dövrlərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. Marağa orta əsrlərdə Azərbaycanın inkişaf etmiş elm və mədəniyyət mərkəzlərindən olmuşdur. Marağa rəsədxanası dünyada məşhur idi. – 324.

**205. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 344.

**206. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27

iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 363,381–386,387–397,398–399.

**207. Bibliya** – iudaizmə və xristianlığa aid «müqəddəs» kitablar külliyyatı (e.ə. VIII əsr – eramızın II əsri). Birinci kitab – «Əhd-i ətiq» (Tövrat və s.) qədim vəsiyyətlər, ikinci kitab – «Əhd-i cədid» (İncil və s.) yeni vəsiyyətlər adlanır. Bütünlükdə Bibliya 77 kitabdan ibarətdir. Bunlardan 50-si «Əhq-i ətiq»ə, 27-si «Əhd-i cədid»ə daxildir. «Əhd-i ətiq»ə yəhudilər və xristianlar, «Əhd-i cədid»ə isə yalnız xristianlar etiqad edirlər. – 365.

**208. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 366.

**209. Beynəlxalq Atom Enerjisi Agentliyi** (BAEA) – BMT yanında 1957-ci ildə atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək üçün yaradılmışdır. 100-dən artıq ölkə bu agentliyin üzvüdür. İqamətgahı Vyanadır. –370–373.

**210. Məhəmməd əl-Baradeyi –** (d.1942) – Misir hüquqşünası, beynəlxalq hüquq elmləri doktoru. 1997–2010-cu illərdə Beynəlxalq Atom Enerji Agentliyinin (MAQATE) Baş direktoru olmuşdur. 2005-ci ildə əl-Barade MAQATE ilə birlikdə beynəlxalq Nobel sülh mükafatına layiq görülmüşdür. – 370–373.

**211. Sergey Mironov,** S e r g e y M i x a y l o v i ç (d.1953) – Rusiya dövlət xadimi, mühəndis-geofizik. 1994–2001-ci illərdə Sankt-Peterburq Qanunverici Məclisinin üzvü, 2001-ci ildə Rusiya Federasiyası Federal Şurasının üzvü, 2001-ci ilin dekabrından Federal Şuranın sədridir. – 374–377.

**212. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 374.

**213. Məmmədəmin Rəsulzadə** (1884–1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi və dövlət xadimi, publisist, Müsavat partiyasının yaradıcılarından biri. Onun Azərbaycanın milli-azadlıq hərəkatında müstəsna rolu olmuşdur.1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 381.

**214. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 381.

**215. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917–1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 381.

**216. Həsən bəy Ağayev,** H ə s ə n b ə y M ə ş ə d i H ü s e y n o ğ- l u (1875–1920) – görkəmli ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. – 381.

**217. Nəsib bəy Yusifbəyli,** U s u b b ə y o v N ə s i b b ə y Y u s i f o ğ l u (1881–1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir.

Bakının Qırmızı ordu tərəfindən işğalından və ADP süqutundan sonra N.B. Usubbəyli faciəli surətdə qətlə yetirilir. – 381.

**218. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 388–389.

**219. Varşava Müqaviləsi Təşkilatı –** 1955-ci il mayın 14-də Varşavada sosialist ölkələrini qorumaq, Avropada sülhü və təhlükəsizliyi təmin etmək məqsədilə yaradılmışdı. Bura ADR, Albaniya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya daxil idi. 1991-ci ildə SSRİ süqut etdikdən sonra bu təşkilat da öz-özünə dağılmışdır. – 391.

**220. Vahid Axundov** (d.1942) – iqtisadçı, elmlər doktoru, professor. 1993-2005-ci illərdə Azərbaycan Respublikası İqtisadi siyasət üzrə Dövlət müşaviri olmuşdur. –391.

**221. «ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 394,396.

**222. «Space»** – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, SNN, NTV telekanalları, İHLAS agentliyi ilə əməkdaşlıq edir. – 394,398.

**223. Lider–** Azərbaycanda televiziya kanalı. 2000-ci ildən fəaliyyətə başlamışdır. «Lider Tv Radio–Azərbaycan» MMC-nin nəzdində fəaliyyət göstərən telekanalın əsas meyarı özəl, professional və rəngarəng proqramların hazırlanmasıdır. 2001-ci ildən Lider televiziyası dünya teleməkanına daxil olaraq, dünyaya yayımlanmağa başlamışdır. – 394.

**224. Xoca Əhməd Yasəvi** (1105–1166) – böyük türk şairi. Cığatay dilində süfi şeirinin görkəmli nümayəndəsi. – 402–404.

**225. Türk–Qazax Universiteti,** X o c a Ə h m ə d Y ə s ə v i a d ı n a T ü r k – Q a z a x U n i v e r s i t e t i – Türkiyə və Qazaxıstan respublikalarının uluslararası, dövlət universiteti. Universitetin əsası Qazaxıstan prezidenti Nursultan Nazarbayevin qərarı ilə 1991-ci ildə Türkistan Dövlət Universiteti kimi, Türkistan şəhərində yaradılmışdır. İki il hökumətlərarası danışıqlardan sonra Türkistan şəhərindəki Xoca Əhməd Yəsəvi Türk–Qazax Universiteti kimi fəaliyyət göstərir. Universitetin ilk rektoru Namiq Kamal Zeybək olmuşdur. Universitetdə 4000-i Türkiyədən, 750-si digər türk dövlətlərindən olan tələbə təhsil alır. – 402–404.

**226. Namiq Kamal Zeybək** (d.1944) – hüquqşünas, türk siyasətçisi. Baş nazirin müavini (1993– 2006-cı illər arasında) olmuşdur. Əhməd Yəsəvi adına Türk–Qazax Universitetinin İdarə Heyətinin sədridir. – 402–404.

**227. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 402,403.

**228. Kolumbiya,** K o l u m b i y a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub–qərbində dövlət. Sahəsi 1139 min $km^2$, əhalisi 35,7 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 406.

**229. Uribe Alvaro** (d.1952) – Kolumbiya siyasətçisi. 2002–2010-cu illərdə Kolumbiya prezidenti. – 406.

**230. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min $km^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 407.

**231. Karlo Adzelyo Çampi** (d.1920) – İtaliya siyasi xadimi. 1999–2006-cı illərdə İtaliya Respublikasının prezidenti olmuşdur. – 407.

**232. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lena bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (riksdaq). Paytaxtı Stokholmdur. – 408,409.

**233. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveçin kralı. O həmçinin «Ümumdünya təbiət» fondunun prezidentidir. – 408.

**234. Portuqaliya,** P o r t u q a l i y a  R e s p u b l i k a s ı – Cənub–Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 410.

**235. Jorji Sampayyu** (d.1939) – Portuqaliya siyasi xadimi. 1996–2006-cı illərdə Portuqaliya Respublikasının prezidenti olmuşdur. – 410.

## Şəxsi adlar göstəricisi


**Abbasov Abbas** – 95,96
**Abdulla II** – 300
**Abutalıbov Hacıbala** – 388–389
**Adamkus Valdas** – 91
**Ağayev Həsən bəy** – 381
**Axundov Vahid** – 391
**Altman Hila** – 219–222
**Amaşov Əflatun** – 47–56
**Aslanov Həzi** – 252–255
**Aslanov Həzi (nəvə)** – 252–255
**Atatürk Mustafa Kamal** – 208,403
**Aydoğdiyev Orazgəldi** – 134,145
**Babayev Mirzə** – 293
**Baxçalı Dövlət** – 235–236,237–241
**Bağırov Hüseynqulu** – 222,243
**Beatriks II** – 173
**Behbudov Rəşid** – 42
**Binqəmən Cef** – 62–64
**Biyya Pol** – 302
**Bondevik Maqne** – 262
**Brazauskas Algirdas** – 89,90
**Buş Corc** – 37,68–69,130,181,286,287,376,380,383, 385,389,390,393
**Camei Əhməd** –344
**Çampi Karlo** – 407
**Çaykovski** – 124,125
**Çeyni Dik** – 286,287
**Çoudnuri Bədruddoza** – 23
**Dəmirəl Süleyman** – 402,403
**Dozortseva Janna** – 126
**Dö Sürmen Filip** – 7–15
**Dualde Eduardo** – 299
**Ecevit Bülənd** – 227
**Elizabet II** – 71,405
**Eyadema Qnasinqbe** – 169
**Əbdüləlizadə Əli** – 340
**Əl-Baradeyi Məhəmməd** – 370–373
**Əl-Əsəd Bəşşar** – 106
**Ələsgərov Murtuz** – 133
**Əli Zeynalabidin** – 21
**Əliyev Fərhad** – 344
**Əliyev İlham** – 30,130,218
**Əliyev İrşad** – 344
**Əliyev Məmməd** – 183
**Əliyev Məmmədbağır** – 87–88
**Əliyev Natiq** – 288
**Əliyev Zamiq** – 332
**Əminzadə Möhsün** – 307
**Fedoseyev Vladimir** – 123,124
**Filippov Vladimir** – 65
**Fin Robert** – 35
**Fişer Yoşka** – 219,258

**Fürne Jan** – 243–245
**Gəncəvi Nizami** – 65
**Gil Steinar** – 111
**Hacıyev Rauf** – 42
**Hankok Barri** – 295–298
**Harald V** – 261
**Heyerdal Tur** – 111,112
**Həsənov Abbasəli** – 307,323–332
**Həsənova Alla** – 26–33
**Xamenei Seyid Əli** – 311,318–319
**Xatəmi Məhəmməd** – 16,98,100,101,103,135–136,137,179,304, 308,309–314,321,338,341–342,343–352, 352,353,354
**Xazanov Gennadi** – 125
**Xeyrəddin Qoca** – 183
**Xərrazi Kamal** – 97–103,333–336
**Xoyski Fətəli Xan** – 381
**Xristenko Viktor** – 94–96
**İbrahimov Mənsum** – 332
**İmam Xomeyni** – 317
**İmanova Simara** – 332
**İohann Pavel II** – 108,303,356–369,384
**Kabba Əhməd** – 172
**Kazimirov Vladimir** – 212
**Kərrubi Mehdi** – 320–322
**Kim de Çyun** – 117
**Kinkel Klaus** – 258
**Klinton Bill** – 288
**Kok Vim** – 174
**Kouderi Nikolas** – 295–298
**Köçəryan Pobert** – 11,118,305,392
**Kvasnevski Aleksandr** – 170
**Qama Joze** – 11,12
**Qarayev Əbülfəs** – 32,344
**Qarayev Faiq** – 26–33
**Qəzai Əhəd** – 307
**Qocayev Nizami** – 133
**Qribkov Nikolay** – 7–15
**Qucerotti Klaudio** – 108–110,367–368
**Quliyev Vilayət** – 98,344,392
**Qustav Karl XVI** – 408
**Mahmudova Tamilla** – 76–77,86
**Makalis Meri** – 20
**Marqrete II** – 114
**Martinetti Rafael** – 225
**Mays Dik** – 35
**Mbeki Tabo** – 171
**Mehdiyev Ramiz** – 158,161,165,366
**Merejkin Vladimir** – 86
**Məhəmmədov Məhəmmədəli** – 260
**Məmmədov Fikrət** – 296
**Mənn Stiven** – 286–291
**Məzahiri Təhmasib** – 344
**Mironov Sergey** – 374–377
**Mirtseyin Mir** – 224
**Mkapa Bencamin** – 168
**Muqabe Robert** – 107
**Müşərrəf Pərviz** – 18,120,122,234

**Narçemaşvili Koba** – 194
**Nazarbayev Nursultan** – 134–135,137,139,140
**Nəsrəddin** – 323,324
**Nəvaz xan Həmid** – 120–122
**Niyazi** – 125,126
**Niyazov Saparmurad** – 128,137,139,140,148,180
**Nuyoma Sem** – 22
**O Konnor Cudi** – 247–251
**Obasanco Olisequn** – 233
**Olver Dik** – 378–380
**Özal Turqut** – 403
**Pauell Kolin** – 286,287
**Perina Rudolf** – 7–15
**Persson Yoran** – 409
**Polad Bülbüloğlu** – 344
**Pravda İosif** – 369
**Puşkin Aleksandr** – 65
**Putin Vladimir** – 9,10,66,72–73,82,84,95,128,137,139,140, 179,256,376,380,383,385,389,390,393
**Rasizadə Artur** – 366
**Rasmussen Andres** – 115
**Rau Yohannes** – 175
**Rəsulzadə Məmmədəmin** – 381
**Riçard Hubbard** – 112
**Rflüger Fridbert** – 257–259
**Roqq Jak** – 223
**Ryabov Nikolay** – 65–67,78–86
**Saleh Abdulla** – 263
**Sampayyu Jorji** – 410
**Sezər Əhməd Necdət** – 183–213,227
**Səfəri Mehdi** – 307
**Stefanopulos Konstantinos** – 19
**Sufi Əli** – 307,337–339,344
**Sviridov Georgi** – 123
**Şevardnadze Eduard** – 105,177,213,258,301
**Şerdust Əliəsgər** – 16–17,100
**Şirak Jak** – 12,24–25,231–323,376
**Şolts Markvart** – 295–298
**Şröder Gerhard** – 176
**Şvidkov Mixail** – 123
**Taker Endryü** – 242
**Tevzadze David** – 104–105
**Topçubaşov Əlimərdar bəy** – 381
**Trubnikov Vyaçeslav** – 7–15
**Tsenov Tseno** – 224,225
**Tszyan Tszemin** – 74–75,116,246
**Tusi Nəsirəddin** – 324
**Türk Hikmət** – 227–230
**Uilson Ross** – 118–119,289
**Uribe Alvaro** – 406
**Usubov Ramil** – 194
**Vad Abdulay** – 57
**Valionis Antanas** – 89–91
**Vəzirov Ədalət** – 332
**Voronin Vladimir** – 285
**Vudvord** – 272
**Yasəvi Xoca Əhməd** – 402–404
**Yavuz Sait** – 226

**Ye Fenq** – 295–298
**Yoşka Fişer** – 219,258
**Yucelen Rüştü** – 194
**Yusifbəyli Nəsib bəy** – 381
**Zeybək Namiq Kamal** – 402–404
**Zvasikov Murat** – 292
**Zukkov Mixail** – 219–222

## Coğrafi adlar göstəricisi


**Ağ göl** – 220
**Almaniya** – 175,176,218,219–222,257–259
**Amerika Birləşmiş Ştatları** – 7,12,34–38,62–64,68–69,118–119,130, 181,182,201,206,253,286–291,376,380, 392,393
**Ankara** – 213
**Araz çayı** – 371,372
**Argentina** – 299
**Asiya** – 400
**Aşqabad** – 127–145,178,179,322
**Avropa** – 74,89,91,212,218,257,258,337,351,363, 395, 400
**Bakı** –7,12,18,19,20,21,22,23,24–25,29,35,38, 40,67,69,71,73,75,77,81,90,95,106,107, 114,115,116,117,122,124,145,168,169,170, 173,174,175,176,214,215,216,217,218,219,223,226,227,228,232,233,234,235,242,246, 256,260,261,262,263,292,294,299,300,301, 302,303,330,331,354,362,373,379,395,399, 405,406,407,408,409,410
**Banqladeş** – 23
**Belarus** – 218
**Bəndər Abbas** – 351
**Bolqarıstan** – 218
**Böyük Britaniya** – 71,242,405
**Cənubi Afrika Respublikası** – 171
**Cənubi Qafqaz** – 10,11,190,247,290,291,348,
**Ceyhan** – 198
**Çeçenistan** – 203,376
**Çin** – 74–75,116,246
**Dağıstan** – 96,260
**Dağlıq Qarabağ** – 7,13,14,24,45,59,69,72,101,102,104,118, 121,133,144,184,185,187,191,204,211,236, 238,239,240,258,283,305,309,313,319,321, 334,335,348,360,364,375,376,377,383,389, 393
**Danimarka** – 114,115
**Estoniya** – 218
**Əfqanıstan** – 101,121
**Ərdəbil** – 355
**Fələstin** – 310
**Fransa** – 7,12,24,25,218,231–232,253,376,383
**Gəncə** – 123
**Goranboy** – 165
**Gürcüstan** – 10,63,104–105,177–213,218,301,375
**Həştərxan** – 179
**Hind okeanı** – 337
**Hindistan** – 351
**Hollandiya** – 218
Xəzər dənizi – 62,66,80,94,95,127–148,179,180,185,186, 190,198,199,200,207,242,243,244,245, 286–291,304,307,310,311,312,313,316, 319,322,334,335,338,344,346,347,348, 349,351,354,372,373,377,384,385,391,

393
**İngiltərə** – 218,253
**İnquşetiya** – 292
**İran** – 16–17,97–103,127,128,129,135–136,137,
139,140,180, 290,304–355,396
**İrlandiya** – 20
**İordaniya** – 300
**İspaniya** – 218
**İsrail** – 218
**İsveç** – 408,409
**İsveçrə** – 218
**İtaliya** – 218,407
**Kamerun** – 302
**Kaspiysk** – 256,260
**Kolumbiya** – 406
**Koreya Respublikası** – 117
**Krasnodar** – 133
**Qafqaz** – 12,195,196,197,258,348,351,364,375,376,
390,391
**Qazaxıstan** –62,63,128,134–135,137,139,140,142,290,
291,377,
**Qərbi Avropa** – 76
**Latviya** – 218
**Litva** – 89–91,218
**Macarıstan** – 218
**Makedoniya** – 218
**Marağa** – 324
**Maştağa** – 30
**Moldova** – 218,285
**Moskva** – 82,84,124,144,290,383,385,389,390,391
**Naxçıvan** – 35,402
**Namibiya** – 22
**Niderland** – 173,174
**Nigeriya** – 233
**Norveç** – 111–113,261,262,305
**Nyu-York** – 7,8,12,283
**Pakistan** – 18,120–122,234
**Paris** – 292,395
**Polşa** – 170,218
**Portuqaliya** – 410
**Praqa** – 305,377
**Reykyavik** – 202,211
**Rumıniya** – 218
**Rusiya** – 7,10,12,62,63,65–67,72–73,78–86,87–88,
94–96,123–126,133,139,140,142,143–144,
179,189,206,207,218,256,290,291,328,
374–377,380,391,392,393
**Sankt-Peterburq** – 65,66,94,128,144,375,393
**Saratov (RF-da vilayət)** – 96
**Seneqal** – 57
**Slovakiya** – 218
**Sumqayıt** – 29,124
**Suriya** – 106
**Syerra Leone** – 172
**Tacikistan** – 130
**Tanzaniya** – 168
**Tbilisi** – 203
**Tehran** – 121,136,179,307–308,309–252,355

**Təbriz** – 336,355
**Toqo** – 169
**Trabzon** – 177–213,227,229
**Tunis** – 21
**Türkiyə** – 63,177–213,218,226,227–230,235–236, 237–241,393, 402–404
**Türkmənistan** – 62,127–148,180,290,291
**Ukrayna** – 218
**Vaşinqton** – 283,287
**Vatikan** – 108–110,356–369
**Vyana** – 12,370
**Yerevan** – 119
**Yəmən** – 263
**Yunanıstan** – 19,212,218
**Zimbabve** – 107

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 30.
Uçot vərəqi 30,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
«Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.